MƏKTƏBƏ HAZIRLAŞIRIQ

# METODİK VƏSAİT

3-cü və 4-cü kitablar üzrə

II hissə



LALƏZAR CƏFƏROVA
KAMRAN SALAYEV
ÜLKƏR NURULLAYEVA
ŞƏHLA QULİYEVA

MƏKTƏBƏ HAZIRLAŞIRIQ

# METODİK VƏSAİT

3-cü və 4-cü kitablar üzrə




**Tədris Resursları Mərkəzi**

Nəşrlə bağlı irad və təklifləri
artitrm2017@gmail.com
və derslik@edu.gov.az
elektron ünvanlarına
göndərə bilərsiniz.

# MÜNDƏRİCAT


1. Giriş ........................................................................................3

MƏŞĞƏLƏLƏR ÜZRƏ TÖVSİYƏLƏR (III KİTAB) ..................................5
Mövzu 17. Vətən ....................................................................5
Mövzu 18. Paytaxt ..................................................................12
Mövzu 19. Adətlər....................................................................20
Mövzu 20. Bayramlar ..............................................................28
Mövzu 21. Peşələr ....................................................................35
Mövzu 22. Nəqliyyat ................................................................42
Mövzu 23. Yol hərəkəti ............................................................50
Mövzu 24. İdman növləri ..........................................................57

MƏŞĞƏLƏLƏR ÜZRƏ TÖVSİYƏLƏR (IV KİTAB) ................................64
Mövzu 25. Davranış ..................................................................64
Mövzu 26. Dostluq ....................................................................71
Mövzu 27. Yardım ......................................................................79
Mövzu 28. Məsuliyyət................................................................86
Mövzu 29. Təhlükəli əşyalar ......................................................92
Mövzu 30. Təhlükəsiz davranış ..................................................99

## GİRİŞ

Birinci kitabda qeyd edildiyi kimi hər bir aylıq mövzu 4 alt mövzunu əhatə edir. Aşağıdakı cədvəldə növbəti həftələrdə hər məşğələdə keçirilən mövzular təqdim olunur.

### III KİTAB

| Məşğələlərin növləri / Mövzular | Ətraf aləmlə tanışlıq (*tanıyaq*) | Savad təliminə hazırlıq və nitq inkişafi (*yazaq və oxuyaq*) | Bədii təfəkkürün inkişafi (*dinlə və danış*) | Məntiqi və riyazi təfəkkürün inkişafı (*sayaq*) | Təsviri fəaliyyət (*yaradaq*) | Musiqi | Fiziki mədəniyyət |
|---|---|---|---|---|---|---|---|
| 17. Vətən | Azərbaycan | **G g, Ğ ğ** səsi və hərfi | Doğma bağ | Böyük-kiçik, uzun-qısa, hündür-alçaq. | Bayrağımız | Vətən | Azərbaycan bayrağı |
| 18. Paytaxt | Vətənimizin paytaxtı | **P p** səsi və hərfi | Paytaxtda qonaq | Geniş-dar, qalın-nazik, ağır-yüngül | Qız qalasının rənglənməsi | Şəhərimiz | Mənim vətənim, mənim şəhərim, mənim evim |
| 19. Adətlər | Adət-ənənələrimiz | **K k** səsi və hərfi | Adətlərimiz | Dairə, üçbucaq, dördbucaq | Araqçın, buta düzəltmək | Əziz bayram | Əkil-bəkil quş idi. |
| 20. Bayramlar | Bayramlar | **R r** səsi və hərfi | Bayram hədiyyəsi | Kvadrat, üstündə, altında | Açıqcanın düzəldilməsi | Anamı incitmirəm | Qış əyləncələri |
| 21.Peşələr | Peşələr | **Q q** səsi və hərfi | Yaşar sənət seçir | İçində-xaricində, arxasında-önündə | Aşpaz və həkim papağı düzəldək | Mən kiməm? | Xilasedicilər |
| 22. Nəqliyyat | Nəqliyyat növləri | **H h** səsi və hərfi | İki gönbul | Sağ-sol | Yol çəkək, kağızdan qayıq düzəldək. | Qatar | Təyyarələr |
| 23. Yol hərəkəti | Yol hərəkəti qaydaları | **X x** səsi və hərfi | Yol hərəkəti qaydaları | Formasına və rənginə görə əşyaları müəyyənləşdirmək | İşıqforun və yol nişanının düzəldilməsi | Yol | Yol hərəkəti qaydaları |
| 24. İdman növləri | İdman növləri | **V v** səsi və hərfi | Kirpi və dovşan | Rəqəmlərə uyğun sayda dairənin rənglənməsi | Olimpiya halqalarının və idman köynəyinin düzəldilməsi | İdman | Idmani sevirik biz. |

# IV KİTAB

| Məşğələ-lərin növləri / Mövzular | **Ətraf aləmlə tanışlıq** ***(tanıyaq)*** | **Savad təliminə hazırlıq və nitq inkişafı** ***(yazaq və oxuyaq)*** | **Bədii təfəkkürün inkişafı** ***(dinlə və danış)*** | **Məntiqi və riyazi təfəkkürün inkişafı** ***(sayaq)*** | **Təsviri fəaliyyət** ***(yaradaq)*** | **Musiqi** | **Fiziki mədəniyyət** |
|---|---|---|---|---|---|---|---|
| 25. Davra-nış | Sehirli söz | **Z z** səsi və hərfi | Zəki və Z2 | Toplama, əlavə etmə | Nişanla-rın düzəl-dilməsi | Yaxşı otur, yaxşı dur. | Siçan-pişik |
| 26. Dostluq | Xeyir-vahlıq, dostluq | **J j** səsi və hərfi | Mən də sizinlə oynaya bilərəmmi? | Üstəgəl, bərabər | Nişanla-rın düzəl-dilməsi | Bizim həyat | Qurd və dovşanlar |
| 27. Yardım | Kömək etmək borcu-muzdur! | **S-Ş-C-Ç-Z-J** hərf-lərinin tək-rarı üzrə iş | Yardim zənciri | Toplama əməli | Əl-ələ tutmuş insanlar, “Dost-luq” hal-qaları | Növbət-çiyəm | Dovşanlar və itlər |
| 28.Məsu-liyyət | Əməksev ər və məsuliy-yətli ol-maq üçün nə etmək lazımdır? | **H-X-G-Ğ-Q** hərfləri nin təkrarı üzrə iş | “Mişar” şeiri | Azaltmaq, çıxmaq | Nişanla-rın düzəl-dilməsi | Məktəbə yazdırsana | Toxunma |
| 29. Təhlü-kəli əşyalar | Təhlükəli əşyalar | **A-Ə-E, O-Ö, U-Ü** hərflərinin təkrarı üzrə iş | Piknik | Çıx və bərabər işarələri | “Ehtiyatlı ol!” ni-şanlarının düzəldil-məsi | Mişar | Dairədən qaç |
| 30. Təhlü-kəsizlik | Gündəlik həyatı-mızdakı təhlükə-lər | **P-B, D-T** hərflərinin təkrarı üzrə iş | Kim zıng edib? | Azalan, çıxılan, fərq | Hidrant və təcili yardım maşınının düzəldil-məsi | Şanlı igid ordumuz. | Kiçik evcik |

# MƏŞĞƏLƏLƏR ÜZRƏ TÖVSİYƏLƏR (III KİTAB)

| | | |
|---|---|---|
| | | **17-ci həftə \| VƏTƏN** |
| **Məşğələ 1. ƏTRAF ALƏMLƏ TANIŞLIQ**<br>**Mövzu: VƏTƏNİM AZƏRBAYCAN!** | | **Standart:** 2.1.1.<br>**İnteqrasiya:** 2.2.2; 2.2.6; 1.1.4. |
| **Məqsəd:** | • Vətəni haqqında danışır.<br>• Dövlət rəmzlərini sadalayır.<br>• Vətən haqqında məlumat əsasında suallara cavab verir. | |
| **İş üsulları:** | Əqli hücum, müzakirə, suallar. | |
| **İş forması:** | Kollektiv və fərdi iş. | |
| **Resurslar:** | Azərbaycanın xəritəsi, dövlət rəmzləri təsvir olunmuş tablo, himnin audioyazısı, akvarel boya | |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M:** — Uşaqlar, kitabın yuxarısındakı şəkillərə baxaq. Tülkü nə edir? *(Uşaqların cavabları)* Bəli, tülkü binokl ilə ətrafa baxır. Tülkü baxdığı yerlərdə nə təsvir olunub? Sizcə bura haradır? Nədən bildiniz? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, bu gün biz sizinlə vətənimizi səyahətə çıxacağıq. Hazırsınızmı? " *(Uşaqların cavabları)*

Müəllim uşaqların diqqətini ölkəmizin təbiətini əks etdirən illüstrasiyalar təsvir olunmuş Azərbaycanın xəritəsinə cəlb edir: "Biz sizinlə gözəl təbiəti olan ölkədə yaşayırıq. Bizim yaşadığımız ölkə necə adlanır? *(Uşaqların cavabları)* İndi kitabınızda təsvir olunmuş xəritəyə baxın. Təsvirdə nə görürsünüz? *(Uşaqların cavabları)* Bəli, dağlar, tarixi abidələr, heyvanlar, meyvələr təsvir olunub. Bəli, burada bizim ölkəmizimiz-Azərbaycan təsvir olunub. Azərbaycan bizim vətənimizdir. Azərbaycanda yaşayanlar isə azərbaycanlılar adlanır. Vətən – insanın anadan olduğu, dədə-babaların, qohum-əqrəbalarının yaşadığı, soykökü ilə bağlı olduğu ölkədir. Vətən sadəcə müəyyən sərhədləri olan coğrafi bir məkan deyildir. Vətən xüsusi sevgi və hörmətə layiq müqəddəs torpaqdır. Hər kəsə öz vətəni əzizdir. Biz vətənin suyunu içir, çörəyini yeyir, havasını uduruq. Evimiz, kəndimiz, obamız bu torpaqlardadır. Dünyanın harasında yaşamasından asılı olmayaraq hər birimiz Vətənimizi sevməliyik. Dədə babalarımızın qoruyub, saxlayıb bizə miras qoyduğu bu müqəddəs torpağa sahib çıxıb, onu sevib qorumalıyıq! Vətənimiz gözəl, yeraltı yerüstü sərvətlərlə zəngin təbiətə malikdir. Vətənimizdə çoxlu tarixi abidələr var. Qız qalası, Nizaminin məqbərəsi, şirvanşahlar sarayı bu tarixi abidələrdəndir. Qobustan qayalıqlarında olan rəsmlər ölkəmizin qədimliyindən xəbər verir.

Hər bir ölkənin öz bayrağı, gerbi və himni var. Onlar dövlət rəmzləri adlanır. Azərbaycan Respublikasının dövlət bayrağı üç zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir. Mavi rəng – Azərbaycan xalqının türk mənşəli olmasını, qırmızı rəng – müasirliyi, yaşıl rəng – islam sivilizasiyasına mənsubluğu ifadə edir. Qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir. Azərbaycan Respublikasının Dövlət gerbi Azərbaycan dövlətinin müstəqilliyi rəmzidir. Dövlət gerbi palıd budaqlarından və sünbüllərdən ibarət qövsün üzərində yerləşən qalxan təsvirindən ibarətdir. Qalxanın üstündə Azərbaycan Respublikasının Dövlət bayrağının rəngləri fonunda səkkizguşəli ulduz, ulduzun mərkəzində alov təsviri vardır. Alov ölkəmizin odlar yurdu olmasını bildirir. Himnin musiqisi Ü. Hacıbəyovun, sözləri isə Ə.Cavadındır".

**M:** "Birinci tapşırığa nəzər yetirək. Siz dediniz ki, şəkildə tarixi abidələr, meyvələr, heyvanlar təsvir olunub. Bəli, burada bölgələrə xas təbiət təsvir olunub. Deyə bilərsiniz, qız qalası hansı şəhərdə yerləşir? *(Uşaqların cavabları)* Bəs, Nizaminin məqbərəsi hansı şəhərdədir? (Gəncədə) Nar bayramı hansı şəhərdə keçirilir? (Göyçayda) Bəli, Göyçay narı, Bakı nefti, Balakən qoz-fındığı, Lənkəran sitrus bitkiləri, Tovuz, Şəmkir üzümü ilə məşhurdur. Bəs, Azərbaycan hansı dənizin sahilində yerləşir? (Xəzər dənizinin) *(Uşaqların cavabları)*

**II.** Müəllim uşaqlara suallarla müraciət edir:-Azərbaycanın hansı məşhur yerlərini tanıyırsan?– Səncə Azərbaycanın ən maraqlı yeri haradır?– Sən özün yaşadığın yer haqqında nə danışa bilərsən? *(Uşaqların cavabları)*

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III.** M: "Şəkildə bayraq təsvir olunmuşdur. Bayrağın rənglərini sadalayın. Nümunəyə əsasən bayrağı rəngləyin. Aşağıda hansı rəng olacaq? Bəs yuxarıda hansı rəng olmalıdır? *(Uşaqların cavabları)* İndi isə işə başlayın.

**IV.** M: "Şəkildə gerb təsvir olunub. Ona diqqətlə baxıb, hissələrinin yerini müəyyən edin. Verilən şəkilləri gerbin uyğun hissələri ilə birləşdirin.

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| Məşğələ 2. BƏDİİ TƏFƏKKÜRÜN İNKİŞAFI<br>Mövzu: DOĞMA BAĞ | Standart: 2.2.2; 2.2.1.<br>İnteqrasiya: 3.1.9. |
|---|---|
| **Məqsəd:** | • Bədii nümunə əsasında danışır.<br>• Dinlədiyi fikirləri anladığını nümayiş etdirir.<br>• Bədii nümunənin məzmununa münasibət bildirir. |
| **İş üsulları:** | Müzakirə, nəqletmə, suallar. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Hekayənin mətni, şəkillər. |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M:** "Uşaqlar, şəkillərə diqqətlə baxın. Şəkildə nə təsvir olunub? Onları adlandırın. Sizcə, burada nədən söhbət gedir?" *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Mən indi sizə "Doğma bağ" hekayəsini söyləyəcəyəm. Şəkillərə baxa-baxa hekayəni dinləyin. Hər şəkil mətnin bir hissəsini təsvir edir. Mən deyəndə dinlədiyiniz hissəyə uyğun şəkli tapıb altındakı dairəni rəngləyin".

1

"Gözəl bir yaz səhəri idi. Gültəkin anası ilə yaxınlıqdakı bağa getmişdi. Onlar skamyada əyləşib ətrafa tamaşa edirdilər. Günəş parıldayır, aləmə nur saçırdı. Rəngbərəng kəpənəklər havada uçuşur, güldən-çiçəyə qonurdular".

**M:** Dinlədiyiniz hissəni əks etdirən şəkli qeyd edin". Müəllim oxumağa davam edir.

2

"Gül-çiçəyin ətri hər tərəfə yayılmışdı. Gültəkin güllərə yaxınlaşdı. Onlara doğru əyilib dərindən nəfəs aldı. Öz-özünə dedi:

– Ah, bu gülün nə gözəl ətri var?

Gültəkin gülü bir neçə dəfə iylədi. Ləçəklərini sığallayıb pıçıldadı:

– Yaxşısı budur mən bu gülü dərim, evə aparım. Otağımda yazı masasının üstünə qoyaram. Tez-tez iyləyərəm".

**M:** "Uşaqlar, mənim indi oxuduğum hissəni müəyyənləşdirib işarə edin".

Müəllim oxumağa davam edir.

3

"Gültəkin əlini uzadıb gülün saplağını qoparmaq istəyirdi ki, gül dilə gəldi:

– Gözəl qız, əl saxla. Məni dərmə. Bu çəmənlik mənim evimdir. Kökümbu torpaqdan nəfəs alır. Bura mənim üçün ən doğma yerdir. Burada mənim doğmalarım yaşayır. Məni onlardan ayırma.

Gültəkin təkidlə dedi:

– Mən səni ən gözəl güldana qoyaram. İstəyirəm masamın üstündə olasan, səni tez-tez iyləyim".

**M:** "Uşaqlar, sizcə çiçək Gültəkinə niyə yalvarırdı? İndi isə dinlədiyiniz hissəyə uyğun şəkli tapıb, işarə edin".

Müəllim oxumağa davam edir.

4

"Gül Gültəkinə dedi:

– Gözəl qız, gəl inad etmə. Mən orada üç günə quruyaram. Rəngim solar, ləçəklərim tökülər. Nə gözəlliyim, nə ətrim qalar. Burada isə, doğmalarımın arasında yayın sonuna qədər yaşayaram. Sən hər gün bura gələ bilərsən. Mənə tamaşa edər, ətrimi hiss edərsən".

**M:** "Uşaqlar, dinlədiyiniz hissəyə uyğun şəkli tapıb işarə edin".

—İdman dəqiqəsi—

Müəllim oxumağa davam edir.

5

"Gültəkin çiçəyi diqqətlə dinlədi. Onun sözlərini anlamağa çalışdı. Çevrilib skamyada əyləşən anasına baxdı. Öz evini, doğmalarını düşünərək dedi:

– Əlbəttə, dünyada ən gözəl yer insanın doğmalarının yanıdır, öz evidir, vətənidir".

**M:** "Uşaqlar, dinlədiyiniz hissəyə uyğun şəkli tapıb işarə edin".

Müəllim oxumağa davam edir.

6

"O gündən sonra Gültəkin tez-tez həmin bağa gəlirdi. Gözü sevimli çiçəyini axtarırdı. Onu yerində görüb

sevinirdi. Oxşayıb əzizləyir, qoxulayırdı. Həmin bağın bağbanı ilə də tanış olmuşdu. Bağbanın köməyliyi ilə güllərə su verir, onlara qulluq edirdi".

**II.** Müəllim suallarla uşaqlara müraciət edir:

– Gültəkin niyə çiçəyi dərmək istədi? Çiçək niyə bağda qalmaq istədi? Sən çiçəyi dərərdinmi? (*yardımçı sual: "Hərə bir çiçək qoparsa, nə olar (Uşaqların cavabları)*

**Tətbiqetmə mərhələsi**

**III. M:** "Şəkillərdə nə təsvir olunub? Hər şəklin ətrafında yazılmış açar sözü yadınızda saxlayın və verilmiş suala ətraflı cavab verin".

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | | |
|---|---|---|
| | | **17-ci həftə \| VƏTƏN** |
| **Məşğələ 3–4. SAVAD TƏLİMİNƏ HAZIRLIQ VƏ NİTQ İNKİŞAFI**<br>**Mövzu: Gg, Ğğ SƏSİ VƏ HƏRFİ** | | **Standart:** 2.2.4.<br>**İnteqrasiya:** 1.1.4. |
| **Məqsəd:** | • Gg,Ğğ səsini və hərfini fərqləndirir.<br>• G və Ğ səsinin işləndiyi sözlər söyləyir.<br>• Xətt üzrə Gg və Ğğ hərfini yazır. | |
| **İş üsulları:** | Əqli hücum, suallar, müzakirə. | |
| **İş forması:** | Kollektiv və fərdi iş. | |
| **Resurslar:** | Şəkillər, karandaşlar, marker, lövhə, G və Ğ hərfi. | |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** "Səhifənin yuxarısındakı şəklə baxaq. Şəkildə nə təsvir olunub? Tülkü nə edir? "Gəmi" sözü hansı səslə başlayır? *(Uşaqların cavabları)*".

**Dərketmə**

**M:** "Uşaqlar, sizə T.Mütəllibovun "Günəş" şeirini söyləyəcəyəm. Qulaq asın!

*Günəş, mehriban günəş,*
*Yolumuzda yan günəş!*
*Borcludur torpaq sənə,*
*Gül sənə, yarpaq sənə.*

Uşaqlar, günəş sözü hansı səs ilə başlanır? (Uşaqların cavabları) Gəlin, bu səsi birlikdə tələffüz edək. (Uşaqlar tələffüz edirlər)".

**M:** "G hərfindən də digər hərflər kimi sözləri yazanda istifadə olunur. Uşaqlar, sarı çərçivəyə diqqətlə baxaq. Burada böyük və kiçik G hərfləri təsvir olunub Eşitdiyimiz səs adlanır. **G**-nı yazarkən biz onu görürük. Bu isə hərf adlanır". *(Müəllim bunu başqa nümunələrlə izah edir)*

**I. M:** "Burada **G** hərfi təsvir olunub. Hərfin kənarında şəkillər təsvir olunub. Sol tərəfdə yuxarıdakı şəkildə nə təsvir olunduğunu söyləyin və bu sözün hansı səslə başlandığına diqqət edin. Bəs sağ tərəfdə aşağıdakı şəkildə nə təsvir olunub? *(Uşaqların cavabları)* (Şəkillərin hər biri üzrə bu qayda ilə iş aparılır.) Sözlərdən hansı **G** səsi ilə başlayır? *(Uşaqların cavabları)* Sözün böyük və ya kiçik hərflə yazılması sözün mənasını dəyişmir."

**G** hərfinin rənglənməsi.

**II.** Müəllim lövhədə **G** hərfini izah edə-edə yazır. 1–2 uşaq da lövhədə tapşırığı yerinə yetirir. Digər uşaqlar öz kitablarında xətt üzrə **G** hərfini çəkir.

**M:** "Uşaqlar, **G** hərfinin ətrafında şəkillər təsvir olunub. Hərfin sol tərəfində hansı şəkillər təsvir olunub? Onları adlandırın. **G** səsi ilə başlayan şəkiklləri **G** hərfi ilə birləşdirin. Hərfin sağ tərəfində hansı şəkillər təsvir olunduğunu söyləyin. Söz **G** səsi ilə başlayırsa, həmin şəkli **G** hərfi ilə birləşdirin

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**M:** "Uşaqlar, bizim çoxlu hərflərimiz var. Onların içərisindən G hərfini seçin və lövhəyə yapəşdırın."

**III. M:** "Uşaqlar, kitabın yuxarısında xanalarda hərflər verilib. Sözdəki hərfləri və yerləşdiyi xanaları nümunəyə uyğun rəngləyin. Sonra sözü oxuyun".

**IV. M: G** hərfi xətt üzrə verilib. Hərfləri kənara çıxmadan xətt üzrə çəkin".

**V. M:** “İndi isə kiçik **g** hərfi ilə tanış olun. Hərfləri xətt üzrə çəkin. Çəkərkən, oxun istiqamətinə fikir verin”.

**VI. M:** “Şəkildə xətt üzrə hərflər verilib. Hərfləri xətt üzrə çəkin, sonra isə sözləri oxuyun. Sözün yanında isə şəkillər verilib. Sözləri uyğun şəkillərlə birləşdirin”. Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya M:** “Səhifənin yuxarısındakı şəklə baxaq. Şəkildə nə təsvir olunub? Tülkü nə edir? Onun yanında hansı quş təsvir olunub? *(Uşaqların cavabları)*”. Qağayı sözünü tələffüz edirəm. Ğ səsini sözün hansı hissəsində eşidirsiniz? (Uşaqların cavabları) “Ğ hərfindən də digər hərflər kimi sözləri yazanda istifadə olunur. Uşaqlar, sarı qutuya diqqətlə baxaq. Burada böyük və kiçik Ğ (ğ) hərfi təsvir olunub”.

**I. M: –** Burada böyük Ğ hərfi təsvir olunub. Ğ hərfi hansı hərfə oxşayır? Bəs fərqi nədədir? *(Uşaqların cavabları)* Hərfin qarşısında şəkillər təsvir olunub. Hər şəkildə nə təsvir olunduğunu söylə və bu sözün tərkibində “Ğ” səsinin olduğuna diqqət edin. Ğ səsi heç vaxt sözün əvvəlində gəlmir. O, həmişə sözün ortasında və sonunda olur: məsələn, nağara, dağ, bağ, tağ, soğan və s. Gəlin, birlikdə Ğ səsini bir daha tələffüz edək. Ğ *hərfinin rənglənməsi.*

**II. M:** “Uşaqlar, biz sizinlə keçən məşğələmizdə **G(g)** hərfini öyrənmişdik. Dediniz ki, Ğ hərfi üstündəki xətlə G hərfindən fərqlənir. Bu tapşırıqda xanalarda böyük və kiçik G hərfi, həm də böyük və kiçik Ğ hərfi verilib. Hərflərin yerləşdiyi xananı nümunəyə uyğun rəngləyin”. Müəllim lövhədə izah edə-edə Ğg hərfini yazır. Sonra bir neçə uşağa tapşırığı yerinə yetirməyi təklif edir.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:** “Kənara çıxmadan G və Ğ hərflərini xətt üzrə çəkin. Çəkərkən, oxun istiqamətinə diqqət edin. Şəklin ətrafında təsvir olunmuş şəkilləri bir-bir söyləyin. Sözün tərkibində “G” və ya “Ğ” səsin olduğunu müəyyən edin və həmin şəkli uyğun hərflə birləşdirin”.

Lövhədə hərfin möhkəmləndirilməsi üzrə iş aparılır. Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**17-ci həftə | VƏTƏN**

**Məşğələ 5–6. RİYAZİ VƏ MƏNTİQİ TƏFƏKKÜRÜN İNKİŞAFI**
**Mövzu: KİÇİK - BÖYÜK, UZUN-QISA, HÜNDÜR-ALÇAQ ANLAYIŞLARI**

**Standart:** 2.3.2.
**İnteqrasiya:** 2.2.2; 1.1.4.

| | |
|---|---|
| **Məqsəd:** | • Əşyaları ölçüsünə görə düzgün müəyyən edir.<br>• Ölçüləri adlandırır. |
| **İş üsulları:** | Əqli hücum, müzakirə, suallar. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Şəkillər, 1 böyük və 1 kiçik evcik, böyük və kiçik dovşanlar, böyük və kiçik toplar. |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** – Uşaqlar, kitabınızın yuxarısındakı şəklə diqqət yetirin. Orada nə təsvir olunub? *(Uşaqların cavabları)* Bəli, tülkü hər əlində tort tutub.Tortların ölçüsü necədir? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** “Düzdür, uşaqlar! Tortun biri böyük, o biri isə kiçikdir. Uşaqlar, Uşaqlar, birinci tapşırığa diqqət edək. Orada çərçivələrdə şəkillər təsvir olunub. Hər çərçivədə təsvir olunmuş şəkilləri adlandırın. Sol tərəfdəki birinci çərçivədə nə təsvir olunub? Şəkillərin ölçüsü necədir? *(Uşaqların cavabları)*. Qırmızı çərçivələrdə kiçik olanları, yaşıl çərçivələrdə isə böyük olanları haşiyəyə alın. ” Altı çərçivənin hamısı üzrə bu qayda ilə iş aparılır.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** “İkinci tapşırığa baxaq. Burada nə təsvir olunub? Bəli, it, fil və siçan təsvir olunub. Ən böyük heyvan hansıdır? Bəs ən kiçik heyvan hansıdır? *(Uşaqların cavabları)* Ən kiçik olanı qırmızı, ən böyüyü isə yaşıl karandaşla haşiyəyə alın”

**M: “**Uşaqlar, baxın, burada iki evcik var. Burada dovşanlar yaşayır. Bu evcik necədir? (böyük) Bəs bu? (kiçik) Bəs bu dovşan necədir? (böyük) O hansı evdə yaşamalıdır? (Böyük evdə) Nə üçün? *(Uşaqların cavabları)*

Kiçik dovşanlar üzrə də bu qayda ilə iş aparılır.

**M: "**Uşaqlar, böyük və kiçik dovşanlar top ilə oynayırdılar. Amma toplarını itirdilər. Mən onları tapmışam. Sizcə, böyük dovşanlar hansı topla oynayacaqlar? (böyük topla) Bəs kiçik dovşanlar hansı topla oynayacaqlar? (kiçik topla) İndi isə deyin, böyük topla hansı dovşanlar oynayacaq? Bəs kiçik topla hansı dovşanlar oynayacaq? Göstərin"**.**

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

**M: "**Uşaqlar, şəklə diqqətlə baxın. Şəkildə nə təsvir olunub? *(Uşaqların fikirləri dinlənilir).*

**Dərketmə**

**I. M:** "Birinci tapşırıqda iki şarf təsvir olunub. Biri uzun, digəri isə qısadır. Uzun şarfı göstərin. İndi isə qısa şarfı göstərin. Uzun şərfi sarı, qısa şərfi mavi karandaşla rəngləyin". Tapşırıqları yerinə yetirərkən uşaqların fikirlərini əsaslandırmalarına nail olmaq lazımdır.

**II. M:** "Şəkildə 3 karandaş təsvir olunub. Ən uzun karandaş hansıdır? O nə rəngdədir? Ən kiçik karandaşı göstərin və rənbgini söyləyin. Hər karandaşın yanında dama verilib. Ən uzun karandaşı tapın və həmin damaya "1" rəqəmini yazın. Ən qısa karandaşın qarşısındakı damaya isə "3" rəqəmini yazın. Bəs böyükdən kiçik, kiçikdən böyük karandaşın qarşısındakı damaya hansı rəqəm yazılmalıdır?".

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:** "Şəkildə qatarlar təsvir olunub. Hər bir qatarın vaqonlarını sayın. Vaqonların sayına görə uzun və qısa qatarları müəyyən edin. Ən uzun qatarı və ən qısa qatarı tapın və qarşılarında olan damalara vaqonların sayını yazın".

**IV. M:** "Uşaqlar, böyük-kiçik və uzun-qısadan başqa bir də hündür-alçaq olan əşyalar vardır. Siz hündür olana aid nəyi söyləyə bilərsiniz? Bəs alçaq olana aid nəyi göstərə bilərsiniz? *(Uşaqların cavabları)* Qırmızı çərçivədə alçaq olanı, yaşıl çərçivələrdə isə hündür olanı haşiyəyə alın".

**V. M:** "Bu tapşırıqda müxtəlif cür binalar təsvir olunub. Ən alçaq və ən hündür binaları tapın və hər binanın alındakı damada mərtəbələrin sayını yazın."

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**17-ci həftə | VƏTƏN**

| Məşğələ 7–8. TƏSVİRİ FƏALİYYƏT<br>Mövzu: BAYRAĞIMIZ, AZƏRBAYCANIN XƏRİTƏSİ | Standart: 3.1.1.; 3.1.4.<br>İnteqrasiya: 1.1.4; 2.2.6. |
|---|---|
| **Məqsəd:** | • Yapma bacarıqları nümayiş etdirir.<br>• Rəsmetmə bacarıqları nümayiş etdirir. |
| **İş üsulları:** | Əqli hücum, suallar, söz assosiasiyası, müzakirə. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Şəkillər, plastilin, rəngli boyalar, nümunə xəritə. |

**1-ci məşğələ**

**Motivasiya**

**M: –** Uşaqlar, bizim vətənimiz necə adlanır? Biz sizinlə dövlətimizin atributlarını öyrənmişik. Dövlətimizin dövlət atributlarını sadalayın. *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, bəli, bayraq, gerb və himn dövlətimizin atributlarıdır. Bayrağımızda neçə rəng var? Bayrağımızda olan rəngləri sadalayın. (*Yerinə yetirilir)* Kitabınızda rəngsiz bayraq təsvir olunub. Siz həmin bayrağı rəngləyəcəksiniz. İndi siz rənglərin yerləşmə yerini müəyyənləşdirəcəksiniz. Ən aşağıdakı zolaqda hansı rəng olmalıdır? Bəs ən üstdəki zolaqda hansı rəng olmalıdır?" *(Uşaqların cavabları)*

–İdman dəqiqəsi–

**Tətbiqetmə**

**II. M:** "Uşaqlar, biz sizinlə bir çox hərfləri öyrənmişik. Hansı hərfləri öyrənmişik? *(Uşaqların cavabları)*

O hərfləri siz karandaşla yaza bilirsiniz. İndi isə ortasında, sonunda G səsi olan sözlər söyləyin. (*Uşaqların cavabları)* İndi isə **bağ** sözünü plastilindən düzəldin. Bu zaman bayraqda olduğu kimi üç rəngdən istifadə edin".

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

**M: –** Vəsaitin yuxarısındakı şəklə baxın. Tülkü nə edir? O, velosipedə nə üçün minib? (Səyahətə çıxmaq üçün) *(Uşaqların cavabları)* Bəli, tülkü Azərbaycanı gəzmək üçün səyahətə çıxıb. *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, birinci tapşırıqda xəritə təsvir olunub. Amma o rənglənməyib. İndi mən sizə izah edəcəyəm və ondan sonra siz nümunə əsasında xəritəni rəngləyəcəksiniz". *(Müəllim bir nümunəni uşaqlara izah edə-edə rəngləyir və sonra uşaqlara yerinə yetirməyi təklif edir.)* Bitirdikdən sonra hər bir uşaq öz işi əsasında məlumat verir.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** "Vəsaitdə nə təsvir olunub? (gürzə) İndi isə gürzəni çəkin. (*Uşaqlar yerinə yetirirlər*) Uşaqlar, gürzə sözü hansı səslə başlayır? (g səsi ilə) Bəs çəkdiyiniz şəkil hansı hərfə oxşadı? (g hərfinə) G səsi ilə sözlər söyləyin"

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | |
|---|---|
| | **17-ci həftə \| VƏTƏN** |
| **Məşğələ 9–10. FİZİKİ MƏDƏNİYYƏT**<br>**Mövzu:** AZƏRBAYCAN BAYRAĞI | **Standart:** 1.1.1.<br>**İnteqrasiya:** 4.1.1.; 4.2.2. |

| | |
|---|---|
| **Məqsəd:** | • Sərbəst hərəkətlər göstərir.<br>• Hərəki fəallıq nümayiş etdirir.<br>• Fəaliyyətini qaydalara əsasən tənzimləyir. |
| **İş üsulları:** | Müzakirə, süjetli-rollu oyunlar. |
| **İş forması:** | Kollektiv, qruplarla və fərdi iş. |
| **Resurslar:** | Uşaqların sayı qədər bayraqlar. |

**1 və 2-ci məşğələlər**

**I. İsinmə hərəkətləri** (5 dəq.)
– bir-birinin ardınca adi yeriş və qaçış;
– qollar yuxarıda, biləkləri tərpətməklə, pəncə üstə yeriş;
– qollar yanlarda biləkləri tərpətməklə, daban üstə yeriş;
– əlləri yuxarı qaldıraraq nəfəs almaq və nəfəsi buraxmaq (4–5 dəfə).

**II. Ümuminkişafetdirici hərəkətlər** (20 dəq.)

**1. "Bayraqları yuxarı qaldıraq "**
*ç.v.* – Ayaqlar bir yerdə, bayraqlarla əllər aşağıda.
*1 sayında* əldə bayraqları yuxarı qaldırmaq, sağ ayağı bir addım arxaya qoymaq;
*2 sayında* ç.v.-nə qayıtmaq.
*3 sayında* əldə bayraqları yuxarı qaldırmaq, sol ayağı bir addım arxaya qoymaq;
*4 sayında* ç.v.-nə qayıtmaq. (4–5 dəfə).

**2. "Bayraqlarla sağa-sola dönək"**
*ç.v.* – Ayaqlar bir yerdə, bayraqlarla əllər aşağıda.
*1 sayında* əldə bayraqları yanlardan yuxarı qaldırmaq və sağa əyilmək;
*2 sayında* ç.v.-nə qayıtmaq.
*3 sayında* əldə bayraqları yanlardan yuxarı qaldırmaq və sola əyilmək;
*4 sayında* ç.v.-nə qayıtmaq. (4–5 dəfə).

**3. "Bayraqları növbə ilə qaldıraq"**
*ç.v.* – Ayaqlar bir yerdə, bayraqlarla əllər aşağıda.

*1 sayında* sağ əldə bayraq aşağıda, sol əldə bayrağı yuxarı qaldırmaq;
*2 sayında* ç.v.-nə qayıtmaq.
*3 sayında* sol əldə bayraq aşağıda, sağ əldə bayrağı yuxarı qaldırmaq;
*4 sayında* ç.v.-nə qayıtmaq (4–5 dəfə).

**4. "Bayraqlar başın arxasında"**

*ç.v.* – Ayaqlar bir yerdə, bayraqlarla əllər sinə qarşısında.
*1 sayında* irəli əyilərək, qolları irəli uzatmaq;
*2 sayında* ç.v.-nə qayıtmaq.
*3 sayında* əllər başın arxasında;
*4 sayında* ç.v.-nə qayıtmaq. (4–5 dəfə).

**5. "Bayraqlar yuxarıda"**

*ç.v.* – Ayaqlar bir yerdə, bayraqlarla əllər aşağıda.
*1 sayında* sağ əl yuxarıda, sol əl aşağıda;
*2 sayında* ç.v.-nə qayıtmaq.
*3 sayında* sol əl yuxarıda, sağ əl aşağıda;
*4 sayında* ç.v.-nə qayıtmaq. (4–5 dəfə).

**Əsas hərəkətlər.**

**Hərəkətli oyun. "Azərbaycan bayrağı"**

Uşaqlar 3 komandaya bölünür və hər komanda bir rənglə (yaşıl, qırmızı və mavi) müəyyən olunur. Rəngli bayraqların sayı eyni və uşaqların sayına uyğun olur. Uşaqlar qarışıq dayanırlar. Müəllimin işarəsi ilə uşaqların hərəsi bir bayraq götürür və bayraqların rənginə əsasən sıraya düzülərək, Azərbaycan bayrağını düzəldirlər. (Oyun 2-3 dəfə təkrar olunur)

**III. Sakitləşdirici hərəkətlər** (5 dəq.)

***"Bayrağımızı yüksəkliyə qaldıraq"***

ç.v.: – ayaqlar aralı, əllər yanlarda.
*1.* Nəfəs alma – nəfəs alaraq əlləri yuxarı qaldırmaq.
*2.* Nəfəs vermə – gövdəni irəli əyib, qolları sərbəst sallayaraq yırğalamaq.
*3.* Nəfəs alma – nəfəs alaraq əlləri yuxarı qaldırmaq.
*4.* Nəfəs vermə – ç.v.-nə qayıtmaq.

| | |
|---|---|
| | **17-ci həftə \| VƏTƏN** |
| **Məşğələ 11-12. MUSİQİ**<br>**Mövzu: "VƏTƏN"** | **Standart:** 3.1.7; 3.1.8.<br>**İnteqrasiya:** 2.1.1.; 2.2.2. |

| | |
|---|---|
| **Məqsəd:** | • Musiqinin xarakterini müəyyən edir.<br>• Xorda oxumaq bacarıqları nümayiş etdirir.<br>• Musiqinin xarakterinə uyğun ritmik hərəkətləri yerinə yetirir. |
| **İş üsulları:** | Əqli hücum, müzakirə, suallar. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Kompüter, disk, şəkillər, oyuncaq ayı balası. |
| **Musiqi materialı:** | Marş (M.Əhmədov), Şən Azərbaycan (P.Bülbüloğlu, M.Günər), "Vətən"mahnısı (C.Cahangirov, A.Şaiq), "Azərbaycan" (Azərbaycan xalq rəqsi), "Çiçəklərin rəqsi" ("Şelkunçik" baletindən. P.İ.Çaykovski), "Ağ çiçəklər" (S. Rüstəmov/H.Hüseynzadə) |
| **Alternativ material:** | **Dinləmə**: "Azərbaycanım" (R.Hacıyev/Ə.Əlibəyli), "Təmiz səma altında" (O.Rəcəbov/ H.Abbas), "Mahnı və rəqs" (C.Cahangirov/M.Seyidzadə), "Qoruyaq körpələri" (T.Bakıxanov/T.Mütəllibov), "May" (Ş.Axundova/M.Seyidzadə)<br>**Mahnı:** "Gözəl Vətən" (O.Zülfüqarov/T.Elçin), "Əzizsən Vətən" (O.Zülfüqarov/H. Ziya), "Yaşa Azərbaycan" Aşıq xalq mahnısı, "Hər yerdən Vətən yaxşı" (R.Şəfəq/ Şəhriyar), "Şənlik mahnısı" (M.Mirzəyev/H.Ziya), "Vətən nəğməsi" (T.Bakıxanov / T.Mütəllibov), "Vətənim" (S.Ələsgərov\H.Ziya) , "Kəndimiz" (T. Quliyev/Z.Cabbarzadə), "Dünya bizim evimizdir" ( O. Rəcəbov\M.İsmayıl), "Doğma diyar" (O.Quliyev/ H.Mehdi) |

## 1-ci məşğələ

**1. Marş: Marş.** M.Əhmədov.
Uşaqlar bir-birinin ardınca düzülür, marşın sədaları altında qaməti düz saxlamaqla yerlərində addımlayırlar. Yüngül gimnastik hərəkətlər edib, yenidən ritmik yerişlə yerlərində addımlayır və dayanırlar.

**2. Dinləmə:** Vətənimizi tərənnüm edən videoçarx nümayiş olunur və "Şən Azərbaycan" mahnısı səslənir. Əsəri dinlədikdən sonra müəllim uşaqlara suallarla müraciət edir:

– Dinlədiyiniz musiqi nədən bəhs edirdi?- Mahnının xarakteri necə idi?

– Vətənimizi tərənnüm edən daha hansı musiqi nümunələrini bilirsiniz? *(Uşaqların cavabları)*

**3. Mahnı:** "Vətən" mahnısı (musiqisi C. Cahangirovun, sözləri A, Şaiqindir) şifahi yolla öyrədilir. Müəllim əvvəl xorda oxu qaydalarını (düzgün nəfəsalma, müəllimin göstərişlərinin yerinə yetirilməsi, dirijorluq jestlərinin mənasını) yada salır. Sonra "Vətən" mahnısı, onun məzmunu haqqında qısa məlumat verir. Müəllimin ifasında və ya hər hansı bir texniki vasitələrdən istifadə etməklə mahnı təqdim olunur. Uşaqlar mahnını dinlədikdən sonra o, hissə-hissə öyrədilir. Tələffüzü çətin olan sözlər və melodiya üzərində iş (interval sıçrayışı) aparılır.

Sonda "Vətən" mahnısının öyrənilmiş hissəsi xorla ifa edilir, məzmunu və xarakteri müzakirə olunur.

**4. Musiqili-ritmik hərəkətlər:** "Azərbaycan" Azərbaycan xalq rəqsi səsləndirilir. Uşaqlarla musiqinin ritminə uyğun rəqs elementlərinin öyrədilməsi üzrə iş aparılır.

**Musiqi materialı.**

### "Vətən"

| | |
|---|---|
| Çöllərin dir şən,<br>Hər yeri gülşən.<br>Sən nə gözəlsən<br>Ey ana Vətən.<br>Bağdır,əkindir<br>Hər bir bucağın.<br>Qızıl təkindir, hey!<br>Sənin torpağın. | Böyütdün bizi,<br>Verdin qol-qanad.<br>Yoxdur qəm izi,<br>Şəndir bu həyat.<br>Qəlbim canımsan,<br>Ey ana yurdum.<br>İsti qoynunda, hey!<br>Mən yuva qurdum. |

## 2-ci məşğələ

**Marş: Marş** (M.Əhmədov)
**Mahnı: "Vətən"** mahnısı (C.Cahangirov/A.Şaiq)
**Səhnələşdirmə: " Gül" (resurs: gül maskaları,ya da müxtəlif güllərdən düzəldilmiş taclar)**

| № | Musiqi materialı | Fəaliyyət |
|---|---|---|
| 1, 2, 3 | "Çiçəklərin rəqsi" | Ana və qızı parkda gəzişirlər.Qız gülləri iyləyir,dərmək istəyir. Gül dillənir,yalvarır ki, dərilməsin.Qız razılaşır,çıxır gedir |
| 4, 5, 6 | Ağ çiçəklər" | Qız güllərə qulluq edir, su verir, ətrafını təmizləyir,skamyada oturur dincəlir. |

| | |
|---|---|
| **Məşğələ 1. ƏTRAF ALƏMLƏ TANIŞLIQ**<br>**Mövzu: VƏTƏNİMİZİN PAYTAXTI** | **18-ci həftə \| PAYTAXT**<br>**Standart: 2.1.1.**; 2.1.5.<br>**İnteqrasiya:** 2.2.1; 1.1.4. |
| **Məqsəd:** | • Vətənimizin paytaxtı haqqında danışır.<br>• Şəhərimizdə olan tarixi abidələr, görməli yerləri haqqında təsəvvürü olduğunu nümayiş etdirir.<br>• Dinləyib-anladığı fikirləri şərh edir. |
| **İş üsulları:** | Əqli hücum, müzakirə, suallar. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Xəritə, tablo, rəngli karandaşlar. |

### Məşğələnin gedişi

**Motivasiya**

**M:** – Uşaqlar, vəsaitin yuxarısındakı şəkillərə baxaq. Tülkü nə edir? Sizcə, şəkildə hansı şəhər təsvir edilib? Nədən bildiniz? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, bizim yaşadığımız ölkə necə adlanır? *(Uşaqların cavabları)* Bəs biz sizinlə kimik? Bəli, biz azərbaycanlılarıq. Vətənimiz də Azərbaycan adlanır. Gəlin, xəritəyə baxaq. Vətənimizin çoxlu böyük və kiçik şəhərləri var. Həm də vətənimizin hər tərəfi: dəniz, çaylar, dağlar, düzənləri çox gözəldir. Uşaqlar, bizim yaşadığımız şəhər (qəsəbə, kənd) necə adlanır? *(Uşaqların cavabları)* Lakin onlardan biri ən böyük və baş şəhərdir. Sizcə, o hansı şəhərdir? *(Uşaqların cavabları)* Bəli, bu Bakı şəhəridir. Bakı şəhəri Azərbaycanın paytaxtıdır. Bakı şəhəri çox gözəldir. O, Xəzər dənizinin sahilində yerləşir. Bakının çox gözəl bulvarı var. Hər gün orada yüzlərlə insan istirahət edir. Bakıda əsas nəqliyyat növlərindən biri metrodur. Metro insanları mənzil başına sürətlə çatdırır. Qız qalası Bakının tarixi abidələrindən biridir. İçəri şəhər isə Bakının qədim hissəsidir. Teleqüllə Bakının ən hündür yerində yerləşir. Şəhərimizdə sizin ən çox nə xoşunuza gəlir? Siz gəzintiyə gedərkən nə görürsünüz? və s.".

**M:** "Birinci tapşırığa nəzər yetirək. Şəkildə nə təsvir olunub? Sizin kitabınızda verilən şəkildən istifadə edərək, Bakı haqqında danışın".

**II. M:** Müəllim uşaqlara suallarla müraciət edir:

– Bakıda hansı abidələri tanıyırsınız? – Şəhərdə harada dincəlmək olar? – Hansı nəqliyyat vasitələrini tanıyırsınız? *(Uşaqların cavabları)*

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:** "Bu tapşırıqda iki cür tikili təqdim olunur. Tikililəri rəngləyin və onların fərqini söyləyin".

**IV. M:** "Şəkildə içəri şəhər təsvir olunub. Şirvanşahlar sarayından Qız qalasına getmək lazımdır. Bunun üçün yolu tapmalısınız. Bunun üçün yolu tapıb, karandaşla işarə edin".

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | | 18-ci həftə \| PAYTAXT |
|---|---|---|
| **Məşğələ 2. BƏDİİ TƏFƏKKÜRÜN İNKİŞAFI**<br>**Mövzu: PAYTAXTDA QONAQ** | | **Standart:** 2.2.2; 2.2.1.<br>**İnteqrasiya:** 2.1.3; 1.1.4. |
| **Məqsəd:** | • Bədii nümunə əsasında danışır.<br>• Dinlədiyi fikirləri anladığını nümayiş etdirir.<br>• Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir. | |
| **İş üsulları:** | Nağıletmə, müzakirə, suallar. | |
| **İş forması:** | Kollektiv və fərdi iş. | |
| **Resurslar:** | Hekayənin mətni, şəkillər, rəngli karandaşlar. | |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M:** – Uşaqlar, şəkillərə diqqətlə baxın. Şəkildə nə təsvir olunduğuna diqqət yetirin. Şəkildə təsvir olunanları adlandırın. Sizcə, burada nə baş verir? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Mən indi sizə şəkildə təsvir olunanlarla bağlı "Paytaxtda qonaq" hekayəsini söyləyəcəyəm. Şəkillərə baxa-baxa hekayəni dinləyin. Hər şəkil mətnin bir hissəsini təsvir edir. Mən deyəndə dinlədiyiniz hissəyə uyğun şəkli tapın və altındakı dairəni rəngləyin".

1

"Yay tətili idi. Pəri ilk dəfə idi ki, Bakıya əmisigilə qonaq gəlmişdi. Əmisi Pərini şəhər ilə tanış edəcəkdi. Onlar İçəri şəhərə yollandılar. Əmisi üzünün Pəriyə tutub dedi:

– Bakını İçəri şəhərsiz təsəvvür etmək olmaz.

Pəri İçəri şəhər haqqında çox eşitmiş, televiziya proqramlarında görmüşdü. Müəllimləri də onlara İçəri şəhər haqqında maraqlı məlumatlar vermişdi. İndi isə eşitdiklərini öz gözləri ilə görəcəkdi".

**M:** "Uşaqlar, dinlədiyiniz hissəyə uyğun şəkli tapıb işarə edin".

Müəllim oxumağa davam edir.

2

"Pəri nağıllar aləmini xatırladan qədim küçələrlə gəzir, maraqla ətrafa tamaşa edirdi. Burada müxtəlif

qədimi əşyalar- xalçalar, papaqlar, başmaqlar, suvenirlər satılan mağazalar var idi. Əmisi Nəzrinə dedi:
– Gəl sənin üçün bir suvenir alaq. Bu, Bakıdan sənə yadigar qalar. Dostların üçün də hədiyyəlik əşyalar seçə bilərsən.
Nəzrin masanın üzərində sıra ilə düzülmüş suvenirlərə baxıb dilləndi:
--- Əmi, bax, bunu istəyirəm, Qız qalasını. Müəlimimiz deyirdi ki, Qız qalası Bakının simvoludur. Sinfimizə apararam. Dostlarım da sevinər “.

**M:** “Uşaqlar, siz nə daha hansı abidənin adını çəkərdiniz? İndi isə oxuduğum hissəni müəyyənləşdirib işarə edin.”

Müəllim oxumağa davam edir.

3

“Əmisi suvenirin pulunu ödəyib hədiyyə qutusunu Pəriyə uzatdı. Onlar mağazadan çıxanda masanın üzərindəki rəngbərəng işıqlı alov dilimləri Pərinin diqqətini cəlb etdi. O, ayaq saxlayıb, suvenirə yaxınlaşdı. Gözlərini bu rəngli əşyadan çəkə bilmirdi. Birdən əmisinin yanında olmadığını hiss etdi. Pəri yaman təşvişə düşdü”.

**M:** “Uşaqlar, bu alov dilimləri nədir? İndi isə dinlədiyiniz hissəyə uyğun şəkli tapıb işarə edin”.

Müəllim oxumağa davam edir.

4

“Bunu görən satıcı Pəriyə yaxınlaşdı:
– Qızım kimi axtarırsan?
– Əmimi. İndicə yanımda idi.
– Narahat olma, qızım. Sən burada, mənim yanımda otur. Əmin mütləq səni axtarıb tapacaq.
Satıcı xanım ona bir kitab uzatdı:
– Sən hələlik bu sehrli kitaba bax. O, Bakı haqqında böyük şəkilli kitabı Pəriyə uzatdı. Pəri kitabı vərəqləməyə başladı. Bakının şəkilləri o qədər gözəl idi ki, Pəri neçə dəqiqə ona baxdığını hiss etmədi”.

**M:** – Uşaqlar, şəkildə dinlədiyiniz hissəyə uyğun şəkli tapıb işarə edin”.

Müəllim oxumağa davam edir.

5

“Birdən əmisinin narahat səsini eşitdi:
– Ay Pəri, nə yaxşı səni tapdım. Yaxşı ki, məni burada gözləmisən.
Satıcı xanım Pəriin birinci dəfə Bakıya gəldiyini biləndə, həmin sehrli kitabı ona bağışladı. Pəri bu hədiyyə üçün çox sevindi. Təşəkkür edərək dedi:
– Çox sağ olun. Bu çox gözəl hədiyyə oldu. Mən kitabdakı şəkilləri dostlarıma göstərib bütün bu gözəlliklər haqqında onlara danışacağam”.

**M:** “Uşaqlar, şəkillərə diqqətlə baxın və dinlədiyiniz hissəyə uyğun şəkli tapıb işarə edin”.

Müəllim oxumağa davam edir.

6

“Həmin gün Pəri əmisi ilə çox gəzdi. Artıq axşam idi. Evə qayıtmaq lazım idi. Onlar avtobusa əyləşdilər. Avtobus şəhərin işıqlı küçələri ilə irəliləyirdi. Birdən Pəri mağazada diqqətini cəlb edən binanı gördü. Alov qüllələri ətrafa işıq saçırdı. Əmisi Pərinin sevinclə parıldayan gözlərinə baxıb dedi:
– Qızım, bu bina Alov qüllələri adlanır. Qız qalası qədim Bakının, Alov qüllələri isə müasir Bakının simvoludur”.

**M:** “Uşaqlar, dinlədiyiniz bu hissəyə uyğun şəkli də tapıb işarə edin”.

—İdman dəqiqəsi—

**II.** Müəllim uşaqlara suallarla müraciət edir:
– Pəri niyə azdı? – Pərinin təşvişə düşdüyünü görən satıcı qadın nə etdi? –Pəri bu hədiyyə ilə nə etməyi düşündü? *(Uşaqların cavabları)*

**Tətbiqetmə**

**III.** Müəllim uşaqlara müraciət edir:
– Bu tapşırıqda şəkillər təsvir olunub. Şəkillərin yanında açar sözlər yazılıb. Şəkillərə diqqətlə baxın və ona aid açar sözü yadda saxlayın. Suala cavab verərkən həmin açar sözü cümlədə işlədin”.

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| Məşğələ 3–4. SAVAD TƏLİMİNƏ HAZIRQLIQ VƏ NİTQ İNKİŞAFI<br>Mövzu: P (p) SƏSİ VƏ HƏRFİ | Standart: 2.2.4.; 2.2.6.<br>İnteqrasiya: 1.1.4. |
|---|---|
| **Məqsəd:** | • **P** (**p**) səsini və hərfi fərqləndirir.<br>• **P** səsinin işləndiyi sözlər söyləyir.<br>• Xətt üzrə **P** (**p**) hərfini çəkir. |
| **İş üsulları**: | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması:** | Kollektiv və fərdi. |
| **Resurslar:** | Şəkillər, karandaşlar, marker, **P** hərfi. |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** “Səhifənin yuxarısındakı şəklə baxaq. Şəkildə nə təsvir olunub? Tülkü nə edir? **Papaq** sözü hansı səslə başlayır? *(Uşaqların cavabları)*

**Dərketmə**

**M:** “P hərfindən də digər hərflər kimi sözləri yazanda istifadə olunur. Uşaqlar, sarı qutuya diqqətlə baxaq. Burada böyük və kiçik **P** hərfi təsvir olunub”.

**M:** “Gəlin bir daha xatırlayaq: “Hərfi yazırıq və görürük. Səsi isə tələffüz edirik və eşidirik; məsələn, mən indi deyirəm **P**, siz eşidirsiniz. Bu, **P** səsi olur. İndi isə lövhədə yazıram. Bu hansı hərfdir? Bəli, bu, **P** hərfidir. Hərfi yazırıq, görürük və oxuyuruq”. *(Müəllim bunu nümunələr üzərində izah edir)*

**I. M:** “Burada böyük **P** hərfi təsvir olunub. Hərfin kənarında şəkillər təsvir olunub. Sol tərəfdə nə təsvir olunub? *(Uşaqların cavabları) Pərdə* sözü hansı səslə başlayır? *(Uşaqların cavabları)* Bəs hərfin sağında yuxarıda nə təsvir olunub?” *(*Bu qayda ilə hər şəkildə nə təsvir olunduğunu söyləyin və bu sözün hansı səslə başlandığına diqqət yetirin.”

**P** hərfinin rənglənməsi.

**II.** Müəllim lövhədə **P** hərfini izah edə-edə yazır. Bir neçə uşaq da lövhədə tapşırığı yerinə yetirir.

**M:** “Kənara çıxmadan **P** hərfini xətt üzrə çəkin. Oxun istiqamətinə diqqət edin”.

**M:** “Uşaqlar, **P** hərfinin ətrafında şəkillər təsvir olunub. **P-**nın hər tərəfində neçə şəkil təsvir olunub? Sol tərəfdəki şəkildə təsvir olunanları söyləyin. Sağ tərəfdə nə təsvir olunduğunu bir-bir söyləyin. Söz **P** səsi ilə başlayırsa, həmin şəkli **P** hərfi ilə birləşdirin”.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**M:** “Uşaqlar, biz keçən məşğələmizdə hansı hərfi öyrənmişdik? *(Uşaqların cavabları)* İndi isə hərflərin içərisindən **A** və **P** hərflərini götürüb lövhəyə qoyun”. *(Uşaqlar yerinə yetirir)*

**III. M:** “Uşaqlar, kitabınızın yuxarısında söz yazılıb. Yazılan sözlər nədən ibarət olur? *(Hərflərdən)* Diqqətlə baxıb həmin hərflərin içərisindən **A** və **P** hərflərini tapıb həmin hissələri nümunədəki kimi rəngləyin”.

**IV. M:** “Kənara çıxmadan xətt üzrə hərfləri çəkin. Oxun istiqamətinə diqqət edin”. *(Bitirdikdən sonra sözlərin oxunması)*

**V. M:** “Bu tapşırıqda həm **P** hərfi, həm də sözlər yazılıb. Hərfləri xətt üzrə çəkin və sözləri oxuyun. Sözləri uyğun şəkillə birləşdirin”. *(Uşaqların cavabları)*

**VI. M:** “Hər şəkildə nə təsvir olunduğunu bir-bir söyləyin. **P** səsinin sözün əvvəlində, ortasında və ya sonunda işləndiyini müəyyən edin.Sonra isə həmin şəkli uyğun çərçivə ilə birləşdirin. Birinci şəkildə nə təsvir olunub? *(Uşaqların cavabları)* Həmin şəkli hansı hərflə birləşdirmək lazımdır? *( (Bu qayda ilə hər bir şəkil üzrə iş aparılır)*

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

Lövhədə böyük **P** ilə bərabər, kiçik **p** hərfi də ya asılır, ya da proyektorla ekrana salınır. Verilmiş əlifbanın hərflərinin arasından kiçik **p** hərfi götürülərək lövhəyə qoyulur. **P** səsinin birlikdə və tək-tək tələffüz edilməsi.

Müəllim uşaqların diqqətini kiçik **p** hərfinə yönəldərək deyir:– Uşaqlar, bilirsiniz ki, hər bir hərfin həm böyük, həm də kiçik forması var. Biz sizinlə **P** hərfinin böyük çap formasını da öyrənmişik. Bu hərflərin həm böyük, həm də kiçik forması eyni cür yazılır. Lakin kiçik **p** bir qədər kiçik yazılır.

**Dərketmə**

**I. M:** “Uşaqlar, şəkillərə diqqətlə baxın. Şəkildə nə təsvir olunub? *(Uşaqların cavabları)* Hər bir şəklin altında onun adı yazılmışdır. Yazılan hərfləri siz öyrənmisiniz. Təsvir olunan əşyanı adlandırıb, aşağıda yazılan sözdə

çatışmayan hərfi yerinə yazın. Birinci şəklin altında hansı hərflər yazılıb? Bəs hansı hərf çatmır? Siz hansı hərfi yazmalısınız? İndi isə oxuyun. Nə söz alındı?"

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** "Şəkildə nə təsvir olunub? *(Uşaqların cavabları)* İndi isə həmin sözü yazın". Müəllim **p** səsi ilə başlayan sözlər söyləməyi uşaqlara təklif edir. Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | **18-ci həftə \| PAYTAXT** |
|---|---|
| **Məşğələ 5-6. RİYAZİ VƏ MƏNTİQİ TƏFƏKKÜRÜN İNKİŞAFI**<br>**Mövzu: GENİŞ-DAR, QALIN-NAZİK, AĞIR-YÜNGÜL** | **Standart:** 2.3.2; 2.3.4.<br>**İnteqrasiya:** 2.2.1; 1.1.4. |

| | |
|---|---|
| **Məqsəd:** | • Geniş,dar, qalın, nazik anlayışlarına anladığını nümayiş etdirir.<br>• Ölçüsünə əsasən əşyaları fərqləndirir. |
| **İş üsulları:** | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması:** | Kollektiv və fərdi. |
| **Resurslar:** | Şəkillər, rəngli karandaşlar. |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** – Səhifənin yuxarısındakı şəklə baxaq. Orada nə təsvir olunub? Tülkü nə edir? *(Uşaqların cavabları)* Düzdür, tülkü iynəni saplayır. Uşaqlar, iynə necədir? (nazikdir) Əgər sap qalın olsa, onu saplamaq olarmı? Nə üçün belə düşünürsünüz? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Birinci tapşırığa diqqət yetirin. Kitabda 2 çərçivədə şəkillər və onların altında xanalar təqdim olunur. Birinci çərçivədə nə təsvir olunub? *(Kitablar)* İkinci çərçivədə nə təsvir olunub? (*Şamlar*) – Hər çərçivədə nazik olanın altında "1", qalın olanın altında isə "10" rəqəmini yazın.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** "Bu tapşırığımızda yollar təsvir olunub. Bu yollar necə yollardır? Geniş və dar yolları göstərin. Maşının gedəcəyi geniş yolu göy karandaşla, velosipedin gedəcəyi dar yolu isə qırmızı karandaşla rəngləyin."

Geniş-dar, qalın-nazik anlayışlarının möhkəmləndirilməsi üzrə iş aparılır. Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

**M: –** Səhifənin yuxarısındakı şəklə baxaq. Orada nə təsvir olunub? *(Uşaqların cavabları)* Düzdür, tərəzinin bir gözünə balqabaq, digərinə isə badımcan qoyulub. Sizcə bunların hansı daha ağırdır? Bəs 3 şar birlikdə ağır olr, qoxsa şəki daşı? Nə üçün belə düşünürsünüz? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Birinci tapşırıqda 2 çərçivədə pələng təsvir olunub. Hər çərçivədəki şəkildə o, ağırlıq qaldırıb. Sizcə bu heyvanlardan hansının qaldırdığı daha ağırdır? Nə üçün belə düşünürsünüz? Ağır əşyanı qaldıran heyvanı qırmızı, yüngül əşyanı qıldıran heyvanı isə mavi karandaşla haşiyəyə alın".

**II. M:** "Bu tapşırıqda 4 çərçivə və hər çərçivədə iki şəkil təsvir olunub. Hər çərçivədə nə təsvir olunub? *(Uşaqların cavabları)* Təsvir olunanlardan hansı ağırdır? Bəs hansı yüngüldür? Nə üçün belə düşünürsən? Qırmızı çərçivələrdə ağır olanı, mavi çərçivələrdə isə yüngül olanları haşiyəyə alın.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:** "Bu tapşırıqda 2 tərəzi təsvir olunub. Tərəzinin hər gözünə müxtəlif meyvələr qoyulub. Tərəzinin hər tərəfində isə xana verilib. Əvvəlcə sol tərəfdəki tərəzidə ağır olanı tapın və xananı rəngləyin. Sonra isə sağ tərəfdəki tərəzidə ağır olanı tapın və xananı rəngləyin".

**IV. M:** “Bu şəkildə 2 qapı təsvir olunub. Qapılar necədir? Hürdür qapını qırmızı, geniş qapını isə göy karandaşla çərçivəyə alın.Hündür qapının yerləşdiyi damaları sayın. Neçə dama oldu? Alçaq qapının yerləşdiyi damaları sayın. Neçə dama oldu? Hansı qapının yerləşdiyi damaların sayı çoxdur? *(Uşaqların cavabları)*

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | | |
|---|---|---|
| | | **18-ci həftə \| PAYTAXT** |
| **Məşğələ 7-8. TƏSVİRİ FƏALİYYƏT** | | **Standart:** 3.1.4.; 3.1.1. |
| **Mövzu:** QIZ QALASI | | **İnteqrasiya:** 1.1.4.; 2.2.6. |
| **Məqsəd:** | • Yapma bacarıqları nümayiş etdirir.<br>• Rəsmetmə bacarıqları nümayiş etdirir. | |
| **İş üsulları**: | Əqli hücum, suallar, müzakirə. | |
| **İş forması:** | Kollektiv və fərdi. | |
| **Resurslar:** | Rəngli plastilin, akvarel. | |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** – Uşaqlar, bizim vətənimizin paytaxtı hansı şəhərdir? *(Uşaqların cavabları*) Düzdür, Bakı şəhəridir. hansı tarixi abidələri tanıyırsınız? Qız qalası hansı şəhərdə yerləşir? *(Uşaqların fikirləri dinlənilir)*

**Dərketmə**

**I. M:** “Uşaqlar, biz sizinlə vətənimizin paytaxtı Bakı şəhəri haqqında danışmışıq. Qız qalası Bakının ən qədim tarixi abidələrindən biridir və Xəzər dənizinin sahilində yerləşir. Bakının hansı görməli yerləri haqqında danışa bilərsiniz? *(Uşaqların cavabları*) Gəlin şəklə bir daha baxaq. Onun necə tikilməsinə diqqət yeirək. (*Yerinə yetirilir)* Kitabınızda rənglənməmiş Qız qalası və ətrafı təsvir olunub. Siz şəkildə nə təsvir olunduğunu söyləyin və sonra uyğun rənglə şəkilləri rəngləyin. Sonra isə bu işlərimizdən sərgi düzəldərik”. *Müəllim uşaqlara hazır nümunəni göstərir, ardınca izah edə-edə özü yerinə yetirir. Sonra isə uşaqlara nümunəyə əsasən şəkli rəngləməyi təklif edir.*

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** “Uşaqlar, biz sizinlə **P** hərfini öyrənmişik. Onu karandaşla yaza bilirsiniz. Havada əlinizlə **P** hərfini cızın. **P** hərfi neçə hissədən ibarətdir? *(Uşaqların cavabları*) İndi isə **P** hərfindən də istifadə etməklə, pillə sözünü plastilindən düzəldin”. Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

**M:** – Uşaqlar, siz hansı nəqliyyat vasitələrini tanıyırsınız? Sizcə keçmişdə maşınlar olmadığı zamanlarda nədən istifadə ediblər? *(Uşaqların cavabları dinlənilir.)*

**Dərketmə**

**I. M:** “Uşaqlar, biz sizinlə müxtəlif nəqliyyat vasitələri haqqında danışmışıq. Deməli, keçmişdə maşınlar olmayanda insanlar arabadan, faytondan nəqliyyat kimi istifadə edirdilər. İndi biz sizinlə fayton şəklini rəngləyəcəyik”. *Müəllim hazır nümunəni göstərir. Sonra isə izah edə-edə rəngləyir. Bütün uşaqların əhatə olunmasını təmin etməlidir. İzahdan sonra nümunəyə əsasən işə başlamağı uşaqlara təklif edir.*

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** – Kitabınızda papaq şəkli təsvir olunub. Papaq rəngsizdir və üstündə xətlərlə hərflər yazılıb. Papağın üstündəki yazını tamamlayın və papağı rəngləyin.Yazını tamamladıqdan sonra sözü oxuyun.

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | | 18-ci həftə \| PAYTAXT |
|---|---|---|
| **Məşğələ 9-10. FİZİKİ MƏDƏNİYYƏT**<br>**Mövzu: MƏNİM VƏTƏNİM, MƏNİM ŞƏHƏRİM, MƏNİM EVİM** | | **Standart:** 1.1.1.; 1.1.2.<br>**İnteqrasiya:** 4.2.2. |
| **Məqsəd:** | • Yerində, uzununa doğru tullanır.<br>• Topu yerə vuraraq irəliləyir.<br>• Hərəkətlərin koordinasiyasını nümayiş etdirir. | |
| **İş üsulları**: | Müzakirə, süjetli-rollu oyunlar. | |
| **İş forması:** | Kollektiv, qruplarla və fərdi iş. | |
| **Resurslar:** | 5 keqli, 6 lent, 2 idman skamyası, 1 çənbər,3 kubik | |

**1 və 2-ci məşğələ**

**I. İsinmə** hərəkətləri (5 dəq.)
– bir-birinin ardınca yeriş;
– qolları yanlarda quşların qanadı kimi təsvir etməklə qaçış;
– əllər beldə dizləri yuxarı qaldırmaqla, atvari yeriş;
– ilanvari qaçış və tədricən yerişə keçmək;
– əlləri yuxarı qaldıraraq nəfəs almaq və nəfəsi buraxmaq. (4–5 dəfə).
**II. Ümuminkişafetdirici hərəkətlər** (20 dəq.)
**1. "Salam doğma şəhər".** 6–8 dəfə təkrar etmək.
*ç.v.* – əllər beldə, ayaqlar çiyin bərabərində aralı.
*1–2 sayında* başı irəli əymək və qaldırmaq;
*3–4 sayında* başı geri əymək və ç.v.-nə qayıtmaq;
*5-6 sayında* başı sağa əymək və ç.v.-nə qayıtmaq;
*7–8 sayında* başı sola əymək və ç.v.-nə qayıtmaq;
**2. "Hovuz".** 6–8 dəfə təkrar etmək (hər tərəfə 4 dəfə).
*ç.v.* – əllər yanlarda aşağıda, ayaqlar çiyin bərabərində aralı.
*1–2–3 sayında* sağ tərəfə qolları açmaq (üzməyi imitasiya etmək);
*4 sayında* ç.v.-nə qayıtmaq.
*1–2–3 sayında* sol tərəfə qolları açmaq (üzməyi imitasiya etmək);
*4 sayında* ç.v.-nə qayıtmaq.
**3. "Muzeydə".** 6–8 dəfə təkrar etmək.
*ç.v.* – ayaqlar çiyin bərabərində aralı, əllər beldə.
*1–2 sayında* sola, sağa dönmək;
*3 sayında* qolları yanlara açmaq;
*4 sayında* ç.v.-nə qayıtmaq.
**4. "Hündür və alçaq evlər".** 6 dəfə
*ç.v.* – ayaqlar çiyin bərabərində aralı, əllər beldə.
*1– sayında* çömələrək oturmaq;
*2 sayında* ç.v.-nə qayıtmaq;
*3 sayında* qolları yuxarı qaldırmaq;
*4 sayında* ç.v.-nə qayıtmaq.
**5. "Təmiz hava alaq" – tənəffüzün bərpası.** 3 dəfə

M: Uşaqlar, biz sizinlə başqa bağçanın uşaqları ilə yarışa gedəcəyik. O uşaqlar yarışa ciddi hazırlaşırlar. Gəlin yoxlayaq görək biz yarışa necə hazırıq.

**1."Maneələrin arasından keç"**
(aralarındakı məsafə 70 sm. olan 5 ədəd keqlinin arasından onlara toxunmadan qaçıb, keçmək);
**2. "Arxın üzərindən tullan"**
(aralarındakı məsafə 70 sm. olan 6 ədəd lentin üzərindən hoppanmaq);
**3. "Sürün"**
( Gimnastika skamyasının üzəri ilə sürünmək) 2 skamya
**4. "Kubiklərin üzərindən keç"**
(40 sm. ölçüdə kubiklərin üzərindən addımlayıb keçmək) 3 ədəd.
**5. "Tuneldən keç".**
(çənbərin içərisindən yan-yanı keçmək) (80 sm. ölçülü çənbər)
**6. "Kim daha hündürə tullanar"**
(verilmiş maneənin hündürlüyində tullanmaq)

**II. “Çayın üzərindən tullan” oyunu**

İpdən istifadə etməklə, müxtəlif ölçüdə (məs., 30–50 *sm*) “çay” düzəldilir. “Uşaqlara “çayın” üzərindən tullanma təklif olunur. Əvvəlcə “çay”ın ensiz hissəsindən, sonra isə ən enli yerindən tullanmaq lazımdır. Müəllim kimin daha enli tərəfdən tullanmağına diqqət yetirməlidir. Tullanarkən güclü təkan verərək qolları yana açmaqla iki ayaq üstə düşmək.

**III. Sakitləşdirici hərəkətlər** (5 dəq.)

***“Bizim evimiz”***

*Ç.v. – ayaqlar aralı, əllər yanlarda aşağı salınmış vəziyyətdə.*

*1.* Nəfəsalma – sağ əli yuxarı qaldırıb “*evini göstərmək*”.

*2.* Nəfəsvermə – ç.v.-nə qayıtmaq.

*3.* Nəfəsalma – sol əli yuxarı qaldırıb “*evini göstərmək*”.

*4.* Nəfəsvermə – ç.v.-nə qayıtmaq. Müəllimin ardınca bir cərgədə sakit yeriş.

**18-ci həftə | PAYTAXT**

**Məşğələ 11-12. MUSİQİ**
**Mövzu: ŞƏHƏRİMİZ**

**Standart:** 3.1.7.; 3.1.8.
**İnteqrasiya:** 2.1.2.; 2.2.1.

| | |
|---|---|
| **Məqsəd:** | • Musiqinin xarakterini müəyyən edir.<br>• Xorda oxumaq bacarıqları nümayiş etdirir.<br>• Musiqinin məzmununa uyğun ritmik hərəkətləri yerinə yetirir. |
| **İş üsulları:** | Əqli hücum, müzakirə, suallar. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Kompüter, disk, şəkillər, it kuklası. |
| **Musiqi materialı:** | “Marş” (M.Əhmədov), “Bakı haqqında mahnı” (T.Quliyev/Ə.Əlibəyli), “Şəhərimiz” mahnısı (S.Rüstəmov/M.Seyidzadə), “Qatar” (Q.Hüseynli/N.Gəncəli), “Qız qalası” (O.Rəcəbov/S.Nuruqızı) |
| **Alternativ material:** | **Dinləmə:** “Bakı” (N.Məlikməmmədov/Y.Həsənbəy), “Bakı haqqında mahnı” (Q.Qarayev/Z. Cabbarzadə), “Abşeronun nəğməsi” (T. Hacıyev/N.Xəzri)<br>**Mahnı:** “Ürək doymaz Bakıdan” (Ş.Axundova/İ.Coşqun), “Xəzərim” (A.Sultanova/T.Elçin) |

**1-ci məşğələ**

**Marş: Marş** M.Əhmədov.

**Dinləmə:** Müəllim Vətənimiz, vətənimizin paytaxtı Bakı haqqında qısa sorğu aparır. “Bakı haqqında mahnı (T.Quliyev/Ə. Əlibəyli) səsləndirilir. Mahnını dinlədikdən sonra müəllim uşaqlara suallarla müraciət edir:

– Bu musiqidə nədən bəhs edilir? Dinlədiyiniz musiqinin xarakteri necə idi?

– Sizcə, nə üçün şəhərimiz, paytaxtımız haqqında mahnılar şən və təntənəli səslənir? *(Uşaqların cavabları)*

**Mahnı:** “Şəhərimiz” mahnısı (S.Rüstəmov/M.Seyidzadə) şifahi yolla öyrədilir. Müəllim mahnı, onun müəllifi və məzmunu haqqında qısa məlumat verir, sonra mahnı səsləndirilir. Uşaqlar dinlədikdən sonra mahnı hissə-hissə, frazalarla öyrədilir. Tələffüzü çətin olan sözlər və melodiya üzərində iş aparılır. Sonda “Şəhərimiz” mahnısının öyrənilmiş hissəsi xorla ifa edilir, məzmunu və xarakteri müzakirə olunur.

**Musiqili-ritmik hərəkətlər:** “Qatar” (Q.Hüseynli/N.Gəncəli) mahnısı səsləndirilir. Uşaqlar bir- birinin adınca düzülərək qatarı, onun vaqonlarını təsvir təsvir edirlər. Onlar musiqinin ritminə uyğun mahnının məzmununda olan hadisələri hərəkətləri ilə təsvir etməyə çalışırlar. Məşğələ ümumiləşdirilərək yekunlaşdırılır.

**Musiqi materialı:**

**“Şəhərimiz”**

| | | |
|---|---|---|
| Yer üzündə şəhər olmaz<br>Bizim gözəl şəhər kimi.<br>Gecələri işıqlıdı<br>Al günəşli səhər kimi. | Abidələr qalxıb göyə<br>Hər meydanda, meydançada<br>Gülümsəyir qərənfillər<br>Qızıl güllər hər bağçada | *Nəq.*<br>Bakı, canım Bakı,<br>Fəxrim, şanım Bakı!<br>Döyünən ürəyim,<br>Canım Bakı, qanım Bakı! |

**2-ci məşğələ**

**Marş:** "Marş" (M.Əhmədov)
**Mahnı:** "Şəhərimiz" mahnısı ((S.Rüstəmov/M.Seyidzadə)
**Səhnələşdirmə:** "Paytaxtda qonaq" (**resurs:** çanta,kitab, "Qız qalası"və "Alov qülləsi" suvenirləri)

| № | Musiqi materialı | Fəaliyyət |
|---|---|---|
| 1–3 | "Qatar", "Bakı haqqında mahnı" | Qız əlində çanta yol gəlir. Onu əmisi qarşılayır |
| 4–6 | "Qız qalası" | Əmi və qızlar əl-ələ tutub sağa-sola baxa-baxa gəzişirlər.Kitablara baxır. Satıcı kitabı hədiyyə edir. |

**19-cu həftə | ADƏTLƏR**

| Məşğələ 1. ƏTRAF ALƏMLƏ TANIŞLIQ<br>Mövzu: ADƏT-ƏNƏNƏLƏRİMİZ | Standart: 2.1.2; 2.1.1.<br>İnteqrasiya:. 2.2.2; 4.1.1. |
|---|---|
| **Məqsəd:** | • Adət-ənənələrimiz haqqında danışır.<br>• Qədimi geyim əşyalarını adlandırır.<br>• Verilmiş mövzu ətrafında danışır, suallara cavab verir. |
| **İş üsulları:** | Əqli hücum, müzakirə, suallar. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Milli əşyalar təsvir olunmuş şəkil, rəngli karandaşlar. |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M:** – Uşaqlar, vəsaitin yuxarısındakı şəkillərə baxaq. Tülkü nə edir? O nə üçün xalçaya minib? Xalça uça bilərmi? *(Uşaqların fikirləri dinlənilir)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, düz deyirsiniz. Ancaq nağıllarda xalçalarda uçmaq olar. Xalça nədir? Xalça bizim milli sərvətimizdir. Hər bir xalqın tarixi kökünü, milli mənəviyyatını öyrənmək istəyiriksə, mütləq həmin xalqın milli adət-ənənələrinə nəzər salmalıyıq. Çünki milli adət-ənənələr hər bir xalqın milli mənəviyyatının zənginliyindən, irsindən, inkişafından və dəyərlərindən xəbər verir. Hər bir milləti dünyada tanıdan və onu digər xalqlardan fərqləndirən ən önəmli xüsusiyyətlərindən biri onun adət və ənənələridir. Milli dəyərlərə bağlılıq, milli irsə sahib çıxmaq çox vacibdir. Hər bir ənənə müəyyən əxlaqi məna daşıyır. Milli adət və ənənələrimiz musiqi, mahnı nümunələri, əyləncəli oyunlarla zəngin olmaqla yanaşı, insanların davranışlarına əsaslı təsir göstərən əxlaq normalarının da daşıyıcısıdır. Azərbaycan xalqının da özünəməxsus bir-birindən gözəl dəyərləri mövcuddur.

Milli musiqi mədəniyyətimiz, toy-nişan adətlərimiz, milli rəqslərimiz, milli geyim tərzimiz və.s.". Adət və ənənələr bütün mədəni tədbirlər üçün rəmzi məna kəsb edir və onlara milli məzmun gətirir. Bu müstəvidə də zəngin adət-ənənələrimizi özündə cəmləşdirən milli mənəvi dəyərlər sistemində Novruz bayramı özünəməxsus yer tutur. Novruz süfrəsi adət və ənənələrimizin zənginliyini göstərir. Belə ki, çərşənbələrdə, istərsə də Novruz axşamında süfrədə milli xörəklərimiz, ən başlıcası isə plov olmalıdır. Şəkərbura, paxlava, şəkər çörəyi və digər şirniyyatlar, kişmiş, püstə, badam, boyanmış yumurtalar süfrələrimizi bəzəyir.

Çərşənbələrdə olduğu kimi, Novruz axşamında da tonqal qalanır, evlərdə ailə üzvlərinin hər birinin adına şam yandırılır. Bu bayramda kimsəsizlərə, ehtiyacı olanlara, ahıl insanlara baş çəkmək, onlara bayram sovqatı vermək savab hesab edilir.Məsələn, Novruz bayramı ərəfəsində keçirilən bir çox mədəni tədbirlərdə səmənidən, xalqımızın qədim milli geyimlərindən, geyimlərində buta naxışından və s. milli-rəmzi atributlarından geniş istifadə olunur".

**M:** "Uşaqlar, sizin qarşınızdakı kitabda xalça və milli geyimdə qadın və kişi təsvir olunub. İndi isə siz xalqımıza məxsus adət-ənənələr haqqında bildiklərinizi danışın". *(Uşaqların cavabları)*

**II.** Müəllim uşaqlara suallarla müraciət edir: "– Üzərinə naxış vurulmuş hansı əşyaları görmüsünüz? – Xalqımızın hansı adət-ənənələrini tanıyırsınız? – Siz daha çox hansı adətlərimizi sevirsiniz?" *(Uşaqların cavabları)*

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:** "Şəkildə əşyalar təsvir olunub. Hər sütunda təsvir olunmuş əşyaları adlandırın. Şəkildə hansı əşyalar təsvir edilib? Qədimdə istifadə olunanlara uyğun gələn indiki əşyaları müəyyənləşdirib, birləşdirin." *(Uşaqların cavabları*)

**IV. M:** "Şəkildə qədimi paltarlar və tülkü təsvir olunub. Qədim paltarları adlandırın. Hər bir paltarı uyğun bədən hissəsi ilə birləşdirin". Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | | |
|---|---|---|
| | | **19-cu həftə \| ADƏTLƏR** |
| **Məşğələ 2. BƏDİİ TƏFƏKKÜRÜN İNKİŞAFI**<br>**Mövzu: ADƏTLƏRİMİZ** | | **Standart:** 2.2.2; 2.2.1.<br>**İnteqrasiya:** 3.1.9. |
| **Məqsəd:** | • Bədii nümunə əsasında danışır.<br>• Dinlədiyi fikirləri anladığını nümayiş etdirir.<br>• Mətnin məzmununa münasibət bildirir. | |
| **İş üsulları**: | Müzakirə, suallar. | |
| **İş forması:** | Kollektiv və fərdi iş. | |
| **Resurslar:** | Hekayənin mətni, şəkillər, rəngli karandaşlar. | |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M:** – Uşaqlar, vəsaitdəki şəkillərə diqqətlə baxın. Şəkillərdə nə təsvir olunub? Sizcə, burada söhbət nədən gedir? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Mən indi sizə şəkillərlə bağlı hekayə söyləyəcəyəm. Hekayənin adı "**Adətlərimiz"** adlanır. Şəkillərə baxa-baxa hekayəni dinləyin. Hər şəkil mətnin bir hissəsini təsvir edir. Mən deyəndə, dinlədiyiniz hissəyə uyğun şəkli tapın və altındakı dairəni rəngləyin".

1

"Novruz bayramı yaxınlaşırdı. Biz yaz tətilinə çıxmışdıq. Ailəmizlə birlikdə kəndə, nənəmgilə getdik. Atam deyirdi ki, bayramı ailənin ağsaqqalları ilə birlikdə keçirmək adətdir. Nə yaxşı?! Bu adət mənim çox xoşuma gəldi. Nənəmi, babamı, kənddəki dostlarımı görəcəkdim".

**M:** "Uşaqlar, şəkillərə baxıb, dinlədiyiniz hissəyə uyğun şəkli tapıb altındakı dairəni işarə edin".

Müəllim oxumağa davam edir.

2

"Bayram günü gəlib çatdı. Kəndin küçələrində tonqal qalamışdılar. Qəribədir ki, böyüklər bunu qadağan etmirdilər. Başqa vaxt deyirlər ki, odla oynamaq olmaz. İndi isə nəinki tonqal qalamağa, hətta üstündən tullanmağa icazə verirdilər. Babam izah etdi ki, bu Novruz bayramının adətlərindən biridir. Azar-bezarımızı odda yandırırıq. Çox əyləncəli adətdir. Bütün uşaqlar tonqalın ətrafında yallı gedir, əylənirdilər".

**M:** "Uşaqlar, mənim indi oxuduğum hissəni müəyyənləşdirib, işarə edin."

Müəllim oxumağa davam edir.

3

"Dostlarım əllərində bəzəkli bir torba tutmuşdular. Onlar mənə baxıb təəccüblə soruşdular:

– Sənin torban hanı? Get evdən bir torba gətir. Aygüngilin qapısına torba ataq.

Mən utana-uyana dedim:

– Nə torba? Yaxşı deyil axı.... Birdən görərlər.

Uşaqlar bərkdən gülüşdülər:

– Görsünlər də. Burda nə var ki?! Qapıya torba atmaq bayram adətidi. Özü də Aygünün anası bilirsən necə dadlı qoğal bişirir.

Mən evə qaçıb nənəmdən bir torba aldım. Uşaqlarla birlikdə qonşularımızın qapısına torba atdıq. Torbalarımız dadlı ləzzətli bayram şirniyatları ilə dolu idi".

**M: "**Uşaqlar, dinlədiyiniz hissəyə uyğun hissəni tapıb, işarə edin."

Müəllim oxumağa davam edir.

4

"Torbalarımıza rəngli yumurtalardan da bayram payı qoymuşdular. Uşaqlar bir yerə toplaşıb yumurta döyüşdük. Əli hamını udurdu. Qazandığı yumurtaları papağının içinə yığırdı". Müəllim oxumağa davam edir.

"Artıq axşam düşmüşdü. Hamı öz evinə çəkilmişdi. Nənəmlə anam çox gözəl süfrə açmışdılar. Bayram xonçası süfrəyə ayrı yaraşıq verirdi. Atam xonçanın kənarlarına düzülmüş rəngbərəng şamları yandırdı. Nənəm süfrəyə aş gətirdi:

– Bayram süfrəsi plovsuz olmaz.

Plovun ətri bütün otağa yayılmışdı. Necə də ətirli bayram adətimiz var".

**M:** "Uşaqlar, məzmuna uyğun şəkli tapıb, işarə edin".

**M:** "Mən Novruz bayramını çox sevirəm, çünki bayramda hamı gülərüz, mehriban olur, hətta küsülülər də barışır".

—İdman dəqiqəsi—

**II.** Müəllim suallarla uşaqlara müraciət edir:

– Hekayədə hansı Novruz adətləri haqqında eşitdiniz?

– Siz adətlərin hansında iştirak etmisiniz?

– Novruz adətlərindən ən çox sevdiyiniz hansıdır? *(Uşaqların cavabları)*

**Tətbiqetmə**

**III. M:** "Şəkildə 3 məzmunda şəkil təsvir olunub. Şəkillərə diqqətlə baxın və onlara aid açar sözləri yaddınızda saxlayın. Suallara ətraflı cavab verin. Bu zaman açar sözlərdən istifadə edin". Hər şəkil bu qayda ilə müzakirə edilir.

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**19-cu həftə | ADƏTLƏR**

| | |
|---|---|
| **Məşğələ 3–4. SAVAD TƏLİMİNƏ HAZIRLIQ VƏ NİTQ İNKİŞAFI**<br>**Mövzu: K (k) SƏSİ VƏ HƏRFİ** | **Standart:** 2.2.4; 2.2.5.<br>**İnteqrasiya:** 1.1.4. |
| **Məqsəd:** | • **K** (**k**) səsini və hərfi fərqləndirir.<br>• **K** səsinin işləndiyi sözlər söyləyir.<br>• Xətt üzrə **K** (**k**) hərfini yazır. |
| **İş üsulları:** | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Şəkillər, karandaşlar, marker, keçirilmiş hərflər və **K** hərfi. |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** "Səhifənin yuxarısındakı şəklə baxaq. Şəkildə nə təsvir olunub? Tülkünün əlində nə var? *(Uşaqların cavabları)* *Konfet* sözü hansı səslə başlayır? Bilirsiniz ki, söylənilən hər bir söz yazılarkən hərflərdən istifadə edilir".

**Dərketmə**

**M:** "**K** hərfindən də digər hərflər kimi sözləri yazanda istifadə olunur. Uşaqlar, sarı qutuya diqqətlə baxaq. Burada **K** hərfi təsvir olunub. **K** böyük hərfdir. Uşaqlar, mən sizə Z.Ustacın bir şeirini söyləyəcəyəm, qulaq asın.

*Kirpi kələmlə bir gün, Gəldi kələ-kələyə. Dedi, çəkil yolumdan, Kələm, güldü kirpiyə.*

**M:** "Uşaqlar, *kirpi, kələm, kök* sözləri hansı səslə başlayır? *(Uşaqların cavabları)*

**I. M:** "Uşaqlar, burada böyük **K** hərfi təsvir olunub. Hərfin ətrafında isə şəkillər təsvir olunub. Sağ tərəfdə yuxarıda nə təsvir olunub? *Kibrit* sözü hansı səslə başlayır? *(Uşaqların cavabları)* Bəs hərfin solunda nə təsvir olunub? *(Uşaqların cavabları)* " *(*Bu qayda ilə hər şəkildə nə təsvir olunduğunu adlandırın və bu sözün hansı səslə başlandığına diqqət edin". Uşaqlar, kələm, kök, karrtof, konfet də K səsi ilə başlayır. Hər biri yazılarkən, eyni hərflə yazılır. Amma bəzi sözləri tələffüz edərsən onlar **K** səsi kimi tələffüz edilir. İndi isə **K** hərfini rəngləyin.

**II.** Müəllim lövhədə **K** hərfini izah edə-edə yazır. Bir neçə uşaq da lövhədə tapşırığı yerinə yetirir.

**M:** "Kənara çıxmadan **K** hərfini xətt üzrə çəkin. **K** hərfinin hər tərəfində neçə şəkil təsvir olunub. Hər şəkildə nə təsvir olunduğunu bir-bir söyləyin. Söz "**K**" səsi ilə başlayırsa, həmin şəkli "**K**" hərfi ilə birləşdirin".

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:** "Uşaqlar, kitabınızın yuxarısında pazllarda söz yazılıb. Yazılan söz nədən ibarət olur? *(Hərflərdən)* Diqqətlə baxıb həmin hərfləri nümunədəki kimi rəngləyin. Sözdəki hərflərə uyğun səsləri söyləyin və yerləşdiyi xanaları nümunəyə uyğun rəngləyin. Sonra sözü oxuyun ".

**IV. M:** "Uşaqlar, bilirsiniz ki, hər bir hərfin həm böyük, həm də kiçik forması var. Hər bir hərfdə olduğu kimi, **K** hərfinin də kiçik forması var. Böyük və kiçik **k** hərfinin yazılışı eynidir. Kiçik **k** böyük hərfdən bir qədər kiçik yazılır. *(Müəllim lövhədə yazır. Uşaqlardan bir neçəsi lövhədə yerinə yetirir)* İndi isə nöqtədən başlayaraq, kənara çıxmadan xətt üzrə hərfləri çəkin".

**V. M:** "Şəkildə nə təsvir olunduğunu söyləyin. Hərfləri xətt üzrə çəkin və sözü oxuyun. Sözü uyğun şəkillə birləşdirin".

**VI. M:** "Kitabda 4 şəkil təsvir olunub. Şəkilləri adlandırın. Şəkillərin altında damada **K** və **G** hərfi yazılıb. Sözün "**K**" və ya "**G**" səsi ilə başlandığını müəyyən edin. Həmin şəkli hansı hərflə birləşdirmək lazımdır? *(Uşaqların cavabları) (Bu qayda ilə bütün şəkillər üzrə iş aparılır)* Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

**M:** – Uşaqlar, biz sizinlə hansı hərfləri öyrənmişik? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, yuxarıda nə təsvir olunub? Hər şəkildə nə təsvir olunduğunu bir-bir söyləyin. Hər şəklin altında xətlərlə sizin öyrəndiyiniz hərflər yazılıb. Gəlin həmin hərfləri bir-bir adlandıraq. Amma sözdəki birinci hərfin yeri boşdur. Sizcə, burada hansı hərf olmalıdır? Nə üçün? Həmin hərf yerinə yazılsa, nə söz alınacaq? *(Uşaqların cavabları)* İndi birinci hərfi yerinə yazın və sözləri oxuyun".

**II. M:** "Şəkildə nə təsvir olunduğunu söyləyin. (göz və köz) Birinci şəklin altındakı sözdə hansı hərf yazılmalıdır? (**K**) Niyə belə düşünürsünüz? Digər sözdə də çatışmayan hərfi tapın, yerinə yazın və sözü oxuyun".

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:** "Siz sözün əvvəlində çatışmayan hərfi müəyyənləşdirib, yerinə yazdınız. Bu tapşırıqda nə təsvir olunub? *(Uşaqların cavabları)* Pişiyin yanında isə hərflər yazılıb. Hərfləri bir-bir oxuyun. Nə alındı? *(Uşaqların cavabları)* Hansı hərf çatmır? (K) İndi siz mənə **K** hərfi sözün sonunda işlənən sözlər söyləyin".

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | | |
|---|---|---|
| | | **19-cu həftə \| ADƏTLƏR** |
| **Məşğələ 5-6. RİYAZİ VƏ MƏNTİQİ TƏFƏKKÜRÜN İNKİŞAFI** | | **Standart:** 2.3.3. |
| **Mövzu:** DAİRƏ, DÖRDBUCAQ, ÜÇBUCAQ | | **İnteqrasiya:**. 2.2.6; 1.1.4. |
| **Məqsəd:** | • Dairəni adlandırır.<br>• Dairənin xüsusiyyətlərini söyləyir.<br>• Üçbucaq və dördbucaqlını fərqləndirir.<br>• Onların fərqlərini söyləyir. | |
| **İş üsulları:** | Əqli hücum, suallar, müzakirə. | |
| **İş forması:** | Kollektiv və fərdi. | |
| **Resurslar:** | Şəkillər, rəngli karandaşlar. | |

**1-ci məşğələ**

**Motivasiya**

M:- Uşaqlar, vərəqin yuxarısında nə təsvir olunub? Tülkü nə edir? *(Uşaqların cavabları)*

Müəllim uşaqlara həndəsi fiqurlar haqqında şeir söyləyir:

*Dairə sanki bir,*
*Şara bənzəyir.*
*Kvadrat elə bil,*
*Şala bənzəyir.*
*Dördbucaqlı isə,*
*Bağda çəpərə,*
*Söylə bəs üçbucaq,*
*Nəyə bənzəyir?* (R.İbadova)

– Bu şeirdə nə ifadə olunub? *(Uşaqların cavabları)* – Nəyə əsasən bu cavabı verdiniz? İzah edin.

**Dərketmə**

**M: –** Uşaqlar, biz indi sizinlə "Məni tanı" oyununu oynayacağıq. Mən söyləyəcəyəm, siz isə tapacaqsınız.

– Mənim bucaqlarım çoxdur, amma üç tərəfim var.(üçbucaq) -Mənim bucaqlarım çoxdur, amma 4 tərəfim bərabər deyil. (düzbucaqlı) -Mənim bucaqlarım yoxdur, məni diyirlətmək olar. (dairə) *(Uşaqların cavabları)*

**M: –** Afərin, uşaqlar! Siz bütün fiqurları düzgün adlandırdınız. Gəlin bir daha hansı fiqurlarla işləyəcəyimizi sadalayaq. *(Uşaqların cavabları)*

**I. M:** "Bəli, həndəsi fiqurlar ifadə olunub. Deməli, uşaqlar, üçbucağın neçə tərəfi var? Dördbucaqlının neçə tərəfi var? Dairənin bucaqları varmı? *(Uşaqların cavabları)* Bu tapşırıqda orta hissədə həndəsi fiqurlar, kənarlarında isə əşyalar təsvir olunub. Əşyaları adlandırın. Hansı həndəsi fiqura bənzəyir? Nə üçün belə düçünürsən? *(Uşaqların cavabları)* Əşyaları formasına görə uyğun fiqurlarla birləşdirin".

**II. M:** "İkinci tapşırığa baxaq. Burada bir neçə fiqur təsvir olunub. (Hər bir fiqur üzərində müzakirə aparılır.) Xətt üzrə gedərək dördbucaqlıları göy, dairələri isə qırmızı rənglə çəkin".

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:-**Bu tapşırıqda nə təsvir olunub? (ev və günəş) Şəkillər çəkilərkən hansı həndəsi fiqurlardan istifadə olunub? *(Uşaqların cavabları)* Şəkli tamamlayın və rəngləyin. Hansı fiqurdan neçə dənədir? *(Uşaqların cavabları)*

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

Müəllim şeir söyləyir:

*–Üçbucağın bir baxın,*
*Üççə dənədir tini.*
*İndi sayın uşaqlar,*
*Onun tərəflərini.*

**M:** "Uşaqlar, cavabı söyləyin. Üçbucağın neçə tərəfi var?" *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, bilirsiniz ki, üçbucağın 3, dördbucağın 4 tərəfi var. Amma dairənin tərəfləri, bucaqları yoxdur. Birinci tapşırıqda ortada həndəsi fiqurlar təsvir olunub. Onlar hansılardır? Nə üçün belə düşünürsünüz? Həmin həndəsi fiqurların ətrafında müxtəlif əşyalar təsvir olunub. Əşyaları formasına görə adlandırın və uyğun fiqurlarla birləşdirin".

Tapşırıqları yerinə yetirərkən uşaqların fikirlərini əsaslandırmalarına nail olmaq lazımdır.

**II. M:** "Burada öyrəndiyiniz həndəsi fiqurlar təsvir olunub. Onları adlandırın. Sonra isə üçbucaqları yaşıl, dördbucaqlıları göy, dairələri isə qırmızı karandaşla çəkin."

**III. M:** "Sıradakı fiqurlara uyğun olan fiquru qırıq xətlər üzrə çəkin. Birinci sırada hansı fiqur olmalıdır? Bəs ikinci sırada hansı fiqur olmalıdır?"

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**IV. M:** "Burada fiqurlar xətlərlə və yarımçıq verilib. Fiquru tamamlayın və adını söyləyin. (*Bu qayda ilə digər xanalar üzrə iş aparılır)*

**V. M: "**Sıradakı fiqurlara uyğun olan fiquru müəyyənləşdirin və qırıq xətlər üzrə çəkərək, tamamlayın".

**VI. M:** "Burada iki sütünda həndəsi fiqurlar verilib. Hər eyni fiqurlar dəstini tapın və birləşdirin**".**

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | | |
|---|---|---|
| | | **19-cu həftə \| ADƏTLƏR** |
| **Məşğələ 7–8. TƏSVİRİ FƏALİYYƏT**<br>**Mövzu:** OTAQLAR | | **Standart:** 3.1.3; 3.1.4.<br>**İnteqrasiya:** 1.1.4; 2.2.6; 3.1.8. |
| **Məqsəd:** | • Sadə kəsib-yapışdırma bacarıqları nümayiş etdirir.<br>• Sadə yapma bacaqıqları nümayiş etdirir.<br>• Verilmiş nümunə əsasında sadə kompozisiyalar qurur.<br>• Müstəqil yaradıcılıq qabiliyyətləri nümayiş etdirir. | |

| | |
|---|---|
| **İş üsulları:** | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması:** | Kollektiv və fərdi. |
| **Resurslar:** | Şəkillər, rəngli kağızlar, karandaşlar. |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** – Uşaqlar, bu nədir? (Müəllim qabaqcadan hazırlanmış üzərində buta naxışları olan kəlağayını onlara göstərir) *(Uşaqların fikirləri dinlənilir)* Bəli, kəlağayıdır. Bəs üzərində nə naxışları var? (buta) Düzdür. Bunlar butadır.

**Dərketmə**

**I. M:** "Uşaqlar, düz dediniz, Buta bizim milli naxışlarımızdandır. Siz buta naxışını daha harada görmüsünüz? *(Uşaqların cavabları)* İndi isə biz sizinlə buta naxışını kğızdan kəsəcəyik".

(Uşaqlar işə başlamazdan əvvəl müəllim uşaqlara əvvəlcə hazır nümunəni göstərir, sonra isə onların gözü qarşısında izah edə-edə kağızdan naxışı kəsir. Sonra isə uşaqlara işə başlamağı təklif edir). Butanı kəsdikdən sonra onun üzərinə rəngli kağızlardan kiçik dairələr yapışdıracaqsınız. Rənglərin adını söyləyin. İndi isə kağızdan nümunəyə uyğun buta düzəldin". Məşğələ prosesində uşaqların əməkdaşlıq etmələrinə imkan yaradılır.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** "Uşaqlar, biz sizinlə keçən məşğələmizdə K hərfini öyrənmişik. Onu karandaşla çəkə bilirsiniz. Gəlin birlikdə əlimizlə havada **K** hərfini cızaq. İndi isə əvvəl öyrəndiyiniz hərflərdən istifadə edərək, plastilindən ***kitab*** sözünü düzəldin. Neçə hərfdən istifadə etdiniz? Bəs hansı rənglərdən istifadə etdiniz?"

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

**M:** – Uşaqlar, Novruz bayramında sinidə nə bəzəyirlər? (xonça) Siz xonçanı bəyənirsiniz? Nə üçün? Xonçada nələr olur? *(Uşaqların fikirləri dinlənilir)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, şəkillərə diqqətlə baxın. Orada nə təsvir olunub? Bəli, orada xonça və xonçaya düzülən şirniyyat təsvir olunub. İndi biz də sizinlə xonça düzəldəcəyik. İndi isə işə başlayıb xonça hazırlayaq". Müəllim uşaqlara qabaqcadan hazırladığı nümunəni göstərir. Sonra uşaqlar işə başlamazdan əvvəl kəsib-yapışdırma qaydalarını bir daha xatırladır. Sonra isə izah edə-edə işi yerinə yetirir. Sonda hər bir uşaq düzəltdiyi xonça haqqında danışır.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** "Uşaqlar, bu tapşırıqda nə təsvir olunub? (konfet) Konfetin üstündəki yazını xətt üzrə çəkərək tamamlayın, sözü oxuyun. Sonra konfeti rəngləyin".

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | |
|---|---|
| | **19-cu həftə \| ADƏTLƏR** |
| **Məşğələ 9-10. FİZİKİ MƏDƏNİYYƏT**<br>**Mövzu: ƏKİL-BƏKİL QUŞ İDİ** | **Standart:** 1.1.1.; 1.1.3.<br>**İnteqrasiya:** 4.1.2.; 4.2.2. |

| | |
|---|---|
| **Məqsəd:** | • Atıb-tutma hərəkətlərini yerinə yetirir.<br>• Hoppanma, tullanma (1 və 2 ayaqla) bacarığı nümayiş etdirir.<br>• Yeriyərkən müvazinətini saxlayır. |
| **İş üsulları:** | Müzakirə, süjetli-rollu oyunlar. |
| **İş forması:** | Kollektiv, qruplarla və fərdi iş. |
| **Resurslar:** | Uşaqların sayı qədər yaylıqlar, toplar,1 ədəd gimnastika skamyası |

**1 və 2-ci məşğələlər**

**I. İsinmə hərəkətləri** (5 dəq.)

– bir-birinin ardınca yeriş və qaçış;

– qollar yuxarıda, barmaqları açıb-bükmək və pəncə üstə yeriş;
– qollar yanlarda, biləkləri dairəvi hərəkət etdirmək və daban üstə yeriş;
– əlləri yuxarı qaldıraraq nəfəs almaq və nəfəsi buraxmaq (4–5 dəfə).
**II. Ümuminkişafetdirici hərəkətlər** (20 dəq., yaylıqlarla)
**1. "Yaylıqları göstər"** (5-6 dəfə)
ç.v.– ayaqlar çiyin bərabərində aralı, əllər yaylıqlarla aşağı salınmış vəziyyətdə.
1 *sayında* gövdəni sol tərəfə döndərib, yaylığı iki ələ irəli uzatmaq;
2 *sayında* ç.v.-ni almaq;
3 *sayında* həmin hərəkəti digər tərəfə təkrar etmək;
4 *sayında* ç.v.-ni almaq.
**2. "Yaylıqları yellə"** (5–6 dəfə).
*ç.v.* – ayaqlar çiyin bərabərində aralı, əllər beldə.
*1 sayında* sağ əli belə qoyub sol əllə yaylığı yuxarı qaldırıb, havada yelləmək;
*2 sayında* ç.v.-ni almaq;
*3 sayında* həmin hərəkətləri digər tərəfə təkrar etmək;
*4 sayında* ç.v-ni almaq.
**3. "Yaylığı sağa-sola yellə"** (5–6 dəfə)
*ç.v.* – ayaqlar çiyin bərabərində aralı, əllər yaylıqlarla aşağı salınmış vəziyyətdə.
*1 sayında* gövdəni aşağı əyərək, yaylığı sağa-sola yelləmək;
*2 sayında* ç.v.-ni almaq;
*3 sayında* əlləri yuxarı qaldıraraq, yaylığı sağa-sola yelləmək;
*4 sayında* ç.v.-ni almaq.
**4. "Yerində hoppan"** (2–3 dəfə).
*ç.v.* – ayaqlar çiyin bərabərində aralı, əllər yaylıqlarla aşağı salınmış vəziyyətdə.
*1 sayında* sol əli belə qoyaraq, sağ əli yaylıqla yuxarıda yelləyərək, iki ayaqla hoppanmaq;
*2 sayında* ç.v.-ni almaq;
*3 sayında* sağ əli belə qoyaraq, sol əli yaylıqla yuxarıda yelləyərək, iki ayaqla hoppanmaq;
*4 sayında* ç.v.-ni almaq.
**Əsas hərəkətlər.**

**1.** Atıb-tutma hərəkətləri. Topu iki əllə yuxarı atıb-titmaq. Bütün uşaqlar əllərində top dairənin ətrafında dayanırlar. Göstərişə əsasən uşaqlar topu iki əllə yuxarı atıb-tutmalıdırlar. Müəllim uşaqların topu düz atıb-tutmalarına nəzarət etməlidir.

2. Yeriş və yürüş hərəkətləri. Tir üstündə (hündürlüyü 20 sm.) uşaqlar əlləri beldə tirin üzəri ilə yeriyirlər.

**Hərəkətli oyun. "Əkil-bəkil quş idi".**

Otaqda dairə çəkilir. Uşaqlar dairə boyu üzü mərkəzə doğru düzülürlər. Onlardan biri barmağı ilə oyunçuları bir-bir göstərərək, aşağıdakı mahnını oxuyur:

*Əkil-bəkil quş idi,*
*Divara qonmuş idi.*
*Getdim onu tutmağa,*
*O məni tutmuş idi,*
*Meydana salmış idi.*
*Meydanın ağacları,*
*Bar gətirir ucları.*
*Çəpər çəkdim yol açdım,*
*Qızıl gülə dolaşdım.*
*Bir dəstə gül dərmədən*
*Nənəsi gəldi, mən qaçdım!*

Mahnının axırıncı kəlməsi hansı oyunçunun üzərində qurtarırsa, o bir ayağı üstə hoppana-hoppana dairənin daxilində qaçışan oyunçuların birini tutmağa çalışmalıdır.Oyunu bir neçə dəfə təkrar etmək olar.

**III. Sakitləşdirici hərəkətlər** (5 dəq.)
***"Şamı söndürürük"***
*ç.v.* – ayaqlar aralı, əllər yanlarda aşağı salınmış vəziyyətdə.
*1.* Nəfəsalma – əlləri tədricən yuxarı qaldırmaq.
*2.* Nəfəsvermə – qolları sərbəst sallamaqla irəliyə doğru əyilmək və üfürmək (şamı söndürmək).
*3.* Nəfəsalma – qolları yanlara açaraq başını yuxarı qaldırmaqla pəncələri üstə qalxmaq.
*4.* Nəfəsvermə – ç.v.-nə qayıtmaq. Müəllimin ardınca bir cərgədə sakit yeriş.

**Məşğələ 11–12. MUSİQİ**
**Mövzu: ƏZİZ BAYRAM**

**Standart:** 3.1.7.; 3.1.8.
**İnteqrasiya:** 4.1.2.

| | |
|---|---|
| **Məqsəd:** | • Musiqinin xarakterini müəyyən edir.<br>• Xorda oxumaq bacarıqları nümayiş etdirir.<br>• Musiqinin ritminə uyğun rəqs elementlərini yerinə yetirir. |
| **İş üsulları:** | Əqli hücum, müzakirə, suallar. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Kompüter, disk, şəkillər, bayram atributları |
| **Musiqi materialları:** | **“Marş”** M.Əhmədov, **“Novruzgülü”** Azərbaycan xalq rəqsi, **“Əziz bayram”** mahnısı (R.Şəfəq/B.Vahabzadə), “**Novruz bayramı**” (R.Şəfəq/R.Əhmədov), ), **“Gəl, gəl, a yaz günləri”** (A.Rzayeva/M.Ə.Sabir), “**Bayram axşamlarında**” (R. Mirişli/F.Qoca) |
| **Alternativ material:** | **Dinləmə:** “Darçını”, “Novruzu” Azərbaycan xalq rəqsləri, “Bənövşə” (S.Hacıbəyov/ M.Seyidzadə), “Bahar bayramı” (T.Quliyev/M.Dilbazi). “Bayram axşamlarında” (R.Mirişli/F.Qoca), “Novruz gəlib” (C.Quliyev/R.Rövşən),<br>**Mahnı:** “May” (Ş.Axundova/M.Seyidzadı, “Uşaqlar,ay uşaqlar” (C.Cahangirov/Z. Cabbarzadə), “Qaranquşlar gəldilər” (S.Rüstəmov/H.Arif), “Bahar gəlir” (F.Əmirov/Z.Cabbarzadə), “Bahar gəlir” (S.Rüstəmov/M.Seyidzadə) |

**1-ci məşğələ**

**1. Marş:** Marş. M.Əhmədov

**2. Dinləmə:** Müəllim Azərbaycan xalq rəqsləri, onların ifa ptiyomlarını yada salır. İndiyə qədər keçilən xalq rəqsləri, rəqs elementləri, qızların və oğlanların hərəkətləri təkrarlanır. “Novruzgülü” Azərbaycan xalq rəqsi, onun adı, mənası, məzmunu haqqında qısa məlumat verilir. Sonra rəqsin musiqisi səsləndirilir. Rəqs dinlədildikdən sonra müəllim uşaqlara suallarla müraciət edir: – Dinlədiyiniz rəqsin xarakteri və tempi necə idi?

– Bu rəqsi kimlər oynaya bilər, qızlar, yoxsa oğlanlar? – “Novruzgülü” rəqsini daha hansı tədbirlərdə ifa etmək olar? *(Uşaqların cavabları)*

**3. Mahnı:** “Əziz bayram” mahnısı (musiqisi R.Şəfəqin, sözləri B.Vahabzadənindir) şifahi yolla öyrədilir.

Müəllim bəstəkar, mahnı, onun məzmunu haqqında qısa məlumat verir, sonra mahnı səsləndirilir. Uşaqlar dinlədikdən sonra mahnı hissə-hissə, frazalarla öyrədilir. Tələffüzü çətin olan sözlər və melodiya üzərində iş aparılır. Sonda “Əziz bayramr” mahnısının öyrənilmiş hissəsi xorla ifa edilir, məzmunu və xarakteri müzakirə olunur.

**4. Musiqili-ritmik hərəkətlər:** “Novruz bayramı” mahnısı (musiqisi R.Şəfəqin, sözləri R.Əhmədovundur) səsləndirilir. Uşaqlar əvvəl mahnının məzmunu dinləyirlər, sonra orada olan hadisələri hərəkətləri ilə təsvir edirləe (Mahnının məzmunundakıları səhnələşdirirlər). Məşğələ ümumiləşdirilərək yekunlaşdırılır.

**Musiqi materialı:**

**“Əziz bayram”**

| | |
|---|---|
| Gəl əziz bayram,<br>Görüşək yenə.<br>Gül-çiçək səpim<br>Qədəmlərinə. | Böyükdür adın,<br>Böyükdür şanın.<br>Sənsən bağbanı<br>Bu gülüstanın |

**2-ci məşğələ**

**Marş:** “Marş” (M.Əhmədov)
**Mahnı:** “Əziz bayram” mahnısı (R.Şəfəq/B.Vahabzadə)
**Səhnələşdirmə: “Adətlərimiz” (resurs: ağac çubuqları, torba, xurcunlar, xonça, yumurtalar, süfrə, )**

| № | Musiqi materialı | Fəaliyyət |
|---|---|---|
| 1–6 | ”Gəl,gəl, a yaz günləri”,<br>“Bayram axşamlarında” | Uşaqlar sevinclə gəzişirlər. Odun üstündən tullanırlar, torba atırlar, yumurta döyüşdürürlər, süfrə hazırlayıb xonçanın ətrafında əyləşirlər, Sonra rəqs edib, yallı gedirlər |

| Məşğələ 1. ƏTRAF ALƏMLƏ TANIŞLIQ<br>Mövzu: BAYRAMLAR | Standart: 2.1.2.; 2.1.3.<br>İnteqrasiya:. 2.2.2.; 2.2.1. |
|---|---|
| **Məqsəd:** | • Verilmiş mövzu ətrafında danışır.<br>• Bayramlar haqqında danışır.<br>• Bayramlara xas xüsusiyyətləri sadalayır. |
| **İş üsulları**: | Əqli hücum, müzakirə, suallar. |
| **İş forması**: | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Bayram şənlikləri təsvir olunmuş şəkil, zərf. |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M:** – Uşaqlar, vəsaitin yuxarısındakı şəkillərə baxaq. Şəkildə nə təsvir olunub? Çoxlu hədiyyələrin olması nəyi bildirir? *(Uşaqların cavabları)*

**Dərketmə**

**M:** “Hər bir xalqın özünəməxsus bayramları olur. Bayramlar hər bir xalqın və insanın həyatında olan xüsusi günlərdir. Bayramlar insana sevinc və yüksək emosional əhval bəxş edir, hər insan üçün xoş hədiyyələr və dostlarla xoş ünsiyyət vəd edir. Tətil və xüsusi günlər bir uşaq üçün xüsusilə əhəmiyyətlidir, çünki ona yeni təəssüratlar və xoş duyğular verir, ənənələrə bağlayır, ailəsinə və dostlarına yaxınlaşdırır. Böyüdükdən sonra valideynlərinin onun üçün təşkil etdiyi uşaq bayramlarını xüsusi təəssüratla xatırlayır. Hər ailənin bayramların təşkili ilə əlaqəli öz ənənələri olur. Bəzi insanlar bayramları çox sayda qonaqla birlikdə keçirməyi bəyənirlər. Belə ailə tədbirləri dini, tarixi günlər və dövlət bayramları ilə əlaqədar, ailə üzvlərinin ad günləri münasibətilə keçirilir. Yeni il, Novruz bayramı, 28 may, 8 mart və s. kimi bayramlar keçirilir. Onların bir çoxunda uşaqlar fəal iştirak edə bilərlər. Bu birgə fəaliyyətlər hər bir uşağa müxtəlif təəssüratlar və fəaliyyətlər təqdim edir.

Azərbaycan xalq bayramları zaman-zaman müəyyən qadağalara məruz qalmasına baxmayaraq öz varlığını qoruyub saxlaya bilmiş və bu günədək gəlib çatmışdır. Hər bir xalq bayramının özünəməxsus, digər bayramlardan fərqli xüsusiyyətləri vardır. Bayram günləri keçirilən tamaşalar, oyunlar, əyləncələr, şənliklər bayrama fərdilik verməklə yanaşı, onu daha maraqlı edir və hafizələrdə uzun müddət qalmasına kömək edir. Xalq bayramları rəqs, oyun, mahnı, xalq tamaşaları kimi ünsürləri özündə əks etdirir.

**I. M:** “Uşaqlar, kitabınızdakı şəkilə baxaraq, bayram və onun əlamətləri haqqında danışın”.

**II.** Müəllim uşaqlara suallarla müraciət edir:

“– Bayram günləri adi günlərdən nə ilə fərqlənir?

– Bayrama necə hazırlaşırlar?

– Ən çox sevdiyiniz bayram hansıdır?” *(Uşaqların cavabları)*

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:** “Şəkildə bayramla əlaqəli müxtəlif əşyalar təsvir olunub. Həmin əşyaları adlandırın. Çox sevdiyiniz əşyanın altında çox, az sevdiyiniz əşyanın altında isə az sayda ulduz rəngləyin”.

**IV. M:** “Uşaqlar, bilirsiniz ki, bayramlarda hamı biri-birini təbrik edir. Təbriki üzbəüz, telefonla və bir də məktubla edirlər. Bilirsiniz məktub nədir? Məktub yazılıb zərfə qoyulur, bir ünvandan başqa ünvana göndərilir. Kitabınızda zərf təsvir olunub. Zərfin yuxari hissəsindən kimin göndərdiyi, aşağı hissəsində isə kimə göndərildiyi yazılır. İndi isə siz zərf və təbrik məktubu haqqında bildiklərinizi danışın. Sizcə, təbrik məktubunda nə yazılıb?” *(Uşaqların cavabları)*

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

20-ci həftə | BAYRAMLAR

| Məşğələ 2. BƏDİİ TƏFƏKKÜRÜN İNKİŞAFI<br>Mövzu: BAYRAM HƏDİYYƏSİ | Standart: 2.2.1; 2.2.6.<br>İnteqrasiya: 3.1.5; 3.1.8. |
|---|---|
| **Məqsəd:** | • Mövzu əsasında danışır.<br>• Dinlədiyi fikirləri anladığını nümayiş etdirir.<br>• Müstəqil yaradıcılıq qabiliyyətləri nümayiş etdirir. |

| | |
|---|---|
| **İş üsulları**: | Müzakirə, suallar, nağıletmə. |
| **İş forması**: | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Hekayənin mətni, şəkillər, karandaş. |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M: –** Uşaqlar, vəsaitinizdə şəkillərə diqqətlə baxın. Şəkillərdə nə təsvir olunub? Sizcə, burada söhbət nədən gedə bilər? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, mən sizə şəkildə təsvir olunanlara aid "Bayram hədiyyəsi" adlı hekayə söyləyəcəyəm. Mətni dinləyin. Kitabınızdakı hər şəkil mətnin bir hissəsini təsvir edir. Mən deyəndə, dinlədiyiniz hissəyə uyğun şəkli tapın və altındakı dairəni rəngləyin".

1

"8 mart qadınlar bayramı yaxınlaşırdı. Anar, Rəşad və Ülkər anaları üçün sürpriz hədiyyə hazırlamaq istəyirdilər. Uşaqlar tez-tez otaqlarına çəkilir, analarına nə hədiyyə edəcəkləri haqqında söhbət edirdilər. Onların hər biri düşündüyü hədiyyə haqqında danışırdı. Xeyli müzakirə aparır, amma bir nəticəyə gələ bilmirdilər. Bayrama isə artıq az vaxt qalmışdı".

**M:** "Uşaqlar, dinlədiyiniz hissəyə uyğun şəkli tapıb, altındakı dairəni işarə edin".

Müəllim oxumağa davam edir.

2

"Sonunda, böyük bacı Ülkər öz fikrini söylədi:

– Anamız bütün günü çalışır. Səhər hamıdan tez oyanır. Bizi məktəbə yola salır. İşdən qayıdan kimi yenə də ev işləri ilə məşğul olur. Demək olar ki, heç dincəlmir. Məncə, anamıza ev işlərində kömək etsək, istirahət üçün vaxtı çox qalar. Həm də həmin saatları birlikdə keçirərik. Rəşad və Anar bacıları ilə razılaşdılar."

**M:** "İndi isə dinlədiyiniz hissəni müəyyənləşdirib, işarə edin".

Müəllim oxumağa davam edir.

3

"Uşaqların səbirsizliklə gözlədikləri gün gəlib çatdı. Həmin gün onlar lap tezdən oyandılar. Hər kəs öz yatağını səliqəyə saldı. Masanın üzərindəki kitab-dəftəri yığışdırıb kitab rəfinə düzdülər. Ülkər qurumuş paltarları ipdən yığdı. Onları qatlayıb ütü masasının üzərinə qoydu. Rəşad həyətə düşdü. Ətrafı səliqəyə saldı. Anasının bağcada əkdiyi sevimli çiçəklərini suladı. Onlardan bir dəstə toplayıb güldana qoydu".

**M:** "Uşaqlar, dinlədiyiniz hissəyə uyğun hissəni tapıb, işarə edin."

Müəllim oxumağa davam edir.

4

"Ataları səhər yeməyi hazırlamaqda uşaqlara kömək etdi. Uşaqlar qonaq otağında bayram süfrəsi hazırladılar. Rəşadın topladığı gülləri masaya qoydular. Anar otağına qaçıb dünəndən hazırladıqları açıqcanı gətirdi. Onu güllərin arasında yerləşdirdi".

**M: "**Uşaqlar, şəkildə dinlədiyiniz hissəyə uyğun şəkli tapıb, işarə edin".Müəllim oxumağa davam edir.

5

"Ana yuxudan oyandı. Həmişəki kimi, uşaqları yuxuda oyatmaq üçün onların otağına keçdi. Heç kim yatağında deyildi. Həm də yataqlar da toplanmışdı. Ana qonaq otağına keçdi. Gözlərinə inanmadı: artıq səhər süfrəsi hazır idi. Süfrədə hər kəs öz yerini tutmuşdu. Uşaqlar analarını görcək birlikdə söylədilər: -Ana can, bayramın mübarək!

Ana onları qucaqlayıb təşəkkür etdi. Səhər yeməyindən sonra uşaqlar süfrəni toplamaqda analarına kömək etdilər. Daha sonra bütün ailə birikdə maraqlı bir filmə baxdılar. Doğurdan da, ailə ilə birlikdə vaxt keçirmək ana üçün ən qiymətli hədiyyədir".

—İdman dəqiqəsi—

**II.** Müəllim uşaqlara suallarla müraciət edir:– Ana bayram hədiyyəsini niyə bəyəndi? – Ana-ataya başqa hansı bayram hədiyyəsi etmək olar?- Siz valideynlərinizə hansı bayram hədiyyəsi edə bilərsiniz? *(Uşaqların cavabları)*

**Tətbiqetmə**

**III. M:** "Şəkildə 3 çərçivədə şəkillər verilib. Hər çərçivənin yanında açar söz yazılıb. Mən həmin açar sözü sizə söyləyəcəyəm. Siz şəkilə diqqətlə baxıb, onun məzmunu haqqında ətraflı danışacaqsınız. Danışarkən həmin açar sözü cümlədə işlədin. *(Uşaqların cavabları)*

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| Məşğələ 3–4. SAVAD TƏLİMİNƏ HAZIRQLIQ VƏ NİTQ İNKİŞAFI<br>Mövzu: R (r) SƏSİ VƏ HƏRFİ | Standart: 2.2.4.; 2.2.5.<br>İnteqrasiya: 1.1.4. |
|---|---|
| **Məqsəd:** | • **R (r)** səsini və hərfi fərqləndirir.<br>• **R** səsinin işləndiyi sözləri söyləyir.<br>• Xətt üzrə **R (r)** hərfini yazır. |
| **İş üsulları:** | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Şəkillər, karandaşlar, marker, keçirilmiş hərflər və **R** hərfi. |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** – Səhifənin yuxarısındakı şəklə baxaq. Şəkildə nə təsvir olunub? Tülkü nə edir? *(raketdə uçur).*

– Uşaqlar, psket sözü hansı səs ilə başlayır? *(Uşaqların cavabları)*

**Dərketmə**

**M:** "Bəli, R səsi ilə başlayır. R hərfindən də digər hərflər kimi sözləri yazanda istifadə olunur. Uşaqlar sarı qutuya diqqətlə baxaq. Burada **R** hərfi təsvir olunub".

Mən sizə şeir söyləyəcəyəm, qulaq asın!

*Raul əlində firça,*
*Yanaşdı molbertinə,*
*Rənglər rəngə qarışdı,*
*Oxşatdı raketinə.* (Z.Ustac)

**M:** "Eşitdiyiniz şeirdə uşaqların adı – *Raul, Rəna və raket, rəng, rəsm* sözləri **R** səsi ilə başlayır. **R** səsi ilə daha hansı sözü deyə bilərsiniz?" *(Uşaqların cavabları)*

**I. M:** "Burada böyük **R** hərfi təsvir olunub. Hərfin kənarında şəkillər təsvir olunub. Sol tərəfdə yuxarıda nə təsvir olunub? *(Uşaqların cavabları)* Bəs sağ tərəfdə nə təsvir olunub? *(Uşaqların cavabları)* Bu qayda ilə hər şəkildə nə təsvir olunduğunu söyləyin və bu sözün hansı səslə başlandığına diqqət edin. **R** hərfini rəngləyin ".

**II.** Müəllim lövhədə **R** hərfini izah edə-edə yazır. Bir neçə uşaq da lövhədə tapşırığı yerinə yetirir.

**M:** "Kitabınızda kənara çıxmadan **R** hərfini xətt üzrə çəkin. Hər şəkildə nə təsvir olunduğunu bir-bir söyləyin. Söz "**R**" səsi ilə başlayırsa, həmin şəkli "**R**" hərfi ilə birləşdirin".

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

Müəllim uşaqlara kəsmə əlifbada olan hərflərin içərisindən **R** hərfini götürüb lövhəyə qoymağı təklif edir. *(Uşaqlar yerinə yetirir)*

**III. M:** "Uşaqlar, vəsaitin yuxarısında xanalarda söz yazılıb. Diqqətlə baxıb həmin hərfləri nümunəyə uyğun rəngləyin. Sözü oxuyun".

**IV. M:** "Kənara çıxmadan xətt üzrə böyük **R** hərflərini yazın".

**V. M:** "Bu tapşırıqda xətlərlə üç sözdən ibarət cümlə yazılıb. Hər sözdəki hərfləri xətt üzrə çəkin və sözləri oxuyun. Sonda cümləni oxuyun". Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

Müəllim uşaqlara şeir oxuyur:

*Rəndə ilə yonur hey,*
*Hamarlayır taxtanı.*
*Yonqar yağır qar kimi,*
*Bürüyür dörd bir yanı.* (F.Sadıq)

**M:** "Uşaqlar, rəndə sözü hansı səs ilə başlayır? (Uşaqların cavabları) – Hamar sözündə r səsi sözün harasında işlənir?" Verilmiş əlifbanın hərflərinin arasından **R** hərfi götürülərək lövhəyə qoyulur. **R** səsinin birlikdə və tək-tək tələffüz edilməsi üzrə iş aparılır. Müəllim uşaqların diqqətini kiçik **r** hərfinə yönəldərək, deyir:

– Uşaqlar, bəs bu hansı hərfdir? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, şəklə diqqətlə baxın. Şəkildə nə təsvir olunub? *(Uşaqların cavabları)* – Uşaqlar, bilirsiniz ki, hər bir hərfin həm böyük, həm də kiçik forması var". Müəllim lövhədə kiçik **r** hərfini izah edə-edə yazır. Bir neçə uşaq da lövhədə tapşırığı yerinə yetirir. – Bu, kiçik **r** hərfidir. İndi ardıcıllığı gözləməklə, nümunəyə əsasən **r** hərfini xətt üzrə çəkin. Çəkərkən, oxun istiqamətinə diqqət yetirin".

**M:** "Uşaqlar, indi isə **R** səsi ilə başlayan sözlər söyləyin. **R** səsi ilə bitən sözlər söyləyin". *(Uşaqlar yerinə yetirirlər).*

**II. M:** "Bu tapşırıqda xətlərlə dörd sözdən ibarət cümlə yazılıb. Hərfləri xətt üzrə çəkin. Sözləri oxuyun və suala cavab verin".

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:** "Şəkildə təsvir olunanları adlandırın. "R" səsi ilə başlayan sözləri müəyyən edin, sonra həmin şəkilləri çərçivə ilə birləşdirin".

**M:** "*Tar, arı, Ramiz* sözlərində R səsi sözün hansı hissəsində işlənir?" *(Uşaqların cavabları)*

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | **20-ci həftə \| BAYRAMLAR** |
|---|---|
| **Məşğələ 5–6. RİYAZİ VƏ MƏNTİQİ TƏFƏKKÜRÜN İNKİŞAFI**<br>**Mövzu: KVADRAT, ALTINDA VƏ ÜSTÜNDƏ** | **Standart:** 2.3.3.; 2.3.2.; 2.3.4.<br>**İnteqrasiya:** 2.2.6; 1.1.4. |

| | |
|---|---|
| **Məqsəd:** | • Kvadratı adlandırır.<br>• Kvadratın xüsusiyyətlərini söyləyir.<br>• Altında və üstündə sözlərini yerində düzgün istifadə edir. |
| **İş üsulları:** | Əqli hücum, suallar, müzakirə, sujetli-rollu oyun. |
| **İş forması:** | Kollektiv və fərdi. |
| **Resurslar:** | Şəkillər, rəngli karandaşlar. |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** "Uşaqlar, vəsaitin yuxarısında nə təsvir olunub? Tülkü nə edir? Şahmat taxtasının damaları hansı formadadır? " *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Bəli, damalar dördbucaqlı formasındadır. Siz onu necə müəyyən etdiniz? *(Uşaqların cavabları)* Üçbucağı göstərin. Onun neçə tərəfi, neçə bucağı var? Bəs dördbucaqlının neçə tərəfi və bucağı var? *(Uşaqların cavabları)* Uşaqlar, mən sizə bir nağıl danışacağam. Bir dairə ilə bir üçbucaq var idi. Onlar gəzərkən kvadrata rast gəldilər. Dairə və üçbucaq qorxub, kolun dalında gizləndilər və düçündülər ki, görəsən bu nədir?"

Dairəyə oxşayır? (*yox*) Nə üçün? (*çünki, küncləri var*) Üçbucağa oxşayır? (*yox*) Küncləriini sayın(4)

Dairə dedi: Gedək soruşaq görək adı nədir? Beləliklə, onlar tanış oldular.. "Mən-dairəyəm, mənim künclərim yoxdur. Mən günəş kimiyəm, diyirlənə bilirəm." "Mən-üçbucağam. Mənim 3 küncüm və 3 tərəfim var. Mən dama oxşayıram". "Mənim adım isə kvadratdır. Sizcə, mən nəyə oxşayıram? (kubikə...)"

"Birinci tapşırıqda kvadrat, üçbucaq və dördbucaqlını göstərin. Onların hansı fərqləri olduğunu söyləyin".

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** "Bu tapşırıqda xətlərlə çəkilmiş müxtəlif həndəsi fiqurlar verilib. Xətlərin üzəri ilə gedərək, kvadratları yaşıl, üçbucaqları göy, dairələri isə qırmızı karandaşla çəkin."

"Uşaqlar, həndəsi fiqurlar haqqında bizim daha bir oyunumuz var. Oyunun adı "kvadrata oxşayanı tap" adlanır.Siz bu zənbildən kvadrata oxşayan əşyanı tapıb, götürməlisiniz. (*Uşaqlar yerinə yetirir*)"

**M: "**İndi isə tapdığınız əşyanı yuxarı qaldırın və mənə göstərin**.** Afərin uşaqlar! –İndi isə mənə deyin, biz hansı həndəsi fiqurlar haqqında danışdıq? (dairə, üçbucaq, kvadrat) -dairənin küncləri var? (*yox*) O necədir? (*girdədir*) Bəs üçbucağın neçə küncü var? (*üç*) Neçə tərəfi var? (*üç*) Kvadratın neçə küncü var? (*dörd*) Bəs neçə tərəfi var? (*dörd*) Kvadratın tərəfləri biri-birinə bərabərdir". Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

Müəllim uşaqların diqqətini vəsaitin yuxarısındakı şəklə cəlb edir və nə təsvir olunduğunu soruşur. Stolun üstündə nə var? Bəs altında nə var? Tülkü hansı tərəfə baxır? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Tapşırığa baxın. Şəkildə hədiyyələrin bəzisi stolun üstünə, bəzisi isə stolun altına qoyulub. Şəkillərin kənarında xana verilib. Masaların üstündə olan hədiyyə qutularının sayını boş xanaya yazın".

**II. M:** "İkinci tapşırıqda şkafın içində olan akvariumun üstündəki rəfd olan kitabların sayını müəyyənləşdirib, yuxarıdakı boş xanaya yazın. Akvariumun altındakı rəfdə olan fincanların sayını isə aşağıdakı boş xanaya yazın".

**III. M:** "Şəkildə orta hissədə meyvələr təsvir olunub. Meyvələrin altında və üstündə həndəsi fiqurlar təsvir olunub. Hər meyvənin altında və üstündə hansı fiqur olduğunu söyləyin".

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**IV. M:** "Tapşırıqda 4 sütunda həndəsi fiqurlar verilir. Fiqurların rənglənmə ardıcıllığını tapın və rəngləyərək davam etdirin". *(Uşaqların cavabları)*

**V. M:** "Üç çərçivədə müəyyən ardıcıllıqla düzülmüş fiqurlar təqdim olunur. Hər fiqurun altında hansı fiqurun olduğunu tapın. Sonra boş çərçivələrdə uyğun fiqurları çəkin". Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | |
|---|---|
| | **20-ci həftə \| BAYRAMLAR** |
| **Məşğələ 7–8. TƏSVİRİ FƏALİYYƏT**<br>**Mövzu: ZƏRFİN DÜZƏLDİLMƏSİ** | **Standart:** 3.1.3; 3.1.4.; 3.1.5.<br>**İnteqrasiya:**. 1.1.4; 2.2.6; 4.1.2. |

| | |
|---|---|
| **Məqsəd:** | • Kəsib-yapışdırma bacarıqları nümayiş etdirir.<br>• Sadə quraşdırma bacarıqları nümayiş etdirir.<br>• Yapma bacarıqları nümayiş etdirir. |
| **İş üsulları:** | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması:** | Kollektiv və fərdi. |
| **Resurslar:** | Şəkillər, kağızlar, plastilin, rəngli karandaşlar, qayçı, yapışqan, rəngli kağız, fırça və s.) |

**1-ci məşğələ**

**Motivasiya**

**M: –** Uşaqlar, əşya nədir? Hansı əşyaları sadalaya bilərsiniz? *(Uşaqların fikirləri dinlənilir)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, biz sizinlə zərf haqqında danışmışdıq. Zərf nə üçündür? *(Uşaqların cavabları)* Düzdür, biz indi sizinlə kağızdan zərf düzəldəcəyik. Biz indi hansı əşyalardan istifadə edəcəyik? (*Uşaqların cavabları*)". Müəllim uşaqlara əvvəldən düzəltdiyi nümunəni göstərir, sonra onların gözü qarşısında izah edə-edə zərfi kəsib-yapışdırır. Daha sonra isə rəngli kağızlardan istifadə edərək, naxışlar əlavə edir. Uşaqlara işləməyi təklif edir. Məşğələ prosesində onlara istiqamət verir, uşaqların əməkdaşlıq etmələrinə imkan yaradır.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** "Uşaqlar, biz sizinlə bir çox hərfləri öyrənmişik. Onları karandaşla yaza bilirsiniz. İndi isə biz sizinlə plastilindən istifadə edərək, "şəkərbura" sözünü düzəldəcəyik". Uşaqlar işlərini bitirdikdən sonra hərfləri bir-bir adlandırır, sonda sözü tam oxuyurlar. Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

**M:** "Uşaqlar, bayramlarda biri-birini təbrik edərkən, ona nə bağışlamaq olar? *(Uşaqların fikirləri dinlənilir*)

**Dərketmə**

**I. M:** "Uşaqlar, biz sizinlə açıqca düzəldəcəyik. Şəkillərə diqqətlə baxın. Orada açıqcanı düzəltmək qaydası göstərilir".

Uşaqlar işə başlamazdan əvvəl müəllim əvvəlcədən hazırladığı nümunəni göstərir, sonra isə uşaqların gözü qarşısında izah edə-edə yerinə yetirir. Sonra uşaqlara işə başlamağı təklif edir. İş prosesində uşaqlara fərdi yanaşır.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**M:** "Uşaqlar, indi isə düzəltdiyiniz açıqcaların kənarlarını naxışlayıb, rəngləyəcəyik. Sonra siz kimi təbrik etmək istəsəniz ona verərsiniz".

**II. M:** "Uşaqlar, bizim çoxlu açıqcamız var. Amma onlar həm yarımçıq, həm də rəngsizdir. Xətlər üzrə çəkməklə açıqcanın kənarlarını çəkin və rəngləyin". Müəllim nümunəni uşaqlara göstərir və açıqcanın kənarlarını çəkərək, rəngləmələrini tapşırır. Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | | |
|---|---|---|
| | | **20-ci həftə \| BAYRAMLAR** |
| **Məşğələ 9–10. FİZİKİ MƏDƏNİYYƏT**<br>**Mövzu: QIŞ ƏYLƏNCƏLƏRİ** | | **Standart:** 1.1.1.; 1.1.3.<br>**İnteqrasiya:** 4.1.2.; 4.2.2. |
| **Məqsəd:** | • Yeriş və yürüş yerinə yetirir.<br>• Topla müxtəlif hərəkətləri yerinə yetirir.<br>• Yeriyərkən müvazinətini saxlayır. | |
| **İş üsulları**: | Müzakirə, süjetli-rollu oyunlar. | |
| **İş forması:** | Kollektiv, qruplarla və fərdi iş. | |
| **Resurslar:** | Uşaqların sayı qədər toplar. | |

**1 və 2-ci məşğələlər**

**I. İsinmə hərəkətləri** (5 dəq.)
**–** Biri-birinin ardınca yeriş, pəncə üstə (əllər başın arxasında) daban üstə (əllər beldə)
– yarım oturaq halda yeriş
– yüngül, asta "ilanvari" qaçış, hər iki ayaqla irəli tullanma
– tənəffüz hərəkətləri ilə yeriş yerinə yetirmək.

**II. Ümuminkişafetdirici hərəkətlər** (20 dəq.)

**1. "İstilənək"** (5-6 dəfə**).**
*ç.v.* – topun üstündə oturmaq, qolları yanlara açmaq.
*1 sayında* nəfəs alaraq, özünü qucaqlamaq,
*2 sayında* ç.v.-ni almaq;
*3 sayında* nəfəs verərək-qolları aşağı salmaq;
*4 sayında* ç.v.-ni almaq.

**2. "Sürüşkən".(6 dəfə)** (top qar topasını əvəz edir)
*ç.v.* – topun üstünə qarnı üzərində uzanmaq, qollar yanlarda.
*1 sayında* nəfəs alaraq-topun üzəri ilə geri diyirlənmək, qolları yanlara açmaq;
*2 sayında* ç.v.-ni almaq;
*3 sayında* nəfəs verərək- topun üzəri ilə irəli diyirlənmək, qolları yanlara açmaq;
*4 sayında* ç.v.-ni almaq.

**3. "Topla fırlanaq**" (4 dəfə).
*ç.v.* – qaməti düz saxlamaqla, ayaqlar bir qədər aralı, əlləri aşağıda.
*1 sayında* müəllimin "topla fırlanaq" işarəsilə sol əli belə qoyub, sağ əldə topla yuxarı qaldırmaq və yerində sol tərəfə fırlanmaq;
*2 sayında* ç.v.-ni almaq.
*3 sayında* həmin hərəkəti digər tərəfə eynilə təkrar etmək;
*4 sayında* ç.v.-ni almaq.

**4. "Topları gizlədək"** (4 dəfə).
*ç.v.* – qaməti düz saxlamaqla, ayaqlar çiyin bərabəri aralı, əlləri topla aşağıda tutmaq.
*1 sayında* ayaqları dizdən bükərək, çöməlmək. Müəllimin "topları gizlədək" işarəsilə gövdəni sol tərəfə döndərib, topu arxada döşəməyə qoymaq;
*2 sayında* ç.v.-ni almaq.
*3 sayında* gövdəni sağ tərəfə döndərib, hərəkəti eynilə təkrar etmək;
*4 sayında* ç.v.-ni almaq.

**5. "Rahatlanın"**
*ç.v.* – topun üstündə oturmaq, qollar yanlarda.
Topun üstündə yırğalanmaq və sərbəst nəfəs almaq.
Asta-asta fırlanmaq –"Qar dənəcikləri" əvvəlcə bir tərəfə, sonra isə digər tərəfə fırlanır.

**Hərəkətli oyun. "Qar topu"**
Müəllimin oxuyur:
Ağır-ağır ağ qar yağır,
Göydə uçur, yerə düşür.
"Qar dənəcikləri" uşaqlar otaq üzrə qaçışırlar. Uşaqlar "qardan" "qar topu" düzəldərək, biri-birinə ataraq, əylənirlər. Müəllimin: -daha qar yağmır! işarəsi ilə oyun bitir.

**III. Sakitləşdirici hərəkətlər** (5 dəq.)
***"Döşəməni rəngləyirik"***
*ç.v.* – ayaq üstə dayanıb qolları dirsəkdən bükmək, ovcunda "qar" tutmaq.

1. Nəfəsalma – sağ əli irəli uzadıb "qarı" yerə atmaq;
2. ç.v-nə qayıtmaq.
3. Nəfəsvermə – sol əli irəli uzadıb "qarı" yerə atmaq;
4. ç.v-nə qayıtmaq.

Müəllimin ardınca bir cərgədə sakit yeriş.

| | |
|---|---|
| **Məşğələ 11–12. MUSİQİ**<br>**Mövzu: ANAMI İNCİTMİRƏM** | **20-ci həftə \| BAYRAMLAR**<br>**Standart:** 3.1.7.; 3.1.8.; 3.1.9<br>**İnteqrasiya:** 2.1.2.; 2.1.3.; 4.2.2. |
| **Məqsəd:** | • Musiqinin xarakterini müəyyən edir.<br>• Xorda oxumaq bacarıqları nümayiş etdirir.<br>• Musiqinin ritminə uyğun zərb musiqi alətlərində müşayiət yaradır. |
| **İş üsulları**: | Əqli hücum, müzakirə, suallar. |
| **İş forması**: | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Kompüter, disk, şəkillər, sadə zərb musiqi alətləri<br>**Marş.** M.Əhmədov, **"Dogum gününə marş"** fortepiano pyesi (Q.Qarayev), **"Anamı incitmirəm"** mahnısı (O.Zülfüqarov/H.Ziya), **"Ana laylası**" ( O.Zülfüqarov/R.Zəka), **"Ana"** (A.Babayev/İ.Səfərli)<br>**Dinləmə**: **"Güllər"** (R.Mustafayev/T.Mtəllibov), **"Dünyamızın anası"** (R.Şəfəq/İ.Tapdıq), **"Bayram olsun"** (O.Rəcəbov/R.Heydər), **"Anaları təbrik edək"** (O.Zülfüqarov/H.Mahmudov)"<br>**Mahnı**: **"Anacan"** (R.Rüstəmov/R.Zəka), **"Ana"** (O.Rəcəbov/Ə.Ağayev), **"Ana"** (E.Dadaşova/S.Tağıyeva) |
| **Musiqi materialları:** | Kompüter, disk, şəkillər, sadə zərb musiqi alətləri<br>**Marş.** M.Əhmədov, **"Dogum gününə marş"** fortepiano pyesi (Q.Qarayev) **"Anamı incitmirəm**" mahnısı (O.Zülfüqarov/H.Ziya), **"Ana laylası"** (O.Zülfüqarov/R.Zəka), **"Ana"** (A.Babayev/İ.Səfərli)<br>**Dinləmə**: "Güllər" (R.Mustafayev/T.Mtəllibov), "Dünyamızın anası" (R.Şəfəq/İ.Tapdıq), "Bayram olsun" (O.Rəcəbov/R.Heydər), "Anaları təbrik edək" (O.Zülfüqarov/ H.Mahmudov)"<br>**Mahnı**: "Anacan" (R.Rüstəmov/R.Zəka), "Ana" (O.Rəcəbov/Ə.Ağayev), "Ana" (E.Dadaşova/S.Tağıyeva) |
| **Alternativ material:** | Kompüter, disk, şəkillər, sadə zərb musiqi alətləri<br>**Marş.** M.Əhmədov, **"Dogum gününə marş"** fortepiano pyesi (Q.Qarayev) **"Anamı incitmirəm"** mahnısı (O.Zülfüqarov/H.Ziya), **"Ana laylası"** (O.Zülfüqarov/ R.Zəka), **"Ana"** (A.Babayev/İ.Səfərli)<br>**Dinləmə**: "Güllər" (R.Mustafayev/T.Mtəllibov), "Dünyamızın anası" (R.Şəfəq/İ.Tapdıq), "Bayram olsun" (O.Rəcəbov/R.Heydər), "Anaları təbrik edək" (O.Zülfüqarov/H. Mahmudov)"<br>**Mahnı**: "Anacan" (R.Rüstəmov/R.Zəka), "Ana" (O.Rəcəbov/Ə.Ağayev), "Ana" (E.Dadaşova/S.Tağıyeva) |

**1-ci məşğələ**

**1. Marş: Marş.** M.Əhmədov

**2. Dinləmə:** Müəllim pyes, fortepiano, instrumental musiqi anlayışlarını yada salır. Q.Qarayevin "Dogum gününə marş" pyesi haqqında qısa məlumat verir, müəllifinin adını söyləyir, şəklini uşaqlara göstərir. Sonra "Doğum gününə marş " fortepiano pyesini səsləndirir. Əsəri dinlədikdən sonra müəllim uşaqlara suallarla müraciət edir: – Dinlədiyiniz musiqinin xarakteri necə idi? -Bu musiqidə nədən bəhs edilir?

– Marş xarakterli musiqilər daha hansı günlərdə səslənə bilər? *(Uşaqların cavabları)*

**3. Mahnı:** "Anamı incitmirəm"mahnısı (O.Zülfüqarov/H.Ziya ) şifahi yolla öyrədilir.

Müəllim beynəlxalq qadınlar günü, bəstəkar, mahnı, onun məzmunu haqqında qısa məlumat verir, sonra mahnını səsləndirir. Uşaqlar dinlədikdən sonra mahnı hissə-hissə öyrədilir samit səslər ("s","ç", "c") və melodiya üzərində iş aparılır. Sonda "Anamı incitmirəm"mahnısının öyrənilmiş hissəsi xorla ifa edilir, məzmunu və xarakteri və tempi müzakirə olunur.

**4. Musiqili-ritmik hərəkətlər:** Uşaqlar iki qrupa ayrılır. Bir qrupa sadə zərb musiqi alətləri paylanır. Pyesi ”Doğum gününə marş”pyesi təkrar səsləndirilir. Zərb musiqi alətləri olan uşaqlar musiqinin ritminə uyğun zərb alətlərində müşayiət yaradırlar qalanları isə marş musiqisinə uyğun yerlərundə addımlayırlar. Sonra uşaqlar yerlərini dəyişərək fəaliyyətlərini təkrarlayırlar. Məşğələ ümumiləşdirilərək yekunlaşdırılır

**Musiqi materialı:**

**“Anamı incitmirəm”**

| | | |
|---|---|---|
| Anam çox mehribandır,<br>Mənimlə canhacandır.<br>“Gəl” deyəndə gəlirəm,<br>“Getmə”desə getmərəm. | *Nəq.*<br>Bunu hamı bilir ki,<br>Anamı incitmirəm. | Boynumu qucaqlayır,<br>Başımı sığallayır<br>Hər sözünə baxıram<br>Onsuz heçnə etmirəm |

**2-ci məşğələ**

**Marş:** Marş (M. Əhmədov)
**Mahnı:** “Anamı incitmirəm” (O.Zülfüqarov/H.Ziya),
**Səhnələşdirmə:** “Bayram hədiyyəsi” (resurs: paltar, ütü,süpürgə, toz silmək üçün dəsmal, süfrə

| № | Musiqi materialı | Fəaliyyət |
|---|---|---|
| 1, 2 | “Ana laylası” | Uşaqlar söhbət edirlər. Ev işləri görürlər. Kim isə paltar qatlayır,ütüləyir, ev süpürür,mebellərin tozunu silir, xörək bişirir və s. |
| 3, 4, 5, 6 | “Ana” | Ata da onlara kömək edir və bir yerdə süfrə hazırlayırlar. Ana gəlir, cöx sevinir və uşaları qucaqlayır |

| | 21-ci həftə \| PEŞƏLƏR |
|---|---|
| **Məşğələ 1. ƏTRAF ALƏMLƏ TANIŞLIQ**<br>**Mövzu: BÜTÜN PEŞƏLƏR YAXŞIDIR** | **Standart:** 2.1.4.; 2.1.2.<br>**İnteqrasiya:** 2.2.1.; 2.2.6. |

| | |
|---|---|
| **Məqsəd:** | • Tanıdığı peşələri sadalayır.<br>• Hər bir peşənin funksiyası və əhəmiyyətli haqqında danışır.<br>• Nitqində əlamət bildirən sözlərdən istifadə edir. |
| **İş üsulları:** | Əqli hücum, müzakirə, suallar. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Müxtəlif peşələr təsvir olunmuş şəkil və karandaşlar |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M:** – Uşaqlar, kitabınızda yuxarıdakı şəklə baxın. Burada nə təsvir olunub? Sizcə, burada söhbət nədən gedir? (*uşaqların fikirləri dinlənilir)*

**Dərketmə**

**I. M:** – “Bəli, uşaqlar! Burada söhbət peşələr haqqında olacaq. Peşə – xüsusi hazırlıq və iş təcrübəsi nəticəsində biliklərə və təcrübəyə yiyələnmiş insanın əmək fəaliyyətidir. Hələ lap qədimlərdən əməyin ilk bölgüsü insanların heyvandarlıqla və əkinçiliklə məşğul olması ilə başlandı. Müxtəlif məhsulların əldə edilməsinə ehtiyac yeni peşələrə ehtiyac yaratdı. Bu peşə sahibləri müxtəlif əmək məhsullarının istehsalı ilə məşğul olmağa başladılar. Sonrakı inkişaf nəticəsində müxtəlif sənətlər və sənətkarlar, ovçular, dəmirçilər, daşyonanlar, xarratlar, dərzilər və sairə meydana cıxdı və bu da əmək bölgüsündə növbəti mühüm mərhələ oldu. Hər bir peşə müəyyən qabiliyyət tələb edir, peşələrin hamısı üçün isə zəruri olan qabiliyyətin olması vacibdir. Müəyyən peşəni öyrənmək və bu sahədə uğurla çalışmaq üçün dəqiqlik, intizamı, məsuliyyət tələb olunur. Hər bir şəxsin peşə seçimində diqqətli olmaları, şəxsi keyfiyyətlərini, qabiliyyətlərini, xüsusiyyətlərini araşdırmaqla seçim aparmaları vacibdir. Bu gün biz sizinlə peşələr, onların hansının ən vacibi haqqında danışacaıq. Biz bilirik ki, çox sayda peşələr var: müəllim, həkim, rəssam, mühəndis, yanğınsöndürən, fermer, pilot, sürücü və s. bu sənətlərin hər biri çox lazımlı və şərəflidir. Siz hansı peşələri sadalaya bilərsiniz? *(Uşaqların cavabları)* Mən sizə "Hansı peşəni seçim?" şeirindən bir bənd söyləyəcəyəm.

*Gərək mən qərar verim,*
*Özümə peşə seçim.*
*Hansı sənət yaxşıdır,*
*Hansı peşəni seçim?”* (Gülzar İbrahimova)

**M: –**Sizin üçün ən maraqlı peşələr haqqında danışın.Siz hansı peşəni seçərdiniz? *(Uşaqların cavabları)*

– Kim həkim olmaq istəyir? – Kimin atası polisdir? – Kimin anası müəllimdir? – Kim rəssam peşəsi haqqında danışmaq istəyir? – Kənd yerləri üçün hansı sənət vacibdir? *(Uşaqların cavabları)*

**II.** Müəllim uşaqlara suallarla müraciət edir: "– Şəkildə hansı peşə sahibləri təsvir olunub? – Onlar harada işləyirlər? – Hansı peşə alətlərini tanıyırsınız? "*(Uşaqların cavabları)*

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:** "Şəkildə dörd çərçivədə müxtəlif peşə sahibləri təsvir olunub. Alt hissədə isə həmin peşələrə uyğun alətlər təsvir olunub. Birinci şəkildə hansı peşə sahibi təsvir olunub? O, hansı alətlərdən istifadə edir? *(Uşaqların cavabları) (Digər şəkillər üzrə də belə iş aparılır)* Peşə və alətlərin adını söyləyin. Şəkilləri uyğun alətlərlə birləşdirin".

**III. M:** "Bu tapşırıqda da müxtəlif peşə sahibləri təsvir olunub. Kimin hansı peşə sahibi olduğunu söyləyin və onları uyğun iş yerləri ilə birləşdirin". Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | |
|---|---|
| | **21-ci həftə \| PEŞƏLƏR** |
| **Məşğələ 2. BƏDİİ TƏFƏKKÜRÜN İNKİŞAFI**<br>**Mövzu: YAŞAR SƏNƏT SEÇİR** | **Standart:** 2.2.2; 2.2.6.<br>**İnteqrasiya:** 2.1.2; 2.1.4. |

| | |
|---|---|
| **Məqsəd:** | • Mövzu əsasında danışır.<br>• Şəkil əsasında fikrini sadə şəkildə ifadə edir.<br>• Nitqində əlamət bildirən sözlərdən istifadə edir. |
| **İş üsulları:** | Müzakirə, suallar, nağıletmə. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Şeirin mətni, şəkillər. |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M: –** Uşaqlar, vəsaitinizdə şəkillərə diqqətlə baxın. Şəkildə nə təsvir olunub? Sizcə, burada söhbət nədən gedə bilər? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, mən sizə şəkildə təsvir olunanlara aid **"Yaşar sənət seçir**" şeirini söyləyəcəyəm. Siz isə şəkillərə baxaraq mətni dinləyin. Hər şəkil mətnin bir hissəsini əks etdirir. Mən deyəndə dairəni rəngləməklə, dinlədiyiniz məlumatları əks etdirən şəkli qeyd edin".

1

"Kiçik Yaşar hər gün tezdən oyanır.
Sərhəd qurur, keşiyində dayanır.
Gah atılır əlindəki avtomat,
Gah kişnəyir, altındakı köhlən at.
Sərhədçidir, yaşıl papaq başında.
Sərhədçidir, Yaşar düz beş yaşında."

**M: –** Eşitdiyinizə əsasən şəkildə uyğun hissəni qeyd edin.

2

"Neçə gündür maşın sürür: du-du-du.
Yəqin ki, bu, təzəcə bir arzudu,
Maşınında keçir uzaq yolları,
Qovur qaçan ağacları, kolları.
Bu sürücü yaxşı sürür maşını,
Bitirməyib hələ altı yaşını."

**M:** – Bu məlumata əsasən şəkildə uyğun hissəni qeyd edin.

3

"Yenə nədi səs-küy qopub həyətdə.
Elə bil ki, arılardı pətəkdə:
– Qapıya vur!!! Vurmadın bu topu da!...
– Necə vurum, Yaşar durub qapıda?!
Qapıçının cəmi yeddi yaşı var.
Bu gün onun həyətdə çox işi var."

**M:** – Məzmuna uyğun hissəni qeyd edin.

4

"– Bəs o nədir, çarpayıdan asdığı?
– Yumruqlayır səhər-axşam yastığı.
Neçə gündür boksa salıb meylini,
Əlcəklərdən çıxarmır heç əlini.".

**M:** – Uyğun hissəni qeyd edin.

5

"– Ata, ata! xəbərin var, xəbərdən?
Bizim Yaşar şeir yazır səhərdən.
Xəstə kimi nə çay içir, nə yeyir...

– Oxu görüm, nə deyir?
– "Xəzər, Xəzər, mənim doğma dənizim!
Sularını çox sevirəm, əzizim!".

**M:** – Məzmuna uyğun hissəni qeyd edin.

6

– Ata,ata!Yaşar söküb saatı...
– Ata, ata! Görürsən bu xarratı?!

Sənət seçir, kömək edin Yaşara
Bir iş tapsın, yoxsa qalar avara.

**II.** Müəllim uşaqlara suallarla müraciət edir:
"– Yaşar özünə uyğun sənət seçə bildimi?
– Yaşara sənət seçmək niyə çətin oldu?
– Sən Yaşarın yerində olsaydın, hansı sənəti seçərdin?" *(Uşaqların cavabları)*

—İdman dəqiqəsi—

**Tətbiqetmə**
**III. M:** "Şeirdə Yaşar hansı sənətləri seçmək istəyirdi?" *(Uşaqların cavabları)*
**IV. M: "**Şəkillərdə Yaşar əlində nə tutur? Səncə, Yaşar başqa hansı sənətləri seçmək istəyərdi**?"**
Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | |
|---|---|
| | **21-ci həftə \| PEŞƏLƏR** |
| **Məşğələ 3–4. SAVAD TƏLİMİNƏ HAZIRLIQ VƏ NİTQ İNKİŞAFI**<br>**Mövzu: Q (q) SƏSİ VƏ HƏRFİ** | **Standart:** 2.2.4.; 2.2.5.<br>**İnteqrasiya:** 1.1.4.; 2.1.2. |

| | |
|---|---|
| **Məqsəd:** | • Q hərfini və səsini fərqləndirir.<br>• Verilən səs üzrə sözlər sözlər söyləyir.<br>• Verilmiş mövzu ətrafında danışır. |
| **İş üsulları**: | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması**: | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Şəkillər, karandaşlar, marker, hərflər. |

**1-ci məşğələ**

**Motivasiya**
**M:** – Səhifənin yuxarısındakı şəklə baxaq. Şəkildə nə təsvir olunub? Tülkünün əlində nə var? *(Uşaqların cavabları)* **Qab** sözü hansı səslə başlayır?
**Dərketmə**
**I. M:** "**Q** hərfindən də digər hərflər kimi sözləri yazanda istifadə olunur. Uşaqlar, sarı qutuya diqqətlə baxaq. Burada həm böyük **Q,** həm də kiçik **q** hərfi təsvir olunub. **Q** böyük hərfdir.
**M: –** "Uşaqlar, baxın, burada böyük **Q** hərfi təsvir olunub. Hərfin ətrafında isə şəkillər var... *(Bu hərfin öyrədilməsi də əvvəlki dərslərdə olduğu kimi aparılır).* "**Q**" hərfini rəngləyin".
**II.** Müəllim lövhədə **Q** hərfini izah edə-edə yazır. Sonra bir neçə uşaq lövhədə tapşırığı yerinə yetirir. Digər uşaqlar vəsaitdə xətt üzrə **Q** hərfini çəkirlər. "**Q**" hərfini xətt üzrə çəkin. Hər şəkildə nə təsvir olunduğunu bir-bir söyləyin. Söz "Q" səsi ilə başlayırsa, həmin şəkli "**Q**" hərfi ilə birləşdirin". Müəllim uşaqlara kəsmə əlifbada olan hərflərin içərisindən **L** hərfini götürüb lövhəyə qoymağı təklif edir. *(Uşaqlar yerinə yetirir).*
**III. M:** "Uşaqlar, vəsaitin yuxarısında xanalarda sizin öyrəndiyiniz hərflərdən sözlər yazılıb. Sözdəki hərflərə uyğun səsləri söyləyin və yerləşdiyi xanaları nümunəyə uyğun rəngləyin. Sonra isə sözü oxuyun".

—İdman dəqiqəsi—

**Tətbiqetmə**
**IV. M:** "Kənara çıxmadan xətt üzrə hərfləri çəkin".
**V. M:** "Kitabınızda xətlər üzrə söz yazılıb. Hərfləri xətt üzrə çəkin və sözü oxuyun. Sözü uyğun şəkillə birləşdirin".
**VI. M:** "Vəsaitdə şəkillər təsvir olunub. Şəkillərdə nə təsvir olunduğunu söyləyin. Q səsinin sözün əvvəlində, ortasında və sonunda işləndiyini müəyyən edin, həmin şəkli uyğun çərçivə ilə birləşdirin".
Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

## 2-ci məşğələ

**Motivasiya**
**Müəllim şeir söyləyir:**
*Qu quşu qurbağanı,*
*Gördü göl qırağında.*
*Qurbağa oxuyurdu,*
*Kefində, damağında.*
– **Qurbağa** sözü hansı səslə başlayır? *(Uşaqların cavabları)*
Hərflərin arasından **Q** hərfi götürülərək lövhəyə qoyulur. Müəllim uşaqların diqqətini kiçik **q** hərfinə yönəldərək deyir:-– Uşaqlar, bilirsiniz ki, hər bir hərfin həm böyük, həm də kiçik forması var.
**Dərketmə**
**I. M:** "Uşaqlar, bu, kiçik **q** hərfidir. "**q**" hərfilə tanış olun və onu xətt üzrə çəkin". *(Hərfin öyrədilməsi əvvəlki məşğələlərdə olduğu kimi aparılır).*
**II. M:** "Bu tapşırıqda müxtəlif hərflər yazılıb. Hərflərə uyğun səsləri söyləyin. Hansı hərflərdə çərçivədəki hissələrin hər ikisi var? Həmin hərfləri haşiyəyə alın?" Bütün hərflər bu qayda ilə müəyyən olunur.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**
**III. M**: "Yuxarıdakı sırada olan hərfləri xətt üzrə çəkin və hər birini adlandırın. Yuxarı və aşağı sıralarda eyni hərfləri tapıb birləşdirin".
**IV. M: "**Bu tapşırıqda xətlərlə dörd söz yazılıb və bir şəkil verilib. Hərfləri xətt üzrə çəkin və sözləri oxuyun. Hansı sözün şəkli var?" *(Uşaqların cavabları)* Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | 21-ci həftə \| PEŞƏLƏR |
|---|---|
| **Məşğələ 5–6. RİYAZİ VƏ MƏNTİQİ TƏFƏKKÜRÜN İNKİŞAFI** | **Standart:** 2.3.2.; 2.3.4. |
| **Mövzu:** ÖNÜNDƏ-ARXASINDA VƏ İÇİNDƏ-XARİCİNDƏ | **İnteqrasiya:** 2.2.6.; 2.1.2. |

| | |
|---|---|
| **Məqsəd:** | • Önündə, arxasında, içində, xaricində sözlərini yerində düzgün istifadə edir.<br>• İfadələrə əsasən əsasən əşyanın yerini müəyyənləşdirir. |
| **İş üsulları:** | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması:** | Kollektiv və fərdi. |
| **Resurslar:** | Şəkillər, karandaşlar. |

## 1-ci məşğələ

**Motivasiya**
**M:** – Uşaqlar, vəsaitin yuxarısında nə təsvir olunub? Tülkü harada dayanıb? Bəs toyuq haradadır? Sarı qutuya baxaq. Orada nə təsvir olunub? *(Uşaqların cavabları)*
**Dərketmə**
**I. M:** "Bəli, tülkü hasarın arxasında, toyuq isə önündə dayanıb. Birinci tapşırıqda hasar və onun hər iki tərəfində ağaclar təsvir olunub. Hasarın yanında iki boş xana təsvir olunub. əvvəlcə hasarın arxasındakı ağacları sayın və üstdəki xanaya yazın. Sonra isə hasarın önündəki ağacların sayını altdakı boş xanaya yazın".
**II. M:** "Şəkildə üç çərçivədə kvadratla top təsvir edilib. Hər çərçivədə boş xana təsvir olunub. Top kubun arxasında olan çərçivəni müəyyənləşdirin və onun yanındakı xanaya "**A**"hərfini, top kubun önündə olan çərçivədə isə yanındakı xanaya "**Ö**" hərfini yazın".

—İdman dəqiqəsi—

**Tətbiqetmə**
**M:** "Uşaqlar, biz sizinlə "Adını söylə" oyununu oynayacağıq. *(Uşaqlar iki sıraya düzülürlər. Müəllimin işarəsi ilə hər bir uşaq onun önündə və ya arxasında dayanan uşağın adını söyləməlidir. Məsələn, mənim önümdə aysel dayanıb. Mənim arxamda Murad dayanıb və s.)* Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

## 2-ci məşğələ

**Motivasiya**
Müəllim uşaqların diqqətini kitabın yuxarısındakı şəklə cəlb edir və nə təsvir olunduğunu soruşur: "Şəkildə quş qəfəsin hansı hissəsində dayanıb? əvvəl harada olub?*(Uşaqların cavabları)* Sarı qutuya baxaq. Orada nə təsvir olunub? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Tapşırığa baxın. Burada qəfəsin içində və xaricində quşlar təsvir olunub. Qəfəsin içindəki quşların sayını qırmızı, xarıcindəki quşların sayını isə göy çərçivəyə yazın". *(Uşaqların cavabları)*

**II. M:** "Bu tapşırıqda penalın içində və xaricində karandaşlar çəkilib. Penalın içindəki karandaşların sayını qırmızı, yanındakı karandaşların sayını isə göy çərçivəyə yazın".

**III. M:** "Bu tapşırıqda dayanacaqda avtobus təsvir olunub. Avtobusun içində və xaricində sərnişinlə var. Avtobusun içindəki sərnişinlərin sayını qırmızı, xaricindəki sərnişinlərin sayını isə göy çərçivəyə yazın".

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**IV. M:** "Bu tapşırıqda müxtəlif rəngli həndəsi fiqurlar verilir. Hər sırada axırıncı tapşırıq tamamlanmayıb. Sonuncu fiqurları tamamlayın".

**V. M:** "Bu tapşırıqda cəmi 7 alma var. Vazada olan almalara görə ardıcıllığı müəyyən edin. Sonuncu şəkildəki vazanın içində neçə alma olacaq? Bəs xaricində neçə alma olacaq? Vazanın içində olacaq almaların sayını qırmızı, xaricində olacaq almaların sayını isə göy çərçivəyə yazın".

**VI. M:** "Bu tapşırıqda 4 çərçivədə kvadratlar təsvir olunub. Hər şəkildəki kvadratların sayını altındakı xanaya yazın" Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**21-ci həftə | PEŞƏLƏR**

**Məşğələ 7–8. TƏSVİRİ FƏALİYYƏT**
**Mövzu: AŞPAZ VƏ HƏKİM PAPAĞININ DÜZƏLDİLMƏSİ**

**Standart:** 3.1.3.; 3.1.4.
**İnteqrasiya:** 1.1.4.; 2.2.6.; 4.2.3.

| | |
|---|---|
| **Məqsəd:** | • Kəsmə üsulu ilə yaradıcılıq bacarıqları nümayiş etdirir.<br>• Sadə yapma bacarıqları nümayiş etdirir. |
| **İş üsulları**: | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması:** | Kollektiv və fərdi. |
| **Resurslar:** | Şəkillər, kağızlar, plastilin, rəngli karandaşlar, qayçı, yapışqan, rəngli kağız, fırça və s.) |

**1-ci məşğələ**

**Motivasiya**

**M: –** Uşaqlar, siz tezliklə böyüyəcəksiniz. Məktəbi, sonra institutu bitirəcəksiniz. Sonra isə işləyəcəyiniz sahə üzrə peşə seçəcəksiniz. Bildiyiniz peşələri sadalayın. *(müəllim, həkim, aşpaz, mühəndis, yanğınsöndürən, bərbər) (Uşaqların fikirləri dinlənilir)*

**Dərketmə**

**I. M:** "Bəli, uşaqlar. Bunlardan başqa da peşələr var. Bütün peşələr vacibdir. Mən sizə bir şeir söyləyəcəyəm:

*Aşpaz olmaq istəsən,*
*Bu sənəti sevməlisən.*
*Dadlı yeməklər bişirib,*
*Süfrələrə verməlisən!*

Şeir hansı peşə haqqındadır? (Aşpaz) Aşpazlar necə papaq qoyurlar? Biz indi sizinlə nümunəyə əsasən aşpaz papağı düzəldəcəyik. Bunun üçün kağızlardan, qayçıdan və yapışqandan istifadə edəcəyik". *(Əvvəlcə müəllim nümunəni göstərir, uşaqların gözü qarşısında izah edə-edə işi yerinə yetirir. Sonra uşaqlara işə başlamağı təklif edir.)*

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** –"Uşaqlar, siz digər hərflər kimi **Q** hərfini də yazmağı və oxumağı öyrənmisiniz. İndi isə plastilindən "PAPAQ" sözünü düzəldin". Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

**M: –** Uşaqlar, qulaq asın, sizə bir şeir söyləyəcəyəm:

*Bəlkə olum bir həkim,*
*Xəstələnərsə hər kim,*

*Ona dərman yazaram,*
*Tez onu sağaldaram!*
Uşaqlar, bəs həkimlər başlarına necə papaq qoyurlar? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "İndi isə kağızdan həkim papağı düzəldəcəyik". *(Müəllim əvvəlcədən hazırladığı nümunəni göstərir, sonra onların gözü qarşısında izah edə-edə işi yerinə yetirir və sonra uşaqlara işə başlamağı təklif edir.)* Həkim papağının üstündə nə işarəsi olur? *(Uşaqların cavabları)* Müəllim quraşdırma qaydasını göstərir.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**M:** "Uşaqlar, bu tapşırıqda tamamlanmamış qıfıllar təsvir olunub. Siz indi qıfılları tamamlayın və rəngləyin".
Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | |
|---|---|
| | **21-ci həftə \| PEŞƏLƏR** |
| **Məşğələ 9–10. FİZİKİ MƏDƏNİYYƏT**<br>**Mövzu: XİLASEDİCİLƏR** | **Standart:** 1.1.1.<br>**İnteqrasiya:** 4.2.1.; 4.2.2. |

| | |
|---|---|
| **Məqsəd:** | • Dizləri yuxarı qaldırmaqla yeriş nümayiş etdirir.<br>• Hərəkətlərini koordinasiya edir.<br>• Hərəkətlərində cəldlik və çeviklik nümayiş etdirir. |
| **İş üsulları:** | Müzakirə, süjetli-rollu oyunlar. |
| **İş forması:** | Kollektiv, qruplarla və fərdi iş. |
| **Resurslar:** | Uşaqların sayı qədər "sükan" dairələr, idman skamyası |

**1 və 2-ci məşğələlər**

**M:** "Uşaqlar, hər səhər siz bağçaya, məktəbə gedirsiniz. Sizin valideynləriniz, nənə və babalrınız işə tələsirlər. Onların hər birinin maraqlı işi var və onlar öz işlərini həvəslə yerinə yetirirlər. Mən istəyirəm ki, biz müəyyən bir müddət böyük olaq və müxtəlif peşələri yerinə yetirməyə çalışaq. Hansı peşələrdə çalışmaq istərdiniz? *(Uşaqların cavabları)*

**I. İsinmə hərəkətləri** (5 dəq.)
– əlləri sərbəst hərəkət etdirərək ayaqları dizdən yuxarı qaldırmaqla yeriş;
– əllər beldə ayaqları dizdən əymədən yeriş;
– əllər beldə hoppana-hoppana irəliləmək;
– qolları yanlarda dairəvi hərəkət etdirməklə, yerində addımlamaq;
– əlləri yanlardan yuxarı qaldıraraq nəfəs almaq və nəfəsi ağızdan buraxmaq (4–5 dəfə).

**II. Ümuminkişafetdirici hərəkətlər** (20 dəq.)

**1. "Sürücü"**
*ç.v.–* qaməti düz saxlamaqla, əldə "sükanı" sinə qarşısında saxlamaq.
*1 sayında* "sükanı" sağa fırlamaqla, sağa dönmək;
*2 sayında* ç.v.-ni almaq.
*3 sayında* hərəkəti sol tərəfə təkrar etmək;
*4 sayında* ç.v.-ni almaq (4–5 dəfə).

**2. "Yanğınsöndürən"**
*ç.v.* – qaməti düz saxlamaqla ayaqlar çiyin bərabəri aralı, əllərdə kağızdan düzəldilmiş şlanq.
*1 sayında* sağ ayağı irəli qoymaq, iki əllə şlanqı dairəvi fırlamaq;
*2 sayında* ç.v.-ni almaq.
*3 sayında* sol ayağı irəli qoymaq, iki əllə şlanqı dairəvi fırlamaq;
*4 sayında* ç.v.-ni almaq (4–5 dəfə).

**3. "Pilot"**
*ç.v.* – skamyanın üstündə,qaməti düz saxlamaqla, əllər yanlarda.
*1,2,3 sayında* skamlanın üzəri qolları yanlara açaraq yerimək;
*4 sayında* ç.v.-ni almaq. (4–5 dəfə).

**4. "Geoloq"**
*ç.v.* – qaməti düz saxlamaqla ayaqlar çiyin bərabəri aralı, əllər yanlarda.

*1 sayında* "dağa dırmanır" pəncələr üstə qalxaraq, qolları qaldıraraq, yuxarı dartınır;
*2 sayında* ç.v.-ni almaq;
*3 sayında* əyilərək, əllər dizlərə söykənmiş vəziyyətdə yeriyərək "faydalı qazıntı axtarır".
*4 sayında* ç.v.-ni almaq (4–5 dəfə).

**5. "Sirk artistləri-akrobatlar"**

*ç.v.* – qaməti düz saxlamaqla ayaqlar bir yerdə, əllər yanlarda.
*1 sayında* əllər beldə sağ tərəfə tullanmaq.
*2 sayında* ç.v.-ni almaq.
*3 sayında* hərəkəti sol tərəfə təkrar etmək;
*4 sayında* ç.v.-ni almaq. (4-5 dəfə)

**Əsas hərəkətlər.**

**Hərəkətli oyun: "Xilasedicilər"**

Oyunun qaydasına görə bir nəfər "canavar" seçilir.Qalan uşaqlar cüt-cüt birləşirlər. Əgər uşaqlar tək olmasa, canavar onlara qarşı gücsüz olur. Tək qalan uşağı canavar tutur. Bu zaman "xilasedicilər" təhlükədə olan uşağa köməyə gəlirlər.

**III. Sakitləşdirici hərəkətlər** (5 dəq.)

***"Üzgüçülər"***

*ç.v.* – ayaqlar aralı, qollar aşağı salınmış vəziyyətdə.
*1.* Nəfəsalma.
*2.* Nəfəsvermə – qabağa əyilmək, qolları yanlara doğru hərəkət etdirmək;
*3.* Nəfəsalma ç.v.-nə qayıtmaq.
*4.* Nəfə vermə – qabağa əyilmək, qolları aşağı sallamaq.
Müəllimin ardınca bir cərgədə sakit yeriş.

| | 21-ci həftə \| PEŞƏLƏR |
|---|---|
| **Məşğələ 11–12. MUSİQİ**<br>**Mövzu: "MƏN KİMƏM?"** | **Standart:** 3.1.7.; 3.1.8.<br>**İnteqrasiya:** 2.2.1.; 2.2.2. |

| | |
|---|---|
| **Məqsəd:** | • Musiqinin xarakterini müəyyən edir;<br>• Xorda oxumaq bacarıqları nümayiş etdirir;<br>• Musiqinin məzmununu hərəkətləri ilə təsvir edir |
| **İş üsulları:** | Əqli hücum, müzakirə, suallar. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Kompüter, disk, şəkillər, peşələrə aid atributlar |
| **Musiqi materialı:** | Marş "Azadlıq marşı" (Heyratı), "Balaca neftçi" (T.Hacıyev/ R. Zəka), "Mən kiməm?" mahnısı (O.Zülfüqarov/T.Elçin), "Sərhədçilər marşı" (O.Rəcəbov/Ə.Ağayev), "Maşınımı sürürəm" (O.Zülfüqarov/Y.Həsənbəy), "Gənc futbolçular" (O.Zülfüqarov/ T.Elçin), "İdman" (O.Zülfüqarov/S.Zərdablı), "Vətənim" (S.Ələsgərov/H.Ziya) |
| **Alternativ material:** | **Dinləmə:** "Üzümçülər" (Ş.Axundova/C.Cavadlı), "Balaca dirijor" (A.Sultanova/ T.Elçin), "Pilotlar" (Ü.Hacıbəyli/M.Seyidzadə)<br>**Mahnı:** "Balaca kapitan" (A.Rzayeva/C.Məmmədov), "Sağıcıdır mənin nənəm" (H.Nəcəfova/X.Rza), "Balaca rəssam" (O.Zülfüqarov/M.Aslan) |

**1-ci məşğələ**

**1. Marş:** "Azadlıq marşı" (Heyratı). Uşaqlar musiqinin sədaları altında yerlərində addımlayırlar.Əvvəl ritmik yerişlə yeriyir, sonra yüngül qaçış hərəkətləri edirlər. Sonda yenidən ritmik yeriməklə yerlərində addımlayırlar və dayanırlar.

**2. Dinləmə:** Müəllim müxtəlif peşələrdən söhbət açır. Bəstəkar T. Hacıyevin şair R.Zəkanın sözlərinə bəslədiyi "Balaca neftçi" mahnısını səsləndirir. Mahnı səslənən zamanı mütəlif peşələri əks etdirən şəkil və illüstrsiyalar da nümayiş etdirir. Əsəri dinlədikdən sonra müəllim uşaqlara suallarla müraciət edir:- Uşaqlar, dinlədiyiniz musiqi hansı peşədən bəhs etdi? - Mahnının xarakteri və tempi necə idi? - Daha hansı peşələr musiqi əsərlərində tərənnüm oluna bilər? *(Uşaqların cavabları) Müəllim uşaqlrın fikirlərini aldıqdan sonra mahnının adını açıqlayır.*

**Mahnı:** "Mən kiməm?"mahnısının (musiqisi O.Zülfüqarovun, sözləri T.Elçinindir) bir hissəsi şifahi yolla öyrədilir. Müəllim mahnının məzmunu, orada sadalanan peşələr haqqında qısa məlumat verir, sonra mahnını səsləndirir. Uşaqlar mahnını dinlədikdən sonra mahnı (müəllimin seçimi ilə bir-neçə bənd) hissə-hissə, frazalarla

öyrədilir. Tələffüzü çətin olan sözlər və melodiya üzərində iş aparılır. Sonda “Mən kiməm?” mahnısının öyrənilmiş hissəsi xorla ifa edilir, məzmunu və xarakteri müzakirə olunur.

**4. Musiqili-ritmik hərəkətlər:** Uşaqlar 6 qrupa bölünür. Hər qrupa mahnıda adları çəkilən peşələrə aid atributlar paylanır. Məsələn, həkimə – ağ xalat, fanindaskop, xarrata – rəndə, dərziyə iynə,sap və s. “Mən kiməm” mahnısı tam şəkildə səsləndirilir. Bu zaman uşaqlar onlara verilmiş əşya və ləvazimatlardan istifadə etməklə mahnının məzmununda peşələrə aid hərəkətlər təsvir edirlər. Məşğələ ümumiləşdirilərək yekunlaşdırılır.

**Musiqi materialı:**

**“Mən kiməm?”**

*Bilisiniz mən kiməm?*
*Balaca bir həkiməm.*
*Turubkanı qulağıma*
*Bax beləcə taxaram.*
*Xəstələrə bax beləcə,*
*Bax beləcə baxaram.*

*Çoxdur mənim hörmətim*
*Maşınistdir sənətim.*
*Qatarımı bax belcə,*
*Bax beləcə sürərərm,*
*Yol üstündə duran olsa,*
*Ucadan fit verərəm.*

*Yaxşı bir dərziyəm mən*
*Hər iş gəlir əlimdən.*
*Bax beləcə,bax beləcə*
*Təzə paltar tikərəm.*
*Bax beləcə,bax beləcə*
*Sizə paltar tikərəm.*

*Bilin mən də xarratam,*
*Öyrədib məni atam.*
*Çəkicimi bax bləcə*
*Bax beləcə vuraram.*
*Nə desəz taxtalardan*
*Bax beləcə quraram.*

*Əməyi sevirik biz,*
*Fərəhlidir işimiz.*
*Bax beləcə,ba beləcə*
*Əməyi sevirik biz.*
*Bax beləcə,bax beləcə*
*Əməyi sevirik biz.*

**2-ci məşğələ**

**Marş:** “Azadlıq marşı” (Heyratı)
**Mahnı:** “Mən kiməm?” mahnısı (O. Zülfüqarov/T.Elçin)
**Səhnələşdirmə: “Yaşar sənət seçir” (resurs: top, oyuncaq avtomat, rul (sükan), rəndə, hərbiçi geyimi, boksçu əlcəyi, dəftər, qələm )**

| № | Musiqi materialı | Fəaliyyət |
|---|---|---|
| 1 | “Sərhədçilər marşı” | Əlində avtomat o yana-bu yana baxa-baxa var-gəl edir. |
| 2 | “Maşınımı sürürəm” | Sükanı fırladaraq maşın sürürlər |
| 3 | “Gənc futbolçular” | Qapıda dayaşıb topu tuturlar |
| 4 | “İdman” | Boksçu əlcəyini taxıb, bols ərəkətləri edirlər |
| 5 | “Vətənim” | Dəftər, qələm götürüb yazırlar |
| 6 | “Mən kiməm” mahnısından (Xarrat) | Rəndələyirlər |

**22-ci həftə | NƏQLİYYAT**

**Məşğələ 1. ƏTRAF ALƏMLƏ TANIŞLIQ**
**Mövzu: NƏQLİYYAT NÖVLƏRİ**

**Standart:** 2.1.4; 2.1.5.
**İnteqrasiya:** 2.2.1; 2.2.6.

| | |
|---|---|
| **Məqsəd:** | • Nəqliyyat vasitələrinin adını söyləyir.<br>• Nəqliyyat vasitələrini qruplaşdırır.<br>• Nitqində əlamət bildirən sözlərdən istifadə edir |
| **İş üsulları**: | Əqli hücum, müzakirə, suallar. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Nəqliyyat vasitələri təsvir olunmuş şəkil, oyuncaq maşınlar, rəngli karandaşlar. |

**Məşğələnin gedişi**

**Motivasiya**
**M:** – Uşaqlar, vəsaitin yuxarısındakı şəkildə nə təsvir olunub? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Düzdür. Biz bu gün sizinlə nəqliyyat haqqında danışacağıq. Əvvəllər insanlar bütün yükü özləri daşıyırdılar. Uzaq məsafələrə də yolu piyada gedirdilər. Sonrala insanlar yükdaşımaq üçün at, eşşək, dəvədən, bəzi ölkələrdə isə fildən istifadə ediblər. Sonra taxtadan araba, qayıq, sonralar gəmi, maşın, qatar, təyyarə icad olundu. İnsanların zəhməti yüngülləşdi. Bizim həyatımızı nəqliyyatsız təsəvvür etmək olmaz. Yerüstü, yeraltı, su və hava nəqliyyatı növləri var. Hər bir ölkəni avtomobil yolları əhatə edir. Orada minik maşınları, avtobuslar və yük maşınları hərəkət edir. Avtomobillərin növü və ölçüsü fərqli olur. İnsanlar maşınla işə, bazarlığa, istirahətə və ya qonaqlığa gedirlər. Avtomobillər ən çox benzinlə çalışırlar. Hər bir avtomobilin dörd təkəri var. Yaxınlıqdakı piyada yolda velosipedçiləri də görə bilərsiniz. Maşınlar və velosipedlər yerüstü quru nəqliyyat vasitələridir.

Dəmiryolu ilə qatarlar hərəkət edir. Qatar vaqonlardan və vaqonları dartan lakomativdən ibarətdir. Qatarlar insanları və ya yük daşıyır. Müasir qatarlar elektriklə hərəkət edirlər. Dənizlər, okeanlar və çaylarda üzmək üçün insanlar müxtəlif gəmilər və qayıqlar qururlar. Bu su nəqliyyatı adlanır. Havada təyyarə və vertolyot ları görə bilərsiniz. Hava laynerləri dünyada ən sürətli nəqliyyatdır. Yeraltı nəqliyyata isə metro aiddir. Yeraltı nəqliyyatdan istifadə etmək çox rahatdır. Qatarlar sürətlə hərəkət edir. Mən sizə tapmacalar söyləyəcəyəm.

Quş deyil, qanadı var,
Quşlardan yeyin uçar.
***(Təyyarə)***

O nədir ki, yeməyi benzindir,
Ayaqları rezindir?
***(Avtomobil)***

Yaraşıqlı, dəmir ev,
Çoxlu sərnişini var.
Ayaqqabısı rezin,
Yeməyi isə benzin.
***(Avtobus)***

Bu dəmir at-yulaf yemir,
Ayaqları-iki təkər.
Harasa getmək istəsən,
Üstünə min, irəli çap!"
***(Velosiped)***

**M: – "**Uşaqlar, bunları birlikdə necə adlandırmaq olar? *(Nəqliyyat)*

İdman dəqiqəsi—

**II.** Müəllim uşaqlara suallarla müraciət edir:– Hansı nəqliyyat vasitələrini tanıyırsınız?– Nəqliyyat nə üçün vacibdir? – Böyüyəndə siz hansı nəqliyyat vasitəsini idarə etmək istərdiniz?

**Tətbiqetmə**

**III. M:** "Bu tapşırıqda dörd çərçivədə müxtəlif nəqliyyat vasitələri təsvir olunub. Mən hər hansı təsvirin adını çəkəcəyəm. Siz adı çəkilən təsviri tapın və uyğun rəngli karandaşla haşiyəyə alın: dəniz nəqliyyatlarını – mavi, hava nəqliyyatlarını – yaşıl, quruda hərəkət edən sərnişin nəqliyyatlarını – sarı, xüsusi nəqliyyatları – qırmızı".

**IV. M:** "Bu tapşırıqda müxtəlif nəqliyyat vasitələri və onların hərəkət etdiyi sahə təsvir olunub. Təsvir olunmuş nəqliyyatları adlandırın. Onların harada hərəkət etdiklərini müəyyənləşdirin və uyğun şəkillə birləşdirin".

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**22-ci həftə | NƏQLİYYAT**

| | |
|---|---|
| **Məşğələ 2. BƏDİİ TƏFƏKKÜRÜN İNKİŞAFI**<br>**Mövzu: İKİ GONBUL** | **Standart:** 2.2.2; 2.2.6.<br>**İnteqrasiya:** 2.1.2; 2.1.4. |
| **Məqsəd:** | • Mətni söyləyərkən ardıcıllığı gözləyir.<br>• Fikrini rabitəli şəkildə ifadə edir.<br>• Nitqində əlamət bildirən sözlərdən istifadə edir. |
| **İş üsulları:** | Müzakirə, suallar, nağıletmə. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Hekayənin mətni, şəkillər. |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M:** – Uşaqlar, şəkillərə diqqətlə baxın. Şəkildə nə təsvir olunub? Sizcə, burada nədən söhbət gedir? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, mən sizə şəkildə təsvir olunanlara aid **"İki gonbul**" adlı hekayə söyləyəcəyəm. Şəkillərə baxaraq mətni dinləyin. Hər şəkil mətnin bir hissəsini əks etdirir. Mən deyəndə dairəni rəngləməklə dinlədiyiniz məlumatları əks etdirən şəkli qeyd edin".

1

“Gonbul begemot qamışlıqda köhnə avtomobil tapdı. O, fili çağırdı: - Gonbul, bura gəl. Bax gör nə tapmışam. Fil dedi: – Nə yaxşı şeydir! Gəl onu çıxardaq. Minib o ki var sürərik. Bu vaxt haradansa bir dovşan gəlib çıxdı. - Gün aydın dostlar! Nə tapmısınız? Ooo… avtomobil? Nə yaxşı! Durmayın, çıxardın onu. Gonbullar güc verib maşını bataqlıqdan otluğa çıxardılar.”

**M:** “Uşaqlar, dinlədiyiniz hissəyə uyğun şəklin və altındakı dairəni işarə edin”.

Müəllim oxumağa davam edir.

2

“Dovşan isə kənarda durub əmrlər verirdi: - Hə, qoçaqlar, bir də. Bir, iki üç, bir də. Bərk yapışın, buraxmayın! Gonbullar maşını yudular, mühərriki yağladılar, təkərlərə hava vurdular. Dovşan isə otluqda uzanıb məsləhətlər verirdi: - Orası çirkli qaldı, təmizlə! Bax belə! Afərin Bir az hava vur, azca boşdur”.

**M:** “Uşaqlar, dinlədiyiniz hissəni müəyyənləşdirib işarə edin”.

Müəllim oxumağa davam edir.

3

“Gonbullar yolu hamarladılar. Kənarlara yol nişanları düzdülər. Dovşan isə elə hey çərənləyirdi: - Hə, maşın sazdır, yolumuz hazırdır, Nişanlar var. İndi sürmək olar…”.

**M:** “Uşaqlar, dinlədiyiniz hissəyə uyğun hissəni tapıb, işarə edin”.

Müəllim oxumağa davam edir.

4

‘Gonbullar işlərini qurtarıb avtomobilə minmək istədilər. Amma… nə pis oldu. Onlardan heç biri avtomobilə sığışmırdı. Axı onlar gonbul idilər”.

**M:** “Uşaqlar, dinlədiyiniz hissəyə uyğun şəkli tapıb işarə edin”.

Müəllim oxumağa davam edir.

5

“Dovşanın bəxti gətirdi. O rahatca sükan arxasına keçib qazı basdı. Maşın yerindən götürüldü. Amma dovşan uzağa gedə bilmədi. Maşın ağaca çırpıldı, əzilib xurd-xəşil oldu. Dovşanın da qolu-qıçı əzildi.”

**M:** “Uşaqlar, məzmuna uyğun hissəni tapıb işarə edin”.

6

“Adamın gombullara yazığı gəlir. Əbəs yerə bu qədər çalışdılar. Maşına da heyfi gəlir. Sınıb dağıldı. Amma dovşana yazığı gəlmir. Görəsən niyə? ”

—İdman dəqiqəsi—

**II.** Müəllim uşaqlara suallarla müraciət edir:– Begemot maşını tapandan sonra dostu Fil ona necə kömək etdi?– Dovşan onlara necə kömək edə bilərdi?– Siz gonbullara necə kömək edərdiniz?

**Tətbiqetmə**

**III. M: “**Bu tapşırıqda dörd müxtəlif rəngli qutunun hər birində söz yazılıb. Hər qutunun küncündə isə kiçik xanaya qutunun nömrəsi yazılıb. Rəngli qutulardakı yazıları oxuyun. Bu sözlər hansı heyvana aiddir? Qutunun nömrəsini həmin heyvanın altındakı uyğun dairəyə yazın.”

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | |
|---|---|
| | **22-ci həftə \| NƏQLİYYAT** |
| **Məşğələ 3–4. SAVAD TƏLİMİNƏ HAZIRLIQ VƏ NİTQ İNKİŞAFI** | **Standart:** 2.2.4; 2.2.5. |
| **Mövzu:** H (h) SƏSİ VƏ HƏRFİ | **İnteqrasiya:** 1.1.4; 2.1.2. |

| | |
|---|---|
| **Məqsəd:** | • **H (h)** səsini və hərfi fərqləndirir.<br>• **H** səsinin işləndiyi sözlər söyləyir.<br>• Xətt üzrə **H (h)** hərfini yazır. |
| **İş üsulları**: | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması**: | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Şəkillər, karandaşlar, marker, hərflər. |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** – Səhifənin yuxarısındakı şəklə baxaq. Şəkildə nə təsvir olunub? Tülkü nə edir? *(Uşaqların cavabları)* Hovuz sözü hansı səslə başlayır?

**Dərketmə**

**M:** "**H** hərfindən də digər hərflər kimi sözləri yazanda istifadə olunur. Uşaqlar, sarı qutuya diqqətlə baxaq. Burada həm böyük, həm də kiçik **H** hərfi təsvir olunub. **H** böyük hərfdir.

*Həsən çıxdı hasara,*
*Nə yaman hündürimiş.*
*Hop eləyib, hoppandı,*
*Hündürdən hündürimiş!*

**M**. "Uşaqlar, dinlədiyiniz şeir parçasında oğlanın adı – *Həsən* və *hasar* sözləri hansı səslə başlayır?"

**I. M:** "Uşaqlar, **H** hərfi ilə tanış olaq. Baxın, burada böyük **H** hərfi təsvir olunub. Hərfin ətrafında isə şəkillər təsvir olunub. Hər bir şəkildə nə təsvir olunduğunu söyləyin və bu sözün hansı səslə başlandığına diqqət edin. Sözlərdən hansı **H** səsi ilə başlayır?" *(Uşaqların cavabları)* **H** hərfinin rənglənməsi.

**II.** Müəllim lövhədə **H** hərfini izah edə-edə yazır. Sonra bir neçə uşaq lövhədə tapşırığı yerinə yetirir. Digər uşaqlar vəsaitdə xətt üzrə **H** hərfini yazırlar.

**M:** "**H** hərfinin ətrafında şəkillər təsvir olunub. Hər şəkildə nə təsvir olunduğunu bir-bir söyləyin.

Söz **H** səsi ilə başlayırsa, həmin şəkli **H** hərfi ilə birləşdirin".

**III. M:** "Uşaqlar, vəsaitin yuxarısında pazllarda sözlər yazılıb. Diqqətlə baxıb yerləşdiyi xanaları həmin sözdəki hərflərə və nümunəyə uyğun rəngləyin. Sözü oxuyun".

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**IV. M:** "Kənara çıxmadan nöqtədən başlayaraq, hərfləri xətt üzrə çəkin". Müəllim uşaqlara kəsmə əlifbada olan hərflərin içərisindən H hərfini götürüb, lövhəyə qoymağı təklif edir. (*Uşaqlar yerinə yetirir*).

V. M: "Bu tapşırıqda xətlərlə üç söz yazılıb**.** Kənarında isə bu sözlərə uyğun peşə sahiblərinin şəkilləri təsvir olunub. Hərfləri xətt üzrə çəkin və sözləri oxuyun. Sözləri uyğun şəkillərlə birləşdirin."

**VI. M:** "Şəkildə üç əşya təsvir olunub. Alt hissədə isə hər əşyanın adının birinci hərfi yazılıb. Hər şəkildə nə təsvir olunduğunu bir-bir söyləyin. Sözün hansı səslə başlandığını müəyyən edin və həmin şəkli uyğun çərçivə ilə birləşdirin". Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

**M:** – *Həsən çıxdı hasara,*
*Nə yaman hündürimiş.*
*Hop eləyib, hoppandı,*
*Hündürdən hündürimiş!*

**M:** – Uşaqlar, oğlanın adı nədir? O hara çıxdı? ***hündür, hoppanma*** sözləri hansı səslə başlayır? *(Uşaqların cavabları)* **H** səsi ilə başlayan daha hansı sözləri deyə bilərsiniz?

**Dərketmə**

Verilmiş əlifbanın hərflərinin arasından **H** hərfi götürülərək lövhəyə qoyulur. **H** səsinin birlikdə və tək-tək tələffüz edilməsi üzrə iş aparılır. Müəllim uşaqların diqqətini kiçik **h** hərfinə yönəldərək deyir:

– Uşaqlar, bilirsiniz ki, hər bir hərfin həm böyük, həm də kiçik forması var.

**I. M:** "Bu, kiçik **h** hərfidir". *Müəllim əvvəlcə lövhədə izah edə-edə kiçik **h** hərfini yazır. Sonra uşaqlardan 2-3 nəfər lövhədə xətt üzrə hərfi çəkirlər.*

**M:** "İndi ardıcıllığı gözləməklə nümunəyə əsasən kiçik **h** hərfini xətt üzrə çəkin. **H** səsi ilə başlayan sözlər söyləyin. **H** səsi ilə bitən sözlər söyləyin. **H** səsi sözün ortasında olan sözlər söyləyin.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** "Vəsaitdə öyrəndiyiniz hərflərin kiçik forması yazılıb. Yanındakı çərçivədə isə h hərfinin hissələritəsvir olunub. Hansı hərflərdə çərçivədəki hissə var? Həmin hərfləri haşiyəyə alın".

**III. M:** "Şəkildə yuxarı hissədə hərflərin kiçik forması, aşağıda isə böyük çap forması verilib. Yuxarıdakı sırada olan hərfləri xətt üzrə çəkin və adlandırın. Yuxarı və aşağı sıralarda eyni hərfləri tapıb birləşdirin".

**IV. M: "**bu tapşırıqda xətlərlə söz yazılıb.Hərfləri xətt üzrə çəkin və sözləri oxuyun. Hər sözü alt hissədə təsvir olunmuş uyğun şəkillə birləşdirin. Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| Məşğələ 5–6. RİYAZİ VƏ MƏNTİQİ TƏFƏKKÜRÜN İNKİŞAFI<br>Mövzu: SAĞ-SOL | Standart: 2.3.2.<br>İnteqrasiya: 2.1.5; 4.2.3 |
|---|---|
| **Məqsəd:** | • Sağ-sol tərəfləri düzgün müəyyən edir.<br>• Yüngül, ağır sözlərindən düzgün istifadə edir.<br>• İfadələrə əsasən əsasən əşyanın xüsusiyyətini söyləyir.<br>• Məsələnin həllini axtararkən özünəinam nümayiş etdirir. |
| **İş üsulları:** | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Ağ vərəqlər, kiçik kəsilmiş dairələr və kvadratlar, yağışqan və rəngli karandaşlar, 1 ədəd şar və 1 ədəd top. |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** – Uşaqlar, vəsaitin yuxarısındakı şəklə baxaq. Tülkü nə edir? Sarı qutuda nə təsvir olunub? Bunu nə üçün edirlər? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Bəli, tülkü sağ və sol əllərini göstərir. Sarı qutuda isə salamlaşaraq əl-ələ görüşürlər. Görüşərkən biri sağ əlini, digəri isə sol əlini uzadır. Birinci tapşırıqda kloun tamaşaçılar qarşısında çıxış edir. Klounun sol əlcəyini göstərin və dairəni uyğun karandaşla rəngləyin. Klounun sağ ayaqqabısını tapın və üçbucağı eyni karandaşla rəngləyin. Kvadratı klounun sol ayaqqabısına uyğun karandaşla rəngləyin".

**II. M:** "Şəkildə avtobusun sağ və sol tərəfindən baxan heyvanlar təsvir olunub. Təsvirin yanında isə dairə və kvadrat çəkilib. Avtobusun sol tərəfindəki heyvanların sayını kvadrata, sağ tərəfindəki heyvanların sayını isə dairəyə yazın". *(Müəllim müxtəlif vəsaitlərdən istifadə edərək, sağ-sol tərəflərinin möhkəmləndirilməsi üzrə iş aparır)*

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**Didaktik oyun "Öz yerini tap".**

**M:** "Uşaqlar, biz oyun oynayacağıq. Siz gərək dairədə öz yerinizi müəyyən edəsiniz, sizin sağ və sol tərəfinizdə dayanan yoldaşınızın adını deyəsiniz. *(Uşaqlar yerinə yetirir).*İndi isə öz yerinizdə əyləşin.Qarşınızda kağız vərəqi var.Biz öyrəndiyimiz fiqurları vərəqin müxtəlif hissələrində yerləşdirəcəyik. Dairələri vərəqin sağ tərəfindəki yuxarı küncə yapışdırın. Kvadratları isə vərəqin sol tərəfində aşağı küncə yapışdırın".

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

Müəllim sağ əlində topu, sol əlində isə şarı tutur və uşaqlara sual verir: "Uşaqlar, sizcə, top ağırdır, yoxsa şar? *(Uşaqların cavabları)* Nə üçün belə düşünürsünüz?

**Dərketmə**

**I. M:** "Uşaqlar, birinci tapşırıqda müxtəlif tərəflərə baxan heyvanlar təsvir olunub. Sağa baxan heyvanların sayını kvadrata, sola baxanların sayını isə dairəyə yazın".

**II. M:** "Yellənçəyin sağ tərəfində hansı heyvan oturub? Bəs sol tərəfində hansı heyvanlar oturub? Yellənçəyin sağ tərəfindəki heyvanların sayını üçbucağa, sol tərəfindəki heyvanların sayını isə dairəyə yazın. Sizcə bu heyvanların hansı daha ağırdır?"

**III. M:** "Şəkildə ev, evin hər iki tərəfində çərçivə təsvir olunub. Şəkildəki evdən sağ tərəfdəki çərçivədə alçaq, sol tərəfdəki çərçivədə isə hündür ev çəkin".

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**I. M:** "Bu tapşırıqda 4 həndəsi fiqur təsvir olunub. Hər fiqurun sağında hansı fiqurun dayandığını tapın və sıranı sağa doğru davam etdirin".

**II. M:** "Hər fiqurun sağında hansı fiqurun dayandığını tap və sıranı sağa doğru davam etdirin".

**III. M:** "Bu tapşırıqda ardıcıl olaraq, dairələrdə ədədlər yazılıb. Amma bəzi dairələrdə ədəd ötürülüb. Ardıcıllıqda çatmayan ədədləri tapın və yazın". Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| 22-ci həftə \| NƏQLİYYAT | |
|---|---|
| **Məşğələ 7–8. TƏSVİRİ FƏALİYYƏT**<br>**Mövzu:** YOL ÇƏKƏK, KAĞIZDAN TƏYYARƏ VƏ QAYIQ DÜZƏLDƏK | **Standart:** 3.1.1.; 3.1.5.<br>**İnteqrasiya:** 1.1.4.; 2.2.6. |

| | |
|---|---|
| **Məqsəd:** | • Quraşdırma vasitəsilə sadə yaradıcılıq bacarıqları nümayiş etdirir.<br>• Sadə rəsmetmə bacarıqları nümayiş etdirir. |
| **İş forması:** | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Şəkillər, kağızlar, rəngli karandaşlar və s. |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** – Uşaqlar, şəkillərə diqqət edin. Nə təsvir olunub? Bu təsvir olunanlar nəyi bildirir? *(Uşaqların fikirləri dinlənilir).*

**Dərketmə**

**I. M:** "Uşaqlar, düz dediniz, şəkildə yollar təsvir olunub. Hansı nəqliyyat növlərini tanıyırsiniz? *(Uşaqların cavabları)* İndi isə şəkildəki yoluna uyğun nəqliyyat vasitələrini adlandırın. Təyyarə, avtobus və qatar çəkməklə şəkli tamamlayın".

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II.** Müəllim plastilindən **"hərəkət"** sözünü düzəltməyi təklif edir. Sözün düzəldilməsində neçə hərfdən istifadə edildiyi dəqiqləşdirilir.

**M:** "Hansı nəqliyyat növü **H** səsi ilə başlayır? *(helikopter)* Helikopterdən nə məqsədlə istifadə olunur?" *(Uşaqların cavabları)*

Məşğələ prosesində onlara istiqamət verir, uşaqların əməkdaşlıq etmələrinə imkan yaradır.

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

**M: –** Uşaqlar, hava nəqliyyatı hansılardır? Bəs su nəqliyyatına nələr aiddir? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, biz bu gün sizinlə kağızdan təyyarə və qayıq düzəltməyi öyrənəcəyik. *(Müəllim qabaqcadan hazırladığı nümunəni uşaqlara göstərir.) (Uşaqlar işə başlamazdan əvvəl müəllim onların gözü qarşısında izah edə-edə kağızdan təyyarəni və qayığı qatlama üsulundan istifadə edərək düzəldir.)* İndi isə əvvəlcə təyyarəni düzəldək. Sonra isə qayığı düzəldərik.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** "Uşaqlar, şəkildə qırıq xətlərlə naxış verilib. Bu naxış nəyə oxçayır? (***h*** *hərfinə, hörüyə*) Qırıq xətlərin üzəri ilə gedərək, hörməni tamamlayın". Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| 22-ci həftə \| NƏQLİYYAT | |
|---|---|
| **Məşğələ 9–10. FİZİKİ MƏDƏNİYYƏT**<br>**Mövzu:** TƏYYARƏLƏR | **Standart:** 1.1.1.<br>**İnteqrasiya:** 4.2.1.; 4.2.2. |

| | |
|---|---|
| **Məqsəd:** | • İlanvari yeriş nümayiş etdirir.<br>• Hərəkətlərini koordinasiya edir.<br>• Hərəkətlərində cəldlik və çeviklik nümayiş etdirir. |
| **İş üsulları:** | Müzakirə, süjetli-rollu oyunlar. |
| **İş forması:** | Kollektiv, qruplarla və fərdi iş. |
| **Resurslar:** | Skamya, ürək və qan damarları təsvir olunmuş plakat. 40 *sm* hündürlükdə kub,<br>50 *sm* hündürlükdə qövs. |

## 1-ci və 2-ci məşğələlər

**I. İsinmə hərəkətləri** (5 dəq.)
– adi, əllər yuxarıda pəncələr üstə və əllər arxada dabanlar üzərində yeriş;
– qolları dirsəkdən bükmək, irəli-geri hərəkət etdirərək dizləri hündürə qaldırmaqla yeriş;
– qolları yanlara açaraq, ilanvari yürüş;
– qolları asta-asta açıb-bükməklə sakit yeriş (4–5 dəfə).

**II. Ümuminkişafetdirici hərəkətlər** (20 dəq.)

**1. "Təyyarə uçuşa hazirlaşir"** (4–5 dəfə).
*Ç.v.* – Qaməti düz saxlamaqla ayaqlar bir yerdə.
*1 sayında* müəllimin **"uçuşa hazırlaş" işarəsi** ilə gövdəni sağ tərəfə döndərmək, qolları açıb yuxarı-aşağı yelləmək;
2 *sayında* ç.v.-nə qayıtmaq.
3 *sayında* gövdəni sol tərəfə döndərməklə həmin şhərəkəti eynilə təkrar icra etmək.
4 *sayında* ç.v.-nə qayıtmaq.

**2. "Təyyarələr uçur".**
*Ç.v.* – Sallağı oturmaq.
*1 sayında* düzələrək qolları yanlardan yuxarı qaldırmaq;
*2 sayında* gövdəni sol tərəfə döndərərək müəllimin **"təyyarələr uçur" sözü** ilə qolları yanlardan yuxarı qaldırmaq;
*3 sayında* gövdəni sağ tərəfə döndərməklə hərəkəti təkrar icra etmək;
*4 sayında* ç.v.-nə qayıtmaq. (4–5 dəfə).

**3. "Təyyarələr enir".**
*Ç.v.* – Qaməti düz saxlamaqla ayaqlar çiyin bərabəri aralı, qollar yanlarda.
1 *sayında* qolları yanlara açmaq;
2 *sayında* gövdəni sol tərəfə döndərərək tərbiyəçinin **"təyyarələr enir" sözü** ilə dayanmadan qolları yanlardan aşağı salmaq;
3 *sayında* həmin hərəkəti sağ tərəfə eynilə təkrar ijra etmək;
4 *sayında* ç.v.-nə qayıtmaq. (4–5 dəfə).

**4. "Təyyarələr yerinə qayıdır"**
*Ç.v.* – Qaməti düz saxlamaqla ayaqlar çiyin bərabəri aralı, qollar yanlarda.
1 *sayında* gövdəni düzəldərək pəncə üstə qalxıb qolları yanlardan yuxarı qaldırmaq;
2 *sayında* ç.v.-ni almaq;
3 *sayında* müəllimin "**təyyarələr yerinə qayıdır**" sözü ilə ayaqları cütləşdirərək yerində addımlamaq;
4 *sayında* yenidən ç.v.-nə qayıtmaq. (4–5 dəfə).

**Hərəkətli oyun: "Təyyarələr"**
**Uşaqlar** qollarını yanlara açıraraq, təyyarəni təsvir edir və meydançada qaçaraq, "uçurlar". "Təyyarələr" biri-biri ilə toqquşmamalı və qanadlarını qırmamalıdırlar. Qəzaya uğrayan "təmirçinin", yəni müəllimin yanına gəlir. Təmirdən sonra yenidən uçuşa qayıdır. Oyunun sonunda ən yaxşı təyyarələr qeyd edilir.

**III.** Sakitləşdirici hərəkətlər (5 dəq.)
***"Təyyarəni təmir edirik"***
*ç.v.* – düz dayanmaq, əllər yanlarda.
*1.* Nəfəsalma – sağ əllə sol əli tumarlamaq.
*2.* Nəfəsvermə – ç.v.-nə qayıtmaq.
*3.* Nəfəsalma – sol əl ilə sağ əli tumarlama.
*4.* Nəfəsvermə – ç.v.-nə qayıtmaq.
Müəllimin ardınca bir cərgədə sakit yeriş.

| | | |
|---|---|---|
| | | **22-ci həftə \| NƏQLİYYAT** |
| **Məşğələ 11–12. MUSİQİ**<br>**Mövzu:** **QATAR** | | **Standart**: 3.1.7.; 3.1.8.<br>**İnteqrasiya:** 2.2.1.; 4.2.2. |
| **Məqsəd:** | • Musiqinin xarakterini müəyyən edir;<br>• Xorda oxumaq bacarıqları nümayiş etdirir;<br>• Musiqinin məzmununu hərəkətləri ilə təsvir edir<br>• Musiqi alətlərini (zərb ) müşayiət edir | |

| | |
|---|---|
| **İş üsulları:** | Əqli hücum, müzakirə, suallar. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Kompüter, disk, şəkillər, milli musiqi alətləri (tar, kamança, saz). |
| **Musiqi materialları:** | Marş. **"Azadlıq marşı"** (Heyratı), **"Maşınımı sürürəm"** (O.Zülfüqarov/Y.Həsənbəy) **"Qatar"** mahnısı (F.Əmirov/Z.Cabbarzadə), **"Fil və Alabaş"** pyesi(Q, Qarayev), **"Yol mahnısı "** (O.Zülfüqarov/Ə.Səmədov), "**Çernomorun marşı**" ("Ruslan və Lyudmila" operasından M.İ.Qlinka) |
| **Alternativ material:** | **Dinləmə:** "Qatar" (Q.Hüseynli/N.Gəncəli), "Dostluq qatarı" (A.Rzayeva/C.Məmədov), **Mahnı:** "Maşınım var" (O.Zülfüqarov/Y.Həsənbəy), "Metro" (O.Zülfüqarov/ H.Ziya), "Bakı metrosu" (A.Rzayeva/H.Ziya), "Qayıq" (O.Zülfüqarov/M.Seyidzadə) "Balaca sürücüyəm" (A.Rzayeva/C.Məmmədov) |

**1-ci məşğələ**

**1. Marş:** "Marş" M.Əhmədov.

**2. Dinləmə:** Müəllim "Temp" anlayışını , tempin növlərini yada salır. Nəqliyyat növlərinin muisiqidə tərənnümü və bu musiqini tempi barədə izahat verir. "Maşınımı sürürəm" (musiqisi O.Zülfüqarovun, sözləri Y.Həsənbəyindir) səsləndirir. Mahnını dinlədikdən sonra müəllim uşaqlara suallarla müraciət edir: – Dinlədiyiniz musiqinin tempi necə idi? – Maşını təsvir edən musiqi asta sürətli səslənsə, o musiqidə nə kimi dəyişiklik olar?*(Uşaqların cavabları)*

**3. Mahnı:** "Qatar" mahnısı (F.Əmirov/Z.Cabbarzadə), şifahi yolla öyrədilir. Müəllim bəstəkar, mahnı, onun məzmunu haqqında qısa məlumat verir, sonra mahnı səsləndirilir. Uşaqlar dinlədikdən sonra mahnı hissə-hissə, frazalarla öyrədilir. Melodiya, ritm və temp üzərində iş aparılır. Sonda "Qatar" mahnısının öyrənilmiş hissəsi xorla ifa edilir, məzmunu və xarakteri müzakirə olunur.

**4. Musiqili-ritmik hərəkətlər:** Uşaqlar üç qrupa bölünürlər. "Maşınımı sürürəm" mahnısı təkrar səsləndirilir. Birinci qrup uşaqlar qatarı xatırladaraq əllərini qarşıda dayananın çiyninə qoyub bir-birinin ardınca düzülür və qatar kimi hərəkət edirlər. İkinci qrup əllərində sükan "maşın sürürlər" Üçüncü qrup isə zərb musiqi alətlərində mahnının ritminə uyğun müşayiət edirlər. Məşğələ ümumiləşdirilərək yekunlaşdırılır.

**Musiqi materialı:**

**"Qatar"**

| | | |
|---|---|---|
| Qatar gəlir uzaqdan,<br>Tak-tak,tak-tak,tak-tak, tak.<br>Gözləyirəm bayaqdan,<br>Tak-tak,tak-tak,tak-tak, tak.<br>*Nəq.*<br>Tələs, tələs ay qatar,<br>Yel kimi əs ay qatar. | Yol gəldin gündüz-gecə,<br>Tak-tak, tak-tak,tak-tak, tak.<br>Ürəyim vurur necə,<br>Tak-tak,tak-tak,tak-tak, tak.<br>*Nəq.* | Atam gəlir səfərdən,<br>Gözləyirəm səhərdən.<br>Yaxınlaşır qatar bax,<br>Tak-tak,tak-tak,tak-tak, tak.<br>*Nəq.* |

**2-ci məşğələ**

**Marş:** "Marş" (M.Əhmədov)

**Mahnı:** "Qatar" mahnısı (F.Əmirov /Z.Cabbarzadə)

**Səhnələşdirmə: "**İki gombul" (resurs: begemot,fil və dovşan maskaları, avtomobil sükanı, maşın oyunca, yol nişanları)

| № | Musiqi materialı | Fəaliyyət |
|---|---|---|
| 1, 2 | "Fil və Alabaş" | Begemot,fil və dovşan gəzişirlər.Birdən uzaqda avtomobil görürlər. Dovşan kənarda dayanıb əli ilə göstəriş verir. Fil ilə begemot maşını bataqlıqdan çıxarırlar |
| 3, 4 | "Yol" | Maşını təmizləyilər,yolu hamarlayırlar, yol nişanlarını düzülər. |
| 5, 6 | "Çernomorun marşı" | İki gombul maşına oturmağa çalışırlar,lakin yerləşmirlər, dovşan maşına minib maşını təhlükəli sürür və ağaca çırpılır. |

| | |
|---|---|
| | **23-cü həftə \|YOL HƏRƏKƏTİ** |
| **Məşğələ 1. ƏTRAF ALƏMLƏ TANIŞLIQ**<br>**Mövzu: YOL HƏRƏKƏTI QAYDALARI** | **Standart:** 1.3.2.<br>**İnteqrasiya:** 2.2.6.; 2.1.5. |

| | |
|---|---|
| **Məqsəd:** | • Yol hərəkəti qaydalarını sadalayır.<br>• Hər bir yol hərəkəti qaydasının əhəmiyyətini izah edir.<br>• Nitqində əlamət bildirən sözlərdən istifadə edir. |
| **İş üsulları**: | Əqli hücum, müzakirə, suallar. |
| **İş forması**: | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Yol hərəkəti qaydaları təsvir olunmuş şəkil, karandaşlar. |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M:** – Uşaqlar, vəsaitin yuxarısındakı şəkildə nə təsvir olunub? Tülkü yolu düz keçir? Nə üçün belə düşünürsünüz? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, biz sizinlə çoxlu maşın və insanlar olan böyük şəhərdə yaşayırıq. İnsanlar və maşınların biri-birinə mane olmamaları üçün xüsusi qaydalar yaradılıb. Yolları düzgün keçmək, təhlükələrin qarşısını almaq üçün biz nələri bilməliyik? Onlar yol hərəkəti qaydaları adlanır. İnsanların və nəqliyyatın hərəkəti bu ciddi qaydalara tabe olur. Məktəbə gələndə kim yolu keçir? Yolu keçməkdə sizə kim kömək edir? Yolu keçərkən hansı qaydalara əməl edirsiniz? *(Uşaqların cavabları)* Öz sağlamlığımızı, həyatımızı qorumaq istəyiriksə, yol hərəkəti qaydalarına ciddi əməl etməliyik. Yolda nəqliyyatın hərəkətinə mane olmamalıyıq. Yol-hərəkət hissəsindən və səkidən ibarətdir. Avtomobil yolunun hərəkət hissəsindən maşınlar keçir. Səkidən isə piyadalar istifadə edirlər. Biz küçədə gedərkən yolu ancaq piyada keçidindən keçməliyik. Əgər biz küçədə ayaqla gediriksə, deməli, biz piyadalar adlanırıq. Piyadaların yolu keçmələri üçün səki və xətlənmiş piyada keçidləri var**.** İnsanlar yolu yalnız oradan keçə bilərlər. Bundan başqa yeraltı və yerüstü piyada keçidləri də var. Döngələrdən çıxarkən ehtiyatlı olmalıyıq. Əvvəlcə baxmalıyıq, sonra yolumuza davam etməliyik. Bunlar hamısı insanların təhlükəsizliyini təmin edir.

Yollarda xüsusi yol nişanları qoyulur. Bu nişanların mənasını bilməliyik ki, yolu təhlükəsiz keçə bilək. Uşaqlar, siz işıqforun nə olduğunu bilirsiniz. İşıqfor yolda nəqliyyatın və piyadaların hərəkətini tənzimləyir**.** Sizcə, işıqforun qırmızı işığı nəyi bildirir? *(Uşaqların cavabları)* Bəs sarı? *(Uşaqların cavabları)* Bəs yaşıl? *(Uşaqların cavabları)* Afərin, uşaqlar! Siz işıqforun işıqlarının mənasını bilirsiniz. Deməli, işıqfor piyadaların və sürücülərin dostudur".

**II.** Müəllim uşaqlara suallarla müraciət edir:

– Yol hərəkəti qaydalarını bilmək nə üçün vacibdir?
– İşıqforun hansı rəngləri var?
– Hansı yol nişanlarını tanıyırsınız? *(Uşaqların cavabları)*

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:** "Sizcə, təsvir olunan yol nişanları nəyi bildirir? *(Uşaqların cavabları) (Hər bir nişan üzrə söhbət aparmaq)*".

**IV. M:** "Bu tapşırıqda yol hərəkəti qaydaları təsvir olunmuş 5 təsvir verilib. Hər təsvirin yanında ona uyğun işarə vardır. Hər şəklə uyğun işarəni rəngləyin".

**M:** "Bu tapşırıqda işıqforlar təsvir olunub. İşıqforda yaşıl işıqdan sonra hansı işığın yanacağını tapın və rəngləyin".

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | |
|---|---|
| | **23-cü həftə \|YOL HƏRƏKƏTİ** |
| **Məşğələ 2. BƏDİİ TƏFƏKKÜRÜN İNKİŞAFI**<br>**Mövzu: YOL HƏRƏKƏTİ QAYDALARI** | **Standart:** 2.2.2.; 2.2.6.<br>**İnteqrasiya:** 2.1.2.; 2.1.4. |

| | |
|---|---|
| **Məqsəd:** | • Eşitdiyini anladığını nümayiş etdirir.<br>• Hekayənin məzmununu sadə şəkildə nağıl edir.<br>• Nitqində əlamət bildirən sözlərdən istifadə edir. |
| **İş üsulları**: | Müzakirə, suallar, nağıletmə. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Hekayənin mətni, şəkillər. |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M:** – Uşaqlar, vəsaitinizdə şəkillərə diqqətlə baxın. Şəkildə nə təsvir olunub? Sizcə, burada nədən söhbət gedir? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, mən sizə "Yol hərəkəti qaydaları" hekayəsini söyləyəcəyəm. Mətni dinlədikcə, şəkillərə baxın. Hər şəkil mətnin bir hissəsini əks etdirir. Mən deyəndə dairəni rəngləməklə, dinlədiyin məlumatları əks etdirən şəkli qeyd edin".

1

"Ayxan birinci sinifdə oxuyur. Onun oxuduğu məktəb evlərinə yaxındır. Ayxanı məktəbə atası aparır. Bir gün Ayxan atasına dedi:

– Ata, mən artıq məktəbə gedən yolu tanıyıram. Fikirləşirəm ki, özüm məktəbə tək gedə bilərəm.

Atası gülümsəyərək cavab verdi:

– Oğlum, əlbəttə, sən özün məktəbə tək gedə bilərsən. Lakin, yol hərəkəti qaydalarını yaxşı bilməlisən.

– Biz məktəbdə yol hərəkəti qaydalarını öyrənirik. İstəyirsən məktəbə gedən yolda əməl edəcəyimiz qaydaları sənə izah edim".

**M:** – "Uşaqlar, şəkillərə baxıb, dinlədiyiniz hissəyə uyğun şəkli tapır və altındakı dairəni işarə edin."

Müəllim oxumağa davam edir.

2

"Ata, bax, evimizdən çıxıb səki ilə düz gedirik. Səki piyadaların gediş-gəlişi üçün təhlükəsiz yerdir. Onlar səki ilə bir qədər irəlilədilər. Xəstəxananın yanına çatanda Ayxan əli ilə göstərib dedi:

– Xəstəxananın yanından sola dönməliyik. Buradan isə qarşı səkiyə keçmək lazımdır".

**M:** – Uşaqlar, Qırmızıpapaq niyə elə soruşdu? Dinlədiyiniz hissəni müəyyənləşdirib işarə edin".

Müəllim oxumağa davam edir.

3

"Atası Ayxanı yoxlamaq məqsədilə dedi:

– Yaxşı, onda, gəl yolu keçək.

Ayxan həyəcanla cavab verdi:

– Ata, maşın yolu ilə keçmək olmaz. Bir bax, maşınlar necə sürətlə şütüyür? Yaxşısı budur, yerüstü keçiddən istifadə edək. Bu zaman nə özümüzü təhlükəyə atarıq, nə də sürücülərə mane olarıq.

Atası Ayxanın dediklərindən çox razı qalmışdı".

**M:** – Uşaqlar, dinlədiyiniz hissəyə uyğun hissəni tapıb işarə edin.

Müəllim oxumağa davam edir.

4

Onlar yerüstü keçid vasitəsilə rahatlıqla qarşı səkiyə keçdilər. Ayxan atasının əlindən tutub sağa tərəf çəkdi:

– Ata buradan sağa gedirik. Burada uşaq kitabxanası var. Müəllimimiz bizi bu kitabxanaya tez-tez gətirir. Kitabxananın qarşısında dayanmalıyıq. İşıqfora diqqətlə baxmalıyıq.

– Oğlum, sən işıqforun rənglərinin mənasını bilirsənmi?

– Bilirəm, ata. Hətta işıqfor haqqında tapmaca da öyrənmişəm. Bir qutuda üç qardaş var. Onlardan biri həmişə deyir: "Dayan". Digər qardaş "Diqqətli ol!", - deyə xəbərdarlıq edir. Üçüncüsü isə "Buyur", -deyə yol göstərir**".**

**M:** – "Uşaqlar, şəkildə dinlədiyiniz hissəyə uyğun şəkli tapıb işarə edin."

Müəllim oxumağa davam edir.

5

"Atası qırmızı işığı yanan işıqforu göstərib dedi:

– Deyəsən, qardaşlardan biri "Dayan" dedi.

– Bəli ata, o maşınlara "Dayan" deyir. İşıqforun alt hissəsində isə yaşıl rəngdə piyada şəkli yanır. Deməli, biz yolu keçə bilərik".

**M:** – Uşaqlar, məzmuna uyğun hissəni tapıb işarə edin.

Müəllim oxumağa davam edir.

6

"Onlar piyada xətti ilə yolun digər tərəfinə keçdilər. Artıq məktəbə çatmışdılar. Atası Ayxanın yol hərəkəti qaydaları haqqında keçdiyi dərsi çox bəyənmişdi:

– Dərs üçün çox sağ ol, Ayxan. Səndən yaxşı yol polisi olar. Düşünürəm ki, gələn il məktəbə özün tək gedə bilərsən.

Ayxan da çox sevinirdi. Dünən keçdikləri yol hərəkəti qaydalarını, demək olar ki, təkrar etmişdi. Həm də bütün məlumatları düzgün xatırlayırdı. Yəqin bugünkü dərsdən beş alacaqdı".

—İdman dəqiqəsi—

**II.** Müəllim uşaqlara suallarla müraciət edir:
– Ayxan niyə səki ilə gedirdi?
– Ayxan işıqforun hansı rəngi yandıqda yolu keçdi?
– Siz yol hərəkəti qaydalarına riayət edirsinizmi? *(Uşaqların cavabları)*

**Tətbiqetmə**

**III. M: –** "Bu tapşırıqda Ayxan gilin evi və oxuduğu məktəb təsvir olunub. Ayxan evdən məktəbə yol hərəkəti qaydalarına uyğun necə gedə bilər? Təhlükəsiz yolu göstərin. Onun rast gəldiyi yol nişanları barədə bildiklərinizi danışın." Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | | |
|---|---|---|
| | | **23-cü həftə \|YOL HƏRƏKƏTİ** |
| **Məşğələ 3–4. SAVAD TƏLİMİNƏ HAZIQLIQ VƏ NİTQ İNKİŞAFI** | | **Standart:** 2.2.4.; 2.2.5. |
| **Mövzu: İ (i), I (ı) SƏSİ VƏ HƏRFİ** | | **İnteqrasiya:** 1.1.4; 2.1.2. |
| **Məqsəd:** | • **X (x)** səsini və hərfi fərqləndirir.<br>• **X** səsinin işləndiyi sözlər söyləyir.<br>• Xətt üzrə **X (x)** hərfini yazır. | |
| **İş üsulları:** | Əqli hücum, suallar, müzakirə. | |
| **İş forması:** | Kollektiv və fərdi iş. | |
| **Resurslar:** | Şəkillər, karandaşlar, marker, hərflər. | |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** – Səhifənin yuxarısındakı şəklə baxaq. Şəkildə nə təsvir olunub? Tülkü nə edir? **Xalça** sözü hansı səslə başlayır? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "**X** hərfindən də digər hərflər kimi sözləri yazanda istifadə olunur. Uşaqlar, sarı qutuya diqqətlə baxaq. Burada həm böyük, həm də kiçik **X** hərfi təsvir olunub. Həm böyük, həm də kiçik **x** hərfi eyni cür yazılır. Böyük **X** bir qədər böyük yazılır". *Çarpaz iki xətt çəkib, Adını "X" qoydular. Xəbər çatdı, xoruza, Dedi, gecikib onlar.*

**M:** "Uşaqlar, dinlədiyiniz şeir parçasında *xəbər, xoruz* sözlərini tələffüz edərkən birinci hansı səsi eşitdiniz? *(X)* Bəli, bu sözlər **X** səsi ilə başlayır".

**M:** "Uşaqlar, indi isə **X** hərfi ilə tanış olaq. Baxın, burada böyük **X** hərfi təsvir olunub. Hərfin ətrafında isə şəkillər təsvir olunub. Hərfin sol tərəfində yuxarıda nə təsvir olunub? *(Uşaqların cavabları)* Bəs hərfin sağında yuxarıda nə təsvir olunub? *(Uşaqların cavabları)* ***Xalça*** sözü hansı səslə başlayır?" *(*Bu qayda ilə hər şəkildə nə təsvir olunduğunu adlandırın və bu sözün hansı səslə başlandığına diqqət edin. **X** hərfini rəngləyin".

**II.** Müəllim lövhədə həm böyük **X** hərfini, həm də kiçik **x** hərfini izah edə-edə yazır. Sonra bir neçə uşaq lövhədə tapşırığı yerinə yetirir. Digər uşaqlar vəsaitdə xətt üzrə **X** hərfini çəkirlər.

**M:** "**X** hərfinin ətrafında şəkillər təsvir olunub. Hər şəkildə nə təsvir olunduğunu bir-bir söyləyin. Söz **X** səsi ilə başlayırsa, həmin şəkli **X** hərfi ilə birləşdirin".

**III. M:** "Uşaqlar, vəsaitin yuxarısında xanalarda sözlər yazılıb. Siz həmin hərfləri öyrənmisiniz. Verilmiş hərfləri nümunəyə uyğun rəngləyin. Sonra sözləri oxuyun. Nə yazılıb? *(xarı bülbül)*".

**IV. M: –** Uşaqlar, söylədiyim kimi, həm böyük, həm də kiçik **X** hərfinin yazılışı eynidir. Böyük hərf bir qədər böyük yazılır. Nöqtədən başlayaraq, kənara çıxmadan xətt üzrə hərfləri çəkin. İndi isə kiçik hərfi çəkin.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**V. M:** – "Kitabınızda xətlərlə sözlər yazılıb. Hərfləri xətt üzrə çəkin və sözü oxuyun. Sözü uyğun şəkillə birləşdirin".

**VI. M: –** "Vəsaitdə şəkillər təsvir olunub. Şəkillərdə nə təsvir olunduğunu söyləyin. Şəkillərin altında çərçivələrdə hər şəklin adının baş hərfi yazılıb. Sözün hansı səslə başlandığını müəyyən edin və həmin şəkli uyğun çərçivə ilə birləşdirin".

Müəllim uşaqlara hərflərin içərisindən **X** hərfini götürüb lövhəyə qoymağı təklif edir. *(Uşaqlar yerinə yetirir)*Məşğələ boyu uşaqlar rəğbətləndirilir. Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

**M:** – Səhifənin yuxarısındakı şəklə baxaq. Şəkildə nə təsvir olunub? *(Uşaqların cavabları) Qağayı* sözü hansı səslə qurtarır? *Bığ* və *qayıq* sözlərində **ı** səsi sözün hansı hissəsində eşidilir? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Birinci tapşırıqda həm böyük G, Q, X, H, həm də bu hərflərin kiçik forması verilib. Hərflə\rin arasında şəkillər təsvir olunub. Hər şəkildə nə təsvir olunduğunu söyləyin. Sözün hansı səslə başlandığını müəyyən edib, həmin şəkli uyğun böyük və kiçik hərflə birləşdirin".

Bu hərflərin hər biri üzrə möhkəmləndirmə işləri aparılır. Uşaqlara verilmiş hərflərə uyğun sözlər söyləmək təklif edilir. Verilmiş əlifbanın hərflərinin arasından həmin hərflər götürülərək, lövhəyə qoyulur. Hər bir səsin birlikdə və tək-tək tələffüz edilməsi üzrə iş aparılır. Uşaqlara X hərfinin sözün əvvəlində, ortasında və sonunda işlənən sözlər söyləmək təklif olunur".

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** "Kitabınızda bu tapşırıqda 4 şəkil təsvir olunub. Şəkilləri adlandırın. Şəkillərin alt hissəsində isə hərflər verilib. Əvvəlcə hərfləri xətt üzrə çəkin. Sonra hərfləri oxuyun. Nə oldu? Hansı hərf çatmır? (X) Çatışmayan hərfi yerinə yazın. Sözü yenidən oxuyun. Nə oldu? *(hörük)* Hər şəkildə nə təsvir olunduğunu bir-bir söyləyin. Birinci hərfləri tapın və bütün sözləri oxuyun". *Verilmiş hərflərin möhkəmləndirilməsi üzrə iş aparılır.*

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | |
|---|---|
| | **23-cü həftə \|YOL HƏRƏKƏTİ** |
| **Məşğələ 5–6. RİYAZİ VƏ MƏNTİQİ TƏFƏKKÜRÜN İNKİŞAFI**<br>**Mövzu: FORMASINA VƏ RƏNGİNƏ GÖRƏ ƏŞYALARI MÜƏYYƏNLƏŞDIRMƏK** | **Standart:** 2.3.2.<br>**İnteqrasiya:** 2.2.6.; 1.1.4. |

| | |
|---|---|
| **Məqsəd:** | • Əşyaları formasına görə fərqləndirir.<br>• Rənginə görə əşyaları müəyyənləşdirir.<br>• Nitqində əlamət bildirən sözlərdən istifadə edir. |
| **İş üsulları**: | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması**: | Kollektiv və fərdi. |
| **Resurslar:** | Şəkillər, rəngli karandaşlar. |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** – Uşaqlar, vəsaitin yuxarısında nə təsvir olunub? Tülkü nə edir? Sarı qutuya baxaq. Orada nə təsvir olunub? Bəs onlar hansı rəngdədir? Forması necədir? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Bu tapşırıqda meyvə və tərəvəzlər təsvir olunub. Meyvələri adlandırın. İndi də tərəvəzləri adlandırın. Meyvələri meyvə səbəti ilə, tərəvəzləri isə tərəvəz qutusu ilə birləşdirin". *(Müəllim uşaqlara hər bir meyvə və tərəvəzin forması və rənginin müəyyənləşdirilməsi üzrə iş aparır).*

**II. M:** "Tapşırıqda öyrəndiyimiz müxtəlif formalı və müxtəlif rəngdə həndəsi fiqurlar təsvir olunub. Həndəsi fiturların alt tərəfində qutular, qutuların üzərində bir həndəsi fiqur təsvir olunub. Fiqurları formasına görə uyğun qutu ilə birləşdirin. Hər qutu ilə neçə fiquru birləşdirdiniz? Sayı hər qutunun altındakı xanada yazın".

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**M: –** "Uşaqlar, indi sizinlə **"Təsvirə görə tapın"** oyununu keçirəcəyik. Mən təsvir edəcəyəm, siz tapacaqsınız. Meyvədir, forması dairəvidir, rəngi qırmızıdır. Dadı turş və şirin olur. Bu hansı meyvədir? (*Uşaqların cavabları*) İndi isə siz təsvir edəcəksiniz, yoldaşlarınız tapacaq". *(2-3 meyvə və ya tərəvəz əlamətinə görə müəyyən olunur).*

**M: – "**Uşaqlar, əşyaları hansı əlamətinə görə qruplaşdırmaq olar? *(Uşaqların cavabları) (formasına, rənginə, ölçüsünə görə)* İndi isə dairə formasında olan meyvələri adlandırın. Sarı rəngdə olan meyvələri sadalayın".

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

Müəllim uşaqlara hansı həndəsi fiqurları tanıdıqlarını soruşur. Həndəsi fiqurların xüsusiyyətləri haqqında danışmağı təklif edir. Rəngləri sadalamağı təklif edir.

**Dərketmə**

**I. M:** "Uşaqlar, bu tapşırıqda müxtəlif rəngdə toplar təsvir olunub. Toplardan aşağıda hər birinə bir rəngli kağız yapışdırılmış qutular təsvir olunub. Topları rənglərinə görə uyğun qutularla birləşdirin. Hər qutu ilə neçə topu birləşdirdiniz? Hər qutuya birlə\şdirilən topların sayını qutunun altındakı xanada yazın". *(Uşaqların cavabları)*

**II. M:** "Şəkildə müxtəlif oyuncaqlar təsvir olunub. Oyuncaqların altında 3 qutu şəkli verilib. Maşın, heyvan və musiqi alətlərini ayrı qutularla birləşdirin. Hər qutunun altında birləşdirdiyin oyuncaqların sayını yazın.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:** " Tapşırıqda rəngsiz dairə, üçbucaq və kvadratlar təsvir olunub. Dairələrin içinə "0", üçbucaqların içinə "3 , kvadratların içinə isə "2 rəqəmlərini yazın. Hər fiquru içindəki rəqəmə uyğun qutu ilə birləşdirin. Hər qutunu neçə fiqurla birləşdirdiniz?" *(Uşaqların cavabları)*

**II. M:** "Əvvəlki tapşırıqda olduğu kimi dairələrin içinə "1", kvadratların içinə "2", üçbucaqların içinə "3", dördbucaqlıların içinə isə "4" rəqəmlərini yazın. Fiqurları içindəki rəqəmə uyğun qutu ilə birləşdirin. Hər qutunu neçə fiqurla birləşdirdiniz?" *(Uşaqların cavabları)* Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | |
|---|---|
| | **23-cü həftə \|YOL HƏRƏKƏTİ** |
| **Məşğələ 7–8. TƏSVİRİ FƏALİYYƏT**<br>**Mövzu: İŞIQFORUN VƏ YOL NİŞANININ DÜZƏLDİLMƏSİ** | **Standart:** 3.1.3; 3.1.4.; 3.1.1.<br>**İnteqrasiya:** 1.1.4; 2.2.6. |

| | |
|---|---|
| **Məqsəd:** | • Kəsib-yapışdırma ilə sadə yaradıcılıq bacarıqları nümayiş etdirir.<br>• Sadə yapma bacarıqları nümayiş etdirərək kompozisiya qurur. |
| **İş üsulları**: | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması**: | Kollektiv və fərdi. |
| **Resurslar:** | Şəkillər, plastilin, rəngli karandaşlar, qayçı, yapışqan. |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** – "Uşaqlar, mən sizinlə bir oyun keçirəcəyəm.".

Uşaqlar dairə şəklində dayanır. Müəllim onlara suallar verir. Sualların cavabını düzgün demək lazımdır.

Suallar:

– Avtomobilin neçə təkəri var? (4)
– Bir velosipedə neçə nəfər minə bilər? (1)
– Piyadaların hərəkəti üçün nəzərdə tutulan yol necə adlanır? (Səki)
– Yolun hərəkət hissəsi nə üçün nəzərdə tutulmuşdur? (Nəqliyyatın hərəkəti üçün)
– Nəqliyyat yolun hansı hissəsi ilə hərəkət edir? (Yolun sağ hissəsi ilə)
– Əgər piyada və ya sürücü qaydanı pozsa, nə baş verər? (Qəza)
– İşıqforun yuxarıdakı işığı hansı rəngdədir? (Qırmızı)
– İşıqforun neçə işığı var? (üç)
– Piyadalar üçün olan keçid hansı heyvana bənzəyir? (Zebraya)
– Bəs piyada yeraltı keçidə necə düşə bilər? (Pilləkənlərlə aşağı)
– Hansı maşınların xüsusi siqnalı var? (Təcili yardım, yanğınsöndürən və polis maşını)
– Bəs təhlükəsizlik üçün, qəzadan qaçmaq üçün harada oynamaq lazımdır? (Həyətdə, uşaq meydançalarında) və s.

**M: – "**Uşaqlar, siz yol hərəkəti qaydaları haqqında bilirsiniz. İşıqfor yolda piyadaların və nəqliyyatın hərəkətini tənzimləyir.

**Dərketmə**

**I. M:** "Biz indi sizinlə kağızdan işıqfor düzəldəcəyik. Kitabınızda işıqforun düzəldilmə ardıcıllığı göstərilib. Uşaqlar, işıqforda ən yuxarıda hansı rəngdə işıq yanır? Bəs sarı işıq harada yanır? Yaşıl işığı harada çəkmək lazımdır? *(Uşaqların cavabları) (Müəllim nümunəni uşaqlara göstərir. Daha sonra onların gözü*

*qarşısında düzəldir. Daha sonra isə uşaqlara işə başlamağı təklif edir)*" Bitirdikdən sonra uşaqlar öz işləri haqqında danışırlar.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** "Uşaqlar, siz keçən məşğələmizdə X hərfini öyrənmisiniz. Biz indi plastilindən "XƏRİTƏ" sözünü düzəldəcəyik. Xəritə sözündəki digər hərfləri siz artıq bilirsiniz". (*Müəllim nümunəni uşaqlara göstərir. Sonra uşaqlara işə başlamağı təklif edir).* Müəllim məşğələ prosesində onlara istiqamət verir, uşaqların əməkdaşlıq etmələrinə imkan yaradır. Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

**M: –** Uşaqlar, siz yol hərəkəti qaydaları haqqında bilirsiniz. İşıqfordan başqa yol hərəkəti nişanları da olur. Hansı yol nişanlarını bilirsiniz? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Düzdür, müxtəlif yol nişanları olur. Məsələn, buradan yolu keçmək olmaz, velosiped sürmək olar, yolu keçmək olar və s. İndi kağızdan yol nişanı düzəldəcəyik. *(Müəllim nümunəni uşaqlara göstərir. Sonra onların gözü qarşısında kəsib-yapışdırır və uşaqlara işə başlamağı təklif edir).* Uşaqlar nişanı düzəltdikdən sonra onun dayağını da düzəldirlər. Dayağı üçün plastilindən istifadə edilir".

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** "Bu tapşırıqda rəngsiz maşın təsvir olunub. Maşının təkərləri xətlə verilib. Maşının təkərlərini tamamlayın və onu rəngləyin". Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**23-cü həftə | YOL HƏRƏKƏTİ**

| **Məşğələ 9–10. FİZİKİ MƏDƏNİYYƏT**<br>**Mövzu: YOL HƏRƏKƏTİ QAYDALARI** | **Standart:** 1.1.1.; 1.3.2.<br>**İnteqrasiya:** 4.2.1.; 4.2.2. |
|---|---|
| **Məqsəd:** | • İlanvari yeriş nümayiş etdirir.<br>• Hərəkətlərini koordinasiya edir.<br>• Hərəkətlərində çəldlik və çeviklik nümayiş etdirir. |
| **İş üsulları**: | Müzakirə, süjetli-rollu oyunlar. |
| **İş forması**: | Kollektiv, qruplarla və fərdi iş. |
| **Resurslar:** | Çənbərlər, |

**1-ci və 2-ci məşğələlər**

**I. İsinmə hərəkətləri** (5 dəq.)

**–** əlləri biləkdən dairəvi hərəkət etdirməklə, biri-birinin ardınca yeriş.
– barmaqları açıb-bükməklə, qolları yuxarı doğru dirsəkdən açıb-bükməklə yeriş.
– adi və iri addımlarla yeriş.
– qan damarlarımız-ilanvari yeriş və adi yerişə qayıtmaq (4–5 dəfə).

**II. Ümuminkişafetdirici hərəkətlər** (20 dəq.)

**"Əllərinizi sükana qoyun"**. 6-8 dəfə təkrar etmək.
*ç.v.* – düz dayanmaq, ayaqlar çiyin bərabərində aralı, çənbər sağ əldə aşağıda.
*1 sayında* qollar irəli;
*2 sayında* qollar yuxarı;
*3 sayında* qollar yanlara.
*4 sayında* ç.v.-nə qayıtmaq.

**2. "Sükanı döndəririk".** 5–6 dəfə təkrar etmək.
*ç.v.* – düz dayanmaq, çənbəri sükan kimi sinə qarşısında tutmaq.
*1- sayında* "sükanı" mümkün qədər sağa döndərmək;
*2 sayında* ç.v.-ni almaq.

*3 sayında* “sükanı” mümkün qədər sola döndərmək;
*4 sayında* ç.v.-nə qayıtmaq.
**3. “Motoru təmir edək”.** 6–8 dəfə
*ç.v.* – düz dayanmaq, ayaqlar aralı, çənbəri iki əllə sinə qarşısında tutmaq.
*1 sayında* əyilərək çənbəri qarşıda yerə qoymaq;
*2 sayında* ç.v.-ni almaq.
*3 sayında* əyilərək çənbəri yerdən götürmək;
*4 sayında* ç.v.-nə qayıtmaq.
**4. “Maşına minək”** 6–8 dəfə
*ç.v.* – Ayaqlar azca aralı, çənbəri iki əllə sinə qarşısında tutmaq.
*1 sayında* sağa tərəf bir addım ataraq, çöməlmək.
*2 sayında* ç.v.-ni almaq.
*3 sayında* hərəkəti sol əllə icra etmək.
*4 sayında* ç.v.-nə qayıtmaq (5–6 dəfə).
**5. “Maşını yükləyirik”.** 6–8 dəfə
*ç.v.* – düz dayanmaq, çənbəri iki əllə orta hissədə tutmaq.
*1 sayında* şöməlmək çənbər yuxarı.
*2 sayında* ç.v.-ni almaq.
**Əsas hərəkətlər.**
**Hərəkətli oyun: “Yol hərəkəti qaydaları”**

Otaqda finişə qədər dayaqlar yerləşdirilir. Oynayan iki komandanın oyunçuları biri-birinin ardınca sıra ilə dayanır və əllərini özündən irəlidə dayananların çiyinlərə qoyurlar. Hər komandaya kapitan seçilir. Oyunun aparıcısının əlində qırmızı, sarı, yaşıl rəngli toplar olan bir kisə (və ya çanta) olur. Kapitanlar, öz növbəsində, əllərini kisəyə salır və hər dəfə bir top çıxarırlar. Kapitan qırmızı və ya sarı bir top çıxarırsa, komanda yerində dayanır; əgər yaşıl rəngli top çıxarsa, – növbəti dayağa keçir. Kimin komandası tez finiş xəttinə çatarsa, o komanda qalib gəlir.

**III. Sakitləşdirici hərəkətlər** (5 dəq.)
***“Qırmızı işıq yandı”***
*ç.v.* – düz dayanmaq, əllər yanlarda.
*1.* Nəfəsalma – əlləri tədricən yuxarı qaldırmaq;
*2.* Nəfəsvermə – ç.v.-nə qayıtmaq.
*3.* Nəfəsalma – bir qədər irəli əyilərək, qolları sərbəst yırğalamaq;
*4.* Nəfəsvermə – ç.v.-nə qayıtmaq.
Müəllimin ardınca bir cərgədə sakit yeriş.

| | | |
|---|---|---|
| | | **23-cü həftə \|YOL HƏRƏKƏTİ** |
| **Məşğələ 11–12. MUSIQİ**<br>**Mövzu:** YOL | | **Standart:** 3.1.7.; 3.1.8.<br>**İnteqrasiya:** 2.2.1.; 2.2.2. |
| **Məqsəd:** | • Musiqinin xarakterini və tempini müəyyən edir;<br>• Xorda oxumaq bacarıqları nümayiş etdirir;<br>• Musiqinin məzmununa uyğun hərəkətlər yerinə yetirir. | |
| **İş üsulları:** | Əqli hücum, müzakirə, suallar. | |
| **İş forması:** | Kollektiv və fərdi iş. | |
| **Resurslar:** | Kompüter, disk, şəkillər, yol qaydalarını əks etdirən şəkillər, işıqfor | |
| **Musiqi materialları:** | Marş **“Azadlıq marşı”** (Heyratı), **“Cəngi”** pyesi (Ü. Hacıbəyli), **“Yol mahnısı”** (O.Zülfüqarov/Ə.Səmədov), **“Gəzinti”, “Vals”, “Marş”** (“Uşaq lövhələri”indən F.Əmirov) | |
| **Alternativ material:** | **Dinləmə**: “Yol” (V.Adıgözəlov/R.Rövşən. “Kişi sözü k/f.-dən), Yol nişanşı” (İ.Zaris-kaya/İ.Şevçuk), “Bremen musiqiçiləri” cizgi filmindən mahnı (Q.Qladkov/Y.Entin)<br>**Mahnı:** “Yollar” (N.Əliverdibəyov/F.Qoca) | |

**1-ci məşğələ**

**1. Marş:** “Azadlıq marşı” (Heyratı)
**2. Dinləmə:**

Sonra bəstəkar F. Əmirovu, onun uşaqlar üçün yazdığı əsərlərini yada salır. Ü, Hacıbəylinin “Cəngi” pyesi haqqında qısa izahat verir və pyesi səsləndirir. Əsəri dinlədikdən sonra müəllim uşaqlara suallarla müraciət edir:

– Dinlədiyiniz musiqinin xarakteri necə idi? - Bəs musiqi hansı tempdə idi?
– Pyes ağır tempdə səslənsə, bu onun xarakterinə necə təsir edər? *(Uşaqların cavabları)*

**3. Mahnı:** “Yol mahnısı” (musiqisi O.Zülfüqarovun, sözləri Ə.Səmədovundur) şifahi yolla öyrədilir.

Müəllim bəstəkar, mahnı, onun məzmunu haqqında qısa məlumat verir, sonra mahnı səsləndirilir. Uşaqlar dinlədikdən sonra mahnı hissə-hissə, frazalarla öyrədilir. Tələffüzü çətin olan sözlər və melodiya üzərində iş aparılır.

Sonda “Yol mahnısı”nın öyrənilmiş hissəsi xorla ifa edilir, məzmunu və xarakteri və tempi müzakirə olunur.

**4. Musiqili-ritmik hərəkətlər:** Müəllim “Yol hərəkəti qaydalarını bilirəm” adlı musiqili-didaktik oyun keçirir.Yol nişanları və işıqforun işıları səhv şəkildə quraşdırılır. “Yol” mahnısı (musiqisi O.Zülfüqarovun, sözləri Ə.Səmədovundur) təkrar səsləndirilir. Uşaqlar müəllimin köməyi və göstərişi mahnını ifa edərək yol hərəkəti qaydalarına düzgün əməl edirlər və səhv olan yol nişanlarını düzəldirlər. Məşğələ ümumiləşdirilərək yekunlaşdırılır.

**Musiqi materialı:**

**“Yol mahnısı”**

| | | |
|---|---|---|
| Biz səhərlər gələndə<br>Küçələrdən keçirik.<br>İşıqlrın rəngini<br>Bir-birindən seçirik. | Qırmızı, həyəcanla<br>Söyləyir: gəlmə,gəlmə!<br>Sarı deyir: gözlə bir,<br>Səbirli ol,səbirli. | Yaşıl işıq yanmasas,<br>Tərpənmə sən yerindən.<br>Gərək baş çıxarasa<br>İşıların dilindən. |

**2-ci məşğələ**

**Marş:** “ Azadlıq marşı” (Heyratı)
**Mahnı:** “Yol” mahnısı **(**O.Zülfüqarov/Ə.Səmədov**)**
**Səhnələşdirmə: “Yol hərəkəti qaydaları” (resurs: yol nişanları,kartondan düzəldilmiş işıqfor, qırmızı, sarı və yaşıl dairələr)**

| № | Musiqi materialı | Fəaliyyət |
|---|---|---|
| 1–6 | “Gəzinti”,”Vals”, “Marş” | Ata oğlu ilə söhbət edir. Oğlan atasının əlindən tutub gəzir.<br>Yol boyu müxtəlif yol nişanlarını göstərərək izah edir (*hərəkətlərlə göstərir*). |

| | |
|---|---|
| | **24-cü həftə \| İDMAN NÖVLƏRİ** |
| **Məşğələ 1. ƏTRAF ALƏMLƏ TANIŞLIQ**<br>**Mövzu: İDMAN NÖVLƏRI** | **Standart:** 2.1.2.; 2.1.4.<br>**İnteqrasiya:**. 4.1.2.; 2.2.1. |

| | |
|---|---|
| **Məqsəd:** | • İdmanın əhəmiyyəti haqqında danışır.<br>• İdman növlərini sadalayır.<br>• Nitqində əlamət bildirən sözlərdən istifadə edir. |
| **İş üsulları:** | Əqli hücum, müzakirə, suallar. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Müxtəlif idman növləri təsvir olunmuş şəkil, karandaşlar. |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M:** – Uşaqlar, kitabınızda yuxarıdakı şəklə diqqət yetirin. Orada nə təsvir olunub? Sizcə, tülkü nə etmək istəyir? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** “Uşaqlar, düzdür, tülkü futbol oynayır. Futbol da idmanın növlərindən biridir. Biz hər gün “bədən tərbiyəsi”, “idman”sözlərini eşidirik. Sizcə, bu sözlərin fərqi nədir? (Bədən tərbiyəsi ilə hər bir kəs məşğul ola bilər, amma idmanla hər adam məşğul ola bilməz) Bədən tərbiyəsi ilə uşaq da, böyük də, xəstə də məşğul ola bilər. Amma idmanla ən güclü, sağlam, möhkəm adamlar məşğul ola bilərlər. İdmanla məşğul olmaq sağlamlıqdır.

*İdmanı sevirik biz,*
*1-2-3-4;*
*Bərkiyir bədənimiz,*
*1-2-3-4*

Bədən tərbiyəsi ilə məşğul olan hər bir kəs idmançı olmağı arzu edər. Bəs bunun üçün nə etmək lazımdır? (Hər səhər idman etmək, açıq havada idman tapşırıqları yerinə yetirmək və s.) -Necə uşaqlar səhər gimnastikasını, idmanı sevmir?

*(tənbəl uşaqlar idmanı sevmir. Odur ki, onlar zəif olur, tez-tez xəstələnirlər)* Siz elə uşaqlardan olmaq istərdiniz? *(yox)* –Uşaqlar, idmanın növləri çoxdur. Futbol, voleybol, basketbol, tennis, üzgüçülük, güləş və s. idmanın növləridir. İdman növləri üzrə həm fərdi, həm də komanda şəklində çıxış edirlər, çempionatda iştirak edirlər. Hər bir idmanın azarkeşləri olur. İdmançılar yarışa getməzdən əvvəl çoxlu məşq edirlər. Onları yarışa məşqçilər hazırlayırlar".

**M:** "Birinci tapşırıqda müxtəlif idman növləri təsvir olunub. Şəkillərdə təsvir olunmuş idman növləri haqqında danışın".

**II.** Müəllim uşaqlara – " Fərdi və komanda idman növləri bir-birindən nə ilə fərqlənir?– Siz hansı idman növlərinin qaydalarını bilirsiniz?– Azarkeşlər öz komandalarını necə dəstəkləyirlər?" kimi suallarla müraciət edir.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:** "Şəkildə altı idman növü təsvir olunub. Hər idman növünü adlandırın. İdmanın komanda növü, yoxsa fərdi növü olduğunu deyin və uyğun işarə ilə birləşdirin".

**IV. M:** "Şəkildə idman ləvazimatları təsvir olunub. Təsvir olunan ləvazimatlar hansı idman növünə aiddir?" *(Uşaqların cavabları)* Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | |
|---|---|
| | **24-cü həftə \| İDMAN NÖVLƏRİ** |
| **Məşğələ 2. BƏDİİ TƏFƏKKÜRÜN İNKİŞAFI** | **Standart:** 2.2.2; 2.2.6. |
| **Mövzu:** KIRPI VƏ DOVŞAN | **İnteqrasiya:** 2.1.2; 2.1.4. |

| | |
|---|---|
| **Məqsəd:** | • Eşitdiyini anladığını nümayiş etdirir.<br>• Nağılın məzmununu sadə şəkildə izah edir.<br>• Nitqində əlamət bildirən sözlərdən istifadə edir. |
| **İş üsulları:** | Müzakirə, suallar, nağıletmə. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Nağılın mətni, şəkillər. |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M:** – Uşaqlar, vəsaitinizdə şəkillərə diqqətlə baxın. Şəkildə nə təsvir olunub? Sizcə, burada nədən söhbət gedir? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** – Uşaqlar, mən sizə "Kirpi və dovşan" nağılını söyləyəcəyəm. Vəsaitdə şəkillər verilir. Hər şəkil mətnin bir hissəsini təsvir edir. Mən deyəndə dinlədiyiniz hissəyə uyğun şəkli tapın və altındakı dairəni rəngləyin.

1

"Bir gün Dovşanla Kirpi yolda rastlaşdılar. Dovşan Kirpinin ayaqlarına gülüb dedi:

– Kirpi, sənin bütün xüsusiyyətlərin yaxşıdır, amma ayaqların qısa və əyridir. <u>Heç belə də ayaq olar? Sən bu ayaqlarla necə gəzirsən?"</u>

**M:** – Uşaqlar, şəkillərə baxın, dinlədiyiniz hissəyə uyğun hissəni tapıb altındakı dairəni işarə edin.

Müəllim şeiri söyləməyə davam edir.

2

"Dovşanın sözləri Kirpinin xoşuna gəlmədi. Ondan incisə də üzə vurmadı. Sakitcə dedi:

– Mən belə düşünmürəm. Bəzən qısa əyri ayaqlar, düz uzun ayaqlardan sürətlə qaçır. <u>İstəyirsən səninlə qaçış yarışına çıxaq".</u>

**M:** – Dinlədiyiniz hissəni müəyyənləşdirib işarə edin.

Müəllim söyləməyə davam edir.

3

"Dovşan Kirpinin sözlərinə gülüb dedi:

– Sən mənimlə qaçış yarışına çıxmaq istəyirsən? Axı sən bilirsən mən necə sürətlə qaçıram. Amma sən deyən olsun. İstəyirsən yarışaq.

Onlar yarış gününü müəyyənləşdirib ayrıldılar. Kirpi çox gözəl bilirdi ki, heç vaxt qaçış yarışında Dovşana qalib gələ bilməz. <u>Amma lovğalandığı üçün Dovşana dərs vermək istəyirdi".</u>

**M:** –"Uşaqlar, dinlədiyiniz hissəyə uyğun hissəni tapıb işarə edin".

Müəllim söyləməyə davam edir.

4

"Odur ki, hiylə işlətdi. Dostunu köməyə çağırdı:

– Dostum, biz kirpilər bir-birimizə çox bənzəyirik. Yarış günü sən mənimlə gedərsən. Yarışacağımız yolun sonunda kolların arasında gizlənərsən. Dovşan qaçıb ora çatanda kolların arasından çıxıb deyərsən ki, mən səni çoxdan gözləyirdim. Narahat olma, Dovşan onsuz da səni tanımayacaq. Elə biləcək ki, mənəm".

**M:** – Uşaqlar, şəkildə dinlədiyiniz hissəyə uyğun şəkli tapıb işarə edin.

Müəllim söyləməyə davam edir.

5

"Yarış günü gəlib çatdı. Kirpinin dostu yolun sonunda dayandı. Bir, iki, üç.... yarış başladı. Dovşan var gücü ilə qaçmağa başladı. Kirpi isə geri qayıdıb dərədə gizləndi. Dovşan yolun sonuna çatanda kirpinin dostu onu qarşıladı:

– Ay Dovşan, niyə belə gec gəldin? Bayaqdan səni gözləyirəm".

**M:** – "Uşaqlar, məzmuna uyğun şəklin hissəni tapıb, işarə edin".

Müəllim söyləməyə davam edir.

6

"Dovşanın çəp gözləri təəccübdən daha da çəpləşdi. Çevrilib geriyə qaçmağa başladı. Bu dəfə yolun sonuna çatanda Kirpi onu qarşıladı:

– Dovşan qardaş, bəs deyirdin sürətlə qaçırsan. Səni gözləməkdən yoruldum.

Beləcə, Dovşan iki kirpinin arasında o qədər ora-bura qaçdı ki, axırda yorulub əldən düşdü. Kirpinin isə kefi kök idi. Dovşana yaxşı dərs vermişdi".

**II.** Müəllim uşaqlara suallarla müraciət edir:

– Kirpi Dovşanla niyə yarışmağa başladı?

– Nə üçün Dovşan Kirpini asanlıqla udacağını düşünürdü?

– Kirpi vəziyyətdən necə çıxdı?

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:** – "Kitabınızda nağılın məzmununa uyğun 3 şəkil verilib. Şəkillərə diqqətlə baxın və açar sözləri yadda saxlayın. Açar sözlərdən istifadə edərək personajın nə dediyini söyləyin".

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**24-cü həftə | İDMAN NÖVLƏRİ**

| | |
|---|---|
| **Məşğələ 3–4. SAVAD TƏLİMİNƏ HAZIRLIQ VƏ NİTQ İNKİŞAFI**<br>**Mövzu: V v SƏSİ VƏ HƏRFİ** | **Standart:** 2.2.4.; 2.2.5<br>**İnteqrasiya:** 1.1.4.; 2.1.2. |
| **Məqsəd:** | • **V (v)** səsini və hərfi fərqləndirir.<br>• **V (v)** səsinin işləndiyi sözlər söyləyir.<br>• Xətt üzrə **V (v)** hərfini yazır. |
| **İş üsulları:** | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Şəkillər, karandaşlar, marker, hərflər. |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** – Səhifənin yuxarısındakı şəklə baxaq. Şəkildə nə təsvir olunub? Tülkü nə edir? **Velosiped** sözü hansı səslə başlayır? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Bəli, *velosiped* sözü **V** hərfi ilə başlayır. **V** hərfindən də digər hərflər kimi sözləri yazanda istifadə olunur. Uşaqlar, sarı qutuya diqqətlə baxaq. Burada **V** hərfi təsvir olunub. **V** böyük hərfdir.

**M:** "Uşaqlar, siz artıq bir çox hərfləri öyrənmisiniz. İndi isə **V** hərfi ilə tanış olacağıq. Baxın, burada böyük **V** hərfi təsvir olunub. Böyük və kiçik hərfin yazılışı eynidir. Yalnız böyük V hərfi bir qədər böyük yazılır. Birinci tapşırıqda hərfin ətrafında şəkillər var. Hərfin sol tərəfində yuxarıda nə təsvir olunub? *(Uşaqların cavabları)* Bəs hərfin sağında yuxarıda nə təsvir olunub? Bu qayda ilə hər bir şəkildə nə təsvir olunduğunu söyləyin və bu sözün hansı səslə başlandığına diqqət edin. Sözlərdən hansı **V** səsi ilə başlayır?" *(Uşaqların cavabları)* **V** hərfinin rəng-lənməsi.

**II.** Müəllim lövhədə **V** hərfini izah edə-edə yazır. Sonra bir neçə uşaq lövhədə tapşırığı yerinə yetirir. Digər uşaqlar vəsaitdə xətt üzrə **V** hərfini çəkirlər. **M:** "**V** hərfinin ətrafında şəkillər təsvir olunub. Hər şəkildə nə təsvir olunduğunu bir-bir adlandırın. Söz **V** səsi ilə başlayırsa, həmin şəkli **V** hərfi ilə birləşdirin".

**III. M:** "Uşaqlar, vəsaitin yuxarısında xanalarda söz yazılıb. Sözlər sizin öyrəndiyiniz hərflərdən yazılıb. Hərflərini nümunəyə uyğun rəngləyin və sözü oxuyun".

**IV. M: – "**Uşaqlar, nöqtədən başlayaraq, xətt üzrə böyük və kiçik **V** hərfini yazın".

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**I. M: "**Bu tapşırıqda xətlərlə üç söz yazılıb**.** Kənarında isə bu sözlərə uyğun şəkillər təsvir olunub. Hərfləri xətt üzrə çəkin və sözləri oxuyun. Sözləri uyğun şəkillərlə birləşdirin."

**M:** "Bu tapşırıqda dörd şəkil təsvir olunub**.** Şəkillərin altında isə iki çərçivədə isə **V** və **F** hərfi yazılıb. Hər şəkildə nə təsvir olunduğunu bir-bir söyləyin. Sözün hansı səslə başlandığını müəyyən edin və həmin şəkli uyğun çərçivə ilə birləşdirin".

Məşğələ boyu uşaqlar rəğbətləndirilir. Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

**M:** "Uşaqlar, kitabınızdakı şəkillərə baxın. Orada nə təsvir olunub? *(Uşaqların cavabları)* Bəli, uşaqlar voleybol oynayır. Voleybol sözü hansı səslə başlayır? *(Uşaqların cavabları)* **V** səsi ilə başlayan sözlər söyləyin.

**Dərketmə**

**I. M:** "Uşaqlar, siz artıq hərflərin çoxunu tanıyırsınız. Hərfləri oxuyub, sözü deyirsiniz. Bu tapşırıqda xətlərlə hərflər verilib. Xətləri birləşdirib, hərfləri tamamlayın. Hansı hərfdir? (müəllim hər bir hərfi ayrılıqda adlandırmalarını söyləyir, sonra isə sözləri bir-bir oxumağı təklif edir. Nə alındı?"

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** "Bu tapşırıqda dörd şəkil təsvir olunub**.** Şəkillərin altındakı çərçivələrdə isə **qırıq xətlərlə söz yazılıb.** Hər şəkildə nə təsvir olunduğunu bir-bir söyləyin. Sözün hansı səslə başlandığını müəyyən edin və həmin şəkli uyğun çərçivə ilə birləşdirin. Sözdəki çatışmayan birinci hərfi yerinə yazın". Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | |
|---|---|
| | **24-cü həftə \| İDMAN NÖVLƏRİ** |
| **Məşğələ 5–6. RİYAZİ VƏ MƏNTİQİ TƏFƏKKÜRÜN İNKİŞAFI**<br>**Mövzu: RƏQƏMLƏRƏ UYĞUN SAYDA DAİRƏNİN RƏNGLƏNMƏSİ** | **Standart:** 2.3.1.<br>**İnteqrasiya:** 2.2.6.; 2.2.1. |

| | |
|---|---|
| **Məqsəd:** | • Çox, az, bərabər anlayışlarından düzgün istifadə edir.<br>• Ədədə əsasən sayı müəyyənləşdirir. |
| **İş üsulları:** | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması:** | Kollektiv və fərdi. |
| **Resurslar:** | Şəkillər, rəngli karandaşlar. |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** – Uşaqlar, vəsaitin yuxarısında nə təsvir olunub? Timsahın qarşısında neçə konfet var? Bəs arxa tərəfində neçə konfet təsvir olunub? Sarı qutuya baxaq. Orada nə təsvir olunub? Sizcə, bu nə deməkdir? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Bəli, timsahın qarşısında 3 konfet, arxa tərəfində isə 1 konfet təsvir olunub. Sizcə, 3 konfet çoxdur, yoxsa 1 konfet? *(Uşaqların cavabları)* Düz müəyyənləşdirdiniz. Əlbəttə, üç birdən çoxdur. Deməli, timsah ağzı açıq hansı tərəfə dayansa, həmin say digərindən çoxdur. Bunu başqa cür də ifadə edə bilərik: bir üçdən azdır". Əgər hər iki tərəfdə də eyni sayda konfet olsa, o zaman hansı çox olar? *(və ya az) (Uşaqların cavabları)* (Bərabər olar) Birinci şəkildə solda neçə top var? Bəs onun qarşı tərəfində neçə top var. Hansı daha çoxdur? İşarə qoysaq necə qoymalıyıq? Timsahın açıq ağzı sayı çox olan tərəfə olmalıdır. İndi isə birinci tapşırığa baxaq. Şəkildəki topları saylarına görə müqayisə edin. Düzgün baxan timsah şəklini haşiyəyə alın. *(Hər bir tapşırıq üzrə bu qayda ilə iş aparılır)*

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** "İkinci tapşırıqda iki çərçivə təqdim olunur. Birinci çərçivədə 1 rəqəmi, ikinci çərçivədə 3 rəqəmi yazılıb. Hər bir rəqəmin altında 3 ədəd rəngsiz dairə təsvir olunub. Hər rəqəmə uyğun sayda dairəni rəngləyin. Hansı çərçivədə say çoxdur. Sayı nəzərə alaraq, düzgün baxan timsah şəklini haşiyəyə alın".

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

Müəllim uşaqların diqqətini az, çox, bərabər anlayışlarına cəlb edir və uşaqlara suallarla müraciət edir. *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, birinci tapşırıqda hər sırada 4 olmaqla, qırmızı və mavi rəngli çərçivələr təqdim olunur. Hər çərçivədə müxtəlif rəqəmlər və buna uyğun olaraq rəngsiz dairələr verilir. Çərçivələrin arasında isə çox, az, bərabər işarələrini bildirən timsah ağzı təsvir olunub. Həm qırmızı, həm də mavi çərçivələrdə yazılmış rəqəmə uyğun sayda dairəni rəngləyin. Sonra sol və sağ tərəfdəki çərçivələri müqayisə edərək, saya uyğun düzgün baxan timsah şəklini haşiyəyə alın". *(Hər sıradakı çərçivə üzrə iş aparılır və müzakirə edilir)*

**II.** Vəsaitinizdə 3 sırada rəngli və rəngsiz toplar təsvir olunub. Bunların arasında işarə qoyulub. Timsahın düzgün baxması üçün sol tərəfdə uyğun sayda topu rəngləyin. *(Hər sıra üzrə bu qayda ilə iş aparılır.)*

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:** "Bu tapşırıqda 16 xana və 4 cür top təsvir edilib. Hər sətirdə və sütunlarda hər topdan 1 dənədir. Boş xanalarda hansı topların olacağını tapın və çəkin". Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**24-cü həftə | İDMAN NÖVLƏRİ**

**Məşğələ 7–8. TƏSVİRİ FƏALİYYƏT**
**Mövzu: OLİMPİA HALQALARININ VƏ İDMAN KÖYNƏKLƏRİNİN DÜZƏLDİLMƏSİ**

**Standart:** 3.1.3.; 3.1.4.; 3.1.8.

**İnteqrasiya:** 1.1.4.; 2.2.6.

| | |
|---|---|
| **Məqsəd:** | • Rəsmetmə üsulu ilə yaradıcılıq bacarıqları nümayiş etdirir.<br>• Sadə yapma bacarıqları nümayiş etdirərək kompozisiya qurur.<br>• Sadə kəsib-yapışdırma bacarıqları nümayiş etdirir. |
| **İş üsulları:** | Əqli hücum, suallar, süjetli-rollu oyun. |
| **İş forması:** | Kollektiv və fərdi. |
| **Resurslar:** | Şəkillər, plastilin, kağızlar, rəngli karandaşlar. |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** – Uşaqlar, deyə bilərsinizmi, idmanın hansı növləri var? *(Uşaqların cavabları)* İdmanın bütün növləri üzrə yarışlar, olimpiadalar keçirilir. İdmançılar orada çıxış edirlər.

**Dərketmə**

**M:** "Siz yəqinki, 5 rəngli halqadan ibarət olimpiya işarəsidir. 5 halqa 5 qitəni təmsil edir. Bu işarə 5 qitənin birliyi və dostluğuna işarədir. Mavi halqa – Avropanı, sarı halqa-Asiyanı, qara halqa – Afrikanı, yaşıl halqa – Avstraliyanı, qırmızı halqa isə – Amerikanı təmsil edir.

**I. M:** "Uşaqlar, biz indi sizinlə plastilindən Olimpiya halqaları düzəldəcəyik. *(Müəllim uşaqların gözü qarşısında izah edə-edə bir nümunəni düzəldir. Sonra uşaqlara işə başlamağı təklif edir)* İndi isə siz nümunədən istifadə edərək olimpiya halqaları düzəldin".

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**M:** "Uşaqlar, biz V hərfini də öyrəndik. İndi artıq çox hərfləri tanıyırsınız. İndi öyrəndiyiniz hərflərdən istifadə edərək, VALEYBOL sözünü plastilindən düzəldəcəyik. *(Ehtiyac yaranarsa, müəllim hərfləri bir-bir deyir, uşaqlar düzəldərək kağıza yapışdırırlar)*

Məşğələ prosesində onlara istiqamət verir, uşaqların əməkdaşlıq etmələrinə imkan yaradır. Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

**M: –** Şeirə qulaq asın:

*Kim sevirsı idmanı, 1-2-3-4;*
*Poladdan olar canı, 1-2-3-4.*

**M:** "Uşaqlar, bu şeirdə söhbət nədən gedir?" *(Uşaqların cavabları)*

**Dərketmə**

**M:** "Uşaqlar, yarışlarda bizim idman komandamızın köynəyində bayrağımızın rəngləri olur. Bununla da, həmin idmançıların hansı ölkəni təmsil etdikləri məlum olur. Bu gün biz də sizinlə kağızdan idman köynəyi düzəldəcəyik. *(Müəllim uşaqlara nümunəni göstərir, sonra onların gözü qarşısında izah edə-edə kağızdan kəsib düzəldir. Sonra uşaqlara işə başlamağı təklif edir.*

**I. M:** "Uşaqlar, indi kağızdan milli komandamızın maykasını düzəldin. Dairədə isə sevimli nömrənizi yazın".

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**M:** "Uşaqlar, ikinci tapşırıqda xətt üzrə topun uçduğu yol və rəngsiz top təsvir olunub. Yolu çəkin və topu rəngləyin". Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | 24-cü həftə \| İDMAN NÖVLƏRİ |
|---|---|
| **Məşğələ 9–10. FİZİKİ MƏDƏNİYYƏT**<br>**Mövzu: İDMANI SEVİRİK BİZ** | **Standart:** 1.1.1.; 1.1.2.<br>**İnteqrasiya:** 4.2.1.; 4.2.2. |

| | |
|---|---|
| **Məqsəd:** | ● Əşyalarla müxtəlif hərəkətləri yerinə yetirir.<br>● Müvazinət hərəkətlərini yerinə yetirir.<br>● Hərəkətlərində cəldlik və çeviklik nümayiş etdirir. |
| **İş üsulları:** | Müzakirə, süjetli-rollu oyunlar. |
| **İş forması:** | Kollektiv, qruplarla və fərdi iş. |
| **Resurslar:** | Uşaqların sayı qədər kiçik "qantellər," gimnastika skamyası. |

**1 və 2-ci məşğələlər**

**I. İsinmə hərəkətləri** (5 dəq.)

**–** adi, əllər yuxarıda pəncələr üstə və əllər arxada dabanlar üzərində yeriş.
– qolları dirsəkdən bükmək, irəli-geri hərəkət etdirərək, dizləri hündürə qaldırmaqla yeriş.
– siqnala uyğun yeriş və yürüşün əvəzlənməsi.
– bir sıradan iki sıraya düzülmək.
– əlləri yanlardan yuxarı qaldıraraq, nəfəs almaq və nəfəsi ağızdan buraxmaq (4–5 dəfə).

**II. Ümuminkişafetdirici hərəkətlər** (20 dəq.)

**1. "Biz güclüyük"** (8–10 dəfə)
*ç.v.* – düz dayanmaq, əldə "qantellər" qollar aşağıda.
*1 sayında* qolları dirsəkdən bükməklə, qantelləri çiyinlərə yaxınlaşdırmaq;
*2 sayında* ç.v.-ni almaq;

**2. "Əyilək"** (8–10 dəfə)
*ç.v.* – düz dayanmaq, ayaqlar çiyin bərabəri aralı, əldə "qantellər" qollar aşağıda.
*1 sayında* başı dik tutmaqla gövdəni irəli əyilmək, qantelləri qarşısında düz tutmaq, dizləri qatlamamaq;
*2 sayında* ç.v.-ni almaq;

**3. "Dön"** (5–6 dəfə).
*ç.v.* – düz dayanmaq, ayaqlar çiyin bərabəri aralı, əldə "qantellər" qollar aşağıda.
*1 sayında* qollar yanlara sağa dönmək;
*2 sayında* ç.v.-ni almaq;
*3 sayında* hərəkəti sol tərəfə icra etmək;
*4 sayında* ç.v.-ni almaq;

**4. "Otur-qalx"** (5–6 dəfə).
*ç.v.* – düz dayanmaq, ayaqlar azca aralı, əldə "qantellər" qollar aşağıda.
*1 sayında* əldə "qantellərlə" qolları irəli uzatmaqla şöməlmək;

*2 sayında* ç.v.-ni almaq;
**5. "Dalğa"** (5–6 dəfə).
*ç.v.* – dizləri üstə dayanmaq, əldə "qantellər" qollar aşağıda.
*1 sayında* qolları irəli uzadaraq sağa dönmək;
*2 sayında* ç.v.-ni almaq;
*3 sayında* qolları irəli uzadaraq sola dönmək;
*4 sayında* ç.v.-ni almaq.
**Əsas hərəkətlər.**
Yanlardan skamyadan əllə tutaraq, gimnastika skamyasının üzəri ilə qarnı üstə sürünmək. (2–3 dəfə)
**Hərəkətli oyun – "Hə, yox".**
Oyunun qaydasına görə uşaqlar bu dairədə gəzişirlər. Müəllim uşaqlara suallar verir. *(Məsələn, mən idmanı çox sevirəm. Mən yatmağı və yeməyi çox sevirəm və s.).*Əgər sualın cavabı faydalıdırsa, uşaqlar əl çalırlar. Əgər zərərlidirsə, ayaqlarını yerə döyürlər.
**III. Sakitləşdirici hərəkətlər** (5 dəq.)
**"Mən sakitəm"**
*ç.v.* – düz dayanmaq, əllər yanlarda.
*1.* Nəfəsalma – sağ əllə sol əli tumarlamaq.
*2.* Nəfəsvermə – ç.v.-nə qayıtmaq.
*3.* Nəfəsalma – sol əli ilə sağ əli tumarlamaq.
*4.* Nəfəcvermə – ç.v.-nə qayıtmaq.
Müəllimin ardınca bir cərgədə sakit yeriş.

**24-cü həftə | İDMAN NÖVLƏRİ**

**Məşğələ 11–12. MUSİQİ**
**Mövzu: İDMAN**

**Standart:** 3.1.7.; 3.1.8.
**İnteqrasiya:**. 2.2.1.; 4.1.2.

| | |
|---|---|
| **Məqsəd:** | • Musiqinin xarakterini və tempini müəyyən edir;<br>• Xorda oxumaq bacarıqları nümayiş etdirir;<br>• Musiqinin ritminə uyğun hərəkətlər yerinə yetirir. |
| **İş üsulları:** | Əqli hücum, müzakirə, suallar. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Kompüter, disk, şəkillər, top,çubuq |
| **Musiqi materialı:** | **Marş. "Azadlıq marşı"** (Heyratı), **"Gənc futbolçular"** (O.Zülfüqarov/T.Elçin) **"İdman"** mahnısı (O.Zülfüqarov/S. Zərdablı), **"Futbol marşı"** (Blanter), **"Gənc idmançılar"** (M.Mirzəyev/H.Ziya), **"Deyişmə"** ("Uşaq süitası" fortepiasno silsiləsindən. A. Zeynallı) **"Fırfıra**" (6 uşaq pyeindən, Q.Qarayev) **"Qaliblər mahnısı"** (Q.Hüseynli/ Ə.Ziyatay) |
| **Alternativ material:** | **Dinləmə**: "Hop-hop-hop" (N.Məmmədov/M.Gülgün), "Cürət" (Q.Hüseynli/Ə.Ziyatay), "Yallı" Azərbaycan xalq rəqsi<br>**Mahnı:** "Karate" (O.Rəcəbov/M.İsmayıl), "Tut məni, tut" (A.Suitanova/T.Elçin) |

**1-ci məşğələ**

**1. Marş:** "Azadlıq marşı" (Heyratı)
**2. Dinləmə:** Müəllim musiqinin məzmunu barədə danışıb, insanın hiss və həyəcanı, ətrafda baş verən hadisələrin musiqidə təcəssümü, ümumiyyətlə musiqi nədən "danışa bilər" mövzusu barədə qısa söhbət aparır. İdman, idmanın müxtəlif növlərinin musiqidə təsvirini söyləyir. Bəstəkar O.Zülfüqarovun şair T.Elçinin sözlərinə yazdığı "Gənc futbolçular" mahnısının məzmununu açıqlayıb onu səsləndirir. Mahnını dinlədikdən sonra müəllim uşaqlara suallarla müraciət edir: – mahnıd hansı idman növündən bəhs olundu? – Mahnının xarakteri və tempi necə idi? – İdman, onun müxtəlif növlərindən başqa, musiqi daha nədən "danışa bilər"? *(Uşaqların cavabları)*
**3. Mahnı:** "İdman" mahnısı (musiqisi O.Zülfüqarovun, sözləri S.Zərdablı) şifahi yolla öyrədilir. Müəllim bəstəkar O. Zülfüqarov haqqında qısa məlumat verir, onun uşaqlar üçün bəstələdiyi mahnıların adını söyləyir. Sonra "İdman " mahnısının məzmunu haqqında qısa məlumat verərək onu səsləndirir. Uşaqlar dinlədikdən sonra mahnı hissə-hissə, frazalarla öyrədilir.Sonda "İdman " mahnısı xorla ifa edilir, məzmunu və xarakteri müzakirə olunur.
**4. Musiqili-ritmik hərəkətlər:** "Futbol marşı "pyesi (musiqisi Blanterindir) səsləndirilir. Uşaqlar musiqinin sədaları altında musiqinin tempinə və ritminə uyğun futbol oyununun hərəkətləri ilə təsvir edirlər. Məşğələ ümumiləşdirilərək yekunlaşdırılır.

**Musiqi materialı.**

**"İdman"**

| | |
|---|---|
| Kim sevirsə idmanı<br>Bir,iki, üç, dörd<br>Poladdan olar çanı<br>Bir,iki, üç, dörd | İdmanı evirik biz<br>Bir,iki, üç, dörd<br>Bərkiyir bədənimiz<br>Bir,iki, üç, dörd. |

**2-ci məşğələ**

**Marş:** "Azadlıq marşı" (Heyratı)
**Mahnı:** "İdman" mahnısı (O.Zülfüqarov/S.Zərdablı)
**Səhnələşdirmə: "Kirpi və dovşan" (resurs:kirpi və dövşan makaları, fit)**

| № | Musiqi materialı | Fəaliyyət |
|---|---|---|
| 1 | "Deyişmə" | Kirpi və dovşan söhbət edirlər. Dövşan kirpinin ayaqlarını göstərir və ona gülür.Kirpi ayaqlsartına baxır və qanı qaralır. |
| 2 | "Fırfıra" | Sinfin hər iki küncündə bir kirpi dayanır, dovşan bir-neçə dəfə onların arasında qaçır. Hər küncə çatanda münsif (bir uşaq) fit çalır.Dovşan hər kirpini görəndə təəccüblənir. |
| 3 | "Qaliblər mahnısı | Sonda kirpi qalıb kimi ələrini qaldırır və sevinir. |

| | 25-ci həftə \| DAVRANIŞ |
|---|---|
| **Məşğələ 1. ƏTRAF ALƏMLƏ TANIŞLIQ**<br>**Mövzu: "SEHİRLİ SÖZLƏR"** | **Standart:** 2.1. 2.; 2.1. 4.<br>**İnteqrasiya:** 2.2.2.; 2.2.3. |

| | |
|---|---|
| **Məqsəd:** | • Davranış qaydaları haqqında danışır.<br>• Nitqində nəzakətli sözlərdən istifadə edir.<br>• İfadələrin istifadə yerini düzgün müəyyən edir. |
| **İş üsullar:** | Əqli hücum, müzakirə, suallar. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Müxtəlif davranış vəziyyəti təsvir olunmuş şəkil. |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M:** – Uşaqlar, kitabın yuxarısındakı şəkillərə baxaq. Tülkü nə edir? (Uşaqların cavabları) Bəli, tülkü siçana salam verir. Sizcə, salamlaşarkən nə demək lazımdırr? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M: "**Uşaqlar, hər bir insan davranış qaydalarına əməl etməlidir. Uşaqlar, davranış qaydaları dedikdə nə nəzərdə tutulur? *(Uşaqların cavabları)* İnsanın davranışı və danışığı onun mədəniyyətinin göstəricisidir. Davranış və nəzakət qaydalarına riayət etmək digər insanlara hörmət etmək deməkdir. Mədəni insanlar bir-biri ilə danışarkən, "bəli", "xeyir" kəlmələrindən istifadə edirlər. İnsanlar görüşdükləri zaman bir-biri ilə salamlaşırlar. Bu zaman onlar *"salam", "sabahınız xeyir", "axşamınız xeyir"* kimi sözlərdən istifadə edirlər. İlk olaraq, həmişə kiçiklər (azyaşlılar) böyüklərə salam verməlidirlər. *"Zəhmət olmasa", "Üzr istəyirəm", "Xahiş edirəm", "İcazə verin", "Buyurun", "Təşəkkür edirəm", "Sag ol"* sözləri də çox vacibdir. Onlar sanki, sehrli sözlərdir və bu sözlərdən istifadə edərkən insanlar böyük məmnuniyyətlə sənin xahişlərini yerinə yetirirlər. Uşaqlar, siz hansı hallarda *"Zəhmət olmasa"* sözünü işlədirsiniz? *(Uşaqların cavabları)* Kimsə sizin üçün hər hansı bir işi görəndə "*Çox sağol*" deməyi heç vaxt unutmayın! Sizə kimin kömək etdiyi vacib deyil. Əsas odur ki, siz yaxşı işləri heç vaxt cavabsız qoymayın. Əgər siz səhv etmisinizsə, yaxud da bilmədən kiməsə toxunmusunuzsa (yolda gedərkən) mütləq üzr istəyin. Üzr istəmək çətin bir iş deyil və üzr istədiyin zaman insanlar xoşagəlməz əhvalatı unudacaq və sizə qarşı acıqlı olmayacaqlar. Evdə, küçədə və s. yerlərdə rastlaşdığınız çətinliyə düşmüş bir insana kömək etmək vacibdir. Yıxılan insanı qaldırmaq, axtardığını tapmağa kömək etmək, ağır yükü olana kömək etmək sizin anlayışlı insan olduğunuzu göstərər. Asqırarkən, öksürərkən sağ əlinizin üstü ilə ağzınızı tutmaq lazımdır. Süfrə başında, avtobusda və digər ictimai yerlərdə asqırarkən başınızı aşağı salaraq arxa tərəfə dönmək lazımdır. Asqırma və öksürmə xəstəlik əlamətidirsə, ağzınıza dəsmal tutmalısınız".

—İdman dəqiqəsi—

**II.** Müəllim uşaqlara suallarla müraciət edir:
– Şəkillərdəki vəziyyətlərdə uşaqlar hansı sözləri deyir?

– İnsanlar nə üçün bu sözləri “sehirli” adlandırırlar?
– Siz daha hansı sehirli sözləri bilirsiniz? *(Uşaqların cavabları)*

**Tətbiqetmə**

**III. M:** “Uşaqlar, kitabınızda 4 çərçivədə müxtəlif vəziyyətlərdə şəkillər təsvir olunub. Gəlin, bir-bir şəkillərə baxaq, şəkillərdəki vəziyyətlərdə nə baç verdiyi haqqında danışın. *(Uşaqların cavabları)* Bütün şəkillərdəki vəziyyət adlandırıldıqdan sonra müəllim deyir: “Bəs siz bu vəziyyətlərdə nə deyərdiniz?” *(Uşaqların cavabları)*

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | |
|---|---|
| | **25-ci həftə \| DAVRANIŞ** |
| **Məşğələ 2. BƏDİİ TƏFƏKKÜRÜN İNKİŞAFI**<br>**Mövzu: ZƏKİ VƏ Z2** | **Standart:** 2.2.2.; 2.2.3. |
| | **İnteqrasiya:** 3.1.9. |

| | |
|---|---|
| **Məqsəd:** | • Bədii nümunə əsasında danışır.<br>• Dinlədiyi fikirləri anladığını nümayiş etdirir.<br>• Nitqində nitq etiketlərindən istifadə edir. |
| **İş üsulları:** | Müzakirə, suallar. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Hekayənin mətni, şəkillər. |

### Məşğələnin gedişi

**Motivasiya**

**M:** “Uşaqlar, şəkillərə diqqətlə baxın. Şəkildə nə təsvir olunub? Onları adlandırın. Sizcə, burada söhbət nədən gedə bilər?” *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** “Mən indi sizə şəkildə təsvir olunanlarla bağlı “Zəki və Z2” adlı hekayə söyləyəcəyəm. Şəkillərə baxa-baxa hekayəni dinləyin. Hər şəkil mətnin bir hissəsini təsvir edir. Mən deyəndə, dinlədiyiniz hissəyə uyğun şəkli tapıb, altındakı dairəni rəngləyin”.

1

“Zəki hər gün parkda velosiped sürürdü. Bu gün də velosiped sürərkən **ağacların arasından qəribə bir məxluqun ona baxdığını gördü**.”

**M:** – Dinlədiyiniz hissəni əks etdirən şəkli qeyd edin. Müəllim oxumağa davam edir.

2

“Yaxınlaşanda onun robot olduğunu anladı. Robot əlini Zəkiyə uzadıb adını söylədi: – **Mənim adım Z2.**
Düzdür, Zəki əvvəlcə özünü itirdi. Dili lap topuq vurdu. Adını güclə söyləyə bildi:- Zəkiii...”

**M:** “Uşaqlar, mənim indi oxuduğum hissəni müəyyənləşdirib, işarə edin.”

Müəllim oxumağa davam edir.

3

“Zəki Z2-ni evlərinə dəvət etdi. Onu ailəsi ilə tanış etdi. Valideynləri Z2-ni mehribanlıqla qarşıladılar. Ona evlərində yaşamaq üçün razılıq verdilər.”

**M:** “Uşaqlar, şəkillərə diqqətlə baxıb, dinlədiyiniz hissəyə uyğun hissəni tapıb, işarə edin.”

Müəllim oxumağa davam edir.

4

“**Anası Z2 üçün otaq ayırdı.** Otaq geniş və işıqlı idi. Rahatlıq üçün bütün əşyalar var idi: divan, kreslo, televizor. Daha Zəkinin pişiyi Məstan da bu otaqdan çıxmırdı.”

**M:** “Uşaqlar, şəkildə dinlədiyiniz hissəyə uyğun şəkli tapıb, işarə edin.”

Müəllim oxumağa davam edir.

5

“Z2-ni görmək üçün Zəkinin dostları tez-tez onlara qonaqlar gəlir. Axı onunla söhbət etmək çox maraqlıdır. Zəki az bir vaxt ərzində ona Azərbaycan dilində danışmağı öyrədib. Z2 çox ağıllıdır. Həm də yaxşı yaddaşı var. Sözləri bir dəfə eşidən kimi yadında saxlayır. Bu gün də Zəkinin bir neçə dostu onlara qonaq gələcəkdi. Zəki Z2-ni xəbərdar etdi: – **Z2, axşam qonaqlarımız olacaq.** Dostlarım bizə qonaq gələcək. Səninlə tanış olmaq istəyirlər.

Z2 narahat oldu: – Axı mən qonaq qarşılamağı bilmirəm. Zəki, sən heç qonaq qarşılamaq haqqında davranış qaydalarını mənə öyrətməmisən.”

**M:** “Uşaqlar, şəkillərə diqqətlə baxıb, dinlədiyiniz hissəyə uyğun hissəni tapıb, işarə edin.”

Müəllim oxumağa davam edir.

6

“Zəki Z2-yə qalın bir kitab verib dedi:

– **Bu kitab davranış qaydaları haqqındadır.** Burada qonaq qarşılamaq haqqında bütün adətlərdən danışılır. Hətta istifadə edə biləcəyin nəzakətli sözlər də izah edilib. Yaxşı olardı ki, onları öyrənəsən.

Z2 kitabı vərəqləyib cavab verdi: - Bu mənim üçün asan bir işdir. **Axşama qədər hamısını öyrənərəm.”**

**M:** “Uşaqlar, şəkillərə diqqətlə baxıb, dinlədiyiniz hissəyə uyğun hissəni tapıb, işarə edin.”

Müəllim oxumağa davam edir.

7

“Bir neçə saatdan sonra Zəki Z2-nin otağına gəldi: – Hə, Z2, işlər necədir? Kitabı oxudunmu?

Z2 cavab verdi:

– Əlbəttə! İstəyirsən oxuduqlarım haqqında danışım. Bax 3-cü səhifədə... Z2 danışmağa başladı. Doğrudan da, o bütün nəzakətli sözləri əzbər öyrənmişdi. Zəki sevincək dedi: – Afərin, sənə! Eh! Sənin yaddaşın məndə olsaydı, nə yaxşı olardı?! – Elə demə, Zəki. Sən çox ağıllısan. Bax, mən hər şeyi səndən öyrənirəm.”

**M:** “Uşaqlar, şəkillərə diqqətlə baxıb, dinlədiyiniz hissəyə uyğun hissəni tapıb, işarə edin.”

Müəllim oxumağa davam edir.

8

“Artıq axşam idi. Qapının zəngi çalındı. Gələn qonaqlar idi. Z2 ilə Zəki qonaqları qarşıladılar. Zəki əlini qonaqlara uzadıb dedi:- Xoş gəlmişsiniz. Z2 da Zəki kimi əlini qabağa uzadıb dedi:- Yaxşı yol.

Zəki təəccüblə Z2-yə baxdı. Qonaqlar isə xəfifcə gülümsədilər.”

**M:** “Uşaqlar, şəkillərə diqqətlə baxıb, dinlədiyiniz hissəyə uyğun hissəni tapıb, işarə edin.”

Müəllim oxumağa davam edir.

—İdman dəqiqəsi—

9

“Zəkinin dostlarından biri Z2-yə dedi: – **Tanış olmağımıza çox şad oldum!** Z2: – **Gecəniz xeyrə qalsın!** Uşaqlar yenə də bir-birinə baxıb gülümsədilər.”

**M:** “Uşaqlar, şəkillərə diqqətlə baxıb, dinlədiyiniz hissəyə uyğun hissəni tapıb, işarə edin.”

Müəllim oxumağa davam edir.

10

“Zəki dostlarını qonaq otağına dəvət etdi. Qonaqlar gətirdikləri hədiyyəni Z2-yə verdilər: – **Bu hədiyyə sənin üçündür.** Z2 hədiyyə qutusunu alıb dedi: – **Sağlam ol!** Zəki təəccüblə ona baxırdı. Z2-yə nə olmuşdu? Axı bir az əvvəl bütün kitabı əzbər danışırdı.”

**M:** “Uşaqlar, şəkillərə diqqətlə baxıb, dinlədiyiniz hissəyə uyğun hissəni tapıb, işarə edin.”

Müəllim oxumağa davam edir.

11

“Z2 tez mətbəxə keçdi. Qonaqlar üçün çay süfrəsi açmağa başladı. Zəki rahatlandı. Deyəsən, hər şey qaydasına düşür. Z2 fincanları qonaqların qarşısına qoyub dedi:

– Mən bütün kitabı əzbər öyrənmişəm. **Bütün sözlər elə gözəldir ki, heç bilmirəm hansını seçim.”**

**M:** “Uşaqlar, şəkillərə diqqətlə baxıb, dinlədiyiniz hissəyə uyğun hissəni tapıb, işarə edin.”

Müəllim oxumağa davam edir.

12

“Daha heç kim özünü gülməkdən saxlaya bilmirdi. Hər şey aydın idi. Z2 bütün nəzakətli sözləri sıra ilə əzbərləmişdi. Lakin bu sözləri nə zaman, hansı məqamda söyləyəcəyini anlamamışdı.”

**M:** “Uşaqlar, şəkillərə diqqətlə baxıb, dinlədiyiniz hissəyə uyğun hissəni tapıb, işarə edin.”

Müəllim oxumağa davam edir.

**II.** Müəllim suallarla uşaqlara müraciət edir:– Robot Z2 nəyi səhv etdi? -Sizcə, qonaqlar Z2-nin sözlərini eşidib nə düşündülər? -Siz Z2-nin səhvini eşidib nə edərdiniz? *(Uşaqların cavabları)*

**Tətbiqetmə**

**M:** “Şəklə diqqətlə baxın və ona aid açar sözləri yaddınızda saxlayın. Suala ətraflı cavab verərkən açar sözlərdən istifadə edin.” Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | | 25-ci həftə \| DAVRANIŞ |
|---|---|---|
| **Məşğələ 3–4. SAVAD TƏLİMİNƏ HAZIQLIQ VƏ NİTQ İNKİŞAFI**<br>**Mövzu:** Z z SƏSİ VƏ HƏRFİ | | **Standart:** 2.2.4.; 2.2.5.<br>**İnteqrasiya:** 2.1.4. |
| **Məqsəd:** | • **Zz** səsini və hərfi fərqləndirir.<br>• **Z** səsinin işləndiyi sözlər söyləyir.<br>• Xətt üzrə **Zz** hərfini yazır. | |
| **İş üsulları:** | Əqli hücum, suallar, müzakirə. | |
| **İş forması:** | Kollektiv və fərdi iş. | |
| **Resurslar:** | Şəkillər, karandaşlar, marker, lövhə və Z hərfi. | |

## 1-ci məşğələ

**Motivasiya**

**M:** "Səhifənin yuxarısındakı şəklə baxaq. Şəkildə nə təsvir olunub? Tülkü nə edir?" (*Uşaqların cavabları)*

**Dərketmə**

**I. M: "**Z hərfindən də digər hərflər kimi sözləri yazanda istifadə olunur. Uşaqlar sarı qutuya diqqətlə baxaq. Burada Z z hərfi təsvir olunub. Z böyük hərfdir. Gəlin birlikdə bu Z səsini tələffüz edək. *(Uşaqların cavabları)* Bəli, uşaqlar, Z səsini eşitdiniz. Uşaqlar, Z səsi olduğu kimi Z hərfi də var. Biz sizinlə səsi söylədik və eşitdik. Eşitdiyimiz səs adlanır. Z hərfini yazarkən, biz onu görürük. Yazarkən gördüyümüz hərf adlanır."

**M:** *"*Deməli, hərfi yazırıq və görürük, səsi isə tələffüz edirik və eşidirik. *(Müəllim bunu nümunələr üzərində bir daha xatırladır)* Birinci tapşırıqda şəklin orta hissəsində Z hərfi təsvir olunub. Hərfin kənarında isə şəkillər təsvir olunub. Sol tərəfdən yuxarıdakı şəkildə nə təsvir olunub? Sağ tərəfdə nə təsvir olunub? (*Uşaqların cavabları) Bu tapşırıq üzrə iş əvvəlki dərslrdə olduğu kimi aparılacaq.*

**II.** Müəllim lövhədə Z hərfini izah edə-edə yazır. 1–2 uşaq da lövhədə tapşırığı yerinə yetirir. Uşaqların hər biri öz kitabında xətt üzrə Z hərfini çəkir. Çəkərkən nöqtədən başlamalarına diqqət etmək lazımdır.

**M: "**Uşaqlar, Z hərfini xətt üzrə çəkdiniz. Hərfin ətrafında şəkillər təsvir olunub. Hərfin sol tərəfində hansı şəkillər təsvir olunub? Bəs sağ tərəfdə hansı şəkillər təsvir olunub? Onları adlandırın. "Z" səsi ilə başlayanları "Z" hərfi ilə birləşdirin. Bəs hansı söz Z hərfi ilə başlamır? (*Uşaqların cavabları)*

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M: "**Uşaqlar, kitabın yuxarısında söz yazılıb. Hərfləri adlandırın. Birinci hansı hərfdir? Bəs üçüncü hansı hərfdir? *(Uşaqların cavabları)* Hərfləri nümunəyə uyğun rəngləyin və axırda sözü oxuyun."

**IV. M:** Uşaqlar, həm böyük, həm də kiçik z hərfi eyni cür yazılır. **"**Z" hərfləri xətt üzrə verilib. Nümunəyə əsasən, hərfləri nöqtədən başlayaraq, oxun istiqamətində çəkin. Z səsini tələffüz edin."

**V. M:** "Bu tapşırıqda xətt üzrə çəkilmiş hərflərdən ibarət söz yazılıb. Hərfləri nöqtədən başlayaraq, xətt üzrə çəkərək, yazın. Hansı hərflər yazılıb? İndi isə sözü oxuyun. Sözlərin yanında şəkillər təsvir olunub. Şəkilləri adlandırın. Sözləri uyğun şəkillə birləşdirin."

**VI. M: "**Hərfləri xətt üzrə çəkin. Çəkərkən, nöqtədən başlayaraq, yazın və hərfləri adlandırın. Sonra isə sözü oxuyun." Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

## 2-ci məşğələ

**Motivasiya**

Lövhədə böyük **Z** ilə bərabər kiçik z hərfi də ya asılır, ya da proyektorla ekrana salınır. Verilmiş əlifbanın hərflərinin arasından böyük **Z** hərfi götürülərək, lövhəyə qoyulur. **Z** səsinin birlikdə və tək-tək tələffüz edilməsi üzrə iş aparılır.

**Dərketmə**

**I. M: "**Uşaqlar, tapşırığa diqqətlə baxın. Şəkildə nə təsvir olunub? *(Uşaqların cavabları)* Bəli, şəkillərdən başqa sözün ya əvvəlində, ya da axırında işlənən **s** və **z** hərfləri də yazılıb. Siz hansı sözün Z və ya S səsi ilə başladığını və ya bitmədiyini müəyyən edin."

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** "Gördüyünüz kimi 4 şəkil və birinci hərfləri yazılmayan 4 söz verilib. Siz şəkildə nə təsvir olunduğunu söyləyib, çatışmayan hərfi yerinə yazın."

Müəllm şeir söyləyir:

*Zəki, Zeynal, Zərifə,*
*Xeyli zoğal topladı.*

*Zeynəb nənə zoğaldan,*
*Dadlı şirə bağladı.* (R.İbadova)
Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | | 25-ci həftə \| DAVRANIŞ |
|---|---|---|
| **Məşğələ 5–6. RİYAZİ VƏ MƏNTİQİ TƏFƏKKÜRÜN İNKİŞAFI** | | **Standart:** 2.3.1. |
| **Mövzu:** TOPLAMAQ, ƏLAVƏ ETMƏK | | **İnteqrasiya:** 2.1.5.; 1.1.4. |
| **Məqsəd:** | • Əlavə etmək ifadəsini düzgün fərqləndirir.<br>• Əşyaların cəmini müəyyənləşdirir. | |
| **İş üsulları:** | Əqli hücum, müzakirə, suallar. | |
| **İş forması:** | Kollektiv və fərdi iş. | |
| **Resurslar:** | Şəkillər, rəngli karandaşlar. | |

**1-ci məşğələ**

**Motivasiya**

M: – Uşaqlar, kitabınızın yuxarısındakı şəklə diqqət yetirin. Orada nə təsvir olunub? *(Uşaqların cavabları)* – Tülkünün əlindəki səbətdə nə var? Bəs yerdə neçə göbələk var? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M: “**Uşaqlar, çərçivələrdə tapşırıqlar verilib. Birinci tapşırığa diqqət yetirin. Çərçivədə sol tərəfdə neçə fincan var? Bəs sağ tərəfdə neçə fincan var? Əgər 2 fincanı 4 fincanın yanına əlavə etsək, cəmi neçə fincan olar? *(Uşaqların cavabları)* Düzgün cavabı kənardakı damaya yazın”.

**II. M:** “6 şüşə qabın yanına 3 dənə də şüşə qab qoydular. Cəmi neçə qab oldu? (Uşaqların cavabları) Düzgün cavabı kənardakı damaya yazın”.

**III. M: “**Masada 3 konfet var. 7 konfet də əlavə etdilər. Cəmi neçə konfet oldu? Düzgün cavabı kənardakı damaya yazın”.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**I.M: “**İndi biz sizinlə oyun oynayacağıq. Hər bir uşaq qarşıda qoyulmuş qutuya 10 kiçik top atmalıdır. Atdıqdan sonra qutuya neçə topun düşdüyünü sayıb, söyləmək lazımdır. Əgər istənilən sayda top atılmayıbsa, sayı düzəltmək üçün neçə top əlavə etmək lazım olduğu söylənilir.”

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

Müəllim uşaqlara 10 dairəsində düzünə və tərsinə saymağı təklif edir.

**Dərketmə**

**I. M: “**Uşaqlar, birinci tapşırıqda ağac budağında və kənarda almalar təsvir olunub. Ağacdakı almaları dərib, yerdəki almaların yanına qoydular. Almaları sayın. Neçə alma oldu? Boş xanalara uyğun ədədləri yazmaqla, suallara cavab verin.”

Tapşırıqları yerinə yetirərkən, uşaqların fikirlərini düzgün ifadə etmələrinə nail olmaq lazımdır.

**II. M: “**Elxan kənarda dayanmışdı. O, dostlarını görüb, onların yanına getdi. Elxan neçə nəfərdir? Bəs dostları neçə nəfərdir? Onlar birlikdə neçə nəfər oldular? Niyə belə düşünürsünüz? *(Uşaqların cavabları)* Nəticəni çərçivənin kənarındakı kvadrata yazın.”

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:** “**Tap**şırıqda 2 iki qarışqanın yarpaq aparması təsvir olunub2 qarışqa da onlara köməyə tələsdi. Onların birlikdə sayı neçə oldu? Nəticəni çərçivənin kənarındakı kvadrata yazın.”

**IV. M:** “4-cü tapşırıqda səbətdə 5 nar var. Kənarda da 2 nar var. 2 nar əlavə edildikdən sonra səbətdə neçə nar oldu? Nəticəni çərçivənin kənarındakı kvadrata yazın.”

**V. M: “**Bu tapşırıqda çərçivələrdə təsvirlər təqdim olunur. Birinci çərçivədə neçə armud təsvir olunub? 2 armud da çəkin. Cəmi neçə armud oldu? *(Uşaqların cavabları)* Boş xanaya armudların ümumi sayını yazın. Digər tapşırıqlar da bu qayda ilə yerinə yetirilir ”. Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | 25-ci həftə \| DAVRANIŞ |
|---|---|
| **Məşğələ 7–8. TƏSVİRİ FƏALİYYƏT** | **Standart:** 3.1.3.; 3.1.4. |
| **Mövzu: DAVRANIŞ NİŞANININ DÜZƏLDİLMƏSİ** | **İnteqrasiya:** 1.1.4.; 2.2.6. |

| | |
|---|---|
| **Məqsəd:** | • Kəsib-yapışdırma bacarıqları nümayiş etdirir.<br>• Yapma bacarıqları nümayiş etdirir. |
| **İş üsulları:** | Əqli hücum, suallar, söz assossasiyası, müzakirə. |
| **İş forması:** | Kollektiv və cütlərlə iş. |
| **Resurslar:** | Şəkillər, rəngli kağızlar, qayçı, yapışqan, plastilin. |

**1-ci məşğələ**

**Motivasiya**

**M: –** Uşaqlar, davranış qaydaları haqqında nə bilirsiniz? *(Uşaqların fikirləri dinlənilir).*

**Dərketmə**

**I. M: "**Uşaqlar, bəli davranış qaydalarından biri də ictimai yerləri zibilləməməkdir. Amma bəzi insanlar zibili yerə atırlar. Odur ki, bu gün biz sizinlə insanların düzgün davranmalarına kömək etmək məqsədilə "Zibil atmaq olmaz" nişanı düzəldəcəyik. *(Müəllim nümunəni göstərdikdən sonra uşaqların gözü qarşısında izah edə-edə nümunəni düzəldir. Sonra uşaqlara işə başlamağı təklif edir.)*" Uşaqlar nümunədə verildiyi və müəllimin göstərdiyi ardıcıllıqla işi yerinə yetirirlər. Uşaqlar işi bitirdikdən sonra hazırladıqları nişanlar haqqında məlumat verirlər.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M: "**Uşaqlar, biz sizinlə əvvəllər **Ə, R, F** və **Z** hərfini öyrənmişik. Onları karandaşla yaza bilirsiniz. Havada əlinizlə **Z** hərfini cızın. İndi isə əvvəl öyrəndiyiniz hərflərindən istifadə edərək, plastilindən **ZƏRF** sözünü yazın. **ZƏRF** sözündə heçə hərfdən istifadə etdiniz? *(Uşaqların cavabları)* **Z** səsi ilə başlayan sözlər söyləyək."

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

**M:** – Uşaqlar, davranış qaydaları haqqında bilirsiniz. Elə insanlar da var ki, çox səs salırlar. Elə yerlər var ki, orada səs salmaq olmaz. Bu haqda nə deyə bilərsiniz? *(Uşaqların fikirləri dinlənilir).*

**Dərketmə**

**I. M:** "Uşaqlar, bəli davranış qaydalarından biri də sakitliyə riayət etməkdir. Amma bəzi insanlar buna əməl etmirlər. Odur ki, bu gün biz sizinlə insanların düzgün davranmalarına kömək etmək məqsədilə "***Sakitliyə riayət edin***" nişanı düzəldəcəyik. *(Müəllim nümunəni göstərdikdən sonra uşaqların gözü qarşısında izah edə-edə nümunəni düzəldir. Sonra uşaqlara işə başlamağı təklif edir.)*" Uşaqlar yerinə yetirirlər. Uşaqlar işi bitirdikdən sonra hazırladıqları nişanlar haqqında məlumat verirlər.

Bitirdikdən sonra hər bir uşaq öz işi əsasında məlumat verir.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** "Biz sizinlə **Z** hərfini öyrənmişik. **Z** hərfini havada cızın. Kitabınızda xəttlərlə zəncir təsvir olunub. Sizcə, zənciri nə üçün istifadə edirlər? *(Uşaqların cavabları)* Xətləri birləşdirərək. zənciri tamamlayın."

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | 25-ci həftə \| DAVRANIŞ |
|---|---|
| **Məşğələ 9–10. FİZİKİ MƏDƏNİYYƏT** | **Standart:** 1.1.1.; 1.1.2. |
| **Mövzu: SİÇAN-PİŞİK** | **İnteqrasiya:** 4.2.2.; 4.1.2. |

| | |
|---|---|
| **Məqsəd:** | • Sərbəst hərəkətlər göstərir.<br>• Hərəki fəallıq nümayiş etdirir. |
| **İş üsulları:** | Müzakirə, sujetli-rollu oyunlar. |
| **İş forması:** | Kollektiv, qruplarla və fərdi iş. |
| **Resurslar:** | Toplar, halqalar. |

**1 və 2-ci məşğələ**

**I.** İsinmə hərəkətləri (5 dəq.)
– Biri-birinin ardınca yeriş və qaçış;
– Biri-birinin ardınca ilanvarı yeriş;
– Qollar yanlarda quşlar kimi "uçaraq", atvari yeriş;
– Əlləri yuxarı qaldıraraq, nəfəs almaq və nəfəsi buraxmaq. (4–5 dəfə)
**II.** Ümuminkişafetdirici hərəkətlər (20 dəq.) halqalarla
**1.** *ç.v:* – **Düz dayanmaq, halqanı iki əllə sinə qarşısında saxlamaq.**
*1 sayında* qolları irəli uzatmaqla saga dönmək;
*2 sayında* c.v-ni almaq.
*3 sayında* hərəkəti sol tərəfə doğru etmək;
*4 sayında* c.v-ni almaq. **6 dəfə**
**2.** *ç.v:* – **Ayaqlar çiyin bərabərində aralı, halqanı iki əllə aşağıda tutmaq.**
*1 sayında* qolları düz tutmaqla, halqanı yuxarı qaldırmaq;
*2 sayında* bədəni saga (növbəti dəfə sola) əymək1ə, halqanı saga döndərmək;
*3 sayında* düzəlmək;
*4 sayında* c.v-ni almaq. 6 dəfə
**3.** *ç.v:* – **Düz dayanmaq, halqanı iki əllə aşağıda tutmaq.**
*1 sayında* çöməlmək;
*2 sayında* iki əllə halqanı irəli uzatmaq.
*3 sayında* qalxmaq;
*4 sayında* c.v-ni almaq. 5-6 dəfə
**4.** *ç.v:* – **Ayaqlar çiyin bərabərində aralı, halqanı iki əllə sinə qarşısında saxlamaq.**
*1 sayında* irəli əyilib, halqanı döşəməyə qoymaq;
*2 sayında* qalxmaq;
*3 sayında* əyilib halqanı döşəmədən götürmək və halqanı yuxarı qaldırmaq;
*4 sayında* c.v-ni almaq. 6 dəfə
**5.** *ç.v:* – **Düz dayanmaq və halqanı ön tərəfdə yerə qoymaq.**
*1 sayında* halqanın içərisinə hoppanmaq;
*2 sayında* 7 dəfə halqanın içərisində iki ayaq üstə hoppanmaq;
*3 sayında* halqadan kənara hoppanmaq. 2–3 dəfə
**Əsas hərəkətlər.**
Qaçaraq (3–4 addım) uzununa tullanmaq (2–3 dəfə)
**Hərəkətli oyun – "Siçan-pişik".**
**III. Sakitləşdirici hərəkətlər** (5 dəq.)
**"Mən sakitəm"**
*ç.v.* – düz dayanmaq, əllər yanlarda.
1. Nəfəsalma – sağ əllə sol əli tumarlamaq.
2. Nəfəsvermə – ç.v.-nə qayıtmaq.
3. Nəfəsalma – sol əli ilə sağ əli tumarlamaq.
4. Nəfə vermə – ç.v.-nə qayıtmaq.
Müəllimin ardınca bir cərgədə sakit yeriş.

| | |
|---|---|
| | **25-ci həftə \| Davranış** |
| **Məşğələ 11–12. MUSİQİ** | **Standart:** 3.1.7.; 3.1.8 |
| **Mövzu: "YAXŞI OTUR,YAXŞI DUR!"** | **İnt:** 1.2.3.; 2.1.2.; 2.2.1;. |

| | |
|---|---|
| **Məqsəd:** | • Musiqinin xarakterini və tempini müəyyən edir.<br>• Xorda oxumaq bacarıqları nümayiş etdirir.<br>• Musiqinin xarakterinə uyğun ritmik hərəkətləri yerinə yetirir. |
| **İş üsulları:** | Əqli hücum, müzakirə, suallar, rollu oyun |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar** | Kompüter, disk, şəkillər, davranış qaydaları olan plakat, bəstəkarların portretləri |
| **Musiqi materialı:** | Marş. **"Azərbaycan əsgəri"** (C.Quliyev) **"Dilarə"** (O.Zülfüqarov/T.Mütəllibov), **"Yaxşı** |

| | |
|---|---|
| | **otur, yaxşı dur" mahnısı** (A.Rzayeva/İ.Soltan), **"Vals"** (F.Əmirov), **"Lüminoid robotlarının rəqsi"** ("D.Qusakin şousu"), **"Kitablar"** (O.Zülfüqarov/H.Ziyz), **"Çay"** mahnısı (E.Sabitoğlu/Z.Cabbarzadə) |
| **Alternativ material:** | **Dinləmə**: **"Təmizlik"** (N.Məlikməmmədov/C.Cavadlı)<br>**Mahnı:** "Təmizlik" (M.Əhmədov/M.Seyidzadə **)** |

**1-ci məşğələ**

**1. Marş:** "Azərbaycan əsgəri". C.Quliyev

Uşaqlar bir-birinin ardınca düzülür, marşın sədaları altında qaməti düz saxlamaqla əvvəl yerlərində sonra otaq boyu addımlayırlar. Yüngül gimnastik hərəkətlər edib, yenidən ritmik yerişlə yerlərində addımlayır və dayanırlar.

**2. Dinləmə:** Davranış qaydaları haqqında qısa sual-cavab aparılır. Sonra "Dilarə" mahnısı (musiqisi O.Zülfüqarovun, sözləri T.Mütəllibovundur) səsləndirilir. Mahnını dinlədikdən sonra müəllim uşaqlara suallarla müraciət edir: – Dinlədiyiniz mahnıda hansı davranış qaydalarından bəhs olundu? – Mahnının xarakteri və tempi necə idi? – Mahnıda bəhs olunan Dilarənin hansı sinif yoldaşına bənzəmək istərdiz? Nə üçün? *(Uşaqların cavabları)*

3. **Mahnı:** "Yaxşı otur,yaxşı dur" mahnısı (musiqisi A.Rzayevanın, sözləri İ.Soltanındır) şifahi yolla öyrədilir. Müəllim əvvəl xorda oxu qaydalarını (düzgün nəfəsalma, müəllimin göstərişlərinin yerinə yetirilməsi, dirijorluq jestlərinin mənasını) yada salır. Sonra "Yaxşı otur,yaxşı dur" mahnısı, onun məzmunu haqqında qısa məlumat verir. Mahnı müəllimin ifasında və ya hər hansı bir texniki vasitələrdən istifadə etməklə təqdim olunur. Uşaqlar mahnını dinlədikdən sonra o, hissə-hissə öyrədilir. Tələffüzü çətin olan sözlər və melodiya üzərində iş aparılır.

Sonda "Yaxşı otur,yaxşı dur" mahnısının öyrənilmiş hissəsi xorla ifa edilir, xarakteri və tempi müzakirə olunur.

**4. Musiqili-ritmik hərəkətlər:** "Dilarə" mahnısı təkrar səsləndirilir. Uşaqlar mahnının məzmununu hərəkətləri ilə təsvir etməyə çalışırlar və ya mahnının məzmunu səhnələşdirilir.

Məşğələ ümumiləşdirilərək yekunlaşdırılır.

**Musiqi materialı.**

**"Yaxşı otur, yaxşı dur!"**

| | |
|---|---|
| 1. Kirləmə üst-başını,<br>Yaxşı otur, yaxşı dur.<br>İncitmə yoldaşını,<br>Yaxşı otur, yaxşı dur. | 2. Təmiz yu əl-üzünü,<br>Danış sözün düzünü,<br>Yerə sürtmə özünü<br>Yaxşı otur, yaxşı dur. |

**2-ci məşğələ**

**Marş:** Marş "Azərbaycan əsgəri"(C.Quliyev)
**Mahnı**: "Yaxşı otur, yaxşı dur" (A.Rzayeva/İ.Soltan)
**Səhnələşdirmə: "Zəki və Z2" (resurs: robot və pişik oyuncaqları, kitab, plakat)**

| № | Musiqi materialı | Fəaliyyət |
|---|---|---|
| 1–3 | 1. Vals.<br>2. Lüminoid robotlarının rəqsi | Parkda oğlan gəzişir.Birdən ağacın arsında nəsə görür və boylanır. Robot ağacın arasından çıxır,oğlana tərəf gəlir.Onlar əllə görüşürlər və gedirlər. Oğlan robotu ailə üzvləri ilə tanış edir. |
| 4–7 | "Kitablar" | Robot öz otağında oturub. Oğlan ona kitab uzadır və tapşırıq verir. Pobot kitabı vərəqləməyə başlayır. |
| 8–11 | "Çay" mahnısı | Oğlanın bir-neçə dostu onlara qonaq gəlir, onlar robotla bir-bir görüşürlər. Robot uşaqlara çay gətirir. Bu zaman uşaqlar bərkdən gülürlər. Onda robot oğlanın verdiyi kitabı göstərir. (Davranış qaydalarını əks etdirən plakat da olar) |

**26-cı həftə | DOSTLUQ**

| | |
|---|---|
| **Məşğələ 1. ƏTRAF ALƏMLƏ TANIŞLIQ**<br>**Mövzu: DOSTLUQ, XEYİRXAHLIQ** | **Standart:** 2.1.4.; 2.1.2.<br>**İnteqrasiya:** 2.2.1.; 1.1.4. |

| | |
|---|---|
| **Məqsəd:** | • Dostluq haqqında danışır.<br>• Dost, rəfiqə, xeyirxanlıq, etibarlı sözlərini fərqləndirir.<br>• İfadələrdən düzgün istifadə edir. |
| **İş üsulları:** | Əqli hücum, müzakirə, suallar. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Müxtəlif fəaliyyətlər olunmuş tablo, iş dəftəri və rəngli karandaşlar. |

**Məşğələnin gedişi**

**Motivasiya**

M: – Uşaqlar, vəsaitin yuxarısındakı şəkillərə baxaq. Orada nə təsvir olunub? Tülkü nə üçün şəkilləri ağacdan asıb? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** “Bəli, onlar tülkünün dostlarının şəkilləridir. Biz də bu gün sizinlə dostluqdan danışacağıq. *(Uşaqların cavabları)* Bəs siz dostluq etməyi bacarırsınız? *(Uşaqların cavabları*) Hər biriniz öz dostunuzun adını söyləyin və deyin görək, nə üçün onu dostun hesab edirsən? Sizcə, dostluq nədir? *(Uşaqların cavabları)* Bəli, dostluq o deməkdir ki, iki və ya daha çox insan daim biri-biri ilə ünsiyyət saxlayır, biri-birinə etibar edir. Uşaqlar, əsil dost necə olmalıdır? *(Uşaqların cavabları) Müəllim cavabları ümumiləşdirməyə uşaqlara kömək edir.* Deməli, əsil dost dostunu darda qoymaz, onun uğuruna sevinir, ona hörmət edir. Dostluq-yoldaşına inanmaq, onu aldatmamaq, biri-birinə *sadiq olmaq*, dinləmək, kömək və müdafiə etmək bacarığıdır. Oğlanların dostu, qızların isə rəfiqəsi olur. İnsanlar arasında olan bu münasibət ***dostluq*** adlanır. Dostluq böyük bir dəyərdir. Dostluq bizə öyrənməyə, işləməyə, yaşamağa kömək edir. Bizi daha yaxşı, daha xeyirxah və güclü edir. Dostlarsız yaşamaq mümküm deyil. Dost olmaq, bütün məhəbbət, mehribanlıq, *xeyirxahlığı* qarşılıq gözləmədən vermək və əvəzində heç bir şey tələb etməməkdir. Dostlar biri-birinə hörmət etməlidirlər. Uşaqlar, hörmət etmək nə deməkdir? *(Uşaqların cavabları)*

**II. M:** Müəllim uşaqlara suallarla müraciət edir: – Yaxşı dost olmaq üçün nə etmək lazımdır? Sizin dostlarınız sizə necə kömək edib? Bəs siz dostlarınıza necə kömək edə bilərsiniz? *(Uşaqların cavabları)*

**III. M: “**Şəkillərə diqqətlə baxın və şəkillərdə nə təsvir olunduğu haqqında danışın”.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**IV. M:** “Bu tapşırıqda 4 çərçivədə müxtəlif vəziyyət təsvir olunmuş şəkillər təsvir olunub. Hər şəkildə nə təsvir olunduğunu söyləyin. Şəkillərdəki hansı davranışın dostluğa uyğun və ya zidd olduğunu söyləyin. Hər bir şəklin məzmununa uyğun üz çəkin.”

**M:** “Uşaqlar, biz indi sizinlə ***“Diqqətli ol”*** oyununu oynayacağıq. Siz dostluq haqqında danışdınız. İndi mən sözlər söyləyəcəyəm, siz cavab verəcəksiniz ki, əsil dost necə olmalıdır. Əgər düz hesab etsəniz əl çalarsınız. Düz hesab etməsəniz ayaqlarınızı yerə döyəcləyin. Əsil dost......-diqqətli; -qayğıkeş; -qorxaq; -xəsis; -dözümlü; -sadiq; xeyirxah.” *(Uşaqların cavabları)*

**M:** “Afərin uşaqlar, düz cavab verdiniz. Siz bilirsiniz ki, əsil dost necə olmalıdır.”

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | |
|---|---|
| | **26-cı həftə \| DOSTLUQ** |
| **Məşğələ 2. BƏDİİ TƏFƏKKÜRÜN İNKİŞAFI** | **Standart:** 2.2.2.; 2.2.1. |
| **Mövzu:** MƏN DƏ SİZİNLƏ OYNAYA BİLƏRƏMMİ? | **İnteqrasiya:** 2.1.3.; 1.1.4. |

| | |
|---|---|
| **Məqsəd:** | • Bədii nümunə əsasında danışır.<br>• Dinlədiyi fikirləri anladığını nümayiş etdirir.<br>• Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir. |
| **İş üsulları:** | Nağıletmə, müzakirə, suallar. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Hekayənin mətni, şəkillər, rəngli karandaşlar. |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M:** – Uşaqlar, şəkillərə diqqətlə baxın. Şəkildə nə təsvir olunduğuna diqqət yetirin. Şəkildə təsvir olunanları adlandırın. *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M: “**Mən indi sizə şəkildə təsvir olunan personajlarla bağlı xeyirxahlıq və dostluqdan bəhs edən “Mən də sizinlə oynaya bilərəmmi?” hekayəsini söyləyəcəyəm. Şəkillərə baxa-baxa hekayəni dinləyin. Hər şəkil mətnin bir hissəsini təsvir edir. Mən deyəndə dinlədiyiniz hissəyə uyğun şəkli tapın və altındakı dairəni rəngləyin.”

1

“Futbol meydançasında gərgin oyun gedirdi. Toplan qapıda dayanmışdı. Bir birinin ardınca qapıya top buraxırdı. Rəqib komandanın oyunçuları bir ağızdan “QOL!” deyə sevinirdilər. Komanda yoldaşları isə yaman hirsli idilər. Oyunun hakimi Buldoq oyunçuları sakitləşdirirdi. Həyəcan get-gedə artır, oyun qızışırdı. ”

**M:** **“**Dinlədiyiniz hissəyə uyğun şəkli tapıb, işarə edin.”
Müəllim oxumağa davam edir.

2

“Həyətin pişiyi Məstan isə meydançanın yaxınlığında ağacın üstündə oturmuşdu. Oyunu yuxarıdan seyr etmək həm maraqlı, həm də təhlükəsiz idi. Hər dəfə Toplan topu qapıdan buraxanda Məstan yavaşca mırıldayır, öz-özünü deyinirdi:

– Eh, heyf. Bu topu tutmaq olardı. Kaş ki, mən qapıda durardım. Amma yox, məni kimdir oyuna buraxan? Gör necə hirslidirlər?”

**M:** “Uşaqlar, oxuduğum hissəni müəyyənləşdirib, işarə edin.”
Müəllim oxumağa davam edir.

3

“Oyunçuların qışqırıq səsi Məstanı xəyallardan ayırdı. Rəqib komanda yenə qol vurmuşdu. Toplan məyus-məyus komanda yoldaşlarına baxırdı: – Yox, artıq mən oynaya bilmirəm.

Oyunun birinci hissəsi sona çatdı. Bütün komanda iştirakçıları bir yerə toplaşmışdı. Yeni qapıçı lazım idi. Komandanın kapitanı Ovçarka oyunçuları ilə müzakirə edirdi.”

**M:** “Uşaqlar, oxuduğum hissəni müəyyənləşdirib, işarə edin.”
Müəllim oxumağa davam edir.

4

“Məstan pəncələrinin üstünə qalxıb”: İtlərdən qorxsam da onlara yaxınlaşmalıyam. Kömək etmək lazımdır. Axı mən yaxşı top tuta bilərəm. Qorxunun faydası yoxdur. İndi əsl məqamdır” - deyə yavaş-yavaş ağacdan enməyə başladı.”

**M:** – Uşaqlar, şəkildə dinlədiyiniz hissəyə uyğun şəkli tapıb, işarə edin.”
Müəllim oxumağa davam edir.

5

“Məstan qorxa-qorxa itlərə yaxınlaşdı:

– Olar mən də sizinlə oynayım? Qapıda dursam, bütün topları tuta bilərəm.”

**M:** “Uşaqlar, dinlədiyiniz hissəyə uyğun hissəni tapıb, işarə edin.”
Müəllim oxumağa davam edir.

6

“İtlər onu dövrəyə aldılar. Bir anda onlarla acıqlı göz Məstana zilləndi. Bu hirsli baxışlar altında yazıq Məstan qorxudan tir-tir əsirdi. Toplan ona tərs-tərs baxıb dedi:

– Məstan?! Sən məni əvəz etmək istəyirsən? Bu cəsarəti haradan tapmısan?

**M:** "Uşaqlar, dinlədiyiniz hissəyə uyğun hissəni tapıb, işarə edin.”
Müəllim oxumağa davam edir.

7

“Komandanın kapitanı Ovçarka onu sakitləşdirib dedi:

– Axı niyə olmasın? Hamımız bilirik ki, əsl qapıçı pişik kimi cəld olmalıdır. Bir halda ki, Məstan qapıda durmaq istəyir, qoy yeni qapıçımız o olsun”.

**M:** **"**Uşaqlar, dinlədiyiniz hissəyə uyğun hissəni tapıb, işarə edin.”
Müəllim oxumağa davam edir.

8

“Məstan qapıda dayanmaq üçün hazırlaşırdı. Komanda üzvləri oyuna hazırlaşmaq üçün ona kömək etdilər. Kapitan komandanın formalarından birini ona verdi. Toplan öz qapıçı əlcəklərini Məstana uzatdı:

– Uğur olsun. İnanıram ki, bütün topları tutacaqsan”.

**M:** "Uşaqlar, dinlədiyiniz hissəyə uyğun hissəni tapıb, işarə edin.”

—İdman dəqiqəsi—

9

Müəllim oxumağa davam edir.

“Oyunun ikinci hissəsi başladı. Məstan artıq qapıda dayanmışdı. Rəqib komanda var gücü ilə qol vurmağa çalışırdı. Məstan isə hər bir topu havadaca tuturdu”.

**M:** "Uşaqlar, dinlədiyiniz hissəyə uyğun hissəni tapıb, işarə edin.”
Müəllim oxumağa davam edir.

10

“Rəqib komandanın oyunçuları yorulub əldən düşmüşdülər. Məstanın komanda yoldaşları bundan istifadə edərək hesabı bərabərləşdirdilər. Azarkeşlər qışqırışırdılar:

– Afərin! Afərin!”

**M:** "Uşaqlar, dinlədiyiniz hissəyə uyğun hissəni tapıb, işarə edin."
Müəllim oxumağa davam edir.

11

"Komandanın kapitanı Ovçarka həyəcanlansa da bunu komandasına göstərməməyə çalışırdı. Ora-bura gəzir oyunçuları oyuna həvəsləndirirdi:

– Qol! Afərin! İrəli!"

**M:** "Uşaqlar, dinlədiyiniz hissəyə uyğun hissəni tapıb, işarə edin."
Müəllim oxumağa davam edir.

12

"Oyunun bitməsinə iki dəqiqə qalmışdı. Artıq ən həyəcanlı an idi. Bu da sonuncu "QOL!" Məstanın komandası qələbə qazandı. İtlər Məstanı havada atıb-tuturdular. Xeyirxahlıq və dostluq qələbə qazanmışdı".

**M:** "Uşaqlar, dinlədiyiniz hissəyə uyğun hissəni tapıb, işarə edin." Müəllim oxumağa davam edir.

**II.** Müəllim uşaqlara suallarla müraciət edir: – Pişik qapıda duran küçüyə necə kömək etdi? – İtlərin pişiyə münasibəti necə dəyişdi? – Siz öz komandanıza başqalarını qəbul edərsinizmi?

**Tətbiqetmə**

**III. M:** – "Kitabınızda nağılın məzmununa uyğun 3 sual və onların ynında açar sözlər verilib. Açar sözləri yadda saxlayın və onlardan istifadə edərək suallara ətraflı cavab verin".

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | |
|---|---|
| | **26-cı həftə \| DOSTLUQ** |
| **Məşğələ 3–4. SAVAD TƏLİMİNƏ HAZIQLIQ VƏ NİTQ İNKİŞAFI** | **Standart:** 2.2.4. |
| **Mövzu:** J j SƏSİ VƏ HƏRFİ | **İnteqrasiya:** 1.1.4. |

| | |
|---|---|
| **Məqsəd:** | • **J j** səsini və hərfi fərqləndirir.<br>• **J j** səsinin işləndiyi sözlər söyləyir.<br>• Xətt üzrə **J j** hərfini çəkir. |
| **İş üsulları:** | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması:** | Kollektiv və fərdi. |
| **Resurslar:** | Şəkillər, karandaşlar, **J j** hərfi. |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** "Səhifənin yuxarısındakı şəklə baxaq. Şəkildə nə təsvir olunub? *(Uşaqların cavabları)*

– Bilirsiniz ki, söylədiyimiz hər bir söz yazılarkən hərflərdən istifadə edilir. Mən sizə bir şeir söyləyəcəyəm. Dinləyin:

*Jalə nənəyə,*
*Jurnal oxuyur.*
*Nənə Jaləyə*
*Jaket toxuyur.* (R.İbadova)

**M:** – Uşaqlar, şeirdə *Jalə, jaket, jurnal* sözlərindən istifadə edilib. Gəlin bu sözləri birlikdə təkrar edək. Bu sözlər hansı səslə başlayır." *(Uşaqların cavabları)*

**Dərketmə**

**M:** "Bəli, düzdür. **J** hərfindən də digər hərflər kimi sözləri yazanda istifadə olunur. Uşaqlar, sarı qutuya diqqətlə baxaq. Burada **Jj** hərfi təsvir olunub. J hərfi nəyə bənzəyir? *(Uşaqların cavabları) (Qıraya)* "

**I. M:** "Burada böyük və kiçik **J** hərfi təsvir olunub. Hərfin kənarında isə şəkillər təsvir olunub. Sol tərəfdə yuxarıda nə təsvir olunub? *(Uşaqların cavabları)* Bəs sağda yuxarıda nə təsvir olunub? *(Uşaqların cavabları)* Şəkildə təsvir olunanları adlandırın və bu sözün hansı səslə başlandığına diqqət edin." **J** hərfinin rənglənməsi.

**II.** Müəllim lövhədə **J** hərfini izah edə-edə yazır. Bir neçə uşaq da lövhədə tapşırığı yerinə yetirir.

**M:** "Kənara çıxmadan **J** hərfini xətt üzrə çəkin. Uşaqlar, **J** hərfinin ətrafında şəkillər təsvir olunub. **J** hərfinin hər tərəfində neçə şəkil təsvir olunub? Sol tərəfdəki şəkildə təsvir olunanları adlandırın. Sağ tərəfdə təsvir olunanları bir-bir adlandırın. Söz **J** səsi ilə başlayırsa, həmin şəkli **J** hərfi ilə birləşdirin"

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M: "**Uşaqlar, bu tapşırıqda söz yazılıb. Yazılan sözlər nədən ibarət olur? *(Hərflərdən)* Diqqətlə baxıb, həmin hərfləri adlandırın və yerləşdiyi xananı nümunəyə uyğun rəngləyin. Rənglədikdən sonra sözü oxuyun. Nə yazılıb? (jurnal) Jurnal sözü hansı səslə başlayır?" *(Uşaqların cavabları)*

**IV. M: “**Burada hərfin həm böyük, həm də kiçik forması verilib. İndi isə kənara çıxmadan hərfləri xətt üzrə çəkin. Oxun istiqamətinə diqqət edin.”

**V. M: “**Şəkildə nə təsvir olunduğunu söyləyin. Şəkillərin yanında sözlər yazılıb. Hərfləri nöqtədən başlayaraq, xətt üzrə çəkin və sözləri oxuyun. Sözləri uyğun şəkillə birləşdirin. Birinci hansı şəkildir? Nə təsvir olunub? Onu hansı söz ilə birləşdirmək lazımdır?” *(Uşaqların cavabları) (Digər sözlər üzrə də iş bu qayda ilə aparılır).*

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

Lövhədə böyük **J** hərfi ilə bərabər **j** hərfi də ya asılır, ya da proyektorla ekrana salınır. Verilmiş əlifbanın hərflərinin arasından **J** hərfi götürülərək, lövhəyə qoyulur. **J** səsinin birlikdə və tək– tək tələffüz edilməsi üzrə iş aparılır.

**Dərketmə**

**I. M:** “Uşaqlar, biz sizinlə hərflərin həm böyük, həm də kiçik formasını öyrənmişik. Bu tapşırıqda böyük hərflərlə sözlər yazılıb. Siz xətt üzrə çəkərək, hərfləri çəkin və sözü oxuyun. *(Uşaqların cavabları)* Eyni sətirdə həmin sözləri kiçik hərflərlə yazın.”

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M: “**Gördüyünüz kimi 4 şəkil təsvir olunub və hər şəklin altında birinci hərfləri yazılmayan 4 söz verilib. Siz şəkildə nə təsvir olunduğunu söyləyib, çatışmayan hərfi yerinə yazın.” *Nümunələr üzrə möhkəmləndirmə içi aparılır.* Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | | |
|---|---|---|
| | | **26-cı həftə \| DOSTLUQ** |
| **Məşğələ 5–6. RİYAZİ VƏ MƏNTİQİ TƏFƏKKÜRÜN İNKİŞAFI**<br>**Mövzu: ÜSTƏGƏL, BƏRABƏR** | | **Standart:** 2.3.1.<br>**İnteqrasiya:** 2.2.2.; 1.1.4. |
| **Məqsəd:** | • 10 dairəsində hesablama bacarıqları nümayiş etdirir.<br>• Bərabər ifadəsini düzgün müəyyən edir. | |
| **İş üsulları:** | Əqli hücum, suallar, müzakirə. | |
| **İş forması:** | Kollektiv və fərdi. | |
| **Resurslar:** | Şəkillər, rəngli karandaşlar. | |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** – Səhifənin yuxarısındakı şəklə baxaq. Tülkü əlində nə tutub? Tülkü neçə şar tutub? Nədən bildiniz? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** “Bəli, tülkü bir əlində 2, o biri əlində 1 şar tutub. Onun cəmi neçə çarı var? *(Uşaqların cavabları)* (3) Kitabınızda birinci tapşırığa diqqət yetirin. Birinci gül dəstəsində neçə çiçək var? 2 çiçək də əlavə etsək, cəmi neçə çiçək alınar? *(Uşaqların cavabları)* Hər təsvirin alt hissəsində boş xana təsvir olunub. Siz boş xanalara uyğun ədədləri yazın.” *Digər tapşırıqlar da eyni qayda ilə yerinə yetirilir.*

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M: “**Uşaqlar, bu şəklə baxın. Bu bina neçə mərtəbəlidir? *(Uşaqların cavabları)* (9) Düzdür. Cırtdan dostları ilə 7-ci mərtəbəyə qalxmalıdır. Amma onlar hələ 3-cü mərtəbədədirlər. Deyə bilərsinizmi, 7-ci mərtəbəyə çatmaq üçün hələ neçə çərtəbə qalxmaq lazımdır? (4) Nə üçün belə düşünürsünüz? *(Uşaqların cavabları)”* Bu qayda ilə möhkəmləndirmə tapşırıqları üzrə iş aparılır. Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

Müəllim uşaqlara saymacanı söyləməyi təklif edir:

*At yanında balası,*
*Gəzirdi otlaqları.*
*İkisinin bir yerdə,*
*Neçədir ayaqları?*

*(Uşaqların cavabları)* (8) Bunu necə müəyyən etdiniz? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M: “**Bəli, uşaqlar! Düz hesabladınız**.** Hər atın 4 ayağı olduğu üçün ana atın ayaqlarının sayının üstünə bala atın ayaqlarının sayını əlavə etdiniz. Cavab 8 alındı. Birinci tapşırıqda 4 tapşırıq verilib. Hər tapşırıqda təsvirin alt hissəsində boş xana təsvir olunub. Siz boş xanalara uyğun ədədləri yazın.” Digər tapşırıqlar birinci məşğələdə olduğu kimi eyni qayda ilə yerinə yetirilir. *(Uşaqların cavabları)*

**II. M: “**Biz hesablayanda deyirik, 3 üstəgəl 2 bərabərdir 5. Amma bu sözlərin işarəsi var. Biz sizinlə onları öyrənəcəyik. Tapşırığa baxın. Üstəgəl və bərabər işarələrini xətt üzrə çəkin və davam edin. İşarələri nöqtədən başlayaraq xətt üzrə çəkin və damanın hansı hissəsində yerləşməsinə diqqət edin”

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:** “Bu tapşırıqda 2 misal nəzərdə tutulub. Hər bir tapşırıqda boş xanalara ədədləri, sözlərin altına isə uyğun işarələri çəkin. Cəmi hesablayıb, yazın”.

**IV. M:** “Bu tapşırıqda da 2 misal nəzərdə tutulub. Hər bir tapşırıqda boş xanalara ədədləri, sözlərin altına isə uyğun işarələri çəkin.əvvəlki tapşırıqdan fərqli olaraq, cavab verilib. Həmin təsvirə baxaraq, cavabı yerinə yazın.” *(Uşaqların cavabları)*

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**26-cı həftə | DOSTLUQ**

| | |
|---|---|
| **Məşğələ 7–8. TƏSVİRİ FƏALİYYƏT**<br>**Mövzu: NİŞANLAR DÜZƏLDƏK** | **Standart:** 3.1.4.; 3.1.3.<br>**İnteqrasiya:** 1.1.4.; 2.2.6. |
| **Məqsəd:** | • Kəsib-yapışdırma və yapma bacarıqları nümayiş etdirir.<br>• Nişanın hissələrini düzgün yerləşdirir.<br>• Jetonu düzgün düzəldir. |
| **İş üsulları:** | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması:** | Kollektiv və fərdi. |
| **Resurslar:** | Kağızlar, rəngli kağızlar, qayçı, yapışqan, plastilin. |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** – Uşaqlar, siz avtobusda olarkən, avtobusa əgər əlil və ya yaşli adam minsə, nə edərsiniz? *(Uşaqların fikirləri dinlənilir).*

**Dərketmə**

**I. M: “**Uşaqlar, bəli davranış qaydalarından biri də ictimai nəqliyyatda yaşlılara, əlillərə yer göstərməkdir. Amma bəzi insanlar buna əməl etmir. Odur ki, bu gün biz sizinlə **“Yaşlılar üçün yer”** nişanı düzəldəcəyik. *(Müəllim nümunəni göstərdikdən sonra uşaqların gözü qarşısında izah edə-edə nümunəni düzəldir. Sonra uşaqlara işə başlamağı təklif edir.)*” Uşaqlar nümunədə verildiyi və müəllimin göstərdiyi ardıcıllıqla işi yerinə yetirirlər. Uşaqlar işi bitirdikdən sonra hazırladıqları nişanlar haqqında məlumat verirlər.

–İdman dəqiqəsi–

**Tətbiqetmə**

**II. M: “**Uşaqlar, biz sizinlə **J** hərfini öyrənmişik. Onu karandaşla yaza bilirsiniz. Havada əlinizlə J hərfini cızın. J hərfi nəyə bənzəyir? *(Uşaqların cavabları*) İndi isə plastilindən **JETON** sözünü düzəldin. Siz əvvəlki məşğələlərimizdə digər hərfləri öyrənmişik.” Müəllim uşaqlara **J** səsi ilə sözlər söyləməyi təklif edir.

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

**M:** – Uşaqlar, siz davranış qaydaları haqqında bilirsiniz. Elə insanlar da var ki, onlar avtobuslarda əlillərə yer vermirlər. Bu haqda nə deyə bilərsiniz? *(Uşaqların fikirləri dinlənilir).*

**Dərketmə**

**III. M:** “Uşaqlar, bəli, davranış qaydalarından biri də əlillərə hörmət etməkdir. Amma bəzi insanlar buna əməl etmirlər. Odur ki, bu gün biz sizinlə elə insanların diqqətinə çatdırmaq üçün “***Əlillər üçün yer***” nişanı düzəldəcəyik. *(Müəllim nümunəni göstərdikdən sonra uşaqların gözü qarşısında izah edə-edə nümunəni düzəldir. Sonra uşaqlara işə başlamağı təklif edir.)*” Uşaqlar yerinə yetirirlər. Uşaqlar işi bitirdikdən sonra hazırladıqları nişanlar haqqında məlumat verirlər.

Bitirdikdən sonra hər bir uşaq öz işi əsasında məlumat verir.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**IV. M:** "Biz sizinlə **J** hərfini öyrənmişik. **J** hərfini havada cızın. Kitabınızda dairənin içində xətlərlə J hərfi verilib. Xətt üzrə J hərfini çəkin və jetonu rəngləyin."Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | | |
|---|---|---|
| | | **26-cı həftə \| DOSTLUQ** |
| **Məşğələ 9–10. FİZİKİ MƏDƏNİYYƏT**<br>**Mövzu:** QURD VƏ DÖVŞANLAR | | **Standart:** 1.1.1.; 1.1.2.<br>**İnteqrasiya:** 4.2.2. |
| **Məqsəd:** | • Yerində, uzununa doğru tullanır.<br>• Yeriyərkən müvazinətini saxlayır.<br>• Hərəkətlərin koordinasiyasını nümayiş etdirir. | |
| **İş üsulları:** | Müzakirə, sujetli– rollu oyunlar. | |
| **İş forması:** | Kollektiv, qruplarla və fərdi iş. | |
| **Resurslar:** | Gimnastika skamyası, | |

**1 və 2-ci məşğələ**

**I. İsinmə hərəkətləri** (5 dəq.).
– Biri-birinin ardınca yeriş;
– ayaqlar çiyin bərabərində aralı, əllər beldə çiyinləri qolları dairəvi hərəkət etdirməklə yeriş;
– yerişdən tədricəh yüngül qaçışa keçmək;
– yerişə keçməklə, qolları yuxarı qaldıraraq, nəfəs almaq və nəfəsi buraxmaq. (4–5 dəfə).
**II. Ümuminkişafetdirici hərəkətlər** (20 dəq.) *(Əşyalarsız)*
**1.** *Ç.v.* **– Düz dayanmaq, ayaqlar çiyin bərabərində aralı, əllər beldə.**
*1 sayında* qollar yanlara;
*2 sayında* qollar yuxarı;
*3 sayında* qollar yanlara;
*4 sayında* ç.v.-nə qayıtmaq (5–6 dəfə).
**1.** *Ç.v.* – **Düz dayanmaq, ayaqlar çiyin bərabərində aralı, əllər beldə.**
*1 sayında* bədəni sağa döndərməklə sol əli sağ ayağın pəncəsinə toxundurmaq;
*2 sayında sayında* ç.v.-nə qayıtmaq;
*3 sayında* hərəkəti sol tərəfə icra etmək;
*4 sayında* ç.v.-nə qayıtmaq (3–4 dəfə).
**2.** *Ç.v.* **– Ayaqlar çiyin bərabəri aralı, əllər beldə.**
*1 sayında* dizləri bükmədən əyilərək hər iki əlin barmaqlarını döşəməyə toxundurmaq;
*2 sayında* Ç.V.ni almaq;
*3 sayında* qolları yanlara açmaq;
*4 sayında* ç.v.-nə qayıtmaq (6 dəfə).
**3.** *Ç.v.* – **Düz dayanmaq, əlləri başın arxasında daraqlamaq.**
*1 sayında* pəncələr üstə qalxmaq, qollar quxarı;
*2 sayında* Ç.V.ni almaq (6–7 dəfə)
**4.** *Ç.v.* **– Düz dayanmaq, ayaqlar çiyin bərabərində aralı, əllər beldə.**
*1 sayında* hoppanaraq, ayaqları birləşdirmək və qarşıda əl çalmaq;
*2 sayında* ç.v.-nə qayıtmaq;
*3 sayında* hoppanaraq, ayaqları birləşdirmək və arxada əl çalmaq;
*4 sayında* ç.v.-nə qayıtmaq(5–6 dəfə).
**Əsas hərəkətlər.**
**Müvazinət-**qolları yanlara açaraq skamyanın üzəri ilə addımlamaq.
***Hərəkətli oyun. "Qurd və dovşanlar"***

"Çəmənliyin" bir tərəfində "qurdun" yuvası müəyyən olunur, digər tərəfdə isə "dovşanlar" gəzişirlər. Müəllimin "canavar gəldi!" sözünü deməsiylə qurd yuvasından çıxaraq, dovşanların üstünə cumur. "Dovşanlar" qurtulmağa çalışırlar. "Qurd" tutduğu dovşanı yuvasına aparır. Tutulan "dovşanlar" oyun qurtarana kimi, "qurdun" yuvasında qalırlar. "Qurd" 2–3 "dovşanı" tutduqdan sonra oyun qurtarır. Yeni "qurdun" seçilməsi ilə oyun yenidən təkrar edilir.

**III. Sakitləşdirici hərəkətlər** (5 dəq.).
**"Dincəlirik"**
*Ç.v.* – Ayaqlar aralı, qollar yanlarda aşağı salınmış vəziyyətdə.
*1.* Nəfəs alma;
*2.* Nəfəs vermə – qabağa əyilmək, sağ yumruqla sol dizə toxunmaq;
*3.* Nəfəs alma – ilkin Ç.V.nə qayıtmaq;
*4.* Nəfəs vermə – qabağa əyilmək, sol yumruqla sağ dizə toxunmaq.

**26-cı həftə | DOSTLUQ**

| **Məşğələ 11–12. MUSİQİ**<br>**Mövzu: "BIZIM HƏYƏT"** | **Standart:** 3.1.6.; 3.1.7.<br>**İnteqrasiya:** 1.1.1.; 1.1.3.; 2.2.1. |
|---|---|
| **Məqsəd:** | • Musiqinin xarakterini və tempini müəyyən edir.<br>• Xorda oxumaq bacarıqları nümayiş etdirir.<br>• Musiqinin ritminə uyğun rəqs elementlərini yerinə yetirir.<br>• Zərb musiqi alətində müşaiyət edir. |
| **İş üsulları:** | Əqli hücum, müzakirə, suallar, rollu oyun, rəqs etmə,zərb musiqi alətlərində çalma |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Kompüter, disk, şəkillər,videoçarx, bəstəkarların portretləri, zərb musiqi alətləri(şax-şax, taxta çubular və ya qaşıqlar, metallafon, dəf) |
| **Musiqi materialı:** | Marş. **"Azərbycan əsgəri"** (C.Quliyev), **"Dostluq mahnısı"** (T.Quliyev/Ə.Əlibəyli), **"Bizim həyət" mahnısı** (F.Əmirov/T.Elçin), **"İnnabı"** (Azərbaycan xalq rəqsi), "**Futbol marşı** (Blanter), **"Çəhrayı pantera" cizgi filmindən musiqi "Gənc futbolçular"** (O.Zülfüqarov/T.Elçin) |
| **Alternativ material** | **Dinləmə:** "Qaliblər mahnısı" (Q.Hüseynli/Ə.Ziyatay), "Dostluğumuz var olsun" (N.Məmmədov/C.Cavadlı)<br>**Mahnı:** "Gənc idmançılar" (M.Mirzəyev/H.Ziya), **"Dostluq qatarı"** (A.Rzayeva/ C.Məmmədov) |

**1-ci məşğələ**

1. **Marş:** "Azərbaycan əsgəri" C.Quliyev

**2. Dinləmə:**"Dostluq"mövzusu, bəstəkar T.Quliyev, onun bu mövzuda yazdığı mahnıları haqqında qısa məlumat verilir, portreti uşaqlara göstərilir. "Bəxtiyar" kino-filmindən videoçarx nümayiş etdirilir: "Dostluq mahnısı" səsləndirilir. Mahnını dinlədikdən sonra müəllim uşaqlara suallarla müraciət edir:

– Dinlədiyiniz mahnıda kimin dostluğundan bəhs olundu?
– Mahnının xarakteri və tempi necə idi?
– Sizin fikrinizcə dostluq nədir və "dostluğu" təsvir edən musiqi xaraktercə necə olmalıdır? *(Uşaqların cavabları)*

**3. Mahnı:** "Bizim həyət" mahnısı (musiqisi F.Əmirovun, sözləri T.Elçinindir) şifahi yolla öyrədilir. Bəstəkar F.Əmirov, onun uşaq mahnıları yada salınır. Sonra "Bizim həyət" mahnısı, onun məzmunu haqqında qısa məlumat verilir və təqdim olunur. Mahnını dinlədildikdən sonra o, hissə-hissə öyrədilir. Tələffüzü çətin olan sözlər və melodiya üzərində iş aparılır.

Sonda "Bizim həyət " mahnısının öyrənilmiş hissəsi xorla ifa edilir, xarakteri və tempi müzakirə olunur.

**4. Musiqili-ritmik hərəkətlər:** Uşaqlar iki komandaya bölünür. Bir komandaya zərb musiqi alərləri (şax-şax, taxta çubular və ya qaşıqlar, metallafon, dəf) paylanır. "İnnabı" rəqsi səsləndirilir. I komanda rəqs elementlərini yerinə yetirir, II komanda isə melodiyanın ritminə uyğun zərb musiqi alətlərində müşayiət edirlər. Sonra komandalar fəaliyyətlərini dəyişirlər: II komanda rəqs edir, I komanda ritm tutur.

Məşğələ ümumiləşdirilərək yekunlaşdırılır.

**Musiqi materialı.**

**"Bizim həyət"**

| | | |
|---|---|---|
| 1.Bizim həyətdə çox uşaq var.<br>Bir-birini çox sevir onlar.<br>Böyuk meydandır,bizim həyət,<br>Qaynar qazandır,bizim həyət.<br>*Nəq.*<br>Bax, bax nə gözəldir, bizim həyət<br>Gəl, bax nə gözəldir, bizim həyət. | 2. Uca evləri nə göyçəkdi,<br>Onun dörd yanı gül,çiçəkdir<br>Gömgöy dənizdi, bizim həyət<br>Hər vaxt təmizdi, bizim həyət.<br>*Nəq.* | 3. Dərsdən,bağçadan gələndə biz<br>Gülür,oynayır həyətimiz<br>Qoşur nəğmələr bizim həyət,<br>Hər gün,hər səhər bizim həyət<br>*Nəq.* |

**2-ci məşğələ**

**Marş:** Marş "Azərbaycan əsgəri" (C.Quliyev)
**Mahnı**: "Bizim həyət" ( F.Əmirov/T.Elçin)
**Səhnələşdirmə: "Xeyirxahlıq və dostluq?" (resurs: pişik və it maskaları, top, qapı əlcək, köynək)**

| № | Musiqi materialı | Fəaliyyət |
|---|---|---|
| 1, 2 | Futbol marşı | Meydançada top oynadırlar. "Toplan" qapıda dayanıb topu tuta bilmir və hər dəfə topu qapıdan buraxır. "Pişik" kənarda dayanım müşahidə edir. |
| 3–5 | "Çəhrayı pantera" cizgi filmindən musiqi | Komanda üzvləri müzakrə edirlər. Pişik onlara yavaş-yavaş yaxınlaşır. Hamı pişiyə tərəf dönür.Pişik qorxur və bir addım geriyə çəkilir. Toplan Pişiyin qulağına nəsə deyir |
| 8–12 | "Gənc futbolçular", Futbol marşı | Toplan köynəyini və əlcəyini çıxarıb Pişiyə verir. Pişik qapıda dayanır və oyun davam edir. Sonda bu kamanda qalib gəlir. Hamı pişiyi qucaqlayıb təbrik edirlər |

**27-ci həftə | YARDIM**

**Məşğələ 1. ƏTRAF ALƏMLƏ TANIŞLIQ**
**Mövzu: KÖMƏK ETMƏK BORCUMUZDUR!**

**Standart:** 2.1.2.; 2.1.5.
**İnteqrasiya:** 2.2.2.; 4.2.3.

| | |
|---|---|
| **Məqsəd:** | • Dinlədiyi məlumatı anladığını nümayiş etdirir.<br>• Səbəb-nəticə əlaqələrini müəyyənləşdirir.<br>• Obyektlər haqqında topladığı məlumatı müzakirə edir. |
| **İş üsulları:** | Əqli hücum, müzakirə, suallar. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Fərqli mühitdə yaşayan heyvan şəkilləri, rəngli karandaşlar. |

**Məşğələnin gedişi**

**Motivasiya**
**M:** – Uşaqlar, əgər siz yol ilə gedərkən, yıxılsa, və ya yaşlı bir adam ağır zənbillə gedərsə, siz nə edərsiniz? *(Uşaqların fikirləri dinlniir)*

**Dərketmə**
**I. M:** "Uşaqlar, düz deyirsiniz. Uşaqlar, siz kömək, yardım dedikdə nə başa düşürsünüz? *(Uşaqların cavabları) Düzdür, uşaqlar!* Köməyə ehtiyacı olanlara həmişə yardım etmək lazımdır. Yıxılanı ayağa qaldırmaq, ehtiyacı olanlara yardım etmək, kimsəsizə əl tutmaq, bir sözlə, nəcib və xeyirxah işlər görmək xalqımızın milli dəyərlərindəndir. Kiməsə kömək edəndə özünə kömək etmiş olursan! Başqalarına əl tutmaq özünəhörmət hissini artırır və insana məmnunluq gətirir. Güclü bir insan olmaq həm də xeyirxah olmaq deməkdir. Yaşlılara, xəstələrə həmişə kömək etmək lazımdır. Bu tapşırıqda 4 müxtəlif mızmunlu şəkil təqdim olunur. (Müəllim hər çərçivədəki şəklin məzmunu haqqında müsahibə təşkil edir.)

**II.** Müəllim uşaqlara suallarla müraciət edir: "*Kimlərə yardım göstərmək lazımdır? – Kiçiklər böyüklərə necə yardım edirlər? – Siz evinizdəkilərə necə yardım edirsiniz?)*?" *(Uşaqların cavabları)*

—İdman dəqiqəsi—

**Tətbiqetmə**
**III. M:** "Şəkildə 4 çərçivədə şəkillər təsvir olunub. Şəkillərdə nə təsvir olunduğu haqqında danışın. *(Uşaqların cavabları)*" (Hər çərçivədəki şəkillər üzrə iş təşkil edin)

**IV. M:** "Bu tapşırıqda 2 müxtəlif vəziyyətə düçmüş heyvan təsvir olunub. Bu vəziyyətdə onlara necə yardım etmək olar?" *(Uşaqların cavabları*) Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | 27-ci həftə \| YARDIM |
|---|---|
| **Məşğələ 2. BƏDİİ TƏFƏKKÜRÜN İNKİŞAFI**<br>**Mövzu: YARDIM ZƏNCİRİ** | **Standart:** 2.2.2.; 2.2.1. |
| | **İnteqrasiya:** 3.1.9. |

| | |
|---|---|
| **Məqsəd:** | • Bədii nümunə əsasında danışır.<br>• Dinlədiyi fikirləri anladığını nümayiş etdirir.<br>• Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir. |
| **İş üsulları:** | Müzakirə, suallar. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Hekayənin mətni, şəkillər, rəngli karandaşlar. |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M:** – Uşaqlar, vəsaitdəki şəkillərə diqqətlə baxın. Şəkildə nə təsvir olunub? Sizcə, burada nədən söhbət gedə bilər? *(Uşaqların fikirləri dinlənilir)*

**Dərketmə**

**I. M: "**Mən indi sizə şəkillərlə bağlı hekayə söyləyəcəyəm. Hekayənin adı "Yardım zənciri" adlanır. Şəkillərə baxa-baxa hekayəni dinləyin. Hər şəkil mətnin bir hissəsini təsvir edir. Mən deyəndə, dinlədiyiniz hissəyə uyğun şəkli tapın və altındakı dairəni rəngləyin."

1

"Günəşli bir yay günü idi. Günəş mavi səmada öz yerini tutmuş, parlaq şüalarını səxavətlə ətrafa səpələyirdi. Çəpgöz başını yavaş-yavaş yuvasından çıxarıb ətrafa boylandı.

**– Necədə gözəl bir gündür?!** Sakit hava, parlaq günəş... Xoşbəxtlik üçün daha nə lazımdır?! Əlbəttə, əgər indi qarnım tox olsaydı, mən dünyanın ən xoşbəxti olardım. "

**M:** "Uşaqlar, şəkillərə baxıb, dinlədiyiniz hissəyə uyğun şəkli tapıb, altındakı dairəni işarə edin."

Müəllim oxumağa davam edir.

2

"Çəpgöz bu fikirlərlə özünə yemək axtarmaq üçün yuvadan çıxdı. Bir az getmişdi ki, gözü bir tısbağaya sataşdı. **Tısbağa meşəyə gedən cığırın ortasında çanağı üstə çevrilib çapalayırdı.** Elə qəribə hərəkətlər edirdi ki?! Çəpgöz özünü gülməkdən güclə saxlayırdı."

**M:** "Uşaqlar, şəkillərə baxıb, dinlədiyiniz hissəyə uyğun şəkli tapıb, altındakı dairəni işarə edin."

Müəllim oxumağa davam edir.

3

"Əlbəttə Çəpgöz tısbağaya kömək edəcəkdi, amma əvvəlcə bir az əylənmək istəyirdi. Aşağı əyilib tısbağanın qarnını qıdıqlamağa başladı. Tısbağanı da gülmək tutmuşdu. **Çəpgöz tısbağaya çevrilmək üçün kömək etdi.** Tısbağa ona təşəkkür edib yoluna davam etdi."

**M:** "Uşaqlar, mənim indi oxuduğum hissəni müəyyənləşdirib, işarə edin."

Müəllim oxumağa davam edir.

4

"Tısbağa gəlib bir çay qırağına çatdı. Sərinlənmək üçün suya girdi. **Bir az ümüşdü ki, gözü az qala suda boğulan qarışğaya staşdı.** Qarışqa gah suya giri, gah suyun üzünə qalxırdı. Aydın məsələ idi bir az da belə getsə boğula bilərdi".

**M:** "Uşaqlar, mənim indi oxuduğum hissəni müəyyənləşdirib, işarə edin."

Müəllim oxumağa davam edir.

5

"Tısbağa tez özünü ona çatdırdı:-İndi səni quruya çıxararam. **Qarışqaya çanağının üstünə qalxmağa kömək etdi.** Onu sahilə çıxartdı. Qarışqa ona təşəkkür edib yoluna davam etdi. "

**M:** "Dinlədiyiniz hissəyə uyğun şəkli tapıb, işarə edin."

Müəllim oxumağa davam edir.

6

"Birdən nə görsə yaxşıdır? **Bir ovçu kolların arasında gözlənib ağacdakı göyərçini ovlamaq istəyir.** Qarışqa əvvəlcə ovçunun ayaqqabısının üstünə çıxdı, ordan üzüyuxarı ovçunun boynuna doğru dırmaşmağa başladı."

M: "Uşaqlar, məzmuna şəkli tapıb, işarə edin."

Müəllim oxumağa davam edir.

7

**"Boynuna çatıb ovçunu elə dişlədi** ki, ovçu əlindəki tüfəngi yerə atıb boynunu ovuşdurdu. Əlbəttə, bu səs-küyə göyərçin də pırr eləyib ağacdan uçdu. Göyərçin canını ovçunun əlindən qurtardığı üçün çox sevinirdi. Ürəyində qarışqaya çox sağ ol deyirdi."

**M:** "Dinlədiyiniz hissəyə uyğun şəkli tapıb, işarə edin."

—İdman dəqiqəsi—

8

Müəllim oxumağa davam edir.

**"Bir az uçmuşdu ki, baxdı ki, bir siçan balası gölməçəyə düşüb çapalayır.** Göyərçin yaxşı bilirdi ki, kömək etmək lazımdır. Amma necə?"

**M:** "Uşaqlar, məzmuna şəkli tapıb, işarə edin."

Müəllim oxumağa davam edir.

9

"Göyərçin ağacın qalın budaqlarına dolaşmış uzun bir ipi dimdiyi ilə açdı. İpin bir ucunu siçana uzatdı, o biri ucundan da özü yapışıb dartmağa başladı. **Siçan balasını xilas etdi.** Siçan balası göyərçinə təşəkkür edib meşəyə tərəf getdi."

**M:** "Uşaqlar, məzmuna şəkli tapıb, işarə edin."

Müəllim oxumağa davam edir.

10

"Bala siçan yuvasına tələsirdi. Başına gələn əhvalatı anasına danışmaq istəyirdi. Bala siçan yuvasına çatar-çatmaz qulağına dovşanın səsi gəldi. -Bu ki dovşandır. Görəsən, niyə belə qışqırır?- deyə səs gələn tərəfə getdi. Gəlib gördü ki, **dovşan ovçuların qurduğu tora düşüb."**

**M:** "Uşaqlar, məzmuna şəkli tapıb, işarə edin."

Müəllim oxumağa davam edir.

11

"Bala siçan özünü itirmədi. Dovşana yaxınlaşıb dişləri ilə toru kəsməyə başladı. Heç bir neçə dəqiqə keçməmişdi ki, **dovşan artıq azadlıqda idi."**

**M:** "Uşaqlar, məzmuna şəkli tapıb, işarə edin."

Müəllim oxumağa davam edir.

12

"Siçan balasının onu xilas etməsi dovşan üçün çox gözlənilməz oldu. Dovşan nə vaxtsa balaca bir siçan balasına təşəkkür edəcəyini ağlına belə gətirməzdi. İndi bax budur o siçan balasına minnətdarlıqla baxaraq düşünürdü: **"Yaxşılıq bumeranq kimidir. Gec-tez özünə qayıdacaq**".

**Tətbiqetmə**

**II. M:** "Uşaqlar, bu tapşırıqda 5 dairədə hekayədəki heyvanların şəkilləri təsvir olunub. Heyvanları adlandırın. Hansı heyvanın hansına yardım göstərdiyini oxlar çəkməklə göstərin. Onların hər birinin necə yardım etdiyi haqqında danışın." Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | | |
|---|---|---|
| | | **27-ci həftə \| YARDIM** |
| **Məşğələ 3–4. SAVAD TƏLİMİNƏ HAZIQLIQ VƏ NİTQ İNKİŞAFI**<br>**Mövzu: S-Ş-C-Ç- J - Z SƏS VƏ HƏRFLƏRİ** | | **Standart:** 2.2.4.; 2.2.5<br>İnteqrasiya: 1.1.4. |
| **Məqsəd:** | • **S-Ş-C-Ç-J-Z** səs və hərflərini adlandırır.<br>• Bu səs və hərfləri tələffüzünə görə biri-birindən fərqləndirir.<br>• Təsvirə əsasən uyğun səsləri söyləyir. | |
| **İş forması:** | Əqli hücum, suallar, müzakirə. | |
| **İş forması:** | Kollektiv və fərdi iş. | |
| **Resurslar:** | Şəkillər, karandaşlar, flaneloqraf, hərflər. | |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** "Uşaqlar, siz sarı qutuya baxın. Orada hansı hərflər təsvir olunub?" *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, afərin, düz söylədiniz. Uşaqlar, birinci tapşırıqda 5 şəkil təsvir olunub. Şəkillərdə nə təsvir olunduğunu söyləyin. Deyilən sözləri uyğun sətir və ya sütünda yazın. Sarı damalarda olan hərflərə uyğin səsləri söyləyin."

**II. M:** "Hər şəkildə nə təsvir olunduğunu söyləyin. Hər bir şəklin altındakı xanada sözün ilk hərfini yazın".

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:** "Uşaqlar, bu tapşırıqda iki şəkil və hər şəklin sağındakı çərçivədə sizin öyrəndiyiniz hərflər yazılıb. Şəkildə nə təsvir olunduğunu söyləyin.Şəklin sağındakı hərflərin içərisindən sözdə olan hərfləri tapın və haşiyəyə alın.?" Məşğələ boyu uşaqlar rəğbətləndirilir. Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

**M: "**Uşaqlar, biz sizinlə kömək, yardım haqqında danışmışıq. Sizcə, kimlərə və hansı hallarda yardım etmək lazımdır**?"** *(Uşaqların fikirləri dinlənilir.)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, bu tapşırıqda 4 müxtəlif məzmunlu şəkil təsvir olunub. Şəkillərin yanında məzmuna uyğun 4 söz xətlərlə verilib. Sözləri xətt üzrə çəkin, sönra isə sözü oxuyun. Sözləri uyğun şəkillə birləşdirin."

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M: –** Bu tapşırıqdakı şəkildə nə təsvir olunub? Verilmiş sözləri isə xətt üzrə çəkin və oxuyun. Bu ifadəni hansı hallarda işlədirsiniz?" *(Uşaqların cavabları)* Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | 27-ci həftə \| YARDIM |
|---|---|
| **Məşğələ 5–6. RİYAZİ VƏ MƏNTİQİ TƏFƏKKÜRÜN İNKİŞAFI** | **Standart:** 2.3.1. |
| **Mövzu:** TOPLAMA ƏMƏLİ | **İnteqrasiya:** 4.2.3.; 1.1.4. |

| | |
|---|---|
| **Məqsəd:** | • 10 dairəsində toplama əməli yerinə yetirir.<br>• Verilmiş rəqəmə görə əşyanın sayını müəyyənləşdirir. |
| **İş üsulları:** | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması:** | Kollektiv və fərdi. |
| **Resurslar:** | Şəkillər, karandaşlar. |

**1-ci məşğələ**

**Motivasiya**

M: "Uşaqlar, şəklə diqqətlə baxın! Tülkü nə edir? *(Uşaqların cavabları)* O, hansı rəqəmləri toplayır?

**Dərketmə**

I. M: "Uşaqlar, düzdür, tülkü 1 və 2 ədələrini toplayır. Heçə alındı? *(Uşaqların cavabları)* (3) Düzdür, bəs sarı qutuda nə təsvir olunub? *(Uşaqların cavabları)* Bəli, burada da 2-nin üzərinə 1 əlavə olunub. Bəs cavab neçə oldu? (3) *(Uşaqların cavabları)* Deməli, 1 və 2-ni toplayarkən onların yerini dəyişsək də, alınan cavab dəyişmir. Toplama zaman alınan cavab cəm adlanır. İndi isə verilmiş misalları uyğun şəkillə birləşdirin."

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M: "**Bu tapşırıqda şəkillər və şəkillərin altında isə boş xanalar təsvir olunub. Dairələr isə işarələr üçündür. Misallara baxın, boş dairələrin içərisinə uyğun işarələri, boş xanalara isə uyğun ədədləri yazın".

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

Müəllim şeir-tapmaca söyləyir:

*İnan ki, çətin deyil, Düşünsən, asan olar. Bir əldə, bir ayaqda Cəmi neçə barmaq var?*

M: "Uşaqlar, cavabı söyləyin. Bunu necə bildiniz?" *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M: "**Uşaqlar, hesablayıb, düz cavabı tapdınız. Birinci tapşırığa baxın. Domino daşlarındakı nöqtələri sayın. Boş dairələrin içərisinə uyğun işarələri, boş xanalara isə uyğun ədədləri yazın. Sonra hesablayıb, cəmi tapın."

**II. M: "**Bu tapşırıqda isə hər ədədin üstündəki çərçivədə uyğun sayda nöqtə çəkin. Sonra hesablayıb, cəmi tapın."

**III. M: "**Bu tapşırıqda birinci sırada toplananlar, ikinci sırada isə cəm verilib**.** Misalları hesablayıb, onların doğru cavabları ilə birləşdirin."

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**IV. M: “**Misalları hesablayıb, cəmi tapın.”

**V. M: “**Bu tapşırıqda həm rəqəmlər verilib, həm də fiqurlar təsvir olunub. Cavabın düzgün alınması üçün nə qədər fiqur əlavə etmək lazımdır? Fiqurları çəkin və altında uyğun ədədi yazın.”

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | |
|---|---|
| | **27-ci həftə \| YARDIM** |
| **Məşğələ 7–8. TƏSVİRİ FƏALİYYƏT**<br>**Mövzu: ƏL-ƏLƏ TUTMUŞ İNSANLAR** | **Standart:** 3.1.2.; 3.1.4.; 3.1.3.<br>**İnteqrasiya:** 1.1.4.; 2.2.6.; 3.1.8. |

| | |
|---|---|
| **Məqsəd:** | • Yapma bacarıqları nümayiş etdirir.<br>• Kəsib-yapışdırma bacarıqları nümayiş etdirir.<br>• Kompozisiya qurur. |
| **İş üsulları:** | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması:** | Kollektiv və fərdi. |
| Resurslar: | Şəkillər, kağızlar, qayçı, yapışqan, plastilin, karandaşlar. |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** – Uşaqlar, siz yallı rəqsi haqqında nə bilirsiniz? Onu necə oynayırlar? *(Uşaqların fikirləri dinlənilir).*

**Dərketmə**

**I. M:** “Uşaqlar, düz dediniz, yallını bir neçə adam əl-ələ tutaraq, rəqs edirlər. İndi isə biz sizinlə kağızdan əvvəlcə qatlama üsulu, sonra isə kəsməklə əl-ələ tutmuş insan fiqurları düzəldəcəyik.” *Uşaqlar işə başlamazdan əvvəl müəllim əvvəlcədən hazırladığı nümunəni göstərir, sonra isə onların gözü qarşısında izah edə-edə kəsmə vasitəsilə adam fiqurları kəsir.Sonra isə kəsdiyi fiqurları yapışqan vasitəsilə birləşdiirir. Sonra isə uşaqlara işə başlamağı təklif edir.Uşaqlar işləyərkən, onlara fərdi yanaşaraq, istiqamət verir, uşaqların əməkdaşlıq etmələrinə imkan yaradır.*

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** “Uşaqlar, biz artıq sizinlə çox hərfləri öyrənmişik. Onları karandaşla çəkə bilirsiniz. İndi isə böyük hərflərdən istifadə edərək, plastilindən **DOSTLAR** sözünü düzəldin. Neçə hərfdən istifadə etdiniz? Hansı hərflərdir?” *(Uşaqların cavabları)* Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

**M: –** Uşaqlar, biz sizinlə dostluq haqqında danışmışıq. Gəlin bir daha xatırlayaq. Dostluq nədir? *(Uşaqların fikirləri dinlənilir)*

**Dərketmə**

**I. M: “**Uşaqlar, düz söylədiniz. Dostluq çox ülvi hissdir. Dostsuz yaşamaq çox çətindir. Sizin də hər birinizin dostu var. İndi isə biz sizinlə kağızdan dostluq halqaları kəsib, düzəldəcəyik. *(Müəllim uşaqlara qabaqcadan hazırladığı nümunəni göstərir. Sonra işə onların gözü qarşısında izah edə-edə işi yerinə yetirir. Sonra isə uşaqlara işə başlamağı təklif edir.)*

Sonda hər bir uşaq düzəltdiyi dostluq halqaları haqqında məlumat verir.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** “Uşaqlar, biz artıq sizinlə çox hərfləri öyrənmişik. Onları karandaşla çəkə bilirsiniz. İndi isə böyük hərflərdən istifadə edərək, plastilindən **DOSTLUQ** sözünü düzəldin. Neçə hərfdən istifadə etdiniz? Hansı hərflərdir?” *(Uşaqların cavabları)* Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | 27-ci həftə \| YARDIM |
|---|---|
| **Məşğələ 9–10. FİZİKİ MƏDƏNİYYƏT**<br>**Mövzu: DOVŞANLAR VƏ İTLƏR** | **Standart:** 1.1.1.; 1.1.2.<br>**İnteqrasiya:** 4.1.2.; 4.2.2. |

| | |
|---|---|
| **Məqsəd:** | • Yeriş və dağınıq halda yürüş yerinə yetirir.<br>• Hoppanma, tullanma (1 və 2 ayaqlı) bacarığı nümayiş etdirir.<br>• Yeriyərkən müvazinətini saxlayır. |
| **İş üsulları:** | Müzakirə, sujetli-rollu oyunlar. |
| **İş forması:** | Kollektiv, qruplarla və fərdi iş. |
| **Resurslar:** | Kiçik toplar, ip. |

**1 və 2-ci məşğələ**

**I. İsinmə hərəkətləri** (5 dəq.)
– Biri-birinin ardınca yeriş və qaçış;
– qollar yuxarıda, barmaqları açıb-bükmək və pəncə üstə yeriş;
– qollar yanlarda, barmaqları açıb-bükmək və daban üstə yeriş;
– əlləri yuxarı qaldıraraq, nəfəs almaq və nəfəsi buraxmaq. (4–5 dəfə)
**II. Ümuminkişafetdirici hərəkətlər.** (20 dəq.) (əşyalarsız)
**1.** *Ç.v.* – **Düz dayanmaq, top sağ əldə.**
*1 sayında* qollar yanlara;
*2 sayında* pəncələr üstə qalxmaq və başı üzərində topu sol ələ ötürmək;
*3 sayında* qollar yanlara;
*4 sayında* ç.v.-nə qayıtmaq. Hərəkəti həmçinin sol əllə yerinə yetirmək. (6 dəfə)
**2.** *Ç.v.* – **Ayaqlar çiyin bərabəri aralı, top sağ əldə.**
*1 sayında* qollar yanlara;
*2 sayında* irəli əyilmək və topu bir ayaqdan digərinə tərəf diyirlətmək;
*3 sayında* dikəlmək, qollar yanlara, top sol əldə;
*4 sayında* ç.v.-nə qayıtmaq. Hərəkəti həmçinin sağ əllə yerinə yetirmək. (6 dəfə)
**3.** *Ç.v.* – **Düz dayanmaq, top sağ əldə.**
*1 sayında* qollar yanlara;
*2 sayında* çöməlmək, topu sağ əldən sol ələ ötürmək;
*3 sayında* dikəlmək, qollar yanlara;
*4 sayında* ç.v.-nə qayıtmaq. (6–8 dəfə)
**4.** *Ç.v.* – **Düz dayanmaq, top sağ əldə.**
*1 sayında* bir ayaq üstə "1–8" say üzrə hoppanmaq; (Hoppanmanı həm sol ayağı üstə, həm də hər iki ayaqla yerinə yetirmək)
*2 sayında* ç.v.-nə qayıtmaq. (6–8 dəfə)
**5.** *Ç.v.* – **Düz dayanmaq, əllər yanlarda.**
2 ayaq üstə ipin üstündən irəli, geri hoppanmaq. (3–4 dəfə).
**Əsas hərəkətlər.**
**Hərəkətli oyun: "Dovşanlar və itlər"**
Meydançanın bir tərəfində "dovşanlar" üçün "yuva", o biri tərəfində isə "itlər" üçün koma müəyyən edilir. Uşaqlardan biri "ovçunu", ikisi "iti", qalanları isə "dovşanları" təmsil edirlər. "Ovçu" ağac və ya stul dalında gizlənir. Müəllimin işarəsi ilə "dovşanlar" yuvadan çıxıb hoppana-hoppana gəzirlər. Bu zaman "itlər" komalarında yatmış olurlar. Müəllimin "ovçu gəlir" deməsi ilə "ovçu" və "itlər" dovşanlarıм tutmağa başlayırlar. "Dovşanlar" isə yuvalarına qaçırlar.
**III. Sakitləşdirici hərəkətlər** (5 dəq.)
*Ç.v.* – ayaqlar aralı, əllər yanlarda aşağı salınmış vəziyyətdə.
*1.* Nəfəs alma – pəncə üstə qalxaraq, qolları qabağa və yuxarı uzatmaq.
*2.* Nəfəs vermə – əlləri aşağı salmaqla ç.v-nə qayıtmaq.
*3.* Nəfəs alma – qolları yanlara açaraq, başını yuxarı qaldırmaqla, pəncələri üstə qalxmaq.
*4.* Nəfəs vermə – ç.v-nə qayıtmaq.
Müəllimin ardınca bir cərgədə sakit yeriş.

| | | 27-ci həftə \| YARDIM |
|---|---|---|
| **Məşğələ 11–12. MUSİQİ**<br>**Mövzu: "NÖVBƏTÇİYƏM"** | | **Standart:** 3.1.6.; 3.1.7.<br>**İnteqrasiya:** 2.1.2.; 2.2.1.; 3.2.3. |

| | |
|---|---|
| **Məqsəd:** | • Musiqinin xarakterini müəyyən edir.<br>• Xorda oxumaq bacarıqları nümayiş etdirir.<br>• Zərb musiqi alətində müşayiət edir |
| **İş üsulları:** | Əqli hücum, müzakirə, suallar, zərb musiqi alətlərində çalma |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Kompüter, disk, şəkillər, davranış qaydaları olan plakat, bəstəkarların portretləri, zərb musiqi alətləri (nağara, dəf) |
| **Musiqi materialı:** | **Marş. "Azərbycan əsgəri" (C.Quliyev),** "Dəcəllik elemirəm" (O.Zülfüqarov/ H.Hüseynli), "Növbətçiyəm" mahnısı (O.Zülfüqarov/C.Cavadlı), "Nağara" (O.Zülfüqarov/ A.Şaiq), "Mənim dovşanım" (Q, Hüseynli/Y.Həsənbəy), "Tavşan və Kaplumbağa" (cizgi filmindən Masal muziği), F.Əmirov "Balaca qarışqa" (D. Kostyçenko), "Göyərçinim" (A.Rzayeva/M.Seyidzadə), "Tom və Cerri" cizgi filmindən musiqi (bir parça), "May" (M.Əhmədov/ M.Seyifzadə,Ə.Ağayev**)** |
| **Alternativ material:** | **Dinləmə**: "Tarımın mahnıları" (O.Zülfüqarov/H.Ziya), "Hədiyyə" (Ş.Axundova/ X.Əlibəyli)<br>**Mahnı:** "Sağıcıdır mənim nənəm" (H.Nəcəfova/X.Rza), "Anamı incitmirəm" (O.Zülfüqarov/H.Ziya) |

## 1-ci məşğələ

1.**Marş:** "Azərbaycan əsgəri". C.Quliyev

**2. Dinləmə:** Müəllim "Yardım" mövzusunu, musiqidə bu mövzu necə təsvir oluna bilər barədə qısa söhbət aparır. Bəstəkar O.Zülfüqarovun portreti nümayiş olunur. Sonra "Dəcəllik eləmirəm" mahnısı (musiqisi O.Zülfüqarovun sözləri H.Hüseynlinindir) səsləndirilir. Mahnını dinlədikdən sonra müəllim uşaqlara suallarla müraciət edir:

– Dinlədiyiniz mahnıda nədən bəhs olundu?
– Mahnının xarakteri və tempi necə idi?
– Mahnının məzmununu hər hansı bir yardımla əlaqələndirmək olar ? *(Uşaqların cavabları)*

3. **Mahnı:** "Növbətçiyəm" mahnısı (musiqisi A.Rzayevanın, sözləri İ.Soltanındır) şifahi yolla öyrədilir. Müəllim mahnının məzmunu haqqında qısa məlumat verir. Mahnı müəllimin ifasında və ya hər hansı bir texniki vasitələrdən istifadə etməklə təqdim olunur. Uşaqlar mahnını dinlədikdən sonra o, hissə-hissə öyrədilir. Tələffüzü çətin olan sözlər və melodiya üzərində iş aparılır.

Sonda "Növbətçiyəm" mahnısının öyrənilmiş hissəsi xorla ifa edilir, xarakteri və tempi müzakirə olunur.

**4. Musiqili-ritmik hərəkətlər:** Uşaqlara zərb musiqi alətləri (nağara, dəf) paylanılır**. "**Nağara" (O.Zülfüqarov/A.Şaiq) mahnısı səsləndirilir. "Dum bolo-bom, dum bolo, dum,dum,dum" sözləri səslənəndə uşaqlar zərb musiqi alətlərində sözlərin hecasına uyğun ritmi vururlar.

Məşğələ ümumiləşdirilərək yekunlaşdırılır.

**Musiqi materialı.**

**Növbətçiyəm**

| | | | |
|---|---|---|---|
| 1. Fincanları düzərəm,<br>Çaynikdən çay süzərəm.<br>*Nəq.*<br>Bilirsiniz nəçiyəm?<br>Bağçada növbətçiyəm! | 2. Gətirirəm çörəyi<br>Paylayaram xörəyi<br>*Nəq.* | 3. Nimçələri yuyaram,<br>Taxçalara qoyaram.<br>*Nəq.* | 4. Döşəməni silərəm<br>İşimi mən bilərərm.<br>*Nəq.* |

## 2-ci məşğələ

**Marş:** Marş "Azərbaycan əsgəri" (C.Quliyev)

**Mahnı**: **"Növbətçiyəm" (O.Zülfüqarov/C.Cavadlı)**

**Səhnələşdirmə: "Yaxşılıq zənciri"** (resurs: dovşan, tısbağa, qarışqa, göyərçin, siçan maskalrı, ip, oyuncaq tüfəng)

| № | Musiqi materialı | Fəaliyyət |
|---|---|---|
| 1–3 | 1. "Mənim dovşanım"<br>2. "Tavşan və Kaplumbağa" | Dovşan yuvasından çıxır, ora-bura qaçır, qulaqlarını sonra qarnını sağallayır, gəzişir. Tısbağaya rast gəlir. Tısbağa çevrilmişdir və çapalayır.Dövşan onu göstərir və gülür.Sonra tısbağanı çevirir. Tısbağa təşəkkür edir uzaqlaşır. |

| | | |
|---|---|---|
| 4–5 | "Balaça qarışqa" | Tısbağa çayın qırağında gəzir, çayda çapalayan qarışqanı görür və onu dartıb quruya çıxarır. |
| 6–7 | "Göyərçinim" | Ovçu göyərçini ovlamaq istəyir. Qarışqa astaca ona yaxınlaşır, boynunu dişləyir. Ovçü tüfəngini yerə salır, boynunu ovuşdurur , ğöyərçin uçur, canını qurtarır. |
| 8–9 | "Tom və Cerri " | Göyərçin uça-uça görür ki, siçan gölməçəyə düşüb, çapalyır. Ağacın budağından ipi siçana uzadır və onu dartıb xalas edir. |
| 10–12 | "May" | Siçan yolla gedir və səs eçidir:"Kömək edin!" dovşan tora düşüb çapalayır. Siçan toru gəmirir və dovşanı xilas edir. Dovşan siçana təşəkkür edir. |

**28-ci həftə | MƏSULİYYƏT**

**Məşğələ 1. ƏTRAF ALƏMLƏ TANIŞLIQ**
**Mövzu: ƏMƏKSEVƏR VƏ MƏSULİYYƏTLİ OLMAQ**

**Standart:** 2.1.2.; 2.1.4.
**İnteqrasiya:** 2.2.1.; 2.2.6.

| | |
|---|---|
| **Məqsəd:** | • Əməksevərlik və məsuliyyətlilik haqqında təsəvvürü olduğunu nümayiş etdirir.<br>• Dinlədiyi fikirləri şərh edir.<br>• Hadisələri qruplaşdırır. |
| **İş üsulları:** | Əqli hücum, müzakirə, suallar. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Müxtəlif məzmunlu şəkillər, karandaşlar. |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M:** – Uşaqlar, vəsaitin yuxarısındakı şəkillərə baxaq. Tülkü nə edir? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, düz dediniz. Tülkü stolun üstünü səliqəyə salır. Deyin görüm, siz əməyi sevirsiniz? *(Uşaqların cavabları)* Uşaqlar, bəs deyə bilərsinizmi, əməyi sevən adamlar necə adlanır? *(Uşaqların cavabları)* (Əməksevər) Bəs siz evdə valideynlərinizə, nənə və babanıza necə kömək edirsiniz? *(Uşaqların cavabları)* Gəlin əmək haqqında atalar sözünü xatırlayaq. "İşləməyən dişləməz". Bu o deməkdir ki. Insan zəhmət çəkməsə, işləməsə, dolana bilməz. Ac qalar. İnsan həm də əməksevər olmaqla bərabər, səliqəli olmalıdır. Həm evdə, həm də məktəbdə (uşaq bağçasında) **səliqəli** olmalıdır. Səliqəli olmaqla, bərabər başqalarının əməyini qiymətləndirməlidir. Baxın bizim otağımız təmizdir. Heç bir zibil, toz yoxdur. Deyin görək bizim otağımızı kim təmizləyir? *(Uşaqların cavabları)* Düzdür. Biz də hər bir adamın əməyinə hörmətlə yanaşaraq, ona **qayğı** göstərməliyik. Sizcə, qayğıkeş olmaq nə deməkdir? *(Uşaqların cavabları)* Qayğıkeşlik nədir? Əgər sən bir çiçəyi tapdalayıb əzmirsənsə, heyvanı incitmirsənsə, deməli, qayğıkeşsən. Dibçəkdəki çiçəyə su verirsənsə, quşları yemləyirsənsə, demək, onun qayğısını çəkirsən. Qayğıkeşlik xeyirxahlıqdır. Yaşlı adamın zənbilinə kömək etmək, ev işlərində valideynlərinə kömək etmək, avtobusda və metroda yaşlılara yer vermək xeyirxahlıqdır. Qayğıkeş, xeyirxah olmaq hər bir insanın mənəvi borcudur. Biz həm də məsuliyyətli olmalıyıq. Öz hərəkət və işlərinə görə cavab vermək, onların nəticələri üçün cavabdehliyi öz üzərinə götürmək **məsuliyyət** adlanır. Deyilənləri yerinə yetirmək isə məsuliyyətlilikdir".

**M:** "Uşaqlar, şəkillərə baxın və şəkildə uşaqların hansı işlə məşğul olduqları haqqında danışın".

**II.** Müəllim uşaqlara suallarla müraciət edir:

– Şəkildəki uşaqlardan hansı zəhmətkeşdir?

– Şəkildəki uşaqlardan hansı uşaq məsuliyyətsizdir? Nə üçün belə düşünürsünüz?

– Siz hansı işləri görməyi sevirsiniz? *(Uşaqların cavabları)*

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:** "Bu tapşırıqda müxtəlif məzmunlu şəkillər təsvir olunub. Şəkillər əsasında ***"Əməksevər və məsuliyyətli olmaq üçün biz nə etməliyik"*** mövzusunda danışın. Şəkildə müxtəlif heyvanlar və onların yaşamaları üçün məkan təsvir olunub. Mən sizə təsvir olunmuş heyvanın adını çəkəcəyəm. Adı çəkilən təsviri tapın və onları yaşadığı yerə: evdə yaşayanları – sarı, tövlədə yaşayanları – qızmızı, hində yaşayanıları isə – yaşıl rəngli karandaşla həşiyəyə alın.

**IV. M:** "Şəkildə təsvirlərdəki ardıcıllıq gözlənilmədən təqdim olunur. Siz şəkillərə diqqətlə baxın, düzgün ardıcıllığı müəyyənləşdirin və rəqəmləri dairələrə yazmaqla göstərin."

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | 28-ci həftə \| MƏSULİYYƏT |
|---|---|
| **Məşğələ 2. BƏDİİ TƏFƏKKÜRÜN İNKİŞAFI**<br>**Mövzu: MİŞAR ŞEİRİ** | **Standart:** 2.2.1.; 2.2.2.<br>**İnteqrasiya:** 3.1.8.; 4.2.2. |

| | |
|---|---|
| **Məqsəd:** | • Mövzu əsasında danışır.<br>• Dinlədiyi fikirləri anladığını nümayiş etdirir.<br>• Suallara ətraflı cavab verir. |
| **İş üsulları:** | Müzakirə, suallar, nağıletmə. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Mahnının mətni, şəkillər. |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M:** – Uşaqlar, vəsaitinizdə şəkillərə diqqətlə baxın. Şəkildə nə təsvir olunub? Sizcə, burada nə baş verir? *(Uşaqların fikirləri dinlənilir).*

**Dərketmə**

**I. M:** "Uşaqlar, düz dediniz, Arif taxtalardan evcik düzəltmək istəyir. O, evciyi nədən tikmək istəyir? Bəs taxtanı nə ilə kəsir? *(Uşaqların cavabları)* İndi biz sizinlə "Mişar" mahnısına qulaq asacağıq. *(Musiqi səsləndirilir)* Uşaqlar, mahnını bir daha dinləyək, nəqəratı hamımız bir yerdə təkrar edək.

*Ay mişar, tələs, mişar,*
*Taxtanı tez kəs mişar.*

**II.** Müəllim uşaqlara suallarla müraciət edir: – Arif nə etmək istəyirdi? – İşi görməzdən əvvəl nə üçün ölçüb-biçmək lazımdır? – Siz Arifə necə kömək edərdiniz? *(Uşaqların cavabları)*

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**I. M:** "Siz artıq bütün hərfləri öyrənmisiniz. Bu tapşırıqda 3 atalar sözü yazılıb. ***Zəhmət çəkən, bal yeyər. Zəhməti sevən işdən doymaz. Zəhmətlə yeyilən acı soğan, minnətlə yeyilən baldan şirindir.*** Atalar sözlərini oxuyun və mənasını izah edin. ***Zəhmət çəkən, bal yeyər-***atalar sözünü necə başa düşürsünüz? *(Uşaqların cavabları)* Bəli, bu atalar sözü o anlama gəlir ki, insan zəhmət çəksə, zəhmətinin nəticəsini görəcək. *(Hər atalar sözü oxunub, mənası izah edildikdən sonra növbəti atalar sözünə keçmək lazımdır).* Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | 28-ci həftə \| MƏSULİYYƏT |
|---|---|
| **Məşğələ 3–4. SAVAD TƏLİMİNƏ HAZIQLIQ VƏ NİTQ İNKİŞAFI**<br>**Mövzu: H-X-G-Ğ-Q SƏSİ VƏ HƏRFİ** | **Standart:** 2.2.4.; 2.2.5.<br>**İnteqrasiya:** 1.1.4. |

| | |
|---|---|
| **Məqsəd:** | • **H-X-G-Ğ-Q** səsi və hərflərini adlandırır.<br>• Bu səs və hərfləri tələffüzünə görə biri-birindən fərqləndirir.<br>• Təsvirə əsasən uyğun səsləri söyləyir. |
| **İş üsulları:** | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Şəkillər, karandaşlar, hərflər. |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** "Uşaqlar, siz sarı qutuya baxın. Orada hansı hərflər təsvir olunub? Həmin hərflərin hərəsinə aid söz söyləyin." *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, afərin, düz söylədiniz. Uşaqlar, birinci tapşırıqda şəkillər təsvir olunub. Şəkillərdə nə təsvir olunduğunu söyləyin. Deyilən sözləri uyğun sətir və ya sütunda yazın. Sarı damalarda olan hərflərə uyğin səsləri söyləyin."

**II. M: "**Hər şəkildə nə təsvir olunduğunu söyləyin. Hər bir şəklin altındakı xanada sözün ilk hərfini yazın".

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M: "**Uşaqlar, bu tapşırıqda iki şəkil və hər şəklin sağındakı çərçivədə sizin öyrəndiyiniz hərflər yazılıb. Şəkildə nə təsvir olunduğunu söyləyin. Şəklin sağındakı hərflərin içərisindən sözdə olan hərfləri tapın və haşiyəyə alın.?" Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

**M: "**Uşaqlar, biz sizinlə səliqəlilik, məsuliyyət haqqında danışmışıq. Səliqəli olmaq sözünü necə başa düşürsünüz**?"** *(Uşaqların fikirləri dinlənilir.)*

**Dərketmə**

**I. M: "**Uşaqlar, bu tapşırıqda 4 müxtəlif məzmunlu şəkil təsvir olunub. Şəkillərin yanında məzmuna uyğun 4 söz xətlərlə verilib. Sözləri xətt üzrə çəkin, sönra isə sözü oxuyun. Sözləri uyğun şəkillə birləşdirin."

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**I. M:** – Bu tapşırıqdakı şəkildə nə təsvir olunub? Verilmiş sözləri isə xətt üzrə çəkin və oxuyun. Bu ifadəni hansı hallarda işlədirsiniz?" *(Uşaqların cavabları)* Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | |
|---|---|
| | **28-ci həftə \| MƏSULİYYƏT** |
| **Məşğələ 5–6. RİYAZİ VƏ MƏNTİQİ TƏFƏKKÜRÜN İNKİŞAFI**<br>**Mövzu:** AZALTMAQ-ÇIXMAQ | **Standart:** 2.3.1.<br>**İnteqrasiya:** 4.2.3.; 1.1.4. |

| | |
|---|---|
| **Məqsəd:** | • 10 dairəsində çıxma əməli yerinə yetirir.<br>• Verilmiş rəqəmə görə əşyanın sayını müəyyənləşdirir. |
| **İş üsulları:** | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması:** | Kollektiv və fərdi. |
| **Resurslar:** | Şəkillər, rəngli karandaşlar, plastilin. |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** "Uşaqlar, şəklə diqqətlə baxın! Tülkü nə edir? *(Uşaqların cavabları)* O, neçə konfet götürüb?

**Dərketmə**

**I. M:** "Uşaqlar, düzdür, tülkü vazadakı konfetlərdən 1 ədədini götürdü. Bu zaman qabdakı konfetlərin sayı artdı, yoxsa azaldı? Nə üçün belə düşünürsünüz? *(Uşaqların cavabları)* Uşaqlar, 1-ci tapşırığa diqqət yetirin. Yuvada 3 quş var idi. Onlardan biri uçub getdi. Yuvada neçə quş qaldi? *(Uşaqların cavabları)* Uyğun ədədi boş xanaya yazın.

**Tətbiqetmə**

**II. M:** "Qabda 5 peçenye var idi. Samir 5 peçenyedən ikisini yedi. Neçə peçenye qaldı? Hesablayıb, cavabı qarşıdakı boş xanaya yazın".

—İdman dəqiqəsi—

**III. M:** "Dörd almadan biri yeyildi. Neçə alma qaldı? Hesablayıb, cavabı qarşıdakı boş xanaya yazın".
**IV. M:** "Səkkiz çiçəkdən üçünü götürdülər. Neçə çiçək qaldı? Hesablayıb, cavabı qarşıdakı boş xanaya yazın".
Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

Müəllim şeir-tapmaca söyləyir:
*İki əldə bir yerdə,*
*On dənədir barmağım.*
*Bax, birini qatladım,*
*Neçə qaldı qoçağım?" (Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, hesablayıb, düz cavabı tapdınız. Biz sizinlə toplamanı öyrənmişik. Toplama deyəndə nə başa düşürsünüz? *(Uşaqların cavabları)* Birinci tapşırığa diqqət yetirin. – 5 pişikdən üçü getdi. Neçəsi qaldı? – Çəmənlikdəki 8 kəpənəkdən beşi uçdu. Neçəsi qaldı? – 4 arıdan ikisi uçub getdi. Neçəsi qaldı? – 4 ayı balasından dördü qaçdı. Neçəsi qaldı? Suallara cavab verin, alınan ədədi boş xanalara yazın."

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** "Bu tapşırıqda şəkillərin üzərindən xətt çəkməklə, suallara cavab verin. Uyğun ədədi boş xanaya yazın."
Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | | |
|---|---|---|
| | | **28-ci həftə \| MƏSULİYYƏT** |
| **Məşğələ 7–8. TƏSVİRİ FƏALİYYƏT**<br>**Mövzu: NİŞANIN DÜZƏLDİLMƏSİ** | | **Standart:** 3.1.2.; 3.1.4.; 3.1.3.<br>**İnteqrasiya:** 1.1.4; 2.2.6.; 3.1.8. |
| **Məqsəd:** | • Kəsib-yapışdırma bacarıqları nümayiş etdirir.<br>• Sadə quraşdırma bacarıqları nümayiş etdirir.<br>• Yapma bacarıqları nümayiş etdirir. | |
| **İş üsulları:** | Əqli hücum, suallar, müzakirə. | |
| **İş forması:** | Kollektiv və fərdi. | |
| **Resurslar:** | Şəkillər, kağızlar, plastilin, rəngli karandaşlar, qayçı, yapışqan, rəngli kağız, fırça. | |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** – Uşaqlar, siz işıqdan nə zaman istifadə edirsiniz? Bəs lazım olmadıqda işığı söndürürsünüz? Nə üçün? *(Uşaqların fikirləri dinlənilir).*

**Dərketmə**

**I. M:** "Uşaqlar, düz dediniz, lazım olmadıqda işığı söndürmək lazımdır. Çünki işığa qənaət etmək lazımdır. Amma bəzən buna əməl etməyi unudular. Ona görə də biz "İşığı söndürməyi unutmayın" nişanını düzəldəcəyik." (*Uşaqlar işə başlamazdan əvvəl müəllim əvvəlcədən hazırladığı nümunəni göstərir, sonra isə onların gözü qarşısında izah edə-edə fiqurları kəsir. Sonra isə kəsdiyi fiqurları yapışqan vasitəsilə birləşdiirir. Sonra isə uşaqlara işə başlamağı təklif edir. Uşaqlar işləyərkən, onlara fərdi yanaşaraq, istiqamət verir, uşaqların əməkdaşlıq etmələrinə imkan yaradır.)*

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** "Uşaqlar, biz artıq sizinlə çox hərfləri öyrənmişik. Onları karandaşla çəkə bilirsiniz. İndi isə böyük hərflərdən istifadə edərək, **ƏMƏK** sözünü düzəldin. Neçə hərfdən istifadə etdiniz? Hansı hərflərdir?" *(Uşaqların cavabları)* Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

**M: –** Uşaqlar, biz sizinlə qənaət haqqında danışmışıq. Gəlin bir daha xatırlayaq. Qənaət nədir? *(Uşaqların fikirləri dinlənilir)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, indi isə biz sizinlə **"Suya qənaət et"** nişanını düzəldəcəyik. *(Müəllim uşaqlara qabaqcadan hazırladığı nümunəni göstərir. Sonra işə onların gözü qarşısında izah edə-edə işi yerinə yetirir. Sonra isə uşaqlara işə başlamağı təklif edir.)*
Sonda hər bir uşaq düzəltdiyi nişan haqqında məlumat verir.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** "Uşaqlar, biz artıq sizinlə çox hərfləri öyrənmişik. Onları karandaşla çəkə bilirsiniz. İndi isə böyük hərflərdən istifadə edərək, **QAYĞI** sözünü düzəldin. Neçə hərfdən istifadə etdiniz? Hansı hərflərdir?" *(Uşaqların cavabları)* Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| Məşğələ 9–10. FİZİKİ MƏDƏNİYYƏT<br>Mövzu: TOXUNMA | Standart: 1.1.1.<br>İnteqrasiya: 4.2.1.; 4.2.2. |
|---|---|
| **Məqsəd:** | • Adi, pəncələr və daban üstə yeriş nümayiş etdirir.<br>• Hərəkətlərini koordinasiya edir.<br>• Hərəkətlərində cəldlik və çeviklik nümayiş etdirir. |
| **İş üsulları:** | Müzakirə, sujetli-rollu oyunlar. |
| **İş forması:** | Kollektiv, qruplarla və fərdi iş. |
| **Resurslar:** | Top, 2 ip. |

**1 və 2-ci məşğələ**

**I. İsinmə hərəkətləri** (5 dəq.)
– əllər yuxarıda, pəncələr üzərində yeriş.
– qolları yanlara açmaq, əlləri biləkdən hhərəkət etdirməklə yüngül qaçış.
– siqnala uyğun yeriş və yürüşün əvəzlənməsi.
– əlləri yanlardan yuxarı qaldıraraq, nəfəs almaq və nəfəsi ağızdan buraxmaq. (4–5 dəfə)
**II. Ümuminkişafetdirici hərəkətlər.** (20 dəq.)
**1. "Alma ağacini silkələyək"** (4–5 dəfə)
*Ç.v.* – Qaməti düz saxlamaqla ayaqlar çiyin bərabəri aralı, əllər aşağıda yanlarda.
**1-2 sayında** qolları çiyin bərabərində yuxarı qaldırmaq və aşağı endirmək.
**3-4 sayında** ç.v.-nə qayıtmaq.
***2. "Yerə düşən almaları toplayaq"*** (4–5 dəfə)
*Ç.v.* – Qaməti düz saxlamaqla ayaqlar çiyin bərabəri aralı, əllər aşağıda yanlarda.
**1-2 sayında** çöməlmək və yerdən alma yığmağı imitasiya etmək, sonra ayağa qalxmaq.
**3-4 sayında** ç.v.-nə qayıtmaq.
**3. "Bağda almaları necə silkələdiyimizi göstərək"** (4–5 dəfə).
*Ç.v.* – Qaməti düz saxlamaqla ayaqlar çiyin bərabəri aralı, əllər aşağıda yanlarda.
**1-2 sayında** əlləri yumşaq halda sıxaraq qolları yanlara uzatmaq.
**3-4 sayında** müəllimin *"bağda almaları necə silkələdiyimizi göstərək"* sözləri ilə əlləri yuxarı qaldıraraq silkələmək və ç.v.-nə qayıtmaq.
**4. "Almaları yeşiklərə dolduraq"** (4–5 dəfə)
*Ç.v.* – Qaməti düz saxlamaqla ayaqlar çiyin bərabəri aralı, əllər aşağıda yanlarda.
**1-2 sayında** çömələrək qolları sağ və sol tərəfə, irəli uzatmaq.
**3-4 sayında** ayağa qalxmaq **və** ç.v.-nə qayıtmaq.
**5. "Alma yeşiklərini aparaq"** (4 dəfə).
*Ç.v.* – Qaməti düz saxlamaqla ayaqlar çiyin bərabəri aralı, əllər aşağıda yanlarda.
**1-2 sayında** qolları qabağa uzadıb irəli addımlamaq.
**3-4 sayında** yerinə dönmək və ç.v.-nə qayıtmaq.
**Əsas hərəkətlər.**
**Atıb-tutma hərəkətləri. Topu ipin üstündən müəllimə tərəf atmaq.** Müəllim ipi 2 dayağa möhkəm bağlayır. Sonra o, uşaqları bir-birinin ardınca düzür. Əlindəki topu dəstənin qabağında dayanmış uşağa verir. Özü isə dəstəyə əks istiqamətdə ipdən 1 m. uzaqlıqda dayanır. Müəllim dəstənin qabağında dayanmış uşağa topu ipin üstündən 2 əllə ona tərəf atmağı təklif edir. Müəllim hərəkətin icrasına nəzarət edir.
**Hərəkətli oyun: "Toxunma"**
Oyunun qaydasına görə, uşaqlar otağın bir tərəfində sıra ilə dayanırlar. Otağın sağ tərəfində bir-birindən aralı məsafədə qoyulmuş stula 2 ip bağlanılır. Bunlardan bir qədər kənarda bir-birindən 20–30 sm. aralı yerə 2 ip bərkidilir. Müəllimin işarəsi ilə sırada dayanmış uşaqlardan bir neçəsi birinci ipə yaxınlaşıb onun üstündən hoppanırlar. Kim hoppana bilirsə, o zaman o, bir-birindən geniş məsafədə qoyulmuş ikinci ipə yaxınlaşıb onun üstündən hoppanır. Kim ipə toxunarsa, yenə bir dəfə həmin məsafədən hoppanmalıdır.
**III. Sakitləşdirici hərəkətlər** (5 dəq.)
**"Üzgüçülər"**
*Ç.v.:* Ayaqlar aralı, qollar aşağı salınmış vəziyyətdə.
*1.* Nəfəs alma – sol əli qaldırmaq;
*2.* Nəfəs vermə – sol əli qabağa, aşağı hərəkət etdirmək;
*3.* Nəfəs alma – sağ əli qaldırmaq;
*4.* Nəfəs vermə – sağ əli irəli, aşağı hərəkət etdirmək və ç.v.-nə qayıtmaq.

| | 28-ci həftə \| MƏSULİYYƏT |
|---|---|
| **Məşğələ 11–12. MUSİQİ**<br>**Mövzu: "MƏKTƏBƏ YAZDIRSANA"** | **Standart:** 3.1.7; 3.1.8<br>**İnteqrasiya:1.1.1.; 2.1.3.; 2**.2.1 |

| | |
|---|---|
| **Məqsəd:** | • Musiqinin xarakterini və tempini müəyyən edir.<br>• Xorda oxumaq bacarıqları nümayiş etdirir.<br>• Musiqinin ritminə uyğun rəqs elementlərini yerinə yetirir. |
| **İş üsulları:** | Əqli hücum, müzakirə, suallar, rəqs etmə |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Kompüter, disk, şəkillər, davranış qaydaları olan plakat, bəstəkarların portretləri |
| **Musiqi materialı:** | Marş. **"Azərbycan əsgəri"** (C.Quliyev), **"Məktəbə gedəcəyəm"** (O.Zülfüqarov/İ.Tapdıq), **"Məktəbə yazdırsana"** mahnısı (O.Zülfüqarov/R.Zəka), **"Yallı"** (Azərbaycan xalq rəqsi), **"Mişar"** (A.Rzayeva/İ.Soltan) |
| **Alternativ material:** | **Dinləmə**: "Məktəblilər mahnısı" (M.Mirzəyev/H.Ziyatay)<br>**Mahnı:** "Kitablar" (O. Zülfüqarov/H.Ziya) |

**1-ci məşğələ**

**1. Marş:** "Azərbaycan əsgəri". C.Quliyev

**2. Dinləmə:** Müəllim uşaqların məktəbə hazırlaşdığı barədə və bu işin necə məsuliyyətli olduğu haqqında qısa söhbət aparır. Sonra O.Zülfüqarovun portretini göstərib onun "Məktəbə gedəcəyəm" mahnısını (O.Zülfüqarov/İ.Tağdıq) səsləndirilir. Mahnını dinlədikdən sonra müəllim uşaqlara suallarla müraciət edir:

– Dinlədiyiniz mahnının məzmununda nədən bəhs olundu?

– Mahnının tempi necə idi?

– Məktəbə getmək məsuliyyəti musiqidə hansı xarakterdə verilə bilər? *(Uşaqların cavabları)*

**3. Mahnı:** "Məktəbə yazdırsana" mahnısı (musiqisi O.Zülfüqarovun sözləri R.Zəkanındır) şifahi yolla öyrədilir. Müəllim "Məktəbə yazdırsana" mahnısı və onun məzmunu haqqında məlumat verir və təqdim edir. Uşaqlar mahnını dinlədikdən sonra o, hissə-hissə öyrədilir. Tələffüzü çətin olan sözlər və melodiya üzərində iş aparılır.

Sonda "Məktəbə yazdırsana" mahnısının öyrənilmiş hissəsi xorla ifa edilir, məzmunu, xarakteri və tempi müzakirə olunur.

**4. Musiqili-ritmik hərəkətlər:** Uşaqlar iki komandaya( qızlar və oğlanlar) bölünür. "Yallı" Azərbaycan xalq rəqsi səsləndirilir. Yallının sədaları altında əvvəl komandalar bir dairə rəqs elementlərini yerinə yetirirlər. Sonra tədricən hər iki komanda birləşərək (oğlan və qız) əl-ələ tutub rəqs elementlərini bir yerdə ifa edirlər.

Məşğələ ümumiləşdirilərək yekunlaşdırılır.

**Musiqi materialı.**

**"Məktəbə yazdırsana"**

| | |
|---|---|
| 1. İndi mənim altı yaşım var ana,<br>Sən də məni məktəbə yazdırsana.<br>Yazmağı səndən təzə öyrənmişəm,<br>Saymağı birdən yüzə öyrənmişəm<br>Çox rəqəmi,çox sözü öyrənmişəm.<br>Tulla oyuncaqlarımı bir yana,<br>Sən də məni məktəbə yazdırsana. | 2. İndi mənim altı yaşım var ana,<br>Sən də məni məktəbə yazdırsana.<br>Bax anacan, bax küçəyə, bax ora,<br>Dərsə gedən qızlara, oğlanlara.<br>Çantamı ver qoy quşulum onlara<br>Sonra uşaqlarla verim əl-ələ,<br>Dərsə gedim mən də bu gündən belə. |

**2-ci məşğələ**

**Marş:** Marş "Azərbaycan əsgəri"(C.Quliyev)

**Mahnı**: "Məktəbə yzdırsana" (O. Zülfüqarov/R.Zəka)

**Səhnələşdirmə: "Mişar" (resurs: it oyuncaq, əmək alətləri:çəkic, mişar, metrə, karandaş,çəkic və s. )**

| № | Musiqi materialı | Fəaliyyət |
|---|---|---|
| 1 | "Mişar" | Oğlan əmək alətlərini ətrafına yığır, metrə ilə ölçür,biçir,çəkiclə vurur, mişala kəsir və s. işlər görür. Sonda bir evcik tikir və iti həmin evciyə qoyur |

| | |
|---|---|
| **Məşğələ 1. ƏTRAF ALƏMLƏ TANIŞLIQ**<br>**Mövzu: TƏHLÜKƏLİ ƏŞYALAR** | **Standart:** 1.3.1.; 1.3.2.<br>**İnteqrasiya:** 2.2.6. |
| **Məqsəd:** | • Təhlükəli əşyaları adlandırır.<br>• Ehtiyatla davranma qaydaları haqqında sadə məlumatlara malik olduğunu nümayiş etdirir. |
| **İş üsulları:** | Əqli hücum, müzakirə, suallar. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Məzmuna uyğun şəkillər, karandaş. |

**Məşğələnin gedişi**

**Motivasiya**

M: “Uşaqlar, kitabınızın yuxarısında nə təsvir olunub? Tülkünün barmağına nə olub? *(Uşaqların fikirləri dinlənilir).*

**Dərketmə**

**I. M:** “Bəli, uşaqlar! Tülkü kəsici alətlərlə ehtiyatla davranmadığı üçün barmağını kəsib. Siz artıq boyumusünüz. Valideynləriniz sizlərdən kimi evdə tək qoyub? *(Uşaqların cavabları)* deməli, əgər evdə tək qalırsınızsa, siz mütləq təhlükəsizlik qaydalarını bilməlisiniz. Sizcə, evdə hansı təhlükələr ola bilər? *(Uşaqların cavabları)* Biz hər addımda təhlükə ilə üzləşə bilərik. Gəlin birlikdə evdə hansı əşyaların təhlükəli hesab edildiyini müəyyənləşdirməyə çalışaq.*(qayçı, çəkic, bıçaq, kibrit, qaz pilətəsi, elektrik avadanlıqları, kimyəvi maddələr)* Uşaqlar, iti, kəsici alərlərə toxunmayın. Əlinizi kəsə bilərsiniz. Qızdırıcı avadanlıqlara, qaynar qazan və ya çaydana yaxın durmaq olmaz. Su dağılarsa, yana bilərsiniz. (*Müəllim uşaqların diqqətini şüşə əşyalarla ehtiyatla davranmalarına cəlb edir.)* Əgər şüşədən olan bir əşyanı sındırmısınızsa, şüşə sınıqlarına toxunmayın. Bunun üçün böyükləri köməyə çağırın. Əgər əlinizi yaralasanız, yaraya məlhəm sürtüb, sarğı qoymaq lazımdır.

– Uşaqlar, indi isə kitabınızdakı şəkillərə baxın. Şəkildə təsvir olunan təhlükəli əşyalar haqqında danışın.”

**II.** Müəllim uşaqlara suallarla müraciət edir: – Hansı əşyalar təhlükəli ola bilər? Evinizdə təhlükəli əşyalardan adətən, kim istifadə edir? Təhlükəli əşyalar harada saxlanılmalıdır? (*Uşaqların cavabları*)

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:** “Şəkildə müxtəlif təhlükəli vəziyyətlər təsvir olunmuş şəkillər verilib. Həmin vəziyyətlərə diqqətlə baxın. Şəkillərə əsasən suala cavab verin: Xoşagəlməz vəziyyətlərə düşməmək üşün nə etmək lazımdır?”

**IV. M:** “Təsvir olunmuş əşyalara diqqətlə baxın. Təhlükəli əşyaları qırmızı, təhlükəsiz əşyaları isə yaşıl karandaşla haşiyəyə alın.” Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

29-cu həftə |TƏHLÜKƏLİ ƏŞYALAR

| | |
|---|---|
| **Məşğələ 2. BƏDİİ TƏFƏKKÜRÜN İNKİŞAFI**<br>**Mövzu: PİKNİK** | **Standart:** 2.2.2.; 2.2.6.<br>**İnteqrasiya:** 2.1.2.; 2.1.6. |
| **Məqsəd:** | • Mövzu əsasında danışır.<br>• Şəkil əsasında fikrini sadə şəkildə ifadə edir.<br>• Nitqində əlamət bildirən sözlərdən istifadə edir. |
| **İş üsulları:** | Müzakirə, suallar, nağıletmə. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Hekayənin mətni, şəkillər. |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M:** – Uşaqlar, vəsaitinizdə şəkillərə diqqətlə baxın. Şəkildə nə təsvir olunub? Sizcə, burada söhbət nədən gedə bilər? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** “Uşaqlar, mən sizə şəkildə təsvir olunanlara aid **“Piknik”** hekayəsini söyləyəcəyəm. Siz isə şəkillərə baxaraq, mətni dinləyin. Hər şəkil mətnin bir hissəsini əks etdirir. Mən deyəndə, dairəni rəngləməklə, dinlədiyiniz məlumatları əks etdirən şəkli qeyd edin”.

1

“Yaz fəsli idi. Havalar çox gözəl keçirdi. Hər tərəf yaşıl rəngə bürünmüşdü. Ağaclar tumurcuqlamış, güllər, çiçəklər ətrafı bəzəmişdi. Adil atasından soruşdu:

Atacan, mən hava haqqında proqnoza baxmışam. Həftə sonu hava daha da isti olacaq. Bəlkə, piknik üçün meşəyə gedək.

Əlbəttə, oğlum, gözəl fikirdir. Adil, bilirsən, bu fəsildə meşədə çoxlu göbələk yetişir. Həm ətrafı gəzər, həm də göbələk toplayarıq, bişirib yeyərik.

Adil sevinclə qışqırdı: – Ura! Həftə sonu əyləncə var!.”

**M: –** Eşitdiyinizə əsasən şəkildə uyğun hissəni qeyd edin.

Müəllim oxumağa davam edir.

2

“Şənbə günü hamı səhər tezdən oyandı. Ailə üzvləri piknik üçün axşamdan hazırladıqları əşyaları maşına yığdılar: manqal, samovar, su, piknik üçün kiçik ölçülü qatlana bilən oturacaqlar və daha bir çox əşyalar. Ana da yemək səbətini götürmüşdü. Hər şey hazır idi. Ailə birlikdə şəhər kənarında yerləşən meşəliyə yollandı.”

**M:** – Bu məlumata əsasən şəkildə uyğun hissəni qeyd edin.

Müəllim oxumağa davam edir.

3

“Meşəyə yaxınlaşarkən ata üzünü ailə üzvlərinə tutub dedi:

Bax, bu yaxınlıqda geniş bir tala var. Mən də uşaq olarkən atam bizi tez-tez bu talaya gətirərdi. Burada rahat oynaya bilərsiniz. Ətrafdakı ağacların dibindən isə çoxlu göbələk yığa bilərsiniz. Biz də sizə yemək hazırlayarıq.

Hamı ata ilə razılaşdı. Axı bundan yaxşı nə ola bilərdi? Oynamaq, göbələk yığmaq və təmiz havada nahar eləmək.”

**M:** – Məzmuna uyğun hissəni qeyd edin.

Müəllim oxumağa davam edir.

4

“Onlar atanın işarə elədiyi talaya çatdılar. Ata qabaqda gedir, uşaqlara yolu göstərirdi. Adil və bacısı təəccüblə ətrafa baxırdı. Buradakı mənzərə o qədər də ürəkaçan deyildi. Hiss olunurdu ki, ata da bikef olub. Adil yavaşca pıçıldadı: – Ətraf çox çirklidir.

Ata təəssüflə cavab verdi: – Hə, oğlum. Çox çirklidir.”

**M:** – Uyğun hissəni qeyd edin.

Müəllim oxumağa davam edir.

5

“Adilin balaca bacısı həyəcanla dedi:

Ay ata, bura bax, tonqal qalayıblar, amma söndürməyiblər, hələ də tüstüləyir. Bu çox təhlükəlidir. Külək tonqalı yenidən alovlandıra bilər. Bu zaman meşədə yanğın baş verər”.

**M:** – Uyğun hissəni qeyd edin.

Müəllim oxumağa davam edir.

6

“Ata qızının saçlarını tumarlayıb dedi:

– Düz deyirsən, qızım. Tonqalı söndürmək lazımdır. Ata üzünü Adilə tutub dedi:

– Adil, maşından özümüz ilə götürdüyümüz su qabını gətir.Tonqalın üstünə töküb sndürək. Onlar tonqalı söndürdülər,qalıqlarını yığışdırıb zibil torbasına yığdılar.”

M: – Məzmuna uyğun hissəni qeyd edin.

Müəllim oxumağa davam edir.

7

“Ana gətirdikləri oturacaqları ağacın altında yerləşdirmək istəyirdi ki, birdən ayağının altında boş şüşə qablar bir-birinə dəyib cingildədi. Ana uşaqlara dedi: – Bu şüşələri də yığışdırmaq lazımdır. Baxın, bəziləri sınıb ətrafa səpələnib. Bu, sınmış şüşələr həm insanlar, həm də heyvanlar üçün təhlükəlidir”.

**M:** – Dinlədiyiniz hissəyə əsasən şəkildə uyğun hissəni qeyd edin.

Müəllim oxumağa davam edir.

8

“Ailə üzvləri birlikdə işə başladılar. Ətrafa tökülmüş şüşə qırıntılarını toplayıb zibil torbasına yığdılar. Hamının başı ətrafı təmizləməyə qarışmışdı. Günortadan xeyli keçsə də hələ nahar belə etməmişdilər. Uşaqlar da çox yorulmuşdu”.

**M:** – Məzmuna uyğun hissəni qeyd edin.

—İdman dəqiqəsi—

9

Müəllim oxumağa davam edir.

"Ata gülümsəyərək uşaqlara baxdı: – Yorulmusunuz, eləmi?

Adil və bacısı astadan dilləndi: – Bəli, ata, amma neyləyə bilərik? Buranı belə qoymaq olmazdı. Gələn dəfə gələndə bura artıq təmiz olacaq. Biz də rahatca dincələrik".

**M:** – Dinlədiyiniz hissəyə əsasən şəkildə uyğun hissəni qeyd edin.

Müəllim oxumağa davam edir.

10

"Birdən Adil qorxa-qorxa atasının qolunu dartışdırdı: – Ata, ata! Bir ora bax!

Ata çevrilib baxanda ağacların arasından onlara tərəf gələn bir neçə heyvan gördü. Həyəcanlansa da uşaqları qorxutmamaq üçün həyacanını gizlətməyə çalışdı. Elə bil heyvanlar da onlardan çəkinirdilər. Çox yaxına gəlmək istəmirdilər".

**M:** – Məzmuna uyğun hissəni qeyd edin.

Müəllim oxumağa davam edir.

11

"Əvvəlcə ayı əlindəki bal küpünü yerə qoydu. Küpün yanında dayanıb bir onlara, bir də yerdəki küpə baxdı. Elə bil bununla "Buyurun, qonaq olun!" demək istəyirdi. Onun ardınca dovşan əlindəki kökləri, dələ meşə fındığını, kirpi isə tikanlarına taxdığı göbələkləri bal küpünün yanına qoydular. Hər şey aydın idi. Heyvanlar onlara minnətdarlıq edirdilər".

**M:** – Məzmuna uyğun hissəni qeyd edin.

Müəllim oxumağa davam edir.

12

"Adil atası ilə heyvanların gətirdiyi hədiyyələrə yaxınlaşanda heyvanlar geri baxa-baxa oradan uzaqlaşdılar. Ailə üzvləri qollu-budaqlı bir ağacın altında əyləşdilər. Ətrafın təmizliyindən zövq ala-ala dadlı baldan, meşə fındığından ləzzətlə yedilər. Gələn həftə sonu yenə də bura gələcəkləri haqqında plan qurdular".

**II.** Müəllim uşaqlara suallarla müraciət edir: – Ailə meşəyə gələndə nə gördü?-meşəni nə üçün çirkləndirmək olmaz? – Siz meşəni təmiz saxlamaq üçün nə edərdiniz? *(Uşaqların cavabları)*

**Tətbiqetmə**

**III. M: –** "Kitabınızda hekayənin məzmununa uyğun 3 sual və onların yanında açar sözlər verilib. Açar sözləri yadda saxlayın və onlardan istifadə edərək suallara ətraflı cavab verin".

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | |
|---|---|
| | **29-cu həftə \|TƏHLÜKƏLİ ƏŞYALAR** |
| **Məşğələ 3–4. SAVAD TƏLİMİNƏ HAZIQLIQ VƏ NİTQ İNKİŞAFI** | **Standart:** 2.2.4.; 2.2.5. |
| **Mövzu: A-Ə-E,O-Ö,U-Ü SƏSLƏRİ VƏ HƏRFLƏRİ** | **İnteqrasiya:** 1.1.4.; 2.1.2. |

| | |
|---|---|
| **Məqsəd:** | • **A-Ə-E-O-Ö-U-Ü** səs və hərflərini adlandırır.<br>• Bu səs və hərfləri tələffüzünə görə biri-birindən fərqləndirir.<br>• Təsvirə əsasən uyğun səsləri söyləyir. |
| **İş üsulları:** | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Şəkillər, karandaşlar, marker, lövhə və əlfbanın hərfləri. |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** "Uşaqlar, sarı qutuya baxın. Orada hansı hərflər təsvir olunub? *(Uşaqların cavabları)*Həmin hərflərin hərəsinə aid söz söyləyin."

**Dərketmə**

**I. M: "**Uşaqlar, afərin, düz söylədiniz. Uşaqlar, birinci tapşırıqda şəkillər təsvir olunub. Şəkillərdə nə təsvir olunduğunu söyləyin. Deyilən sözləri uyğun sətir və ya sütünda yazın. Sarı damalarda olan hərflərə uyğin səsləri söyləyin."

**II. M:** "Hər şəkildə nə təsvir olunduğunu söyləyin. Hər bir sözün ortasında hansı səs olduğunu tapın və tərfi damada yazın".

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M: "**Uşaqlar, bu tapşırıqda iki şəkil və hər şəklin sağındakı çərçivədə sizin öyrəndiyiniz hərflər yazılıb. Şəkildə nə təsvir olunduğunu söyləyin. Şəklin sağındakı hərflərin içərisindən sözdə olan hərfləri tapın və haşiyəyə alın?" Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

**M:** "Uşaqlar, öyrəndiyiniz hərfləri söyləyə bilərsiniz? Həmin hərflərə aid sözlər söyləyək." *(Uşaqların fikirləri dinlənilir.)*

**Dərketmə**

**M: "**Uşaqlar, düz cavab verdiniz. Kitabdsarı qutuya baxın. Orada hansı hərflər yazılıb? Hər hərfə aid bir söz söyləyin." *(Uşaqların cavabları)*

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**I. M: –** Bu tapşırıqdakı qutularda sözün hərfləri verilib. Həmin hərfləri qarşısındakı sətirdə ardıcıllıqla yazın və sözü oxuyun. Aşağıda təsvir olunan hər bir şəkil bir sözə uyğundur. Şəkillərdən ipucu kimi istifadə edin."

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | |
|---|---|
| | **29-cu həftə \| TƏHLÜKƏLİ ƏŞYALAR** |
| **Məşğələ 5–6. RİYAZİ VƏ MƏNTİQİ TƏFƏKKÜRÜN İNKİŞAFI**<br>**Mövzu:** ÇIXMA VƏ BƏRABƏR | **Standart:** 2.3.1.<br>**İnteqrasiya:** 2.2.6.; 4.2.3.. |

| | |
|---|---|
| **Məqsəd:** | • Çıxma və bərabər anlayışlarını anladığını nümayiş etdirir.<br>• 10 dairəsində çıxma əməlini yerinə yetirir. |
| **İş üsulları:** | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması:** | Kollektiv və fərdi. |
| **Resurslar:** | Şəkillər, karandaşlar. |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** "Uşaqlar, şəklə diqqətlə baxın! Tülkü nə edir? O, kirpiyə neçə göbələk verdi? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M: "**Uşaqlar, düzdür, tülkü əlindəki 3 göbələkdən kirpiyə 1 ədədini verdi. Bu zaman tülkünün əlindəki göbələklərin sayı artdı, yoxsa azaldı? Nə üçün belə düşünürsünüz? *(Uşaqların cavabları)* Uşaqlar, 1-ci tapşırığa diqqət yetirin. Şəkillər təsvir olunub. Şəkillərin üzərindən xətt çəkməklə suallara cavab verin və alınan cavabı boşxanaya yazın. *(Uşaqların cavabları)*

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**M:** "Mən sizə bir tapşırıq söyləyəcəyəm. Diqqətlə qulaq asın. Stolun üstündə beş şam yanırdı. Onlardan ikisi söndü. Neçəsi qaldı?" *(Bu qayda ilə möhkəmləndirmə işi aparılır)*

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

Müəllim şeir-tapmaca söyləyir:

*İki əldə bir yerdə,*
*On dənədir barmağım.*
*Bax, birini qatladım,*
*Neçə qaldı qoçağım?" (Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, hesablayıb, düz cavabı tapdınız. Biz sizinlə çıxmanı öyrənmişik. Çıxma deyəndə nə başa düşürsünüz? *(Uşaqların cavabları)* Bəli, çıxma dedikdə azalma nəzərdə tutulur. Birinci tapşırığa diqqət yetirin. Şəkillərə əsasən, hər bir tapşırığı hesablayıb, boş xanalara uyğun ədədi yazın."

**II. M:** “Bu tapşırıqda Üçıxma” və “bərabərdir” işarələrinin yazılışı verilib. Xətt üzrə çəkərək işarələri yazın və davam edin.”

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:** “Bu tapşırıqda veyilmiş şəklin ümumi sayından üstünə xətt çəkilmişlərin sayını çıxırsınız. Sözlərin altına uyğun işarələri, boş xanalara isə ədədləri yazın”. *(Bütün tapşırıqlar bu qayda ilə yerinə yetirilir.)*

**IV. M:** “Bu tapşırıq da əvvəlki qaydada yerinə yetiriləcək. Boş dairələrin içərisinə uyğun işarələri, boş xanalara isə ədələri yazın”.

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| **Məşğələ 7–8. TƏSVİRİ FƏALİYYƏT**<br>**Mövzu: NIŞANLARIN DÜZƏLDİLMƏSİ** | **29-cu həftə \|TƏHLÜKƏLİ ƏŞYALAR**<br>**Standart:** 3.1.3.; 3.1.4.; 3.1.5.<br>**İnteqrasiya:** 1.1.4.; 2.2.6.; 4.2.3. |
|---|---|
| **Məqsəd:** | • Kəsmə üsulu ilə yaradıcılıq bacarıqları nümayiş etdirir.<br>• Sadə yapma bacarıqları nümayiş etdirir. |
| **İş üsulları:** | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması:** | Kollektiv və fərdi. |
| **Resurslar:** | Şəkillər, kağızlar, plastilin, rəngli karandaşlar, qayçı, yapışqan, rəngli kağız, fırça və s.) |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** – Uşaqlar, biz təhlükə olduğunu nədən bilə bilərik? *(Uşaqların fikirləri dinlənilir).*

**Dərketmə**

**I. M:** “Uşaqlar, düz dediniz, amma bunlarla bərabər təhlükəli vəziyyəti göstərən nişanlar da olur. İnsanlar həmin nişanı gördükdə daha ehtiyatlı olurlar. Belə nişanlar adətən yol kənarında quraşdırılır. Ona görə də biz də belə bir nişan düzəldəcəyik.” (*Uşaqlar işə başlamazdan əvvəl müəllim əvvəlcədən hazırladığı nümunəni göstərir, sonra isə onların gözü qarşısında izah edə-edə fiqurları kəsir.Sonra isə kəsdiyi fiqurları yapışqan vasitəsilə birləşdiirir. Sonra isə uşaqlara işə başlamağı təklif edir.Uşaqlar işləyərkən, onlara fərdi yanaşaraq, istiqamət verir, uşaqların əməkdaşlıq etmələrinə imkan yaradır.)*

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** “Uşaqlar, biz artıq sizinlə çox hərfləri öyrənmişik. Onları karandaşla çəkə bilirsiniz. İndi isə böyük hərflərdən istifadə edərək, **DİQQƏT** sözünü düzəldin. Neçə hərfdən istifadə etdiniz? Hansı hərflərdir?” *(Uşaqların cavabları)* Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

**M: –** Uşaqlar, ehtiyatlı olmaq haqqında danışmışıq. Gəlin bir daha xatırlayaq. Ehtiyatlı olmaq nə deməkdir? *(Uşaqların fikirləri dinlənilir)*

**Dərketmə**

**I. M:** “Uşaqlar, indi isə biz sizinlə daha bir nişan düzəldəcəyik. *(Müəllim uşaqlara qabaqcadan hazırladığı nümunəni göstərir. Sonra işə onların gözü qarşısında izah edə-edə işi yerinə yetirir. Sonra isə uşaqlara işə başlamağı təklif edir.)* Sonda hər bir uşaq düzəltdiyi nişan haqqında məlumat verir.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** “Uşaqlar, biz artıq sizinlə çox hərfləri öyrənmişik. Onları karandaşla çəkə bilirsiniz. İndi isə böyük hərflərdən istifadə edərək, **TƏHLÜKƏ** sözünü düzəldin. Neçə hərfdən istifadə etdiniz? Hansı hərflərdir?” *(Uşaqların cavabları)* Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | 29-cu həftə \|TƏHLÜKƏLİ ƏŞYALAR |
|---|---|
| **Məşğələ 9–10. FİZİKİ MƏDƏNİYYƏT**<br>**Mövzu: DAİRƏDƏN QAÇ** | **Standart:** 1.1.1.; 1.1.3.<br>**İnteqrasiya:** 4.2.1.; 4.2.2. |

| | |
|---|---|
| **Məqsəd:** | ● Dizləri yuxarı qaldırmaqla yeriş nümayiş etdirir.<br>● Hərəkətlərini koordinasiya edir.<br>● Hərəkətlərində cəldlik və çeviklik nümayiş etdirir. |
| **İş üsulları:** | Müzakirə, sujetli-ollu oyunlar. |
| **İş forması:** | Kollektiv, qruplarla və fərdi iş. |
| **Resurslar:** | 2 top |

**1-ci və 2-ci məşğələ**

**I. İsinmə hərəkətləri.** (5 dəq.)
– Əllər beldə, ayaqları dizdən yuxarı qaldırmaqla yerində addımlamaq.
– qolları yanlara açaraq, barmaqları açıb-bükməklə, dizləri hündürə qaldırmaqla yeriş.
– əllər beldə dairə boyunca qaçış.
– əlləri yanlardan yuxarı qaldıraraq, nəfəs almaq və nəfəsi ağızdan buraxmaq. (4–5 dəfə)
**II. Ümuminkişafetdirici hərəkətlər.** (20 dəq.)
**1. "Bax budur"** (5–6 dəfə)
*Ç.v.* – Ayaqlar çiyin bərabərində aralı, qolları yanlardan aşağı sallamaq.
*1-2 sayında* qolları irəli uzadaraq **"ovucun içini açıb göstərmək – "bax budur"** demək;
*3-4 sayında* ç.v.-nə qayıtmaq.
**2. Dizini göstər"** (5–6 dəfə)
*Ç.v.* – Ayaqlar çiyin bərabərində aralı, əllər isə beldə.
*1-2 sayında* irəli əyilmək və ovucu dizin üstünə qoyaraq **"dizləri göstərib- "bax budur"** demək;
*3-4 sayında* ç.v.-nə qayıtmaq.
**3. "Səhv eləmə** (5–6 dəfə)
*Ç.v.* – Ayaqlar çiyin bərabərində aralı, əllər arxada.
**1-2 sayında** əlləri dizlərə dayamaq, başı aşağı əyilmiş vəziyyətdə sallağı oturmaq;
**3-4 sayında** ayağa qalxaraq əlləri arxadan buraxmaq.
**4. "Yuxarı-aşağı"** (5–6 dəfə)
*Ç.v.* – Ayaqlar çiyin bərabərində aralı, qollar yanlarda.
*1-2 sayında* qolları növbə ilə yuxarı qaldırıb aşağı salmaq;
*3-4 sayında* ç.v.-nə qayıtmaq.
**5. "Qoy və götür"** (5–6 dəfə)
*Ç.v.* – Oturub ayaqları azca aralı qoymaq.
*1 sayında* əyilərək əlləri sağ ayağın barmaqlarına çatdırmaq;
*2 sayında* ç.v.-nə qayıtmaq;
*3 sayında* əlləri sol ayağın barmaqlarına çatdırmaq;
*4 sayında* ç.v.-nə qayıtmaq.
**Əsas hərəkətlər.**
**1. Yeriş və qaçış hərəkətləri. Dizləri yuxarı qaldırmaqla tir üstündə yeriş və qaçış.** (hündürlüyü 10 sm.)
Uşaqlar bir cərgəyə düzülürlər.Sonra onlar tirin üstü ilə sakit addımlarla yeriyirlər. Addımlayarkən başlarını dik saxlayıb irəli baxmalıdırlar.

Yerişdən sonra bütün uşaqlar tirin üstü ilə əllərini bellərinə qoyaraq yüyürməlidirlər. Qaçış zamanı müəllim uşaqların bir-birinə mane olmamasına, müvazinətlərini düzgün saxlaya bilmələrinə nəzarət və diqqətini artırmalıdır. Çətinlik çəkənlərə hərəkətləri təkrar icra etdirmək olar.

**Hərəkətli oyun: "Dairədən qaç"**
Oyunun qaydasına görə, uşaqlardan biri dairənin mərkəzində dayanır. Qalanları isə dairənin ətrafında düzülürlər. Dairənin mərkəzində dayanan uşağın yanına iki top qoyulur. Müəllim hərəkəti göstərir, uşaqlar həmin tərəkəti təkrar edirlər. Bu hərəkət 2–3 dəfə təkrar olunur. Müəllimin "**dairədən qaç**" işarəsi ilə uşaqlar qaçışır, mərkəzdə duran uşaq isə topları yerdən götürüb, qaçan uşaqların arxasınca atır. Dairənin mərkəzində dayanan top dəyən uşağı öz yanında saxlayır. Sonra uşaqlar tərbiyəçinin işarəsi ilə yenidən dairəyə düzülür və oyun təkrar olunur. Oyunun əvvəlində müəllimtopu yalnız qaçan uşaqlara atmağı tapşırır.

**III. Sakitləşdirici hərəkətlər** (5 dəq.)
*Ç.v.* – Ayaqlar aralı, qollar aşağı salınmış vəziyyətdə.
*1.* Nəfəs alma – sol əli qaldırmaq;

*2.* Nəfəs vermə – sol əli qabağa, aşağı hərəkət etdirmək;
*3.* Nəfəs alma – sağ əli qaldırmaq;
*4.* Nəfəs vermə – sağ əli irəli, aşağı hərəkət etdirmək və ç.v-nə qayıtmaq.

**29-cu həftə |TƏHLÜKƏLİ ƏŞYALAR**

| **Məşğələ 11–12. MUSİQİ**<br>**Mövzu: "MİŞAR"** | **Standart:** 3.1.7.;3.1.8.<br>**İnteqrasiya:** 1.3.1.;2.1.2. |
|---|---|
| **Məqsəd:** | • Musiqinin xarakterini və tempini müəyyən edir.<br>• Xorda oxumaq bacarıqları nümayiş etdirir.<br>• Musiqinin xarakterinə uyğun ritmik hərəkətləri yerinə yetirir.<br>• Mahnının məzmununu səhnələşdirir |
| **İş üsulları:** | Əqli hücum, müzakirə, suallar, rollu oyun |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Kompüter, disk, şəkillər, davranış qaydaları olan plakat, bəstəkarların portretləri, müxtəlif peşələrə aid atributlar (iynə, rəndə,çəkic, rul və s.) |
| **Musiqi materialı:** | Marş. **"Milli marş"** (Ü.Hacıbəyli), "**Çəkicim vur"** (A.Sultanova/T.Elçin), **"Mişar" mahnısı** (A.Rzayeva/C.Məmmədov), **"Mən kiməm"** (O.Zülfüarov/T.Elçin), **"Vals"** ("Görüş" k/f-dən T.Quliyev), **Giriş.** (Fortepiani və orkestr üçün 1 №li konsert. F.Şopen) |
| **Alternativ material:** | **Dinləmə**: "Göbələklər"(Ə.ƏzizovR.Zəka), "Səhər-səhər"(Ə.Abbasov/Ə.Cəmil)<br>**Mahnı: "Maşınımı sürürəm" (**A.Rzayeva/C.Məmmədov**)** |

**1-ci məşğələ**

**1. Marş:** "Milli marş". Ü.Hacıbəyli

Uşaqlar bir-birinin ardınca düzülür, marşın sədaları altında qaməti düz saxlamaqla yerlərində addımlayırlar. Yüngül gimnastik hərəkətlər edib, yenidən ritmik yerişlə yerlərində addımlayır və dayanırlar.

**2. Dinləmə:**Müəllim "Təhlükəli əşyalar və onlardan necə qorunmaq lazımdır" mövzusunda qısa sual cavab keçirir. Belə əşyaların musiqidə tərənnümü və bir-neçə bəstəkarın bu mövzuya müraciətindən bəhs edir. A.Rzayeva, A.Sultanovanın portretlərini göstərib, "Çəkicim vur" mahnısını (musiqisi A.Sultanovanın, sözləri T.Elçinindir) səsləndirilir. Mahnını dinlədikdən sonra müəllim uşaqlara suallarla müraciət edir:

– Dinlədiyiniz mahnıda hansı təhlükəli əşyadan bəhs olundu?

– Mahnının xarakteri və tempi necə idi?

– Sizcə təhlükəli əşyalar xeyirli işlər görə bilər və bu musiqidə necə təsvir olunar? *(Uşaqların cavabları)*

**3. Mahnı:** "Mişar" mahnısı (musiqisi A.Rzayevanın, C.Məmmədovundur) şifahi yolla öyrədilir Əvvəl "Mişar" şeri yada salınır. Sonra mahnı təqdim olunur. Uşaqlar mahnını dinlədikdən sonra o, hissə-hissə öyrədilir. Tələffüzü çətin olan sözlər və melodiya üzərində iş aparılır.

Sonda "Mişar " mahnısının öyrənilmiş hissəsi xorla ifa edilir, məzmunu və xarakteri müzakirə olunur.

**4. Musiqili-ritmik hərəkətlər:** Müəllim "Təhlükəlidir!" adlı musiqili-didaktik oyun keçirir Oyunun qaydası: müxtəlif peşələr və onlara aid hərəkətləri yerinə yetirərkən təhlükəsizlik qaydaları pozulur.Məsələn: dərzi paltar tikərkən iynəni əlinə batırır və ya parçanı səhv kəsir, xarrat evi tikərkən çəkici səhvən taxtaya yox,əlinə vurur, neftçi nefti ("vedrəni") yerə dağıdır və s. "Mən kiməm? " mahnısı səsləndirilir. Uşaqlar mahnının məzmunununda olan hərəkətləri ilə təsvir edərkən səhvlərə yol verirlər. Oyun bitdikdən sonra mahnıda adları qeyd olunana təhlükəli əşyalarla necə davranmalı olumalıdır barədə müzakirə aparılır.

Məşğələ ümumiləşdirilərək yekunlaşdırılır.

**Musiqi materialı.**

**Mişar**

| | | |
|---|---|---|
| 1.Lazım olan şeyləri<br>Arif yığdı yanına.<br>Evcik tikmək istədi<br>Balaça Toplanına.<br>*Nəq.*<br>Ay mişar, tələs mişar<br>Taxtanı tez kəs mişa | 2. Neçə yol ölçdü, biçdi<br>Yorulmadan çalışdı.<br>Öz sevimli işinə<br>Başı yaman qarışdi<br>*Nəq.* | 3. Ətrafda nə vardısa,<br>Görünmədi gözünə.<br>Evcikdən çıxmaq üçün<br>Yer qoymadı özünə.<br>*Nəq.* |

**2-ci məşğələ**

**Marş:** "Milli marş "(Ü, Hacıbəyli)

**Mahnı**: "Mişar" (A.Rzayevanın/ C.Məmmədov)

**Səhnələşdirmə: "Piknik" (resurs: dovşan, dələ, ayı, maskaları ,zənbildə ərzaqlar,su qabı, top, çətir, balaca küp, kök, fındıq və s. )**

| № | Musiqi materialı | Fəaliyyət |
|---|---|---|
| 1–3 | Vals. ("Görüş" k/f-dən) | Oğlan atasıyla söhbət edir.Oğlan sevinir, əl çalır və anasını, bacısını çağırır.Piknik üçün torbaya əşyalar yığırlar: çətir, top, zənbildə ərzaqlar, meyvə, su və s. |
| 4–12 | Giriş. Konsert | Meşədə gəzişirlər, təmiz yer axtarırlar . Ətrafa baxırlar və təəccüblənirlər. Hər yer çirklidir. Qız tonqalı göstərir. Oğlan su ilə tonqalı söndürür. Ana ağacın altından boş şirə qablarını görür, onları yığır və zibil qutusuna atır.Hamı ətrafdakı zibilləri təmizləyib qutuya atırlar. Onlar yorulub otururlar. Ağacın arasında heyvanlar (ayı, dovşan, dələ) görsənir. Onlar əllərində bal, kök və fındıq gətirmişlər. Astaca ağacın altına qoyub uzaqlaşırlar. Ailə heyvanların gətirdiklərini süfrə arxasında yeyirlər. |

**30-cu həftə | TƏHLÜKƏSİZ DAVRANIŞ**

**Məşğələ 1. ƏTRAF ALƏMLƏ TANIŞLIQ**
**Mövzu: "GÜNDƏLİK HƏYATIMIZDAKI TƏHLÜKƏLƏR"**

**Standart:** 1.3.1.; 1.3.2.
**İnteqrasiya:** 4.2.3.; 2.2.1.; 2.2.6.

| | |
|---|---|
| **Məqsəd:** | • Təhlükəsiz davranış qaydaları haqqında danışır.<br>• Ekstremal vəziyyətlərdə 101,102, 103 nömrələrinə zəng etmək lazım olduğunu söyləyir.<br>• İfadələrin istifadə yerini düzgün müəyyən edir. |
| **İş üsullar:** | Əqli hücum, müzakirə, suallar. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Müxtəlif təhlükəli situasiyalar təsvir olunmuş tablo. |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M:** – Uşaqlar, kim deyər **təhlükə** nə deməkdir? *(Uşaqların cavabları)* Bəs **təhlükəsizlik** dedikdə nə başa düşürsünüz? *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Bəli, uşaqlar! **Təhlükəsizlik-**həyatımız və sağlamlığımız üçün təhlükənin olmaması, təhlükədən qorunmadır. Bizim həyatımız və sağlamlığımız üçün nə və harada təhlükə ola bilər? *(Uşaqların cavabları)* düzdür. Bəs biz sizinlə ən çox harada oluruq? *(məktəbdə, uşaq bağçasında, evdə)* Daha dəqiq desək, biz harada yaşayırıqsa, orada təhlükə ola bilər. Deməli, bu o deməkdir ki, xüsusən də böyüklər olmadıqda orada hər gün bizi təhlükələr gözləyə bilər. Odur ki, biz də təhlükələrdən qorunmaq üçün təhlükəsiz davranış qaydalarını bilməliyik. İndi birinci tapşırıqdakı şəkillərə baxın. Nə təsvir olunub? *(Uşaqların cavabları)* Şəkillərə əsasən, təhlükəli vəziyyət olan zaman nə etmək lazım olduğu haqqında danışın. Şəkildə evdə yanğın təsvir olunub. Əgər yanğın olarsa, nə etmək lazımdır? *(Uşaqların cavabları)* Əgər yanğın olarsa, tez evdən çıxmaq lazımdır və bu haqda böyüklərə xəbər vermək lazımdır. Yanğınsöndürənlərə ya böyüklər zəng etməlidir, ya da siz zəng edin. Yanğınsöndürənlərə 101 nömrəsinə zəng etmək lazımdır. Zəng edərkən, mütləq öz ev ünvanınızı söyləməlisiniz. Növbəti şəkildə avtomobil səkidə gedən adamı vurub. Qəza törətmiş maşın haqqında hara zəng etmək lazımdır? *(Uşaqların cavabları)* Düzdür, polisə zəng etmək lazımdır. Polisə hansı nömrə ilə zəng etmək olar? (102) *(Uşaqların cavabları)* Tamamilə doğrudur. Uşaqlar, maşın adamı yaralayıb. Bu zaman nə etmək lazımdır? *(Uşaqların cavabları)* Düzdür, təcili tibbi yardım çağırmaq lazımdır. Təcili yardımln nömrəsini deyə bilərsiniz? *(Uşaqların cavabları)* (103). Gəlin, bir daha ən vacib xilasedici xidmətləri və onların telefon nömrələrini təkrar edək və unutmayaq." *(Lövhədə xilasetməxidmətlərinin illüstrasiyaları və telefon nömrələri asılır)*

**II.** Müəllim uşaqlara suallarla müraciət edir:
– Hansı təhlükəli vəziyyətlərlə rastlaşmısınız?
– Təhlükəli vəziyyətə düşməmək üşün nə etmək lazımdır?
– Təhlükəli vəziyyət yarandıqda hara müraciət etmək lazımdır? *(Uşaqların cavabları)*

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:** "Uşaqlar, bu tapşırıqda müxtəlif vəziyyətlər təsvir olunub. Şəkillərə diqqətlə baxın. Təhlükəli vəziyyətlərə düşməmək üçün nə etməlisinizUşaqlar, insan üçün daha nələr təhlükəli ola bilər? ? *(Uşaqların cavabları)* Bəli, elektrik avadanlıqları, qazla, odla oynamaq, yad adamlarları evə buraxmaq, onların təklif etdiyi konfeti almaq, sahibsiz əşyaları açmaq, küçə heyvanları ilə təmas təhlükəlidir. Nə üçün? *(Uşaqların fikirləri dinlənilir).*"

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| Məşğələ 2. BƏDİİ TƏFƏKKÜRÜN İNKİŞAFI<br>Mövzu: KİM ZƏNG EDİB? | Standart: 2.2.2.; 2.2.1.<br>İnteqrasiya: 1.3.1.; 1.3.2. |
|---|---|
| **Məqsəd:** | • Bədii nümunə əsasında danışır.<br>• Dinlədiyi fikirləri anladığını nümayiş etdirir.<br>• Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir. |
| **İş üsulları:** | Müzakirə, suallar. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Hekayənin mətni, şəkillər, rəngli karandaşlar. |

**Məşğələnin gedişi**

**Motivasiya**

**M:** "Uşaqlar, şəkillərə diqqətlə baxın. Şəkildə nə təsvir olunub? Onları adlandırın. Sizcə, burada söhbət nədən gedə bilər?" *(Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Mən indi sizə şəkildə təsvir olunanlarla bağlı "Kim zəng edib?" adlı hekayə söyləyəcəyəm. Şəkillərə baxa-baxa hekayəni dinləyin. Hər şəkil mətnin bir hissəsini təsvir edir. Mən deyəndə, dinlədiyiniz hissəyə uyğun şəkli tapıb, altındakı dairəni rəngləyin".

1

"Bu gün də adi günlərdən biri idi. Yanğınsöndürmə stansiyasında hər kəs öz işi ilə məşğul idi. Yanğınsöndürən maşınlar su ilə doldurulmuşdu. Yanğınsöndürmə balonları, lazım olan bütün əşyalar hazırlanmışdı. Axı, yanğınsöndürənlər öz vəzifələrini yerinə yetirmək üçün daim hazır olmalıdırlar. Bax, budur, yanğınsöndürmə stansiyasına zəng gəldi. Operator qız dəstəyi qaldırdı:

– Alo! Sizi eşidirik!

Lakin dəstəyin o biri tərəfindən səs gəlmirdi. Sadəcə xışıltı və ya bəzi anılaşılmaz səslər gəlirdi. "

**M:** – Dinlədiyiniz hissəni əks etdirən şəkli qeyd edin.

Müəllim oxumağa davam edir.

2

"Bu vəziyyət operator qızı daha da narahat etdi:

– Alo! Cavab verin! Sizə necə kömək edək? Alo! Ünvanı söyləyin!

Amma bu sözlərin heç bir faydası yox idi. Zəng vuran adam susurdu ki, susurdu.

Yanğınsöndürmə stansiyasının komandiri əmr etdi:

– Cəld olun! Zəng edilən ünvanı müəyyənləşdirin. Biz kömək etməliyik.

Həmin andaca ünvan dəqiqləşdirildi, yanğınsöndürən maşınlar sıra ilə düzüldü. Yanğınsöndürənlər maşınlarda öz yerlərini tutdular. Maşınlar həyəcan sirenalarını qoşub ünvana tələsdilər."

**M:** "Uşaqlar, mənim indi oxuduğum hissəni müəyyənləşdirib, işarə edin."

Müəllim oxumağa davam edir.

3

"Təcili yardım stansiyası həmişəki kimi səs-küylü idi. Operatorlar telefon zənglərinə cavab verir, xəstənin ünvanını qeyd edirdilər. Budur, növbəti zəng səsi eşidildi. Operator qız dəstəyi qaldırdı:

– Alo! Təcili yardım stansiyası sizi eşidir!

Lakin dəstəyin o biri tərəfindən səs gəlmirdi. Operator daha da həyəcanlandı:

– Alo! Buyurun! Ünvanı söyləyin. Alo! Siz məni eşidirsiniz?

Bu sözlər də işə yaramadı. Zəng vuran şəxs susurdu."

**M:** "Uşaqlar, şəkillərə diqqətlə baxıb, dinlədiyiniz hissəyə uyğun hissəni tapıb, işarə edin."

Müəllim oxumağa davam edir.

4

"Vəziyyəti belə görən növbətçi həkim söylədi:

– Cəld olun! Zəng edilən ünvanı müəyyənləşdirin. Vaxt itirmək olmaz. Biz dərhal kömək etməliyik.

Tezliklə zəng vurulan ünvan dəqiqləşdirildi, təcili yardım maşınları sıra ilə düzüldü. Həkimlər, tibb bacıları maşınlarda öz yerlərini tutdular. Maşınlar sirenaları qoşub ünvana tələsdilər."

**M:** "Uşaqlar, şəkildə dinlədiyiniz hissəyə uyğun şəkli tapıb, işarə edin."

Müəllim oxumağa davam edir.

5

"Polis şöbəsindəki işçilər məşğul idilər. Hər kəs üzərinə düşən vəzifəni yerinə yetirirdi. Operatorlar zənglərə cavab verirdilər. Telefon zənglərindən biri hamını həyəcanlandırdı. Zəng vuran şəxs danışmırdı, hey susurdu. Operator dayanmadan təkrar edirdi:

– Polis şöbəsidir. Növbətçi Məmmədov sizi dinləyir. Buyurun! Ünvanınızı söyləyin. Hansı hadisə baş verib?

Lakin telefon xəttinin o biri tərəfindən cavab gəlmirdi."

**M:** "Uşaqlar, şəkillərə diqqətlə baxıb, dinlədiyiniz hissəyə uyğun hissəni tapıb, işarə edin."

Müəllim oxumağa davam edir.

6

"İşi belə görən polis rəisi əmr etdi:

– Cəld olun! Ünvanı müəyyənləşdirin. Biz təcili olaraq hadisə baş vermiş ünvüna çatmalıyıq.

Bəlkə, ciddi bir hadisə baş verib, ona görə də zəng vuran şəxs danışa bilmir?!

Həmin andaca ünvan müəyyənləşdirildi. Polis işçiləri maşınlara əyləşdilər. Polis maşınları həyəcan sirenalarını qoşaraq hadisə yerinə yola düşdülər."

**M:** "Uşaqlar, şəkillərə diqqətlə baxıb, dinlədiyiniz hissəyə uyğun hissəni tapıb, işarə edin."

Müəllim oxumağa davam edir.

7

"Yanğınsöndürən, təcili yardım və polis maşınları dalbadal ünvana gəldi.

Hamı təşvişlə, qorxu içində onlara tamaşa edirdilər. Qonşular bir-birinə baxıb soruşurdular:

– Görəsən, nə baş verib?"

**M:** "Uşaqlar, şəkillərə diqqətlə baxıb, dinlədiyiniz hissəyə uyğun hissəni tapıb, işarə edin."

—İdman dəqiqəsi—

8

Müəllim oxumağa davam edir.

"Qapısının zəngi çalındı. ANA qapını açdı. Qarşısında yanğınsöndürənləri, polisləri, həkimləri görəndə təəccübləndi:

– Nə olub?!

– Zəng vurmusunuz. Bizi köməyə çağırmısınız!

– Xeyr! Bizim evdə hər şey qaydasındadır. Mən sizə zəng vurmamışam. Burada nə isə anlaşılmazlıq var."

**M:** "Uşaqlar, şəkillərə diqqətlə baxıb, dinlədiyiniz hissəyə uyğun hissəni tapıb, işarə edin."

Müəllim oxumağa davam edir.

9

"Yanğınsöndürənlər cavab verdilər:

– Xeyir, xanım. Bizə bu ünvandan zəng edilib.

– Bizə də! – polislər və həkimlər də təkrar etdilər."

**M:** "Uşaqlar, şəkillərə diqqətlə baxıb, dinlədiyiniz hissəyə uyğun hissəni tapıb, işarə edin."

Müəllim oxumağa davam edir.

10

"Hamı içəri otağa daxil oldu. Birdən onların gözü xalçanın üstündə oturmuş balaca uşağa sataşdı. Uşaq telefon aparatını qarşısına qoyub düymələrini basırdı. Hər şey aydın idi."

**M:** "Uşaqlar, şəkillərə diqqətlə baxıb, dinlədiyiniz hissəyə uyğun hissəni tapıb, işarə edin."

Müəllim oxumağa davam edir.

11

"Polis rəisi gülümsündü:

– Yaxşı oyuncaq tapmısan, balaca. Görəsən, indi kimə zəng vurursan?"

**M:** – "Uşaqlar, şəkillərə diqqətlə baxıb, dinlədiyiniz hissəyə uyğun hissəni tapıb, işarə edin."

**II.** Müəllim suallarla uşaqlara müraciət edir: – Uşaq təsadüfən hara zəng edib? – Ana niyə təəccübləndi? – Deyə bilərsinizmi, bu nömrələrə hansı hallarda zəng etmək lazımdır? *(Uşaqların cavabları)*

**Tətbiqetmə**

**III. M:** "Şəklə diqqətlə baxın və ona aid açar sözləri (*yanğınsöndürən, polis, həkim*) yadınızda saxlayın. Suala ətraflı cavab verərkən açar sözlərdən istifadə edin."

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| **Məşğələ 3–4. SAVAD TƏLİMİNƏ HAZIQLIQ VƏ NİTQ İNKİŞAFI**<br>**Mövzu: P-,B, D-T SƏSİ VƏ HƏRFİ** | **Standart:** 2.2.4.; 2.1.2.<br>**İnteqrasiya:** 1.1.4. |
|---|---|
| **Məqsəd:** | • **P-B, D-T** səslərini və hərflərini fərqləndirir.<br>• Bu səslərin işləndiyi sözlər söyləyir.<br>• Xətt üzrə sözləri yazır və oxuyur. |
| **İş üsulları:** | Əqli hücum, suallar, müzakirə. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Şəkillər, karandaşlar, marker, lövhə və hərflər. |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** "Səhifənin yuxarısındakı sarı qutuda hansı hərflər yazılıb? Bu səslərdən istifadə edərək, sözlər söyləyin." (*Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** "Uşaqlar, bu tapşırıqda ev təsvir olunub. Evin hissələri isə nömrələnib**.** Deyin görüm, 1 nömrə evin hansı hissəsini göstərir? *(Uşaqların cavabları)* (**qapı**) Bəli, bəs 3 nömrə evin hansı hissəsini göstərir? (**dam**) Evin bütün hissələrinin adını söyləyin. Ev şəklinin yanında isə nömrələrə uyğun olaraq sütun və ya sətirdə uyğun xanalar verilib. Qapı sözündə neçə hərf var? Nörələrlə göstərilmiş şəkildə neçə xana var? (*Uşaqların cavabları)* Bəli, deməli, bu sətirin xanalarına **qapı** sözünü yazacaqsınız. Yazdıqdan sonra hər sətirdəki sarı xanalardakı hərflərə uyğun səslər söyləyin. *(Digər sözlər də bu qayda ilə yazılır.)*

**II.** Müəllim lövhədə həmin hərfləri izah edə-edə yazır. 1–2 uşaq da lövhədə tapşırığı yerinə yetirir.

**M:** "Uşaqlar, bu tapşırıqda altı əşya təsvir olunub. Şəkildə nə təsvir olunduğunu söyləyin. Sözün hansı səslə başlandığını tapıb, damada yazın. Məsələn, birinci şəkildə nə təsvir olunub? **(pərdə)** Pərdə sözü hansı səslə başlayır? (P səsi ilə) Deməli, damada hansı hərfi yazmalısız? (p hərfini) (*Uşaqların cavabları)* Digərlərini də bu qayda ilə yazın.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:** "Uşaqlar, bu tapşırıqda beş sətirdə xətlərlə beş söz yazılıb. Hər sətirdəki sözü xətt üzrə çəkin və oxuyun. Birinci söz nə oldu? **(papaq**) Papaq sözündə neçə hərf var və hansılardır? Bu sözlər kiçik hərflərlə yazılıb. Hər sətirdəki eyni sözü böyük hərflərlə də yazın. *(Uşaqların cavabları*"

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

**M:** "Uşaqlar, sarı qutudakı hərflərdən istifadə edib, sözlər söyləyin."

**Dərketmə**

**M: "**Uşaqlar, düz cavab verdiniz. Kitabdsarı qutuya baxın. Orada hansı hərflər yazılıb? *(Uşaqların cavabları)* Hər hərfə aid bir söz söyləyin."

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:**— Bu tapşırıqdakı qutularda sözün hərfləri verilib. Həmin hərfləri qarşısındakı sətirdə ardıcıllıqla yazın və sözü oxuyun. Aşağıda təsvir olunan hər bir şəkil bir sözə uyğundur. Şəkillərdən ipucu kimi istifadə edin. Məsələn, ikinci qutuda **d, ğ, a** hərfləri verilib. Bu hərflərdən hansı söz alına bilər? *(Uşaqların cavabları)* Bəli, **dağ** sözü alınır. Onu hansı şəkillə birləşdirmək lazımdır? **dağ** şəkli ilə) Ən axırıncı qutuda **o, n, x, ç, a** hərfləri verilib. Bu hərflərdən hansı söz alına bilər? **(xonça)** " Düz tapdınız, uşaqlar. Digər sözləri də bu qayda ilə tapıb, uyğun şəkil ilə birləşdirin.

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| Məşğələ 5–6. RİYAZİ VƏ MƏNTİQİ TƏFƏKKÜRÜN İNKİŞAFI<br>Mövzu: AZALAN, ÇIXILAN, FƏRQ | Standart: 2.3.1.<br>İnteqrasiya: 2.1.5.; 1.1.4. |
|---|---|
| **Məqsəd:** | ● Azalan və çıxılan əşyaları düzgün fərqləndirir.<br>● Fərq anlayışını düzgün müəyyən edir. |
| **İş üsulları:** | Əqli hücum, müzakirə, suallar. |
| **İş forması:** | Kollektiv və fərdi iş. |
| **Resurslar:** | Şəkillər, karandaşlar. |

**1-ci məşğələ**

**Motivasiya**

**M:** “Uşaqlar, şəklə diqqətlə baxın! Tülkü nə edir? *(Uşaqların cavabları dinlənilr)*

**Dərketmə**

**I. M:** “Uşaqlar, düzdür, tülkü yazı taxtasında misal həll edir. O, hansı rəqəmləri yazıb? Bəs ədədlərin arasında hansı işarə qoyulub? *(Uşaqların cavabları)* Birinci tapşırıqda 3 şəkil təsvir olunub. Həmçinin misallar ədədlərlə yazılıb. Misallara və şəkillərə baxıb, onları uyğun şəkillərlə birləşdirin. Birinci misala baxaq. Burada hansı ədədlər yazılıb? (8–2) cavab isə 6-dır. İndi isə şəkillərə baxaq. Bu misala hansı şəkil uyğundur? *(Uşaqların cavabları)* Digər misallar da bu qayda ilə yerinə yetirilir.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M: “**Bu tapşırıqda verilmiş şəkillərin üstündən xətt çəkməklə misalları həll edin. Boş xanaya uyğun ədədi yazın”. *(Bütün tapşırıqlar bu qayda ilə yerinə yetirilir.)*

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**2-ci məşğələ**

**Motivasiya**

Müəllim şeir-tapmaca söyləyir:
*İki əldə bir yerdə,*
*On dənədir barmağım.*
*Bax, beşini qatlasam,*
*Qalar neçə barmağım?” (Uşaqların cavabları)*

**Dərketmə**

**I. M:** “Uşaqlar, düz cavabı tapdınız. Biz sizinlə çıxmanı öyrənmişik. Ondan beş çıxdınız, yerdə beş qaldı. Çıxma deyəndə nə başa düşürsünüz? *(Uşaqların cavabları)* Bəli, çıxma dedikdə azalma nəzərdə tutulur. Birinci ədədə azalan deyilir. İkinci ədəd birincidən çıxıldığı üçün birinci ədəd azalır. İkinci ədəd isə azalandan çıxılır. Odur ki, ikinci ədəd çıxılan adlanır. Alınan cavab isə fərq adlanır. Bu tapşırıqda dairəciklərin üzərindən xətt çəkməklə, misalları həll edin. Alınan cavabı boş xanaya yazın.”

**II. M:** “Bu tapşırıqda 4 misal və 4 cavab verilib. Misalları həll edin, onları doğru cavabları ilə birləşdirin.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**III. M:** “Bu tapşırıqda verilmiş misalları həll edib, fərqi tapın”.

**IV. M:** “Bu tapşırıqda çıxılanın yeri boş qoyulmuşdur. Cavabın doğru olması üçün neçə dairənin üstündən xətt çəkmək lazımdır. Xətləri çəkin və altında uyğun ədədi yazın”.

**V. M:** “Misalları həll edin. Cavab yerində təsvir olunmuş şəklin hansı ədədi ifadə etdiyini yadda saxlayın. Boş xanalara uyğun ədədləri yazın.

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| Məşğələ 7–8. TƏSVİRİ FƏALİYYƏT<br>Mövzu: HİDRANTIN VƏ TƏCİLİ YARDIM MAŞINININ DÜZƏLDİLMƏSİ | Standart: 3.1.4.<br>İnteqrasiya: 1.1.4.; 2.1.2. |
|---|---|

| | |
|---|---|
| **Məqsəd:** | • Kəsib-yapışdırma bacarıqları nümayiş etdirir.<br>• Yapma bacarıqları nümayiş etdirir. |
| **İş üsulları:** | Əqli hücum, suallar, söz assossasiyası, müzakirə. |
| **İş forması:** | Kollektiv və cütlərlə iş. |
| **Resurslar:** | Şəkillər, plastilin. |

## 1-ci məşğələ

**Motivasiya**

**M: –** Uşaqlar, təhlükəsiz davranış qaydaları haqqında nə bilirsiniz? *(Uşaqların fikirləri dinlənilir).*

**Dərketmə**

**I. M: “**Uşaqlar, bəli təhlükəsiz davranış qaydalarından biri təhlükəli vəziyyətdən çıxmaq üçün tədbir görülməsidir. Deyə bilərsinizmi, yanğın olarsa, onu nə ilə söndürmək lazımdır? *(Uşaqların cavabları)* Bəli, yanğınsöndürənlə. Hər bir müəssisədə, hətta maşınlarda belə qurğu saxlanılır. Buna **hidrant** deyilir. İndi biz sizinlə plastilindən “HİDRANT” düzəldəcəyik. *(Müəllim nümunəni göstərdikdən sonra uşaqların gözü qarşısında izah edə-edə nümunəni düzəldir. Sonra uşaqlara işə başlamağı təklif edir.)*” Uşaqlar nümunədə verildiyi və müəllimin göstərdiyi ardıcıllıqla işi yerinə yetirirlər. Uşaqlar işi bitirdikdən sonra hazırladıqları nişanlar haqqında məlumat verirlər.

–İdman dəqiqəsi–

**Tətbiqetmə**

**II. M:** “Uşaqlar, biz sizinlə əvvəllər də öyrənmişik. Yanğın zamanı hansı nömrəyə zəng etmək lazımdır? *(Uşaqların cavabları)* Bəli, düz dediniz. 101 nömrəsi yanğından mühafizə idarəsinin nömrəsidir. Siz hamınız bunu yadda saxlamalısınız. İndi isə plastilindən **101** nömrəsini düzəldin.” *Uşaqlar işi bitirdikdən sonra hazırladıqları haqqında məlumat verirlər.*

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

## 2-ci məşğələ

**Motivasiya**

**M:** –Uşaqlar, təhlükəsizlik qaydaları haqqında bilirsiniz. Əgər kim isə xəstələnsə, biz nə etməliyik? Bu haqda nə deyə bilərsiniz? *(Uşaqların fikirləri dinlənilir).*

**Dərketmə**

**I. M:** “Uşaqlar, düz dediniz. Həkim çağırmaq lazımdır. Həkim xəstənin yanına nə ilə gəlir? *(Uşaqların cavabları)* Tamamilə doğrudur. Təcili yardım maşını ilə gəlir. Bəs maşının təcili yardım olduğunu nədən bilmək olur? *(Uşaqların cavabları)* (Maşının üstündə olan nişandan) İndi biz sizinlə plastilindən “**Təcili yardım maşını**” düzəldəcəyik. *(Müəllim nümunəni göstərdikdən sonra uşaqların gözü qarşısında izah edə-edə nümunəni düzəldir. Sonra uşaqlara işə başlamağı təklif edir.)*” Uşaqlar yerinə yetirirlər. Uşaqlar işi bitirdikdən sonra hazırladıqları maşınlar haqqında öz fikirlərini söyləyirlər.

—İdman dəqiqəsi—

**Tətbiqetmə**

**II. M:** “Uşaqlar, təcili yardım çağırmaq üçün hansı nömrəyə zəng etmək lazımdır? *(Uşaqların cavabları)* (103) Biz sizinlə rəqəmləri öyrənmişik**.** İndi plastilindən nömrəsini düzəldin.**”**

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

| | | |
|---|---|---|
| | | **30-cu həftə \| TƏHLÜKƏSİZ DAVRANIŞ** |
| **Məşğələ 9–10. FİZİKİ MƏDƏNİYYƏT**<br>**Mövzu:** KİÇİK EVCİK | | **Standart:** 1.1.1.<br>**İnteqrasiya:** 4.2.2.; 4.1.2. |
| **Məqsəd:** | • Sərbəst hərəkətlər göstərir.<br>• Hərəki fəallıq nümayiş etdirir. | |
| **İş üsulları:** | Müzakirə, sujetli-rollu oyunlar. | |
| **İş forması:** | Kollektiv, qruplarla və fərdi iş. | |
| **Resurslar:** | 1 ədəd ip | |

**1 və 2-ci məşğələ**

**I. İsinmə hərəkətləri** (5 dəq.)
– Biri-birinin ardınca yeriş;
– İlanvari qaçış;
– Yeriyərək qolları növbə ilə arxaya, yuxarıya, yanlara qaldırmaq və aşağı salmaq.Bir sıradan 2 cərgəyə bölünməklə yeriş;
– Qolları dirsəkdən bükərək, dairəvi formada irəli-geri fırlatmaq;
– Əlləri yuxarı qaldıraraq, nəfəs almaq və nəfəsi buraxmaq. (4–5 dəfə)

**II. Ümuminkişafetdirici hərəkətlər** (20 dəq.) (Əşyalarsız)

**1. “Diqqətli ol”** (5–6 dəfə)
**Ç.v.** -Ayaqlar çiyin bərabəri aralı, əllər aşağıda.
*1 sayında* qolları yanlardan yuxarı qaldırıb, başı üzərində əl çalmaq;
*2 sayında* ç.v.-nə qayıtmaq;
*3 sayında* qolları dirsəkdən büküb çiyninə qoymaq;
*4 sayında* ç.v.-nə qayıtmaq.

**2. “Əl çal”** (5–6 dəfə)
*Ç.v.* – Ayaqlar çiyin bərabəri aralı, əllər aşağıda.
*1 sayında* sağ qıçı dizdən qatlayıb iki əllə qıçın altından əl çalmaq;
*2 sayında* ç.v.-nə qayıtmaq.
*3 sayında* hərəkəti sol qıçla eynilə icra etmək;
*4 sayında sayında* ç.v.-nə qayıtmaq.

**3. “Aşağı əyil”** (5–6 dəfə)
*Ç.v.* – Çöməlib oturmaq, əllər beldə.
*1 sayında* hər iki əli sağ ayağın barmaqlarına çatdırmaq;
*2 sayında* ç.v.-nə qayıtmaq;
*3 sayında* hərəkəti sağ ayaq üzərində icra etmək;
*4 sayında* ç.v.-nə qayıtmaq.

**4. “Yerə otur”** (5–6 dəfə)
*Ç.v.* – Çöməlib oturmaq, əllər yanlarda.
*1 sayında* dizləri qucaqlamaq, başı dizlərə söykəmək;
*2 sayında* ç.v.-nə qayıtmaq;
*3 sayında* əlləri yuxarı qaldırmaq və əllərə baxmaq;
*4 sayında* ç.v.-nə qayıtmaq;

**5. “Dairə boyunca qaç”** (2–3 dəfə)
*Ç.v.* – Düz dayanmaq, ayaqlar bir yerdə, əllər beldə.
Dairə boyunca iki ayaqla hoppana-hoppana irəliləmək. Növbə ilə sağ və sol ayaq üstə hoppanmaqla yeriş.

**Əsas hərəkətlər.**

**1. Yeriş hərəkətləri.**

**Düz istiqamətdə qoyulmuş ipin üstü ilə yerimək.**

Müəllim qabaqcadan uzun bir ipi otağın ortasına uzadır. Tapşırığa görə, uşaqlar əllərini bellərinə qoyaraq, başlarını dik saxlayıb ipin üstü ilə sakit addımlarla yeriməlidirlər. Müəllim çalışmalıdır ki, uşaqlar yeriyərkən ipdən kənara çıxmasınlar, başlarını dik saxlasınlar.

**Hərəkətli oyun:** "**Kiçik evcik**"

Oyundan qabaq **"heyvanlar"** -siçan, qurbağa, dovşan, tülkü, canavar və ayı seçilir. Uşaqlar əl-ələ verib dairə- **"evcik"** əmələ gətirirlər. **"Heyvanlar"** dairədən kənarda dayanırlar. Uşaqlar dairə boyunca hərəkət edərək mahnı oxuyurlar.

**"Qapıda dayandı və tıqqıldatdı"** sözünü eşidən kimi uşaqlar dayanır və mahının sözlərini təkcə **"siçan"** oxuyur. **"Siçan"** mahnını oxuyandan sonra dairəyə qaçır. Onun ardınca növbə ilə qurbağa, dovşan və başqaları da gəlir. Sonra **"ayı"** gəlir və **"mən ayı balasıyam, hamısını ovlayaram"** deyən kimi **"evciyin"** sakinləri dairədən şərtləndirilmiş yerə qaçırlar. Kim vaxtında çıxa bilməsə, **"ayı"** onu tutur. Sonra yenidən **"heyvanlar"** seçilir. Oyunun qaydasına görə, **"siçan"** oxumasa onu dairəyə buraxmaq olmaz**, "ayı"** evciyin sakinlərini ancaq dairə içərisində tuta bilər.

**III. Sakitləşdirici hərəkətlər** (5 dəq.)

**"Pəncərədən baxırıq".**

*Ç.v.* **–** Düz dayanmaq, əllər yanlarda.

*1.* Nəfəs alma – qolları yanlara açmaq.

*2.* Nəfəs vermə – irəli doğru əyilmək.

| | | |
|---|---|---|
| | | **30-cu həftə \| TƏHLÜKƏSİZ DAVRANIŞ** |
| **Məşğələ 11–12. MUSİQİ**<br>**Mövzu: "ŞANLI, İGİD ORDUMUZ"** | | **Standart:** 3.1.7.; 3.1.8.<br>**İnteqrasiya:** 2.2.1.; 2.2.6. |
| **Məqsəd:** | • Musiqinin xarakterini və tempini müəyyən edir.<br>• Xorda oxumaq bacarıqları nümayiş etdirir.<br>• Musiqinin xarakterinə uyğun ritmik hərəkətləri yerinə yetirir. | |
| **İş üsulları:** | Əqli hücum, müzakirə, suallar, rəqs etmə. | |
| **İş forması:** | Kollektiv və fərdi iş. | |
| **Resurslar** | Kompüter, disk, şəkillər. | |
| **Musiqi materialı:** | **Marş. "Milli marş"** (Ü.Hacıbəyli), **"Əsgər marşı"** (C.Quliyev/Ə.Kamin), **"Şanlı, igid ordumuz" mahnısı** (R.Şəfəq/S.Nuruqızı), **"Mahnı və rəqs"** (C.Cahangirov/M.Seyidzadə), **"Yangın söndürən", "Təsili yardım"**, **"Polis maşını"** mahnıları ("Minifors" cizgi filmindən), **"Telefon"** (O.Zülfüarov\M.Seyidzadə), | |
| **Alternativ material:** | **Dinləmə**: "Əzizsən Vətən" (O.Zülfüqarov/H.Ziya), "Əsgər mahnısı" (O.Rəcəbov/Ə.Ağayev), "Azadlıq marşı" (Heyratı), "Təmiz səma altında" (O.Rəcəbov/H.Abbas)<br>**Mahnı:** "Hər yerdən Vətən yaxşı(R.Şəfəq/Şəhriyar), "Azərbaycan əsgəri" (O.Zülüfüqarov/P.Əliyev), "Vətənim" (S.Ələsgərov/H.Ziya) | |

**1-ci məşğələ**

**1. Marş:** "Milli marş " Ü.Hacıbəyli

**2. Dinləmə:** Müəllim Vətənimiz və onu qoruyanlar, "əsgərlərimiz" mövzusu musiqidə necə təsvir olunur haqqında qısa söhbət aparır, müxtəlif bəstəkarların bu mövzuda yazdıqları əsərləri yada salır.Bəstəkar C. Quliyev haqqında və onun "Əsgər marşı" mahnısı barədə qısa məlumat verdikdən sonra mahnını səsləndirir. Mahnını dinlədikdən sonra müəllim uşaqlara suallarla müraciət edir:

– Mahnının xarakteri və tempi necə idi?

– Nə üçün əsgərlərimizi tərənnüm edən musiqilər marş xarakterində olur?*(Uşaqların cavabları)*

**3. Mahnı:** "Şanlı, igid ordumuz" mahnısı (musiqisi R.Şəfəqin, sözləri S.Nuruqızınındır) şifahi yolla öyrədilir. Bəstəkar R. Şəfəq və onun uşaqlar üçün bəstələdiyi mahnılar haqqında məlumat verilir. Sonra "Şanlı igid ordumuz " mahnısı təqdim olunur. Uşaqlar mahnını dinlədikdən sonra o, hissə-hissə öyrədilir. Tələffüzü çətin olan sözlər və melodiya üzərində iş aparılır.

Sonda "Şanlı, igid ordumuz" mahnısının öyrənilmiş hissəsi xorla ifa edilir, məzmunu , xarakteri, tempi muzakirə olunur.

**4. Musiqili-ritmik hərəkətlər:** "Mahnı və rəqs" mahnısı (C.Cahangirov/M.Seyidzadə) səsləndirilir. Uşaqlar mahnının məzmununu hərəkətləri ilə təsvir edirlər.

Məşğələ ümumiləşdirilərək yekunlaşdırılır.

**Musiqi materialı.**

**"Şanlı, igid ordumuz"**

| | | |
|---|---|---|
| 1. Addımlayır bir,iki,<br>Keçir alovu,odu.<br>Cəsatərlə qoruyur<br>Vətəni Milli Ordu.<br>*Nəq.*<br>Haydı irəli,Vətən əsgəri!<br>Haydı irəli,Vətən əsgəri! Hey! | 2. Anam alan tüfəngi<br>Mən də aslb çiynimə<br>Əsgər paltarını mən<br>Geyinərəm əynimə.<br>*Nəq.* | 3. Milli Ordu əsgəri<br>Olmaq istəyirəm mən.<br>Vətənimi düşməndən<br>Alma istəyirəm mən.<br>*Nəq.* |

**2-ci məşğələ**

**Marş:** Milli marş "(Ü, Hacıbəyli)
**Mahnı**: "Şanlı igid ordumuz" (A,Rzayeva/İ.Soltan)
**Səhnələşdirmə: "Kim zəng edib?" (resurs: ağ xalat, tibbi ləvazimat, polis geyimi, polis ləvazimatı, yangınspndürən papağı, şlanq,vedrə, mobil telefon, zəng, sirena)**

| № | Musiqi materialı | Fəaliyyət |
|---|---|---|
| 1–2 | 1. Zəng,<br>2. "Yangönsöndürən maşını mahnısı<br>3. Sirena | Bir uşaq telefonla oynayır. Zəng eşidilir. Yangınsöndürən telefonu qaldırır, sonra qaçır. |
| 3–4 | 1. Zəng<br>2. Sirena "Təcili yardım" mahnısı | Zəng səsi eşidilir. Həkim xalatını geyinib təcili yardım maşınına tərəf qaçır. |
| 5–6 | 1. Sirena<br>2. "Polis maşını" mahnısı | Zəng səsi eşidilir. Polis telefonu qaldırır sonra tapançasını götürüb maşınına tərəf qaçır. |
| 7–11 | 1.Sirena,<br>2. "Telefon"mahnısı | Yangınsöndürən, həkim və polis evə daxil olurlar.Ana onlara baxır və çiyinlərini qaldırır. Sonra otağa girirlər. Bir uşağın telegonla oynadığını görürlər və gülürlər. |

*BURAXILIŞ MƏLUMATLARI*

*“Məktəbə hazırlaşırıq” məktəbəhazırlıq*
*qrupları üçün dərsliyin*
*metodik vəsaiti*
*(1-ci hissə)*

**Tərtibçi heyət:**

| | |
|---|---|
| Müəlliflər: | **Laləzar Cəfərova** |
| | **Kamran Salayev** |
| | **Ülkər Nurullayeva** |
| | **Şəhla Quliyeva** |
| Layihə rəhbəri | **Zaur İsayev** |
| Bədii redaktor | **Taleh Məlikov** |
| Texniki redaktor | **Zeynal İsayev** |
| Dizayner | **Taleh Məlikov** |
| Rəssamlar | **Elmir Məmmədov** |
| Korrektor | **Aqşin Ələddinoğlu** |

**© Azərbaycan Respublikası Təhsil Nazirliyi (2019-130)**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi 11,3. Fiziki çap vərəqi 13,5. Səhifə sayı 108.
Kağız formatı 57x82 1/8. Tiraj 4829. Pulsuz. Bakı – 2019

“Çaşıoğlu” mətbəəsi
Bakı ş. M.Müşfiq küç., 2 A.

pulsuz

MƏKTƏBƏ HAZIRLAŞIRIQ

# METODİK VƏSAİT

3-cü və 4-cü kitablar üzrə

II hissə



TANIYAQ VƏ ÖYRƏNƏK

DİNLƏYƏK VƏ DANIŞAQ

OXUYAQ VƏ YAZAQ

SAYAQ VƏ DÜŞÜNƏK

YARADAQ VƏ QURAQ